AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**BƏXTİYAR HƏSƏNOV**

# QARABAĞ BÖLGƏSİ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## (ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyat)

**BAKI**
**2022**

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur

Elmi redaktor: **İsmayıl Hacıyev**
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

Məsul redaktor: **Hacı Həsənov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Nazim Məmmədov**
tarix elmləri doktoru, dosent,

**Nazim Mustafayev**
tarix üzrə fəlsəfə doktoru

Həsənov Bəxtiyar. Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyat). “İdeal-Print” MMC, Bakı, 2022, 272 s.

Monoqrafiyada XX əsrin əvvəllərində Qarabağda cərəyan edən ictimai-siyasi proseslər, bölgənin inzibati-ərazi idarəetmə sistemi araşdırılır, arxiv sənədləri əsasında Qarabağın demoqrafik vəziyyəti, aqrar münasibətləri, kənd təsərrüfatı və ədəbi-mədəni həyatı təhlil edilir.

Kitaba mətnə informasiya dəstəyi verən foto-sənədlər daxil edilmişdir.

**ISBN** – 978 – 9952 – 37 – 917 – 4

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2022

# GİRİŞ

Məlumdur ki, XX əsrin əvvəlləri Şimali Azərbaycan tarixində çox mühüm bir dövr hesab olunur. Bu dövrün öyrənilməsi milli tarixşünaslıq üçün böyük elmi və siyasi əhəmiyyətə malikdir. Məhz bu dövr Şimali Azərbaycanda ictimai-siyasi təşkilatların, siyasi partiyaların yaranması, milli özünüdərk prosesinin yeni mərhələyə qədəm qoyması, romanovlar imperiyasının süqutu, vətənimizin və xalqımızın qədim və zəngin dövlətçilik ənənələrinin bərpası ilə nəticələnmişdir. Bu dövrü, türk-müsəlman dünyasında ilk dəfə meydana çıxmış, eləcə də Azərbaycan tarixinin qızıl səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına zəmin yaratmış dövr kimi qeyd edə bilərik. Belə ki, Azərbaycan xalqının dövlətçilik ənənələrini özündə birləşdirən, orta əsrlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin siyasi və hüquqi varisi olan Azərbaycan Xalq Cümhuriyyəti, keşməkeşli və ağır siyasi proseslərdən keçən Azərbaycan xalqının siyasi və ideoloji mübarizəsinin məntiqi nəticəsi idi.

XX əsrin əvvəlləri Azərbaycan tarixində siyasi və milli-mədəni oyanış dövrü olmaqla yanaşı, ağır siyasi və sosial-iqtisadi şərait, I Dünya müharibəsinin Şimali Azərbaycanın iqtisadiyyatına vurduğu zərbə, milli ziyalıların, siyasi xadimlərin və azadlıq mübarizlərinin keçdikləri şərəfli tarix yolu kimi də xarakterizə olunur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ regionu, xalqımızın, siyasi, sosial-iqtisadi və mədəni irsinin mərkəzi kimi, qədim Azərbaycan sivilizasiyasının beşiyi hesab edilir.

XIX əsrin ilk rübündə Rusiya imperiyası tərəfindən Şimali Azərbaycan işğal olunduqdan sonra bölgənin strateji əhəmiyyətini nəzərə alan çar hökuməti bu regionu öz nəzarətində saxlamaq üçün olduqca ciddi addımlar atdı. Türkmənçay sazişini (1828) imzaladıqdan sonra Cənubi Qafqazda öz mövqelərini gücləndirmək və özünə etnik dayaq yaratmaq üçün çar Rusiyası Osmanlı və Qacarlar dövlətlərinin ərazilərindən Şimali Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsini təşkil etdi. Bu da Quzey Azərbaycanın bir çox digər bölgələri ilə yanaşı Qarabağda və ətraf bölgələrdə yerli Azərbaycan əhalisinin həyatında acı nəticələrini bu gün də hiss etdiyimiz bir sıra mürtəce proseslərin başlanğıcını qoymuş oldu.

XIX əsrdə çar Rusiyası tərəfindən həyata keçirilmiş belə mürtəce tədbirlər XX əsrin əvvəllərində daha mütəşəkkil və kütləvi şəkil aldı. Baş verən bu hadisələr Azərbaycan türk-müsəlman əhalisinin çar Rusiyası hökumətinin təhriki ilə ermənilər tərəfindən kütləvi qırğını, deportasiyası və soyqırımı ilə nəticələndi ki, bu da regionun siyasi, sosial-iqtisadi və etnomədəni həyatına ciddi zərbələr vurdu.

O dövrdə Şimali Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidenti Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanında deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş vermiş bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdikləri soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir" [54].

Ümummilli Lider Heydər Əliyevin yuxarıda adı çəkilən fərmanında həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş, bununla da Azərbaycanın tarixi Qərb torpaqları və vaxtilə Ermənistan Respublikası tərəfindən işğal edilmiş və ordumuz tərəfindən 44 günlük zəfər savaşında azad olunmuş Şimali Azərbaycanın Qarabağ və ətrafındakı digər rayonların XX əsrin əvvəllərinin tarixinin obyektiv öyrənilməsi məsələləri məqsəd olaraq qarşıya qoyulmuşdur.

Bu fərmanın nəticəsi olaraq, 2002-ci ildə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda "Qarabağ tarixi" şöbəsi yaradılmış və şöbənin əməkdaşları tərəfindən bu mövzuda çoxlu sayda elmi əsərlər yazılıb nəşr etdirilmişdir.

XX əsrin əvvəllərində çar Rusiyası hakimiyyətinin birbaşa siyasi və hərbi köməyi, Qərb dövlətlərin siyasi yardımları ilə Şimali Azərbaycanın qərb torpaqlarının 9 min kvadrat kilometrində Ararat (Ermənistan) Respublikası yaradıldı. Şimali Azərbaycan 1920-ci ildə sovet Rusiya ordusu tərəfindən işğal edildikdən sonra, Naxçıvan və Qarabağ regionlarının siyasi və strateji əhəmiyyətini nəzərə alan Moskva rəhbərliyi və erməni hakimiyyəti, bu əraziləri də ermənilərin nəzarətinə keçirməyə ciddi cəhdlə təşəbbüslər göstərməyə başladılar.

1918-ci il mayın 29-da Qərbi Azərbaycan torpaqlarında Ararat Respublikası yaradıldıqdan sonra Avropa, xüsusilə Sovet Rusiyası və erməni tarixşünaslığında bu dövlətin, guya ki, qədimliyini və ermənilərin bu bölgədə, guya ki, aborigen xalq olmasını təsdiq etmək üçün ermənilərin siyasi məqsədləri əsaslandırılmağa çalışıldı və saxta tarixi "əsərlər" yazılmağa başlanıldı. Bu əsərlərin bəziləri vasitəsilə Şimali Azərbaycanın bir hissəsi olan Qarabağın tarixi, mədəni və mənəvi irsi saxtalaşdırıldı. Ararat Respublikası yaradılanda indiki Ermənistanın tərkibinə qatılmış Göyçə, Zəngəzur, Dərələyəz əraziləri tamamilə Paris Sülh Konfransı zamanı Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquqla tanınmış ərazisi kimi təsdiq olunmuşdur. Bu ərazilər sonradan bolşevik Rusiyası tərəfindən 1920-ci il avqustun 10-da Şərur-Dərələyəz qəzasının, Dərələyəz hissəsi, 1920-ci il noyabrın 30-da Şimali Azərbaycanın qədim mahallarından biri Zəngəzur qəzasının bir hissəsi qanunsuz şəkildə sovet Rusiyası tərəfindən o dövrdə yeni yaradılmış Ermənistan SSR-ə "birləşdirildi". Əslində bolşevik Rusiyasının əli ilə onun ənənəvi sadiq təbəəsi olan ermənilərə (Ermənistan SSR-ə) ərməğan olundu. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 sentyabr 2010-cu ildə İstanbulda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında söylədiyi nitqində belə demişdir: "Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı" [428].

Tariximizin həmin dövrü Sovet İttifaqının mövcud olduğu illərdə erməni tarixçiləri tərəfindən saxtalaşdırılmış bu qədim Azərbaycan torpaqlarının guya ki, ermənilərə aid olması barədə saxta əsərlər yazılmışdır.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tariximizin obyektiv və hərtərəfli şəkildə yazılma imkanı əldə edildi.

Hazırda Azərbaycan milli tarixşünaslığında Qarabağ bölgəsinin siyasi, sosial-iqtisadi və mədəniyyət tarixi ilə bağlı ayrı-ayrı əsərlərdə çoxsaylı araşdırmalar aparılsa da, xeyli məlumatlar verilsə də, bu regionun bir çox dövrlər, xüsusilə də XX əsrin əvvəllərinin tarixinin bütün aspektlərinin hərtərəfli tədqiqinə hələ də böyük ehtiyac vardır. Xüsusilə də, ermənilərin və onların himayədarlarının torpaqlarımıza əsassız, siyasi iddialarının daha da intensiv xarakter almasını nəzərə alaraq, XX əsrin əvvəllərində Qarabağ bölgəsinin siyasi, sosial-iqtisadi və mədəni tarixini obyektiv şəkildə araşdırmaq, onu, bu regionun tarixini saxtalaşdıran ermənilərin və onların maraqlarına xidmət edən muzdlu "tarixçi"lərin saxta, uydurma, qeyri-obyektiv fikirlərindən xilas etmək olduqca vacib və aktual məsələdir.

Problemlə bağlı Azərbaycan milli tarix elminin nümayəndələri və bir sıra xarici ölkə tədqiqatçılarının Azərbaycanda XX əsrin əvvəllərində baş vermiş ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslər haqqında yazdıqları tədqiqat əsərlərindəki məlumatlar tədqiqata cəlb edilmişdir. Azərbaycanın Qarabağ bölgəsinin XX əsrin əvvəllərində tarixi, xüsusilə həmin dövrdə Yelizavetpol (Gəncə) quberniyasının tərkibindəki Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl (1904-cü ildən Qaryagin), qəzalarının tarixinə dair materiallardan tədqiqat zamanı bəhrələnmişik.

Mövzu araşdırılarkən XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatı, həmçinin Qarabağ bölgəsində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı özündə əks etdirən arxiv materialları, statistik materiallar, rəsmi dövlət sənədləri, müxtəlif dillərdə olan mənbələr, həmçinin dövrün mətbuat orqanlarında əks olunan məlumatlardan tədqiqatımızda geniş şəkildə istifadə olunmuşdur.

Apardığımız araşdırmalar nəticəsində belə bir qənaətə gəlmişik ki, bütövlükdə XX əsrin əvvəllərində Qarabağ bölgəsinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı haqqında olan tarixşünaslığı əsasən üç dövrə bölmək olar. Hər bir dövrdə müəlliflər mövzuyla bağlı məsələlərə müxtəlif, fərqli yanaşmalar ortaya qoymuş və bəzi hallarda yanlış nəticələrə gəlmişdilər.

Bunlardan birincisi, əsasən çar Rusiyası dövründə çar məmurlarının imperiyanın geosiyasi və iqtisadi marağına uyğun yazılmış əsərləri,

ikincisi, SSRİ dövründə kommunist ideologiyasının siyasi, iqtisadi və sosial maraqlarına uyğun yazılan əsərlər, üçüncüsü isə dövlət müstəqilliyi bərpa edildikdən sonrakı dövrdə Azərbaycan tarixçilərinin yazdıqları əsərlərdir. Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz dövrün tarixi ilə bağlı bir sıra xarici ölkə müəlliflərinin əsərlərində öz dövlətinin siyasi maraqlarına uyğun olaraq bir çox hallarda yanlış, qeyri-obyektiv məlumatlar verilmişdir.

Bütün bunlarla yanaşı tariximizin bu mürəkkəb dövrünə dair yazılmış qiymətli əsərlər də heç də az deyildir.

Qeyd etmək lazımdır ki, ermənilərin Dağlıq Qarabağ ərazisinə iddialarının əsassız olması məsələsi Azərbaycan tarixşünaslığında geniş elmi əsaslara, obyektiv dəlillərə arxalanmaqla ilk dəfə mərhum akademik İ.H.Əliyevin 1989-cu ildə nəşr etdirdiyi əsərində ətraflı şəkildə qoyulmuşdur [79].

Mövzu tədqiq olunarkən akademik İ.M.Hacıyevin tədqiqat əsərlərində verilmiş qiymətli materiallardan da yararlanmışıq. Onun əsərlərində həmçinin XX əsrin əvvəllərində Şimali Azərbaycanın Naxçıvan bölgəsinin siyasi tarixi araşdırılmış, habelə Qarabağ bölgəsinin siyasi tarixinə dair maraqlı məlumatlar verilmişdir. Akademik İ.M Hacıyevin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri" [87] əsərində ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdikləri kütləvi qırğınlar və bölgədə baş vermiş ictimai-siyasi proseslər barədə geniş məlumatlar öz əksini tapmışdır.

Akademik Y.M.Mahmudovun yazdığı bir sıra əsərlərdə də Qarabağ tarixinin tədqiqi üçün qiymətli məlumatlar vardır. Onun "Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах" [345], K.K.Şükürovla birgə yazdığı "Qarabağ. Real tarix, faktlar, sənədlər" [137], C.M.Mustafayevlə birgə yazdığı "Şuşa-Pənahabad" [135] əsərlərində Azərbaycanın Qarabağ bölgəsində türk-müsəlman əhaliyə qarşı törədilmiş soyqırımı, Qarabağ bölgəsinin tarixi, habelə bu bölgənin ictimai-siyasi vəziyyəti, etnik və demoqrafik durumu, mədəni həyatı haqqında məlumatlar verilmişdir.

Akademik B.Budaqovun və professor Q.Qeybullayevin birgə nəşr etdirdikləri "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" [56] adlı monoqrafiyada Qarabağ bölgəsinin, o cümlədən Zəngə-

zur qəzasının tarixi coğrafiyası və toponimləri haqqında olduqca maraqlı məlumatlar öz əksini tapmışdır.

Qarabağ bölgəsinin Zəngəzur qəzasının tarixi coğrafiyasının, inzibati-ərazi bölgüsünün və sosial-demoqrafik vəziyyətinin öyrənilməsində "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" [69] əsərinin əhəmiyyəti olduqca böyükdür. B.Budaqovun rəhbərliyi ilə nəşr olunan bu əsərdə Zəngəzur qəzasının tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, bu bölgədə yaşamış əhalinin etnik tərkibi, həmçinin demoqrafik vəziyyəti haqqında qiymətli məlumatlar toplanmışdır.

Akademik T.Köçərlinin "Qarabağ.Yalan və həqiqətlər" [117] və "Qarabağ" (116) əsərlərində Qarabağ bölgəsinin tarixi ermənilərin bu bölgədə yerləşdirilməsi siyasəti, daşnakların Qarabağ bölgəsinə ərazi iddiaları və digər məsələlər tədqiq olunmuşdur.

Dövrümüzün tədqiqatçılarından İ.S.Bağırovanın "Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917" [261] əsərində XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsindəki ictimai-siyasi vəziyyət barədə məlumatlar öz əksini tapmışdır. Əsərdə Qarabağ bölgəsində fəaliyyət göstərən "Difai" partiyasının fəaliyyəti və partiyanın "Qarabağ Birlik Məclisi" bölməsi haqqında geniş məlumatlar verilmişdir.

Qarabağ tarixinin araşdırılmasında tarix elmləri doktoru Q.Ə.Hacıyevin əsərlərinin də əhəmiyyəti çoxdur. Q.Hacıyevin "Qarabağ tarixi" [91], "Bərdə şəhərinin tarixi (b.e.ə. III əsr – b.e. XVIII əsri)" [90], "Bərdə şəhəri. Coğrafi, siyasi, mədəni tarixi" [89], "Qarabağın maddi və mənəvi mədəniyyəti" [92] əsərlərində bu tarixi bölgəmizin siyasi, sosial-iqtisadi, mədəni həyatı haqqında maraqlı araşdırmalar aparmışdır.

Tədqiq etdiyimiz dövrdə Azərbaycanın Qarabağ bölgəsinin sosial-iqtisadi və demoqrafik vəziyyətinin öyrənilməsində professor K.K.Şükürovun "Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək)" [207] əsərinin böyük əhəmiyyəti vardır. Bu əsərdə verilmiş ilkin mənbələrin siyahısı tədqiqat üçün mühüm sənədlərdir. Mövcud tədqiqat mövzusunun araşdırılması zamanı bu sənədlərin çoxundan istifadə edilmişdir. Həmin əsərdə ilk dəfə Azərbaycan əhalisinin öyrənilməsinin inkişaf tarixi, əhalinin əsas qaynaqlarına dair arxiv və nəşrlərdən toplanaraq sistemləşdirilən sənəd və materialların siyahıları verilmişdir.

Dövrün tədqiq olunmasında N.R.Məmmədovun “Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə” [154], “Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik)” [155] əsərlərində Şuşa qəzasının tarixi sosial-iqtisadi vəziyyəti, mədəni həyatı, çarizmin bu bölgədə milli qırğın siyasəti öz əksini tapmışdır.

Qarabağ bölgəsinin tarixi coğrafiyası haqqında məlumat verən əsərlərdən biri də tarix elmləri doktoru, mərhum V.Z.Piriyevin “Azərbaycanın tarixi-siyasi coğrafiyası”dır [193]. Tarixi faktlar əsasında yazılmış bu əsərdə Azərbaycanın və onun tərkib hissəsi olan Qarabağın müxtəlif dövrlərdəki əraziləri, sərhədləri, inzibati bölgüsü şərh olunmuşdur.

Tarix elmləri doktoru A.Ə.Paşayevin “Açılmamış səhifələrin izi ilə” [190], “XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar arxiv sənəd və materialları əsasında)” [191] və “Köçürülmə” [192] əsərləri müxtəlif ilkin mənbələr, o cümlədən arxiv materialları əsasında yazılmış ən sanballı əsərlərdəndir. Bu əsərlərdə əvvəllər çar Rusiyası və bir sıra Avropa dövlətlərinin, sonralar isə bolşevik-kommunist rəhbərlərinin bilavasitə iştirakı və köməyi ilə şovinist erməni millətçilərinin xalqımıza qarşı törətdikləri soyqırım və vəhşilik faktları, xalqımızın öz qədim ata-baba yurdlarından deportasiya olunması və bu zaman məruz qaldığı işgəncə və məhrumiyyətlər təkzibedilməz, mötəbər sənədlər əsasında işıqlandırılmışdır. Həmçinin XIX-XX əsrlərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və deportasiya siyasəti tədqiq olunmuş və arxiv sənədləri ilə sübuta yetirilmişdir.

Mərhum görkəmli tədqiqatçı İ.Məmmədovun da soyqırım və deportasiya tarixinin öyrənilməsində böyük xidmətləri vardır. Onun “Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan “Böyük Ermənistan” kabusu” [148], “Tariximiz, Torpağımız, Taleyimiz” [150], “ Трилогия панарменизма: коварная стратегия чередующихся агрессий: в 3-х кн. ” [338], “Об истории исконной земле и горькой судьбе азербайджанцев, изгнанных из нынешней Республики Армения” [339] əsərlərində panarmenizmin yaranması, siyasi və strateji mahiyyəti, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi, “erməni məsələsi”nin gündəmə gəlməsi, “erməni dövləti” qurmaq

proqramı, I Dünya müharibəsi illərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri məkrli siyasət, Qarabağ bölgəsinin əhalisi, etnik tərkibi, demoqrafik vəziyyəti, bu bölgədə ermənilərin yürütdükləri etnik təmizləmə siyasəti, xüsusilə də XX əsrdə azərbaycanlıların soyqırımı məsələləri tarixi faktlar və rəsmi sənədlər əsasında geniş şərh olunmuşdur. İ.Məmmədovun S.Əsədovla birgə nəşr etdirdiyi "Ermənistan azərbaycanlıları və onların acı taleyi" [151] və "Терроризм: Причина и следствие" [340] əsərləri də Qarabağ bölgəsində ermənilərin azərbaycanlılara qarşı yeritdikləri etnik təmizləmə siyasətini təksibedilməz dəlillərlə əks etdirən fundamental elmi əsərlərdir.

Azərbaycanlılara qarşı törədilmiş soyqırımlarının tarixinin öyrənilməsində V.Arzumanlı və N.Mustafanın "Tarixin qara səhifələri: Deportasiya, Soyqırım, Qaçqınlıq" [31] əsərinin də əhəmiyyəti böyükdür. Bu əsərdə 1905-1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti tutarlı elmi dəlillər əsasında işıqlandırılmışdır.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiyalar tarixinin tədqiqatçılarından biri də mərhum tarix elmləri doktoru B.Nəcəfovdur. Onun iki hissədən ibarət olan "Düşmənin iç üzü. XIX əsrin sonları-XX əsrin əvvəllərində Türkiyədə və Cənubi Qafqazda erməni terrorizminin tarixi" [182; 183] və üçüncü cild kimi nəşr etdirdiyi "Deportasiya" [181] əsərlərinin birinci və ikinci cildlərində sərsəm "Böyük Ermənistan" ideyasının siyasi tərəfləri, erməni millətçiliyinin Cənubi Qafqazda kök salması, zaman-zaman azərbaycanlıların deportasiya olunması arxiv sənədləri əsasında tədqiq olunmuşdur. O, həmçinin əvvəllər nəşr olunmamış rəsmi sənədlər əsasında erməni terror təşkilatlarının Türkiyədə, İranda, Qafqazda, xüsusilə də Azərbaycanda törətdikləri qırğın və talanlardan geniş söhbət açmışdır.

Azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında yazılmış çoxsaylı əsərlər içərisində V.Abışovun "Azərbaycanlıların soyqırımı (1917-1920-ci illər)" [28], K.İsmayılovun "Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)" [112], Ə.Əroğlunun "Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası" [80] və başqa kitablar da böyük maraq doğurur. Hər üç monoqrafiyada Birinci dünya müharibəsi dövründə Qərb dövlətləri və Rusiyanın köməyi ilə Türkiyə və

Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq məqsədi ilə dinc əhaliyə qarşı cinayətlər törədən ermənilərin qanlı əməlləri və törətdikləri soyqırım araşdırılmışdır.

Azərbaycanlılara qarşı soyqırımlar və deportasiyalar tarixinin öyrənilməsində AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşr etdirdiyi "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə" [34], "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu. 3 cilddə" [36], "Azərbaycan tarixi arxiv sənədlərində. XIX-XX əsrlər" [41; 42; 43; 44] adlı toplulardakı məlumatların çox böyük əhəmiyyəti vardır.

Xalqımıza qarşı törədilmiş soyqırım cinayətlərinin tarixinin öyrənilməsi baxımından ümumiləşmiş əsərlərin də əhəmiyyəti böyükdür. Bu səpkili əsərlərdən olan "Deportasiya" [65] toplusunda XX əsrdə azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirilmiş deportasiya, soyqırımı faktlarını əks etdirən çoxlu sənədlər, materiallar toplanmışdır.

Tədqiqatımızda V.Şirinoğlunun "1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı: sənədlər və materiallar" [204] əsərinə də müraciət olunmuşdur. Bu kitabda ermənilərin Azərbaycan türklərinin başına gətirdikləri dəhşətli qırğınlardan bəhs edən çoxsaylı arxiv sənəd və materialları toplanıbdır.

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin Zəngəzur qəzasının siyasi tarixinin araşdırılmasında İ.Musayevin tədqiqatlarının böyük əhəmiyyəti vardır. Onun "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)" [168] adlı əsərində Naxçıvan və Zəngəzur bölgələrində 1917-1921-ci illərdəki siyasi vəziyyət, habelə yaxın xarici dövlətlərin həmin bölgələrlə bağlı yeritdikləri məkrli siyasəti reallaşdırma cəhdləri araşdırılmışdır.

Azərbaycanlıların etnik təmizləmə siyasətinə məruz qalması Saleh Bəyin "Армянство" [378] əsərində də geniş şəkildə öz əksini tapmışdır. Bu əsərdə XIX əsrdə çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi müstəmləkə siyasəti, ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi, Rusiyanın "erməni dövləti" yaratma planları əks olunmuşdur.

XIX-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi tarixi, Azərbaycanda kapitalizmin inkişafı, kənd təsərrüfatının müxtəlif sahələri mərhum akademik Ə.S.Sumbatzadənin əsərlərində geniş şəkildə işıqlandırılmışdır [395; 396].

XIX-XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı, xüsusilə də əkinçilik və maldarlığın inkişafı ilə bağlı mərhum akademik T.Bünyadovun əsəri maraq doğurur [57]. Həmçinin kənd təsərrüfatı, aqrar münasibətlərin inkişafı, kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması və inkişafı məsələləri AMEA-nın müxbir üzvü mərhum M.Ə.İsmayılovun tədqiqatlarında dərindən araşdırılmışdır [113; 306; 307; 308].

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin sosial-iqtisadi tarixinin öyrənilməsində H.N.Həsənov "Из истории североазербайджанской деревни в конце XIX-начале XX вв." [278] əsərinin də müəyyən əhəmiyyəti vardır. Bu əsərdə Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, kənd təsərrüfatı sahələri, aqrar islahatlar və kəndlilərin sosial-iqtisadi vəziyyəti haqqında geniş məlumat verilmişdir.

Azərbaycanda ipək sənayesi, bu sahənin inkişafı, ipəkçiliyin xarici ticarətdə rolu, ipək ticarəti dövriyyəsi mərhum professor T.Vəliyevin əsərlərində geniş surətdə işıqlandırılmışdır [218; 219; 220].

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı əcnəbi tarixçilərin əsərlərində də bu və ya digər formada öz əksini tapmışdır.

Rusiyalı müəllif N.N.Şavrovun "Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам" [407] əsərində XIX-XX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş vermiş siyasi hadisələr, ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi və Azərbaycanın tarixi torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ və digər ərazilərdə məskunlaşdırılması məsələləri dolğun şəkildə əks olunmuşdur.

Şərqşünas H.Y.Marrın "Племенной состав населения Кавказа" [343] əsərində XX əsrin əvvəllərində Qafqaz əhalisinin sayı, demoqrafik vəziyyəti və etnik tərkibi haqqında məlumatlar verilmişdir.

Bizi maraqlandıran dövrün tədqiqatçılarından B.D.Moçalovun [349] əsərinin də tədqiqat üçün seçdiyimiz problemin araşdırılmasında böyük əhəmiyyəti vardır. Onun tədqiqatında çar Rusiyasının Cənubi Qafqazda keçirilən islahatlardan sonrakı dövrdə qəzaların sosial-iqtisadi tarixinə dair maraqlı məlumatlar öz əksini tapmışdır.

Türkiyə tarixçisi K.Gürunun “Армянское досье” [289] əsərində də erməni millətçilərinin siyasi fəaliyyəti, onların türklərə qarşı həyata keçirdikləri terror aktları və digər təxribatçılıq planları haqqında geniş məlumatlar işıqlandırılmışdır.

Azərbaycan mənşəli Türkiyə tarixçisi A.Ə.Attarın “Karabağ Sorunu Kapsamında Ermeniler ve Ermeni Siyaseti” [225] monoqrafiyası Qarabağın tarixi-siyasi coğrafiyası, bu bölgədə Rusiyanın erməni siyasəti, ermənilərin Cənubi Qafqaza köçü, XX əsrin əvvəllərində Azərbaycan türklərinin soyqırımı haqqında geniş məlumatlar əldə etməyə imkan verir.

İ.Özçelikin “Karabağ Tarihi ve Karabağda Ermeni Olayları” [246] əsərində Qarabağ bölgəsinin Rusiya tərəfindən işğalı, 1905-1907, 1918-1920-ci illərdə azərbaycanlılara qarşı törədilmiş qırğınlar, bu bölgədə Rusiyanın ermənipərəst siyasəti müqayisəli şəkildə təhlil olunmuşdur.

M.S.Koçaşın “Tarih Boyunca Ermeniler ve Türk Ermeni İlişkileri” [240] əsəri dövrün tədqiqi üçün olduqca əhəmiyyətlidir. Bu əsərdə türk-erməni münasibətlərinin kökləri, qondarma “erməni soyqırımı”nın gündəmə gəlişi, ermənilərin türklərə qarşı həyata keçirdikləri planlı terror aktları geniş şəkildə öz əksini tapmışdır.

Türkiyədə çap olunmuş “Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920)” [226] əsərində 1918-1920-ci illərdə baş vermiş siyasi hadisələr, erməni vəhşilikləri, ermənilərin siyasi fəaliyyəti və digər riyakar planları faktlar əsasına araşdırılmışdır.

Əcnəbi tarixçilərdən biri olan J.de.Malevil “Армянская трагедия 1915 года” [336] əsərində qondarma erməni soyqırımı məsələsini araşdırmış, bu qondarma hadisənin ortaya atılmasının siyasi tərəflərini belə bir soyqırımın heç vaxt olmadığını təhlil və sübut etmişdir.

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin tarixini özündə əks etdirən, o dövrə aid arxiv materialları və rəsmi sənədlər, həmçinin müxtəlif diplomatik sənədlər topluları da tədqiqata cəlb olunmuşdur.

Mövzu tədqiq olunarkən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi İdarəsinin sənəd

və materiallarından istifadə olunmuşdur [1; 2; 3; 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 13; 14; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; 26].

XX əsrin əvvəllərində baş vermiş hadisələrin bilavasitə şahidi olmuş müəlliflərin və çar Rusiyası tərəfindən Qafqaza göndərilmiş məmurların verdikləri məlumatlar və yazdıqları əsərləri də o dövrün tarixinin araşdırılması üçün böyük əhəmiyyətli qaynaqlar və ədəbiyyat hesab etmək olar. Bu əsərlər çox vaxt sırf elmi-tədqiqat xarakteri daşımasa da, onlar ümumi dövrün hadisələrinin işıqlandırılması üçün tədqiqata faydalı hesab olunan əsərlərdir.

Azərbaycan xalqının ermənilər tərəfindən soyqırıma məruz qalmasının canlı şahidi olmuş dövrün ziyalılarından M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" [162], M.S.Ordubadinin "Qanlı illər" [187] və M.R.Fənanın "1905-ci il hadisəsi" [163] əsərləri erməni cinayətləri haqqında çox qiymətli əsərlərdir. Azərbaycanın digər bölgələri ilə yanaşı Qarabağ bölgəsində də erməni vəhşiliklərini öz gözləri ilə görmüş bu şəxslər azərbaycanlıların ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilməsini, onlara verilən işgəncələri, qadınların və uşaqların amansız işgəncələrə məruz qalmasını öz əsərlərində böyük ürək ağrısı və məharətlə qələmə almışlar. Bu əsərlər azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri XX əsrin əvvəllərində Azərbaycan türklərinin başına gətirilmiş faciələrin miqyasını açıb göstərmək, həm də Qarabağ probleminin tarixi köklərinin mahiyyətini öyrənmək baxımından qiymətli əsər hesab olunur.

M.S.Ordubadi özünün "Qanlı illər" ("Qanlı sənələr") əsərini o dövrün müxbirlərinin toplayaraq ona göndərdikləri 254 məktub əsasında yazmışdır. Müəllif 1906-cı ildə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında ermənilərin törətdikləri kütləvi qırğınlar barəsində geniş məlumat vermişdir. Görkəmli yazıçı və ictimai xadim ermənilərin Yelizavetpol quberniyasının digər qəzalarında, habelə Bakı, Şuşa və Tiflis şəhərlərində törətdikləri qırğınlar haqqında ətraflı bilgi verməklə yanaşı, "erməni-müsəlman davasının" baş verməsinin səbəblərini də göstərməyə çalışmışdır.

Qarabağ ədəbi mühitinin daha bir tanınmış nümayəndəsi M.R.Fəna 1905-ci ildə baş vermiş qanlı hadisələrdən bəhs edən üç cilddən ibarət əsər qələmə almışdır. Tarixi faktlara və müəllifin şahidi olduğu hadisələr barəsində müşahidələrə söykənən bu əsərdə 1905-ci ildə xalqımıza qarşı törədilmiş qırğınların səbəblərindən ətraflı şəkildə bəhs edilmiş, əsərdə 1905-ci ildə qanlı çaxnaşmalara məkan olan Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir, Bakı, Tiflis, Gəncə, Ağdam, Qazax və s. kimi ərazilərdə baş vermiş hadisələri işıqlandırmışdır.

Tədqiqat zamanı ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynamış M.H.Vəliyevin (Baharlının) "Azərbaycan" (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) [217] əsərinə də müraciət edilmişdir. Bu əsərdə Azərbaycanın tarixi, tarixi etnoqrafiyası, təbiəti, iqtisadiyyatı və digər sahələri haqqında qiymətli məlumat verilir.

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin sosial-iqtisadi və siyasi tarixini araşdırarkən qiymətli mənbələrdən biri də müxtəlif illərdə tərtib və çap edilmiş "Qafqaz təqvimləri"ndə ("Кавказский календарь") əks olunan məlumatlardır. Bu təqvimlərdə XIX-XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının əhalisi, inzibati ərazi bölgüsü, dini və etnik tərkibi və digər ardıcıl rəsmi məlumatlar təsvir olunmuşdur [313; 314; 315; 316; 317; 318; 319; 320; 321; 322].

Qafqaz Statistika Komitəsinin çoxsaylı sənədlərində, Yelizavetpol quberniyasının əhalisi, ərazisi, əhalinin qəzalar və şəhərlər üzrə yerləşmə və say dinamikası, kənd təsərrüfatı sahələrinin statistikası və digər sosial-iqtisadi sahələri əhatə edən məlumatlar əks olunmuşdur [387; 388].

Mövzunun sosial-iqtisadi tərəfləri tədqiq olunarkən Cənubi Qafqazda xəzinə kəndlilərinin sosial-iqtisadi həyatını əks etdirən, çar Rusiyasının rəsmi statistik sənədləri əsasında hazırlanan müxtəlif "Materiallar toplu"larından da istifadə olunmuşdur [389, 390].

Tədqiqatda Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin "Xəbərləri"ndə diyarın əhalisi, siyasi coğrafiyası, dini həyatı və s. ilə bağlı əks olunan məlumatlardan da yeri gəldikcə istifadə olunmuşdur [302; 303; 304].

Yelizavetpol quberniyası statistik komitəsinin nəşr etdirdiyi "Yelizavetpol quberniyasının yaddaş kitabçasında (1910-1914-cü illər)" Yeli-

zavetpol quberniyasının, o cümlədən Qarabağ bölgəsinə daxil olan qəzaların inzibati idarəetmə sistemi, kənd əhalisinin sosial-iqtisadi vəziyyəti, quberniya üzrə əhalinin siyahısı və milli yerləşmə xüsusiyyətləri və qəza kəndlərinin idarəçilik sistemi haqqında tədqiqatımız üçün olduqca əhəmiyyətli məlumatlar vardır [363; 364].

1881-ci ildə Tiflisdə nəşrə başlayan və 1929-cu ildə Mahaçqalada nəşri dayandırılan 46 cildlik "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" (SMOMPK) həm də Yelizavetpol quberniyasının tarixi-coğrafiyası, ədəbiyyatı, etnoqrafiyası, mədəniyyəti, adət və ənənəsi haqqında geniş məlumat verilmişdir. Bu toplunun müəlliflərindən olan Qori müəllimlər seminariyasını bitirmiş kənd müəllimləri bu bölgələr haqqında qiymətli məlumatlar vermişdilər [379; 380; 381; 382; 383].

Tədqiqatımızda "Rusiya imperiyası qanunlarının tam külliyatı"ndan da istifadə olunmuşdur. Bu qanunlarda Qarabağ bölgəsinin qəzalarının elm-təhsil sistemini, maarif sahəsini, mətbuat sistemini tənzimləyən hüquqi sənədlər normativ hüquqi aktlar, əmr və sərəncamlar öz əksini tapmışdır [370].

Tədqiq olunan dövrdə bölgənin maarif sisteminin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən mənbələrdən biri də çar Rusiyasının Xalq Maarif Nazirliyinin nəşr etdirdiyi jurnaldır. Bu rəsmi dərgidə bölgənin maarif, elm, təhsil sistemi və həmçinin mədəni həyatı haqqında ayrı-ayrı müəlliflərin məqalələri dərc edilmişdir [293; 294; 295; 296; 297].

Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlarda Qafqaz xalqlarının tarixi, adət-ənənəsi və bəzi hallarda tədris sahəsində baş verən neqativ hallarla bağlı məlumatlar verilmişdir [252; 253; 254; 255].

1828-ci il Türkmənçay sazişindən sonra Qərbi Azərbaycan torpaqlarının bir hissəsində çarizm tərəfindən yaradılmış "Erməni vilayəti"nin xəzinə əmlakı və gəlirləri üzrə idarəsinin keçmiş sədri, Rusiya imperator dəftərxanasında dövlət müşaviri işləmiş İ.Şopen tərəfindən qələmə alınmış əsər [409] XIX əsrin ikinci yarısındakı real vəziyyətinin öyrənilməsi baxımından bizə Qarabağ bölgəsinin qəzalarının siyasi və sosial-iqtisadi vəziyyətinin qonşu qəzalarla müqayisəli təhlilində yaxından kömək edir. Bu əsərdə XIX əsrin əvvəllərində bölgənin coğrafiyası, inzi-

bati bölgüsü, idarəçilik sistemi, əhalisinin say və sosial tərkibi, dini inancları, burada yerləşən məscid, monastır və kilsələr, təbii sərvətləri, əhalisinin məşğuliyyəti, dövlət vergiləri və s. haqqında geniş məlumatlar əldə etməyə imkan verir.

Qafqazın mülki işlər üzrə rəisi general-adyutant knyaz Dondukov-Korsakovun tapşırığı əsasında E.Veydenbaum tərəfindən hazırlanmış Qafqaza dair soraq kitabçasında Qafqaz vilayətinin sərhədləri, ərazisi, inzibati bölgüsü, əhalisinin sosial və etnik tərkibi nəzərdən keçirilib [371].

Problemin işıqlandırılmasında mühüm rola malik olan mənbələrdən biri də Yelizavetpol quberniyasının müxtəlif illərə aid olan icmalları [356; 357; 358] və quberniyanın geniş fəaliyyətli idarəçisi-qubernatorun cari illik hesabatlarıdır. Bu icmallarda və hesabatlarda quberniya əhalisinin sosial-iqtisadi vəziyyəti, təsərrüfat sahələri, sənaye və ticarəti, istehsal müəssisələri haqqında dəqiq məlumatlar öz əksini tapmışdır.

XX əsrin əvvəllərində Qarabağ bölgəsində baş vermiş ictimai-siyasi proseslər haqqında o dövr nəşr olunan “Həyat”, “İrşad”, “Baku” və “Kaspi” qəzetlərində əks olunan informasiya xarakterli məlumatların da əhəmiyyəti olduqca böyükdür. Bu qəzetlərdə Azərbaycanın Qarabağ, İrəvan, Naxçıvan və başqa bölgələrində ictimai-siyasi vəziyyət, azərbaycanlılara qarşı törədilən erməni vəhşilikləri haqqında məlumatlar verilmişdir [103; 104; 108; 109; 270; 273; 274; 275; 276; 277].

1918-1920-ci illərdə nəşr olunmuş “Azərbaycan” qəzetində də Qarabağ bölgəsində siyasi vəziyyət ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilən soyqırımı ilə bağlı bir çox materiallar dərc edilmişdir [266; 267; 268; 269].

Həmçinin Qafqaz canişini Baş İdarəsinin arxivində toplanmış materiallarda da XIX-XX əsrin əvvələrində Qarabağ bölgəsində baş vermiş ictimai-siyasi proseslər, ermənilərin bölgədə yaşayan yerli türk- müsəlman əhaliyə qarşı törətdikləri cinayətlər haqqında məlumatlar verilmişdir [265].

Göstərilmiş mənbələr və elmi ədəbiyyat əsasında tədqiqat əsərində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq, XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin siyasi, sosial-iqtisadi və mədəni tarixi ümumiləşmiş, əlaqəli və müqayisəli şəkildə işlənmişdir. Bu əsərdə:

- Ayrı-ayrı tarixi dövrlərdə Qarabağ bölgəsinin siyasi coğrafiyası və inzibati-ərazi bölgüsü təhlil olunmuş və XX əsrin əvvəllərində bölgənin siyasi hüdudları konkret şəkildə müəyyən edilmişdi;

- Tədqiq olunan dövrdə Azərbaycanın Qarabağ bölgəsinin Cənubi Qafqazdakı siyasi, strateji mövqeyi və rolu geniş şəkildə işıqlandırılmışdır;

- XX əsrin əvvəllərində Qarabağ bölgəsində çar Rusiyasının həyata keçirdiyi demoqrafik siyasət müqayisəli şəkildə araşdırılmış və bu bölgədə mövcud demoqrafik vəziyyət müəyyən edilmişdir;

-1905-1918-ci illərdə Qarabağ bölgəsində ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdikləri kütləvi qırğınlar və soyqırımı cinayətlərinin tarixi araşdırılmış və müvafiq elmi nəticələr çıxarılmışdır;

-Araşdırılmaq üçün seçilmiş tarixi mərhələdə böyük dövlətlərin Cənubi Qafqaz siyasəti və Qarabağ problemindən yararlanmaq cəhdləri təhlil edilmişdir;

- XX əsrin əvvəllərində Qarabağ bölgəsinin sosial-iqtisadi vəziyyəti ətraflı öyrənilir, regionda kənd təsərrüfatı sahələrinin inkişafı və sənaye müəssisələrinin yaranmasının inkişaf xüsusiyyətləri araşdırılmış və nəticələri verilmişdir;

- Ötən əsrin başlanğıcında Qarabağın mədəni həyatında baş vermiş yeniliklər tədqiq edilmiş müvafiq elmi ümumiləşdirmələr aparılmış, maraqlı və əsaslandırılmış qənaətlər ortaya qoyulmuşdur;

Bildiyimiz kimi, hələ çoxdan bəri Rusiyanın himayəsini qəbul etmiş ermənilər məqsədli olaraq Şimali Azərbaycanın digər bölgələri ilə yanaşı Qarabağ bölgəsinə də yerləşmiş, bu bölgənin tarixini, mədəniyyətini saxtalaşdırmaqla məşğul olmuşlar və bu gün də məşğul olmaqda davam edirlər. Günümüzə qədər davam edən bu saxtakarlıqları özlərinin strateji dəst-hərəkət xətti kimi qəbul etmiş ermənilər və onların havadarları, tədqiqat əsərlərinə, arxiv sənədlərinə və elmi ədəbiyyata əsaslanan faktlara məhəl qoymadan yenə də öz mənfur əməllərindən əl çəkmək istəmirlər. Bu gün də ermənilər təşkilatlanmış şəkildə dünyanın bir çox ölkəsində yalan və böhtan xarakterli məlumatlar yaymaqla dünya ictimaiyyətini aldatmağa və çaşdırmağa çalışırlar.

Düşünürük ki, uzun onilliklər boyu erməni saxtakarlarının dünya ictimaiyyətinin beyninə pərçimləməyə çalışdıqları saxta iddiaları puça

çıxarmaq, erməni xislətli təcavüzkar niyyətləri ifşa etmək, əsl həqiqətləri ortaya qoymaq, erməni faşizminin iç üzünü açmaq, onun əsl mahiyyətini faş etmək baxımından, habelə Ulu öndər Heydər Əliyevin 1994-cü ildə Azərbaycan tarixçilərinin qarşısına qoyduğu böyük elmi-siyasi əhəmiyyətli vəzifənin-XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən, obyektiv şəkildə öyrənilməsi vəzifəsinin yerinə yetirilməsi baxımından bu monoqrafiya müəyyən əhəmiyyətə malik olacaq, mütəxəssislər və vətən tarixi ilə maraqlanan hər kəs bu əsərdən müəyyən dəyərli məlumat əldə edə biləcəkdir.

# I FƏSİL

# QARABAĞ BÖLGƏSİNDƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏT

## §1. Qarabağın siyasi coğrafiyası, inzibati-ərazi idarəetmə sistemi haqqında

Siyasi, sosial-iqtisadi və mədəni baxımdan tarix boyu Azərbaycanın ən əhəmiyyətli bölgələrindən biri olan Qarabağ bölgəsi haqlı olaraq dünya sivilizasiyasının ən qədim mərkəzləri ilə yanaşı dayanır. Azərbaycanın Qarabağ bölgəsində aparılmış arxeoloji qazıntılar zamanı Azıx mağarasından tapılmış qədim insanın alt çənə sümüyü bu ərazinin, habelə bütövlükdə Azərbaycanın və dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu sübuta yetirmişdir. Tarixən Azərbaycan xalqının təşəkkül tapdığı bu ərazi indikindən daha geniş bir arealı əhatə edir.

"Qarabağ"ın etimoloji adına hələ "Kitabi-Dədə Qorqud"da (IV boy) rast gəlinir [56, 179]. Erkən orta əsrlərdə isə təxminən VII əsrdən işlənilmişdir [122, 3]. Azərbaycanın Qarabağ bölgəsi əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə bu ad ölkəmizin geniş coğrafi ərazisinə aid edilmişdir. Tədqiqatçıların irəli sürdüyü bəzi elmi mülahizələrə görə, "Qarabağ" toponimi Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" söz birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Çünki Azərbaycan (həmçinin başqa türk dillərində) "qara"-nın rəngdən başqa "sıx", "qalın", "böyük", "əzəmətli", "tünd" və başqa mənaları da vardır. Bu baxımdan tədqiqatçıların bir hissəsi "Qarabağ" terminini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənalar kəsb etdiyi fikrini irəli sürürlər [137, 11; 91, 9; 225, 6].

Müəlliflərin bir çoxu ilkin mənbələrdə (XII-XIII əsrlərə qədər) Qarabağ sözünü ayrı-ayrı, fərqli adlarla verilməsini qeyd etmişlər. Bu bölgənin Gərgər, Uti, Utik, Udin, Otena, Kara, Karalar, Arsak və s. adlarına da rast gəlinir [225, 2].

Y.Mahmudov və K.Şükürov apardıqları tədqiqatlarda Qarabağ ərazisində adı çəkilən "Arsak" sözünün mənasını türk dilində Ərsak "igid", "sak kişisi" kimi olduğu qənaətinə gəlmişlər [136, 3; 153, 31].

Ə.S.Sumbatzadə və Ə.Ə.Rəhmani də öz tədqiqatlarında "Qarabağ" terminini "xalq və bağ", "böyük bağ", "səfalı bağ" və sairə mənalar kəsb etdiyini bildirirdilər. Bu ərazi Albaniyanın tarixi ərazisi olub, əsasən Arsak, Sünik, Uti, Sakasena və Paytakaran vilayətlərini əhatə etmiş və bu adla da tanınmışdı [374, 124; 395, 145-146].

Bəzi tədqiqat əsərlərində isə Qarabağ sözünün mənasının Qarabağ bölgəsində yaşayan tayfaların adı ilə bağlı olduğu fikri irəli sürülür. B.Ə.Budaqov və Q.Ə.Qeybullayev birlikdə yazdıqları əsərdə Qarabağ sözünün etimologiyasını eradan əvvəl Qafqazda yaşamış kəngərlər və peçeneqlərin Qarabağ tayfasının adı ilə bağlayırlar [56, 179]. Mərhum arxeoloq R.Göyüşov isə "Qarabağın keçmişinə səyahət" əsərində "Qarabağ" sözünün yaranmasını Qarqar türk tayfasının adı ilə bağlayır, antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsinin "Qarqarlar ölkəsi" adlandırılması barədə məlumat verir [84, 5].

Türkiyə tarixçisi Cevdet Türkay da öz əsərində [228] Osmanlı dövlətinin ərazisində, indiki Türkiyə Cümhuriyyətinin ayrı-ayrı ərazilərində əksəriyyəti Şərqi Anadoluda olmaqla Qarabağ və Qarayla başlayan bir çox türkman tayfalarının adlarını çəkir. Bunlardan indiki Türkiyə ərazisində Karabağılı, Karabağcı tayfası [228, s.458], Karabağı, Karabakı, Karabağılu [228, s.458-459], Göl Karabağı [228, s. 379] və s. türkman tayfalarının yaşadıqları barədə məlumata rast gəlinir.

Bəhs etdiyimiz Qarabağ ərazisində də əvvəli "Qara" (böyük, sıx, qalın, güclü) sözü ilə başlayan bir çox tayfalar yaşamışlar. Yuxarıda verilmiş istinadlardan da görünür ki, bir çox tədqiqatçılar öz əsərlərində bu adın tayfa adından alınması ehtimalını irəli sürürlər. Bizim ehtimalımıza görə də Qarabağda qədimdən yaşayan Qarqarlar, Qarapapaq və yaxud Qarabörk [217, 39], Qaradağlı, Qara Dəmirçi [217, 42], Qaramanlı, [217, 43], Qaraqoyunlu [217, 49], Qaraçorlu, Qarabulaq və s. başqa güclü tayfalar birləşərək Qarabağ sözünün yaranmasına səbəb olmuşdur. Verilmiş mənbələrə əsasən "Qarabağ" adı-

nın söz kimi VII əsrdən, əyalət kimi XIII əsrdən işləndiyini nəzərə alsaq, bu ərazinin Qarabağ adlandırılması yalnız ərazidə olan böyük bağların adı ilə bağlı olması ehtimalını azaldır. Çünki Qarabağ ərazisinin böyük bir hissəsi dağlıq ərazidir və bu dağlıq ərazidə o dövr böyük bağların salınması və alınan məhsulun başqa yerlərə daşınması o qədər də əlverişli, ola bilməzdi. Həm də heç bir mənbə bu ərazidə olan bağlardan əldə olunmuş meyvələrin satış üçün böyük bazarlara daşınması barədə bilgi vermir. Nəzərə alaq ki, ərəb işğallarından sonra bu bölgədə tayfaların birləşməsi sürətlənmişdi və bu da Qarabağ adının yuxarıda göstərilən tayfaların birliyindən alındığı ehtimalını gücləndirə bilir. Bölgədə yaşayan türk xalqlarının əksəriyyətinin dilində "Qara" böyük həm də güclü, "bağ" isə yalnız nəzərdə tutulan meyvə bağı yox, həm də "bərkitmək", "bağlamaq", "böyütmək", "birləşdirmək" mənalarını da verir. Məsələn, indi də biri birinə sual verəndə deyir: "Filankəslə bir qan bağı qohumluğun var?" və yaxud "Filankəslə bir qohumluq bağlılığın var?" Həm də el arasında qədim dövrdən günümüzə qədər ayrı-ayrı azuqələrin, ağacların və yaxud otların bir yerə yığılıb böyüdülərək bağlanmasına "bağ" və yaxud "bağlama" deyilib. Ona görə də bir çox tədqiqatçıların da Qarabağ adının etimologiyası ilə bağlı verdiyi məlumatları nəzərə alsaq, bu, bizə "Qarabağ" sözünün bu ərazidə yaşayan tayfaların adından alınması fikrini irəli sürməyə əsas verir.

Bütün bunlarla yanaşı "Qarabağ" adının etimologiyası ilə bağlı yuxarıda göstərilmiş dövrün tədqiqat əsərlərinə baxanda məlum olur ki, Şimali Azərbaycanın Qarabağ bölgəsinin etimoloji adı erkən orta əsrlər dövrünə təsadüf edir və Azərbaycan-türk mənşəlidir.

Tədqiqatçılar Qarabağın etimoloji adı ilə yanaşı Qarabağın tarixi coğrafiyasıyla bağlı da ayrı-ayrı fikirlər irəli sürmüşlər. Tarixin müxtəlif dövrlərində Azərbaycanın Qarabağ bölgəsinin siyasi hüdudları sabit şəkildə qalsa da, bölgədə baş verən siyasi hadisələrə uyğun olaraq müəyyən dəyişikliyə məruz qalmışdır.

Erkən orta əsrlər dövründə Qarabağ bölgəsi (Uti və Arsak (Ərsak) vilayəti) Albaniya dövlətinin tərkibində olmuşdur. Antik dövrdə isə Qarabağ ərazisi Albaniyanın Uti, Paytakaran və Arsak vilayətlərini əhatə etmişdir. Kür və Araz çayları arasında yerləşən

Qarabağ ərazisində əsasən yerli tayfalar-albanlar, utilər, qarqarlar və savdeylər, həmçinin gəlmə tayfalar məskutlar, saklar, gellər, ballar və b. məskun idilər [342, 64; 173, 22].

Ümumiyyətlə, Albaniyada qədimdən alban, qarqar, kaspi, quqar və digər başqa yerli avtoxton türkdilli tayfalar yaşayırdı [173, 23].

VII əsrdən başlayan ərəb yürüşləri Albaniyanın da xilafət tərəfindən işğalı ilə nəticələndi. VIII əsrdən etibarən Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da yeni dövr başlandı. Qarabağ Xilafətin şimaldakı əyalətlərindən birinə çevrildi [215, 58].

Ərəb xilafəti və IX-XI əsrlər feodal dövlətləri dövründə də Qarabağ Arranın tərkib hissəsi olaraq qalmış və həmin dövlətlərin siyasi, ictimai-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Daha sonra Qarabağ öncə Səlcuqlu dövlətinin, sonra isə Azərbaycan Atabəylər dövlətinin idarəsinə keçmişdir. Monqollar Azərbaycanı işğal etdikdən sonra Qarabağ bölgəsi monqol əmirləri tərəfindən idarə olunmuş, bu ərazi Xarəzmşah Cəlaləddinin, sonra isə Hülaki hökmdarlarının siyasi mərkəzlərindən biri olmuşdur [225, 10-11].

XIV əsrin sonlarında Qarabağ Teymurun, XV əsrdə isə Teymurilər və Qaraqoyunluların müharibələr meydanına çevrilmişdi. 1410-cu ildən etibarən Qarabağ da daxil olmaqla, Kürdən cənubda yerləşən Azərbaycan torpaqları Qaraqoyunluların hakimiyyəti altına salındı [403, 241]. 1467-ci ildə Qaraqoyunlular dövlətinin süqutundan sonra Qarabağ da Ağqoyunlu dövlətinin tərkibinə keçdi [179, 237]. XV əsrdə Qarabağ bölgəsi Azərbaycanın vilayətlərindən biri kimi Ağqoyunlu və Qaraqoyunlu hökmdarlarının təyin etdiyi hakimlər tərəfindən idarə olunmuşdur.

XVI əsrin başlanğıcında-1501-ci ildə yaranmış Azərbaycan Səfəvilər dövlətinin inzibati ərazi bölgüsünə görə Qarabağ bölgəsinin bir hissəsi Gəncə bəylərbəyiliyinin, bir hissəsi isə Çuxursəd bəylərbəyiliyinin idarəsi altında olmuş və Qacar tayfa əmirləri tərəfindən idarə edilmişdi [179, 239; 225, 11]. Daha sonra Səfəvilərin yaratdığı inzibati ərazilərdən biri olan Qarabağ bəylərbəyiliyinin tərkibinə XVII əsrdən XVIII əsrin əvvəlinə qədər həm də Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil də daxil idi [72, 33].

Dövrün mənbələrindən olan naməlum bir azərbaycanlı müəllif

tərəfindən h. 1086 (m.1675/76)-cı ildə qələmə alınmış "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") adlı əsərindəki məlumatlar Azərbaycan Səfəvilər dövləti dövründə Qarabağın idarəçiliyi haqqında yaranmış ayrı-ayrı fikirlərə aydınlıq gətirir. Farsca yazılmış bu mənbədə Səfəvilər dövlətinin banisi I Şah İsmayılın (1501-1524) qızılbaş ordusu tərəfindən İraqın fəthi və I Şah İsmayılın qızılbaş sərkərdəsi Xadim bəy Xüləfanı Bağdad hakimi təyin etməsi ilə əlaqədar olan 1508-ci ilin hadisələrindən bəhs etdikdən sonra əlavə edirdi ki, Xadim bəy Səfəvilər dövlətinin qurulması uğrunda gedən mübarizənin fəallarından olmuşdur. I Şah İsmayıl bu mübarizədə fədakarlıq göstərmiş qızılbaş əmirlərini yüksək qiymətləndirmiş və onların övladlarını müxtəlif böyük vəzifələrə təyin etmişdi. Bu anonim müəllif qeyd edir ki, Şah İsmayıl "Qarabağın və o sərhədin bəylərbəyiliyini Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi" [166, 165-166].

Türk tarixçisi Faruk Sümer Qarabağ bəylərbəyiliyinin heç də 1554-cü ildə I Təhmasib tərəfindən deyil, I Şah İsmayılın hakimiyyətinin ilk dönəmlərindən yaradılması fikrini irəli sürmüşdü. F.Sümerə görə oranın ilk qızılbaş bəylərbəyisi heç də Şahverdi sultan deyil, "Tozqoparan" ləqəbli məşhur sərkərdə Qara Piri bəy Qacarın oğlu Rüstəm bəy Qacar olmuşdur. F.Sümer onu da müəyyən etmişdir ki, Qara Piri bəy Ziyadoğlular nəslinə deyil, Qacarların başqa bir qoluna mənsub olmuşdu [248, 54].

Ziyadoğlular nəslindən bəhs edən İ.K.Pavlova yazır ki, bu nəslin məlum olan ilk nümayəndəsi I Şah Təhmasib (1524-1576) dövrünün əvvəllərində, XVI əsrin 20-ci illərində Səfəvilərin xidmətinə girmiş Xəzər bəy olmuşdu. Onun oğlu Ümmət xan da Təhmasibə sədaqətlə xidmət etmişdir. Onun ölümündən sonra oğlu Şahverdi sultan Gəncə (Qarabağ) bəylərbəyi təyin olunmuşdu [362, 59].

O dövrdə Səfəvilərin dövlət məmuru olmuş Mirzə Səmia dövlət quruluşu məsələlərinə həsr etdiyi "Təzkirətül-mülük" adlı əsərdə (1725-ci il) Qarabağ bəylərbəyiliyinin coğrafi vəziyyəti, inzibati bölgüsü və iqtisadi vəziyyəti haqqında maraqlı məlumat vermişdir. Müəllif Azərbaycan ölkəsinin dörd bəylərbəyilikdən Təbriz, Çuxursəd, Qarabağ və Şirvan bəylərbəyiliyindən ibarət olduğunu göstərir

[167, 284-294].

“Təzkirətül-mülük”də mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyiliyində 9 nahiyənin adı sadalanır: Zəyəm, Bərdə, Ağstafa, Cavanşir, Bərgüşad, Qaraağac (Kaxeti vilayəti ərazisində yerləşirdi), Loru və Pəmbək, Arazbar, Bəyazidli, Simavi və Tərkür. Səfəvi dövrünün rəsmi dövlət quruluşu və inzibati bölgüsü haqqında ən dəyərli və mötəbər mənbələrdən biri olan “Təzkirətül-mülük”də Qarabağ ərazisində hər hansı bir xristian məlikliyin mövcud olduğu qeyd edilməmişdir [166, 167].

Bəzi ədəbiyyatlarda Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinin “Kür və Araz çayları arasında yerləşib, Ağstafa və Ordubada qədər uzandığı” fikri irəli sürülmüşdür [395, 241].

Səfəvilər Qarabağ torpaqlarını bütöv halda Qarabağ və ya Gəncə bəylərbəyiliyində birləşdirdilər. Səfəvi-Osmanlı müharibələri dövründə (1514-1555, 1578-1590 və s.) Qarabağ əldən-ələ keçmişdi. 1590-cı il müqaviləsindən sonra Osmanlı dövlətinin tərkibinə qatılan Qarabağ torpaqlarında osmanlı hakimiyyət orqanları tərəfindən tərtib edilmiş siyahıyaalmalarda müfəssəl (1593) dəftərdəki məlumata görə, Gəncə-Qarabağ əyaləti 5 sancağa, 36 nahiyəyə bölünürdü [164, 15].

XVIII əsrin 30-40-cı illərində Şimali Azərbaycanın Qarabağ bölgəsi də Nadir şah Əfşarın yaratdığı imperiyanın tərkibində önəmli bölgələrdən birinə çevrilmişdir. Əfşarlar imperiyasının süqutundan sonra Qarabağ bölgəsində müstəqil feodal dövləti olan Qarabağ xanlığı yaranmışdır. Qarabağ xanlığı inzibati cəhətdən 21 mahala, o cümlədən 5 xristian məlikliyinə bölünürdü. Mahallar naiblər, məlikliklər isə mahal məlikləri tərəfindən idarə olunurdu. Qarabağ xanlığı dövründə Qarabağda 1 şəhər, 638 kənd olmuşdur. Xanlığın sayı 90 minə çatan əhalisi 18500 ailədə birləşmişdi [173, 96; 91, 93].

XIX əsrin əvvəllərində məlik Tanrı tərəfindən idarə olunan Sisyan bölgəsi xanlığın cənub-şərq hissəsində yerləşirdi. Xanlığın ləğv olunduğu dövrdə bu bölgəyə daxil olan 9 kənddə 303 (87-i vergi verən, 116-ı vergi verməyən) ailə yaşayırdı. Qaynağın verdiyi məlumatlardan məlum olur ki, əvvəllər bu bölgədə 2000 ailə yaşamışdır. Xanlıq Rusiya tərəfindən işğal edildikdən sonra və birinci Rusiya-

Qacarlar dövlətlərinin savaşı dövründə (1804-1813) bölgə sakinlərinin xeyli hissəsi doğma yurdunu tərk edib Azərbaycanın müxtəlif yerlərinə və digər ölkələrə köçmüşdü [241, 153].

Qarabağın siyasi coğrafiyasına gəldikdə isə, Azərbaycan tarixçisi Mirzə Camal Cavanşir Qarabaği "Qarabağ tarixi" adlı əsərində Qarabağın siyasi sərhədləri haqqında olduqca qiymətli məlumat vermişdir. O, yazırdı: "Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhəddi belədir: Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (indiki Gəncə) sərhədi Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən keçib Araz çayına çatır. Qərb tərəfdən Küşbək (Köçbəy- H.B.), Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" [123, 206; 122, 4].

Özünün qeyd etdiyi kimi, qədim tarixi qaynaqlara əsaslanaraq, Qarabağ bölgəsinin siyasi hüdudlarını təsvir edən Mirzə Camal Cavanşirin bu bölgənin sərhədləri haqqında verdiyi məlumatlar, XVIII əsrdə Qarabağın sərhədlərini tam aydın şəkildə əks etdirir. Bu məlumatlar əsasında çar Rusiyasının Şimali Azərbaycanı işğalından sonrakı dövrdə Cənubi Qafqazda həyata keçirdiyi inzibati-ərazi bölgüsündə Qarabağ bölgəsinə daxil olan inzibati-ərazi vahidlərini müəyyən etmək mümkündür.

Qafqaz təqviminin 1855-ci il buraxılışında Dərələyəz mahalının sərhədləri qeyd edilərkən burada "Qarabağın sərhədlərinə yaxın olan Arpa çayına uzaq olmayan Quşbilək (Köçbəy) dağları, hal-hazırda isti bulaqları olan "İstusu"yun adı çəkilir [313, 369].

Bu fakt da Azərbaycanın Qarabağ bölgəsinin sərhədlərini müəyyən etməkdə bizə kömək edir. Qafqaz təqvimində verilən məlumatlarla M.Cavanşirin verdiyi məlumatlarla üst-üstə düşür.

Cənubi Qafqazı ələ keçirmək üçün geniş hərbi əməliyyatlara başlayan Rusiya XIX yüzilin birinci yarısında buna nail oldu. Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay (1805-ci il), Rusiya ilə Qacarlar dövləti arasında bağlanan Gülüstan (1813) və Türkmənçay (1828-ci il) müqavilələrindən sonra bu bölgə də Şimali Azərbaycanın digər bölgələri kimi, Rusiya imperiyasının tərkibinə qatıldı

[91, 109].

XIX əsrdə Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra Qarabağ bölgəsinə ermənilərin kütləvi şəkildə köçürülməsinə başlandı və bölgənin inzibati-ərazi idarəçilik sistemində dəyişikliklər edildı. Ruslar özlərinə Qafqazda etnik-siyasi dayaq yaratmaq üçün 1828-1830-cu illərdə Şimali Azərbaycana Qacarlar dövlətindən və Osmanlı imperiyasından erməni əhalisini köçürdü. Bu əhalinin əksəriyyəti məhz Qarabağ bölgəsində məskunlaşdırıldı.

Rusiya işğaldan sonra Azərbaycanın Qarabağ bölgəsinin ərazisini müxtəlif inzibati idarəetmə sistemlərinə daxil etmişdir.

Məlumdur ki, yaradılmış komendant idarə üsulu çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda siyasi dayaqların möhkəmləndirilməsinə cavab verməsiyindən 1840-cı il aprelin 10-da Cənubi Qafqazda inzibati islahat haqqında qanun verildi. Qanuna görə komendant üsul-idarəsi ləğv olunmuş və burada da Ümumrusiya inzibati sistemi yaradılmışdı [347, 132].

Çar Rusiyası hələ Şimali Azərbaycanı işğalları dövründə xanlıqların ərazisində tədricən komendant idarəçilik üsuluna söykənən əyalətlər sistemi yaratmışdır. Bu sistem ta 1840-cı il 10 aprel tarixli inzibati-ərazi islahatına qədər qalmışdı. 1841-ci ilin əvvəllərində Cənubi Qafqaz iki böyük inzibati-ərazi vahidinə - Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətinə bölünərkən keşmiş Qarabağ əyaləti eyniadlı qəza kimi Azərbaycanın xeyli hissəsini əhatə etmiş Xəzər vilayətinin tərkibinə daxil edilmişdi. Çox tezliklə bu qəza mərkəzinin adı ilə Şuşa qəzası adlandırılmış və 1846-cı ildən artıq Şamaxı quberniyasının tərkibinə salınmışdı. 1859-cu ildə bu quberniya Bakı quberniyası adlandırılmış, 1868-ci ildə Yelizavetpol yaradılarkən Qarabağ torpaqlarının çox böyük əksəriyyəti bu quberniyanın tərkibinə daxil edilmişdi. Şuşa qəzası Mığrı, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərəndə sahələrinə bölünürdü. 1867-ci il dekabr tarixli çar fərmanına əsasən, Zəngəzur və Cavanşir sahələri Şuşa qəzasından ayrılıb müstəqil qəzalara çevrildilər. Qəzanı qəza rəisi, onun müavini, xəzinədar, sahə iclasçıları və şəhər polisi idarə edirdi. Qəzada məhkəmə yaradılmışdı. Təsərrüfatında əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük, bağçılıq əsas yer tuturdu. Şimali Azərbaycanın qəzaları, bəhs edilən

dövrdə qəza rəisi, onun köməkçisi və katibi tərəfindən idarə olunurdu [193, 124].

1881-ci ildə Tiflisdə nəşrə başlamış, Qafqaz Tədris İdarəsi tərəfindən çap olunmuş "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun 1904-cü il buraxılışında qeyd edilirdi ki, Qarabağ bölgəsinin Zəngəzur qəzasının sərhədləri şərqdən və şimal-şərqdən Şuşa, Cəbrayıl qəzaları, şimaldan Cavanşir qəzası, Ərəş qəzası, Nuxa, Göyçay, qərbdən və cənub-qərbdən Naxçıvan və Şərur-Dərələyəz qəzaları, İrəvan quberniyası, Cənubi Azərbaycan, Yelizavetpol qəzası, cənub və cənub-şərqdən Araz çayı, hansı ki, Rusiya və İran dövləti arasındadır. Bu qəza 1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində təsis olunmuşdur, onun mərkəzi Gorus qəsəbəsi idi. Qəza 3212,5 kv.km sahəyə malik idi. Bu qəzanın varlığına 1929-cu ildə son qoyulmuşdur [380, 182; 193, 124; 45, 38].

1883-cü ildə Yelizavetpol quberniyasında 2 yeni qəza – Cəbrayıl və Cavanşir qəzaları yaradılmışdır. Şuşa, Zəngəzur, Cavad qəzaları və Cənubi Azərbaycanla həmsərhəd olan Cəbrayıl qəzası (mərkəzi Cəbrayıl məntəqəsi) 3332 kv.km sahəyə, Ərəş, Yelizavetpol, Zəngəzur, Şuşa qəzaları və İrəvan quberniyası ilə sərhədlənən Cavanşir qəzası (mərkəzi Tərtər məntəqəsi) isə 5497 kv.km sahəyə malik idi, onun varlığına 1929-cu ildə son qoyulmuşdur [45, 38; 193, 125].

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Azərbaycanın tarixi coğrafiyasının ümumi mənzərəsini təsəvvür etmək baxımından 1903-cü ildə çəkilmiş "Karta Kavkazskoqo voennoqo okruqa 1903 qoda" xəritəsi mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, həmin dovrdə Şimali Azərbaycanın ərazisi əsasən Bakı, Yelizavetpol və İrəvan quberniyalarının, habelə Tiflis quberniyası və Dağıstan vilayətinin tərkibində idi. Bakı quberniyası 6 qəzaya (Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Lənkəran), Yelizavetpol quberniyası isə 8 qəzaya (Yelizavetpol, Ərəş, Nuxa, Cavanşir, Qazax, Şuşa, Cəbrayıl (Qaryagin), Zəngəzur qəzaları) Şimal-qərb torpaqlarımızın bir hissəsində Zaqatala dairəsi yaradılmışdı. Yelizavetpol quberniyasının sahəsi 39982 kv.km olmuşdur. İrəvan quberniyası 7 qəzaya (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazid, Sürməli, Eçmiədzin, Aleksandropol) bölünmüşdü. Azərbaycanın tarixi əraziləri olan İrəvan, Nax-

çıvan, Göycə mahalı, Şərur-Dərələyəz, Yeni Bəyazid əraziləri İrəvan quberniyasının, Borçalı və Sığnaq Tiflis quberniyasının, Dərbənd isə Dağıstan vilayətinin tərkibində idi [193, 119-122].

Bu xəritədə Qarabağ bölgəsinin inzibati ərazisi Yelizavetpol quberniyasına daxil olan Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl qəzalarından ibarət olmuşdur.

1868-ci ildən başlayaraq Azərbaycanda sovet inzibati idarəetmə sistemi qurulanadək (1920) Qarabağ bölgəsi mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olan Yelizavetpol quberniyasının tərkibində olmuşdu. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə buradakı inzibati-ərazi bölgüsündə elə bir dəyişiklik edilməmişdir [123, 476-478].

Ümumiyyətlə, Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra burada məxsusi, mürtəce müstəmləkə maraqlarına uyğun inzibati-ərazi bölgüsünün aparılması çar hökumətinin həmişə diqqət mərkəzində olmuşdur [207, 159].

1904-ci il "Qafqaz təqvimi"ndə Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında inzibati-ərazi bölgüsü ilə bağlı qəza polis məntəqələrinin yerləşdiyi ərazi, bu polis məntəqələrinin sahəsi haqqında aşağıdakı məlumatlar verilmişdir: 1903-cü ilin məlumatına görə, Şuşa qəzasında Şuşa şəhəri və dörd polis məntəqəsi vardı: 1. Xankəndi; bu polis məntəqəsinin sahəsi 1166,34 kv.km olmuşdur. Bu məntəqəyə 16 kənd cəmiyyəti daxil idi; 2. Qacar; bu polis məntəqəsinin sahəsi 826,44 kv.km olmuşdur. Bu polis məntəqəsinə 16 kənd cəmiyyəti daxil idi; 3. Ağdam; bu polis məntəqəsinin sahəsi 934,93 kv.km olmuşdur. Bu polis məntəqəsinə 15 kənd cəmiyyəti daxil idi; 4. Ağcabədi; bu polis məntəqəsinin sahəsi 2106,08 kv.km olmuşdur. Bu polis məntəqəsinə 12 kənd cəmiyyəti daxil idi [316, 32-33].

Qafqaz təqviminin 1906-cı il buraxılışında isə Şuşa qəzasında olan kənd cəmiyyətlərinin adları qeyd edilmişdir: bunlar Ağdam, Ağcabədi, Hindarx, Gülanlı, Camiat, Qacar, Keşişkənd, Ləmbəran, Naxçıvan, Nikolayev, Siznik, Tağaver, Tuğ, Xankəndi, Xındırıstan, Xocavənd, Çəmənli, Çartaz, Şıxlar-Qərvənd və başqaları [317, 244].

Qarabağ bölgəsinin digər qəzası olan Zəngəzur qəzası beş polis məntəqəsinə bölünmüşdü. 1. Qarakilsə; bu polis məntəqəsində 15 kənd cəmiyyəti vardı; 2. Xənəzık; bu polis məntəqəsinə 23 kənd

cəmiyyəti daxil idi; 3. Dondarlı; bu polis məntəqəsinə 19 kənd cəmiyyəti daxil idi; 4. Şıxauz; bu polis məntəqəsinə 20 kənd cəmiyyəti daxil idi; 5. Kəvər (Kavarta), bu polis məntəqəsi haqqında məlumat verilməmişdi [316, 32-33].

Yenə də 1906-cı il Qafqaz təqviminin məlumatlarında Zəngəzur qəzasında olan kənd cəmiyyətləri aşağıdakılar idi: Əliyanlı, Əldərə, Əliquluuşağı, Əliqulukənd, Əlili, Əngələvit, Ərkivan, Astazur, Axlatian, Babalı, Bazarçay, Bartaz, Bayandur, Vağüdü, Vartanazur, Qal, Qətər, Gorus, Güdgüm, Qaqlin (?), Dərəbas, Dərzalı, Cağazur, Cahangirbəyli, Cicimli, Dondarlı, Dığ, Zəngilan, İsgəndərbəyli, Kəvərtə, Qazıkürdalı, Qaladərəsi, Qaraqışlaq, Gödəklər, Kercalanlı, Kiratağ, Lehvaz, Malıbəyli, Məmmədli, Mığrı, Mollalar, Molla, Müsəlmanlar, Noraşen, Nüvədi, Ördəkli, Oxtar, Oxçu, Pirnaut, Pirçevan, Piçanis, Rabaid (?), Saralı, Sarıyataq, Səfiyan, Sofulu, Seyidlər, Sisian, Tatev, Tirin, Udcanı, Uz, Xocahan, Xəzinəvar, Xələc, Xəndək, Xınzirək, Hot, Şalat, Şalvin, Şahnauz, Şahsuvarlı, Şəki, Şinqer, Şıxevi və Şıxlar [317, 243-244].

Qarabağın digər bölgəsindən Cavanşir qəzasında da üç polis məntəqəsi vardı: 1. Bərdə məntəqəsinin sahəsi, 847,49 kv.km idi. Bu polis məntəqəsində 14 kənd cəmiyyəti var idi; 2. Şirvanlı polis məntəqəsinin sahəsi 811,42 kv.km olmuşdur. Bu polis məntəqəsində 18 kənd cəmiyyəti var idi; 3. Qabarta-Boy-Əhmədli polis məntəqəsinin sahəsi 3637,51 kv.km olmuşdur. Bu polis məntəqəsində 17 kənd cəmiyyəti var idi [316, 32-33].

Cavanşir qəzasında olan kənd cəmiyyətləri Qafqaz təqviminin 1906-cı il məlumatlarına görə Ağəli, Əsrik, Bərdə, Həsən-Riz, Keştək, Dovşanlı, Dorbatlı, Qabarta-Boy-Əhmədli, Qatırlı, Kiçik-Qarabəy, Mamırlı, Sevdimli, Xan-Qaraqoyunlu, Çaykənd, və Şirvanlı və b. idi [317, 243].

Cəbrayıl qəzası üç polis məntəqəsinə bölünmüşdü: 1. Qarabulaq polis məntəqəsi. Sahəsi 1421,96 kv.km idi. Bu polis məntəqəsində 14 kənd cəmiyyəti var idi; 2. Hadrut polis məntəqəsi. Sahəsi 689,52 kv.km olmuşdur. Bu polis məntəqəsində də 14 kənd cəmiyyəti var idi; 3. Cəbrayıl polis məntəqəsinin sahəsi 1617,02 kv.km olmuşdur. Cəbrayıl polis məntəqəsində 13 kənd cəmiyyəti var idi [316, 32-33].

Cəbrayıl (Qaryagin) qəzasında olan kənd cəmiyyətləri Bəhmənlı, Havalı, Hadrut, Horadiz, Cəbrayıl, Qarabulaq, Qaraxanbəyli, Maralyan, Sultan, Xanlıq və b. idi [317, 244].

Bu dövrdə Qarabağ bölgəsinin Şuşa şəhərində şəhər idarəsinin başçısı milliyyətcə erməni olan S.Kələntərov olmuşdur. Şuşa şəhər idarəsində çalışmış məmurların içərisində S.İmxanov, S.Səfərov, M.İsaquliyev, M.Mixaylov, S.Avakov, M.Kasparov, A.Gülməmmədbəyov, A.Qəmbərov, M.Muxtarov, A.Qondaksazov və başqalarının adına rast gəlinir [363, 11]. 1904-1907-ci illərdə Cavad bəy Səfərəlibəyov Şuşa şəhərinin başçısı olmuşdur [50, 92]. Gorus şəhərində isə başçı bir müddət A.Qazarov olmuş, M.Hüseynov, A.Mirimov, V.Səfrazbəyov, B.Mahmudbəyov, X.M.Ohanov, O.Mıkırtıçev, A.Melkumov, A.Qazarov, S.Bağırov, Q.Malinçev, A.Ohanov, A.Mosesov kimi şəxslər bu idarənin müxtəlif işlərində məsul şəxslər kimi iştirak etmişlər [363, 11].

Hökumət tədricən quberniyalarda, qəzalarda, hətta kəndlərdə belə xristian mənşəli məmurların üstünlük təşkil etməsi üçün yeni layihələr hazırlayıb həyata keçirirdi. Çar hökuməti bu tədbirlərdən birincisi kimi, hələ XIX əsrdə həyata keçirdiyi inzibati-ərazi idarəetmə sistemində dəyişikliklər etməklə, xristian mənşəli məmurların idarəçiliyə cəlb edilməsi işini sürətləndirməyə başlamışdı.

1865-1870-ci illərdə təsdiq və tətbiq olunmuş "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında əsasnamə"lərə görə bəy və ağalar kəndlərin inzibati-məhkəmə işlərindən uzaqlaşdırıldı, kəndlərdə idarəçiliyi həyata keçirmək üçün hökumətin tam nəzarəti altında yaradılan və onun ciddi nəzarəti altında fəaliyyət göstərən vahid kənd idarələri yaradıldı [400, 8].

Çar hökuməti yerlərdə həmçinin xristian mənşəli məmurları idarəçiliyə cəlb etməklə, bu əraziləri tam öz nəzarətinə götürürdü. Həm də imperiya əhali arasında böyük nüfuza malik olan bəy və ağaları idarəçilikdən uzaqlaşdıraraq yerli ictimai idarəçiliyi tam nəzarət altına götürürdü.

Qarabağ bölgəsinin qəzalarında 1909-cu ildə yerli inzibati idarəçilikdə yeni dəyişikliklərə başlanıldı. Şimali Azərbaycanın Yelizavetpol (Gəncə) şəhərində çap olunan "Yelizavetpol quberniyasının yad-

daş kitabçası"nın 1910-cu il buraxılışında Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında inzibati ərazi bölgüsü və idarəetmə sistemi haqqında çox qiymətli məlumatlar verilmişdir.

1909-cu ildə quberniya rəhbərliyi tərəfindən qəzalarda yerləşən kəndlər yenidən qruplaşdırılmağa başladı. Bu qəzalar ərazi baxımından kənd cəmiyyətləri və polis məntəqələrinə bölündü. Bu iş 1910-cu ildə başa çatdırıldı [363, 1]. 1910-cu ildə Şuşa qəzasında dörd kənd cəmiyyəti yaradıldı. Birinci cəmiyyətə Şuşakənd, Daşaltı, Xəlfəli, Keşişkənd(?), Malıbəyli, Pircamal, Siznik, Xənəzık, Qışlaqkənd, Çanaxçı, Xankəndi, ikinci cəmiyyətə Tuğ, Tağaver, Tağ, Sus, Arpadüz, Çartaz, Qacar, Gülablı, Yenikənd, Skobelev(?), Kaqarzin(?), üçüncü cəmiyyətə Ağdam, Şelli, Qiyaslı, Göytəpə, Şıxlar-Qərvənd, Zəngişal, Qaraxanlı, Sarcalı-Quzanlı, (Ləmbəran tərəf) Qaravəlli, Xanabad, Novruzlu, dördüncü cəmiyyətə isə Hindarxı, Arazbarlı, Mərzili, Minaxorlu, Hüsülü, Xalfaradin(?), Qaradolaq, Novruzlu, Xocavənd (Ləmbəran tərəf), İlahilər(?) və Ləmbəran kəndləri daxil edildi [363, 4].

Qarabağın digər qəzası Zəngəzur qəzasında da dörd kənd cəmiyyəti yaradıldı. Birinci cəmiyyətə Əliqulukənd, Aypilin, Əngələut, Axlatian, Bazarçay, Vağüdü, Gorus, Dərəbas, Pırnaut, Sisian, Tatev, Uz, Xınzirək, Xot, Şalat, Şəki, Şinger, Şıxlar, Yaycı, ikinci cəmiyyətə Bayandur, Gərənzu, Cağauz, Cicimli, Dığ, Qaladərə, Qaraqışlaq, Malıbəyli, Mollalar, Müsəlmanlar, Biçənis, Səfiyan, Seyidlər, Xəzinəvar, Şahsuvarlı, üçüncü cəmiyyətə Əlianlı, Əliquluuşağı, Arçevan, Babalı, Qal, Qarar, Dondarlı, Gödəklər, Qazıkürdalı, Kerdcalanlı, Məmmədli, Mollin, Noraşen, Oxtarlı, Saralı, Sarıyataq, Sofulu, Ucanis, Xəndək, Xələc, Xocavan, Şıxavin, dördüncü cəmiyyətə isə Əldərə, Astazur, Bartaz, Vartazur, Gəyəli, Güdgüm, Dərzili, Cahangirbəyli, Kiratağ, Kəvər, Lehvaz, Mığrı, Nüvədi, Oxçu, Pirçevan, Raband, Tirin, Ördəkli, Zəngilan, Şıxauz və İsgəndər-bəyli kəndləri daxil edildi [363, 3-4].

Cavanşir qəzasında isə üç kənd cəmiyyəti yaradıldı. Birinci cəmiyyətə bu kəndlər Bərdə, Gərənə, Dorbatlı, Ayrıcin (?), Xoruzlu, Qaramanlı, Yevlağ, Qaradağlı, Borsunlu, Sarov, Talış, ikinci cəmiyyətə Ağəli, Alpout, Xan-Ərəb, Köçərli, Nəmirli, Xan-Qaraqoyunlu,

Səhləbad, Ləki, Şirvanlı, Marağalı, Mamırlı, Qılıçlı, üçüncüyə isə Can-Yataq, Kasapet, Həsən-Riz, Dovşanlı, Kiçik-Qarabəy, Orlovo-Denisov(?), Minqrel, Boy-Əhmədli, Sırxavənd, Çırağlı, İmarət-Qərvənd, Avaran, Ayrım, Keşdağ, Əsrik və Qoturlu daxil edildi [363, 4].

1904-cü ilə qədər Cəbrayıl adlanan Qaryagin qəzasında iki kənd cəmiyyəti yaradılmışdı. Birinci cəmiyyətə Əbdürəhmanbəyli, Ağəli, Alxanlı, Banazur, Bəhmənli, Hadrut, Horadiz, Qarakollu, Qarğabazar, Qaryagin, Kərimbəyli, Mahmudlu, Süleymanlı, Tağasır, Şahsevən, Edilli, Qaraxanbəyli, ikinci cəmiyyətə Cəbrayıl, Daşkəsən, Qucaq, Maralyan, Əhmədli, Aragül, Ağcakənd, Soltanlı, Gövşatlı, Ağəli, Xanlıq, Xocik və Mafruzlu (Mahrızlı-H.B) kəndləri daxil edildi [363, 4].

Bu dövrdə təyin olunan qəzaların sahə müvəkkillərinin, demək olar ki, hamısı xristian mənşəli şəxslər idi. Qarabağ bölgəsinin qəzalarına təyin olunan müvəkkillər Şuşada D.A.Yaraşenko, Zəngəzurda A.Qrozdov, Qaryagində (Cəbrayil) A.İ.Zavalişin, Cavanşirdə isə S.İ.Maevski kimi xristian mənşəli şəxslər olmuşdu [363, 20].

Göründüyü kimi Qarabağın dörd qəzasının 3-də qəzaların sahə müvəkkilləri ərazidə yaşayan əhalinin ən az faizini təşkil edən slavyan mənşəli məmurlar, birində isə gürcü mənşəli məmur təyin edilmişdi. Rus imperiyasının öz geosiyasi maraqlarına uyğun apardığı bu siyasətə baxmayaraq, Qarabağ bölgəsinin qəzalarının idarəçilik sistemində azərbaycanlılar da iştirak edirdilər.

Bunu 1914-cü ildə buraxılan Yelizavetpol quberniyasının yaddaş kitabçasında Qarabağ bölgəsinin qəzalarında idarəçilik sistemində çalışan insanlar haqqındakı məlumatlarda aydın görmək olur.

Bu dövrdə Şuşa qəzasının başçısı V.İ.Brılkin olmuşdur. Qəzanın idarəçilik sistemində müəyyən xırda vəzifələrdə Hilal Rzayev, Mirzəlibəy Əlibəyov, Abbasəli Məmmədov, Paşa bəy Cəlalov, polis sistemində Kərim Kələbəyov, İsa bəy Əliyev, Əyyub bəy Rəfibəyov çalışmışdılar. Şuşa şəhərinin başçısı yenə də həmin S.Kələntərov idi. Şuşa şəhər idarəsində İsmayıl bəy Bəylər bəy oğlu Novruzov, Firudin bəy Həsənəli bəy oğlu Behbudov, Mahmud bəy Mürsəqulu bəy oğlu Fərzəlibəyov və b. işləmişlər [364, 32-33].

Zəngəzur qəza rəisi isə N.Pivaroviç idi. Qəzanın idarəçiliyində

çalışmış azərbaycanlılardan – qəza başçısının baş köməkçisi Hüseyn bəy Behbud bəy oğlu Mahmudbəyov, tərcüməçi Şamxal bəy Məlik-hüseynov, habelə müxtəlif məmur vəzifələrini tutmuş Hüseyn bəy Məlikabasov, Paşa bəy Səyadbəyov, polis sistemində isə Həbib xan Şəkinski, Bəylərbəy Həsənbəyovun adı və soyadlarına rast gəlinir [364, 30-31].

Həmin dövrdə Cavanşir qəzasında qəza rəisi Z.M.Lorçenko idi. Azərbaycanlılardan Ələkbər bəy Əzizbəyov, polis sistemində Ələk-bər bəy Kələbəyov (Şirvanlı), Cümşüd bəy Vəzirov və İsfəndiyar bəy Əliyev müxtəlif məhdud postlarda işləyirdi [364, 29].

1904-cü ilə qədər Cəbrayıl adlanan Qaryagin qəzasında isə qəza-nın başçısı Q.Z.Kipiani olmuşdur. Qəza başçısının baş köməkçisi Mikayıl bəy İsrafilbəyov, katib isə Abdurəzzaq bəy Teymurazbəyov idi [364, 30].

Ümumiyyətlə, o dövrdə Yelizavetpol (Gəncə) quberniyasının qu-bernatorları çar Rusiyası imperiyası məmurları Bulatov Fokion Ebstafıeviç (1868-1876), general-mayor Nakaşidze Aleksandr Da-vidoviç (16.02.1880-20.05.1897), general-mayor Kireyev İvan Pet-roviç (22.05.1897-05.07.1900), general-leytenant Lutsau Nikolay Aleksandroviç (12.07.1900-20.08.1905), Kalaçev Aleksey Alek-seyeviç (20.08.1905-1908), Kovalyov Qeorqi Samoyloviç (1908-1916), Poyarkov Mixail Petroviç (1916-1917) olmuşdur [282, 368; 282, 466].

Yuxarıda gətirilmiş faktlardan aydın görünür ki, çar Rusiyası Qafqazda tərtib etdiyi inzibati idarəçilik sistemində əsasən, ancaq xristian dininə məxsus olan insanların işləməsində maraqlı idi. Bəzi rus yazarları bunu o dövrdə Qafqazda müsəlmanlar arasında ziyalı təbəqəsinin az olması, guya ki, “tatarların səviyyəsinin aşağı olması” ilə əlaqələndirməyə çalışsa da, həqiqətdə bu, belə deyildi [333; 263]. Çünki 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi dövrdə, aradan cəmi bir neçə il keçməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin idarəçilik sistemində kifayət qədər yüksək intelektə, siyasi düşüncəyə, idarəçilik istedadına malik ziyalılar olmuşdur. Bu ziyalıların demək olar ki, heç birinə, bəzi istisnalar olmaqla, imperiya hökuməti idarəçilikdə yer verməmişdi. Çar höku-

mətinin o dövrdə müsəlmanlara idarəçilik sistemində yer verməməsinin əsas səbəbi həm də imperiyanın Qafqazı tamamilə xristianlaşdırmağa yönəlmiş siyasəti olmuşdur. Çar hökuməti bu işdə Qafqazın yerli sakinləri olan və o dövrdə imperiyanın siyasətinə uyğun hətta adı dəyişdirilərək "tatar" adlandırılan Azərbaycan türklərinin çarizmin bu siyasətinə qarşı çıxacağını çox yaxşı bilirdi. Bu səbəbdən də hökumət müsəlmanların idarəçiliyə cəlb edilməsində maraqlı deyildi. Başlıca məqsəd bu ucqar müstəmləkənin təkcə təbii sərvətlərini imperiyanın xidmətinə cəlb etmək deyil, həmçinin buradakı müsəlman təbəəsinin qafasını və düşüncəsini də imperiyanın müstəmləkəçi maraqlarına müvafiq istiqamətə yönəltmək idi.

## §2. 1905 – 1918-ci illərdə Qarabağda ermənilərin separatçı fəaliyyəti və onların azərbaycanlılara qarşı soyqırımı

XX əsrin əvvəllərində ermənilər Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Qarabağ bölgəsində azərbaycanlılara qarşı dəfələrlə kütləvi şəkildə qırğınlar, qətliamlar törətmişdilər. Ermənilərin törətdikləri bu qırğınlar və soyqırımları onların tarixi Azərbaycan torpaqlarında "erməni dövləti" yaratmaq siyasətinin reallaşdırılması yolunda məqsədyönlü şəkildə atılmış cinayətkar addımlar idi.

Öz məqsədləri üçün ermənilərə hərbi-siyasi dəstək verən Avropa dövlətləri və çar Rusiyası erməni terror dəstələrinin yaradılmasına dəstəkçi olmuşlar və onları öz siyasi, iqtisadi maraqlarına uyğun istiqamətləndirmişdilər. Terror dəstələri erməni siyasi partiyalarının və dini kilsələrin tərkibində fəaliyyət göstərmişdir. Bu işə rəhbərliyi Türkiyənin Van şəhərində 1885-də yaradılmış "Armenakan", 1887-də Cenevrədə təşkilatlandırılmış "Hncaq", 1890-da Tiflis şəhərində formalaşdırılmış "Daşnaksütyun" təşkilatları kimi terrorçu qurumlar həyata keçirirdi.

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi dəstəyi, erməni kilsəsinin birbaşa rəhbərliyi, həmçinin Rusiya imperiyası hakim dairələrinin dəstəyi ilə ermənilər Azərbaycanın əksər bölgələrində kütləvi qırğınlar törətmiş, yüz minlərlə günahsız insanı qətlə yetirmişdilər.

XX əsrin əvvəllərində rus imperiyasının bu çirkin siyasəti haqqında Azərbaycan tarixçisi C.Zeynaloğlu yazırdı: "...Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propoqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq iki milləti biri digərinə qırdırdı. 1324-də (1905) Bakıda bu qırğın başladı. Sonra digər yerlərə də sirayət etdi. 18 oktyabrda Gəncədə, o birisi il 18 iyulda İrəvanda, Qazaxda, Qarabağda və sair yerlərdə qanlı toqquşmalar başlandı. Zavallı türklər əsgəri elmlərdən və müasir silahlardan məhrum idilər. Amma daşnaklar əlli ildən bəri tədarük etdikləri silah və pul ilə bu toqquşmalarda çox işlər gördülər... Ruslar bu qırğınlardan istifadə edib millətləri biri digəri əleyhinə təhrik etməklə zəifliyə düçar və bu əsnada daxili iğtişaşı yatırmağa müvəffəq olduqdan sonra Qafqaz qitəsindəki keçmiş nüfuzunu əldə etdi..." [221, 107].

C.Zeynaloğlunun verdiyi məlumatdan aydın görünür ki, rus hökuməti Cənubi Qafqazda baş verə biləcək narazılıqları nəzərə alaraq bu ərazidə öz nüfuzunu qorumaq üçün bir sıra tədbirlər görməyə başlamışdı. Onu da qeyd etmək lazımdır ki, həqiqətən də ötən əsrin əvvəllərində milli oyanışın və ictimai-siyasi hərəkatın başlıca mərkəzlərindən biri Yelizavetpol quberniyasının Şuşa qəzası idi. Bakıda yaradılmış, demək olar ki, bütün siyasi partiya və ictimai təşkilatların özəkləri Şuşada da fəaliyyət göstərirdi. 1904-cü ilin fevralında Şuşa real məktəbində hətta eser dərnəyi də yaradılmışdı [7, v. 9].

Azərbaycanın böyük şəhərlərindən olan Bakı və Gəncə ilə yanaşı, Şuşada da 1898-ci ildən yerli özünüidarə, bir növ bələdiyyə orqanları mövcud idi. Qarabağ bölgəsinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında bu orqanların mühüm rolu olmuşdur. Bu orqanların üzvləri arasında Azərbaycanın görkəmli ziyalıları – dramaturq Əbdürrəhim bəy Haqverdiyev, jurnalist Haşım bəy Vəzirov, həkim Əbdülkərim bəy Mehmandarov da var idi [50, 92].

XX əsrin əvvəllərində bütün Rusiyanı bürüməkdə olan inqilabi hərəkatın Azərbaycana da yayılması çar hökumətini məcbur etdi ki, 1881-ci ildə qəbul etdiyi azadlıq hərəkatını boğmağa yönəldilmiş "Müvəqqəti əsasnamə"ni Azərbaycanın şəhər və qəzalarına da şamil

etsin. Beləliklə, 1903-cü ilin sentyabrından bu əsasnamə Qarabağa da tətbiq edildi. Bu, o demək idi ki, Bakı və Yelizavetpol quberniyaları "ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçılarını, gücləndirilmiş mühafizə haqqında əsasnaməni "pozan" digər şəxsləri 500 rubladək cərimələyə və ya 3 aylıq müddətədək həbs etdirə bilərdilər" [49, 98]. Çar Rusiyası öncədən bu tədbirləri görməklə yaranmış vəziyyətdən öz xeyrinə faydalanmağa çalışırdı.

Rusiyanın hakim dairələri 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə ikili oyun oynayırdı. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadığı ərazilərdə törətdiyi qırğınlara biganə qalmış, bəzi hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdular.

O dövrdə Şuşa şəhərində baş vermiş hadisələrlə bağlı M.R.Fəna özünün "1905-ci il hadisəsi" əsərində yazırdı: "Çərşənbə axşamı iyirmi bir cəmadi-ül-sani 1323 h.q., miladi təqvimlə on altı avqust 1905 tarixdə günortadan təxminən beş saat keçmiş ermənilər tərəfdən küçələrin ortasından ardıcıl olaraq güllə səsləri eşidilməyə başlayır... O küçələr müsəlman evləri boyunca uzanır... O ərazilər dava məqsədilə öncədən hazırlandığından bu mövzu birinci cilddə müfəssəl şəkildə zikr edilmişdir. Bu sayaq ermənidən üsyan zahir olub güllə səsləri mütəmadi şəkil aldıqda, müsəlman milləti qəfildən belə bir halı müşahidə etdikdə iztirabi-tamam ilə dükan-bazarı bağlayıb, kimisi övrət-uşağın cəm etmək, o cümlədən Ermənistan tərəfdən hesab-kitabını yığmaq, kimi silaha qurşanıb lazımi keçidlərdə səngər tərtib etmək məqsədilə, kimi də həmin anda havaya güllə atıb düşmənə cavab vermək yolu ilə. Bir sözlə, hamı iztirab içində və xəyalı-pərişan halda bir-birinə qarışır. Belə bir dəhşətli durumda bu iztirabın üz verməsi olduqca təbiidir. Birinci cilddən məlumdur ki, ermənilər nifaq toxumu səpmək və düşmənçilik yaratmaq məqsədi güdürdülər, amma müsəlman tayfası başlamaqda olan hadisəyə ötəri bir hal kimi baxırdı... Müsəlman xisləti erməni xilqəti ilə müqayisə olunduqda, onların (müsəlmanların) daha döyüşkən və qorxmazlığı ortaya çıxır,

müsəlmanların təşviş və iztirabının əsas səbəbi isə ermənilər tərəfindən belə tezliklə üsyan və hücumun baş verməsini gözləməmələri olmuşdur və üsyanın nagəhan baş verməsi səbəbindən hücuma qarşı müqavimət göstərməyə hərbi hazırlıq görülməmişdir. Müsəlmanlar dava niyyətində olmadıqlarına görə döyüş məntəqələri qeyri-müəyyən, müharibə qəsdi ilə işə bələd olan və can nisar edənlərin tərtibi verilməmişdir" [163, 11-12].

1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarında kütləvi şəkildə qırğınlara məruz qalmış bölgələrindən biri də Azərbaycanın Qarabağ bölgəsi idi. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri həm də həmin hadisələrin şahidi və iştirakçısı olmuş M.Nəvvab və M.Ordubadi öz əsərlərində qələmə almışdılar [162; 187].

Qarabağ bölgəsində azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən qırğınların başlanma səbəbləri haqqında M.Nəvvab dolğun məlumat verərək yazır: "...1905-ci ilin avqust ayında ruslar və ermənilər Yuxarı Qarabağda çaxnaşma yaratmaq üçün bir neçə azərbaycanlını və rus millətindən olan vəzifəli şəxsi qətlə yetirdilər. Yenə bu tarixdə divana qulluq edən bir müsəlmanı rus xəzinəsinin qabağında ermənilər tapança ilə vurub öldürür. Şuşa şəhərinin müsəlmanlarından ehtiyat edən ermənilər acizanə surətdə müsəlmanlardan üzrxahlıq etdilər ki, həmin ləzgini rus bilib öldürüblər. Ona görə qatilin bağışlanmasını xahiş edirlər [162, 24].

M.Nəvvabın verdiyi bu məlumatdan aydın görünür ki, ermənilər ilk günlərdən Qarabağın müsəlman əhalisini inandırmağa çalışmışlar ki, onlar ruslarla əlbir deyillər.

M.Ordubadi isə hadisələrin başlanma səbəbləri haqqında yazırdı: "1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilərlə müsəlmanlar arasındakı küçədə şəhər fonarlarını yandıran Kərbəlayı Məmmədhüseyn adlı müsəlmanı xəncərlə doğrayıb vəhşicəsinə öldürməklə ermənilərlə müsəlmanlar arasında yeni münaqişə toxumları səpdilər" [187, 54; 162, 30].

M.Nəvvab ermənilərin silahlanması haqqında da məlumat vermişdir: " Digər bir tərəfdən isə ermənilər təpədən dırnağa qədər silahlandırılırdı. Erməni daşnakları müsəlmanlarda olan silahı ələ keçirmək üçün belə bir hiylə işlətmişlər. Tüfəng bazarda 20 manata

satılırdısa, onlar 100 manata, tapança altı manata satılırdısa, onu 30 manata alırdılar. Nəticədə müsəlmanlarda olan silahların ermənilər tərəfindən belə baha qiymətə alınması, müsəlmanların evlərində nə qədər silah-sursat var idisə, tamamən ermənilərin əlinə keçməsinə səbəb oldu" [162, 27].

M.Ordubadi ermənilərin bu silah tədarükünü müsəlmanlardan gizlətmək üçün etdikləri hiyləgərliklər haqqında yazırdı: "Daşnakların bu tədarükü Şuşa əhalisinə göründüyündən ermənilər dərhal Türkiyədə, İranda onları bir sıra mənfəətli işlərə çatdıran yağlı dillərini işə salmağa başladılar. Əvvəlcə bizim bu tədarüklərimiz islam, yaxud sair millətlərin əleyhinə olmayıb Rusiyada mütləq bir azadlıq – avtonomiya idarə muxtariyyəti təşkil etmək həvəsidir, – deyə müsəlmanları aldatmağa başladılar. Müsəlmanlar bu cəfəngiyyata inanıb öz işləri ilə məşğul idilər" [187, 53].

Bu dövrdə qırğının baş verməməsi üçün azərbaycanlı ziyalılar müəyyən təşəbbüs göstərsələr də, bu nəticəsiz qalmışdır. Bu barədə Şuşa şəhər idarəsinin rəisi Səfərəlibəyov 1905-ci il fevralın 14-də H.Z.Tağıyevə göndərdiyi teleqramda yazırdı: "Cənab Hacı, Sizin teleqramınızı oxuduq. Camaat bu faciə üçün artıq qəmnak olub. Məndən təvəqqə edirlər ki, ...sülh barəsində Siz tərəfindən sadir olan hümmət və səyin əvəzində Sizə səmimi razılıq izhar edim və xatircəmdirlər ki, Sizin hümmətinizlə bundan sonra bu növ hadisələr zühura gəlməyəcək" [149, 199].

Şuşa şəhər başçısı Səfərəlibəyovun H.Z.Tağıyevə göndərdiyi bu teleqramdan da aydın görünür ki, ərazidə yaşayan türk-müsəlman əhali sülhün bərqərar olmasına razı idi. Lakin o dövr Qafqazda ermənilər tərəfindən nəşr edilən qəzetlər böhtan və yalan məlumatlar yaymaqla vəziyyəti daha da qızışdırırdılar. Bu barədə "Həyat" qəzetinin 24 iyun 1905-ci il tarixli 15-ci sayında Əhməd bəy Ağayev "Böhtan və iftiranın intihası" məqaləsində ermənilərin müsəlman millətinə atdığı böhtanlardan bəhs edərək yazırdı: "Onların uydurmalarına görə, müsəlmanlar ermənilərin boynunda bir yük olaraq onları geri, cəhalətə çəkir, inkişaf etməyə qoymur". Müəllif bütün bunların böhtan olduğunu söyləyərək göstərirdi ki, "bir çox illər ermənilər daim gürcülərin, müsəlmanların tərəqqi və inkişaf etməsini istəmə-

mişlər, çünki onlar özləri Qafqazda ağalıq etmək iddiasındadırlar. Buna görə, onlar "Həyat" qəzetinin nəşrini hay-küylə qarşıladılar. "Tiflisski listok" və "Mşaq" qəzetləri bar-bar bağırırlar ki, "Həyat" qəzeti islamlaşdırmaq siyasəti aparır. Bununla onlar millətimizi rus hökumətinin gözündən salmaq siyasəti yeridirdilər. "Mşaq" son nömrələrinin birində yenə bir iftira söyləyir: "Guya neçə gündür Qarabağ müsəlmanları ermənilərlə ona görə vuruşur ki, Ə.Ağayev bu günlərdə Şuşada olmuşdur" [95, 43].

Belə yalan və iftiralardan "Mşaq"ın 149-cu sayında T.Zavin soyadlı bir erməni yazırdı: "Yenə qanlar axır. Bakıda, Naxçıvanda, İrəvan qəzasında tökülən qanların qırmızı tufanı guya bəs deyildi. Bakı, Şuşa və digər yerlərdə canişinin sülh dəvətindən sonra fikir etmək olmurdu ki, müsəlmanlar cürət edib Qafqazın mətnur hakiminin xahişini zay etsin. Bu qədər lazımlı sülhə və farağatlığa maneçilik törətsin. Amma necə ki, görünür müsəlman peşrovlarının arasında şuruş çox dərindir. Bu tövr xətalı nifrəti dayandırmaq üçün dəvət və nəsihət bilmərrə bifaydadır... O kəsə yəqindir ki, söz bitəsirdir, iş lazımdır... İran hökuməti öz gündəlik təcrübəsindən belə işləri yaxşı bilir. Həmən qeyl və qal salıb təhrik edən şəxslər çox səy etdilər ki, Qafqaz hadisələrini Azərbaycan mahalında əmələ gətirsinlər. Lakin səyləri bisəmər qaldı. İran hökuməti ən şədid binagüzarlıqların köməyi ilə əzəlindən qeyl və qalı boğub dayandırdı. Bu səbəbə Azərbaycan mahalı qanlı tufandan xilas oldu" [95,188].

Erməni qəzetinin verdiyi məlumatlardan aydın görünür ki, ermənilər Rusiyanı birbaşa bu işlərə müdaxilə etməsini və xristian-müsəlman məsələsini nəzərə almasını qabardır, İranda türklərə qarşı törədilən qəddarlıqları bir təcrübə kimi rus hakim dairələrinin diqqətinə çatdırır, onların bu işlərə birbaşa müdaxiləsinə şərait hazırlayırdılar.

O dövrün tanınmış ictimai-siyasi xadimlərindən olan Əhməd bəy Agaoğlu "Həyat" qəzetinin 1905-ci ilın 16 iyun tarixli sayında yazırdı: "Müsəlmanlar barəsində təzə iftira və böhtan və bu iftira və böhtan üzrə qorxulu bir iftira erməni qəzetlərində çıxmış məqalələrdə ermənilərin müsəlmanları vəhşi millət kimi tanıtmasından, onların müstəqil İslam hökuməti yaratmaq məqsədilə zorla ermənilərə öz dinlərini qəbul etdirmək kimi böhtanlardan bəhs olunur". Ə.Ağayev

qeyd edirdi ki, ermənilər bu cür böhtanlar vasitəsilə "rus hökumətini müsəlmanlara düşmən etmək istəyirlər" [95, 37].

Hələ o vaxt təzə nəşrə başlayan erməni qəzeti "Arşalus'un 26 avqust 1905-ci il tarixli birincı sayındakı bir məqalədə yazılırdı: "Bizim əziz Vətənimız Qafqaz iqtisadən talan və puç olmaqdadır. Amma yenə müsəlmanların qara dəstələri, yenə öz vəhşi hərəkətlərinə doymaq bilmədən öz əməllərində davam edirlər... Ermənilər inandı, barışıq dəstəsı çəkdi... Nə oldu, az vaxt çəkmədi ki, müsəlman vəhşiliyi təzədən alışdı. Təzədən günahsız erməni qanları töküldü... İndi təzədən Gəncənın bir neçə kəndlərindən Şuşaya, Zəngəzura və Bakıya kimi qanlı tufanlar sədr oldu. İndi müsəlmanlar o qədər cürətli olublar ki, insafsızcasına bütün xristianları, hətta rus soldatlarını da qırmaqdadırlar. Balaxanıda qoşuna bombalar atır, Bakıda general-qubernatorun evinə güllələr yağdırırlar" [95, 37].

Ermənilərin bu iftira dolu yalanları haqqında o zaman "Tərcüman" qəzeti yazırdı: "Allahu Əkbər! Bu qədər də qırmızı yalan olarmı? Bizim müsəlmanlar arasında ən dini, ən cahil və ən avamımız böhtanın bu dərəcəsinə heç bir zaman inanmarıq!.. Fəsadın kimin tərəfindən başlandığı, general-qubernatorun iqamətgahına kimlərin tərəfindən güllə atıldığı, Balaxanıda bombaların kimlərin evindən tapıldığı və qoşun ilə kazaklara kimlər tüfəng və tapança atdığı hökümətimiz tərəfindən aydınlaşaraq təsdiq edilmişdir" [95, 193]. "Tərcüman" qəzetinin yazdığından aydın olur ki, hətta dövlət tərəfindən təsdiq edilmişdir ki, bu cinayətlər ermənilər tərəfindən törədilmişdir. Ancaq, görünür ki, o zaman da ermənilər silah kimi istifadə etdikləri saxtakarlıq, məkr, hiyləgərlik, ikiüzlülük, erməni şovinizmi, dini, irqi ayrı seçkilik və s. b. k. yalan və böhtanlarla dünya ictimaiyyətini aldatmağa çalışmışlar.

Çar Rusiyasının hakim dairələrində özlərinə bu yalan və iftiralarla hərbi-siyasi, ideoloji dəstək qazanan erməni quldur dəstələri 1905-ci ilin avqust ayında müxtəlif bəhanələrdən istifadə edərək, müsəlmanlara qarşı əsl müharibəyə başladılar.

Bu bəhanələrdən biri bir erməninin kazaklar tərəfindən öldürülməsi olmuşdur. Ermənilər bunun günahını müsəlmanlarda görüb, heç bir əsas olmadan müsəlmanları müharibəyə təhrik edirdilər [116, 26].

1905-ci il avqust 16-21-də Şuşada çox qızğın və qanlı erməni-müsəlman toqquşmaları başlandı. Ermənilərin silahlı hücumu nəticəsində 60 nəfər azərbaycanlı öldürüldü [68, 23].

Bu qırğınlar haqqında türk tarixçisi İ.Özçelik yazır: "Şuşada 16-20 avqust tarixində qanlı toqquşmalar davam etdi. Rus kazakları və rus piyada birliyi, erməni daşnakları ilə birlikdə Azərbaycan evlərinə basqınlar etdilər. Ancaq azərbaycanlıların müdafiəsi qarşısında geri çəkilməyə məcbur oldular" [246, 76].

Hadisələrin canlı şahidi olan M.Nəvvab yazırdı: "Hərbi cəhətdən daha mütəşəkkil olan erməni quldur dəstələri 1905-ci ilin avqust ayının 16-da Şuşada müsəlmanlar üzərinə hücuma başladılar. Erməni qımdatları (icma, dərnək üzvləri – B.H.) dəstə-dəstə olub, bir dəstə Köçərli məhəlləsinə, bir dəstə Yuxarı Xəlifəli qapısına, başqa bir dəstə isə meydana tərəf getdilər. Qalan ermənilər isə səngərlərə doldular... Köçərli məhəlləsinə gedən dəstənin içərisində bu məhəllədən olan Çopur bəyin oğlu və Kolya adlı iki erməni 90 (doxsan) yaşlı Abbas bəyi, onun yeganə oğlunu, qardaşı oğlunu dilə tutaraq, siz bizim qonşumuzsunuz, sizinlə işimiz yoxdur deyib eşiyə çağıraraq güllələmişlər, evlərinə və meyitlərə neft töküb yandırmışlar" [162, 31].

Avqust ayının 17-də daşnaklar "Köçərli məhəlləsində 8 evi yandırıb əhalisini qətlə yetirdilər. Xəlfəli adlanan məhəllədə 10 evin müsəlmanlarının qətl-qarət edilməsi xəbəri kədərli bir surətdə yetişdi... Qəddar erməni daşnaklarının belə təcavüz və ədalarını görən islam cavanları artıq ruhani və rəislərinin nəsihətlərinə baxmayıb, ermənilərə qarşı ümumi hücuma başlayırlar... Ermənilər Port-Artur misalında olan səngərlərini daha saxlaya bilməyib, boşaltmağa məcbur oldular... Avqustun 18-də daşnak ermənilər dağılmış qüvvələrini bərpa edib, yenidən müharibəyə girişdilər... Ermənilər çox təlaş edib, keçən günün təlaşını çıxmaq istəsələr də, ağır tələfata məruz qalaraq, öz hissələrini müsəlmanlara verdilər" [187, 56-57].

Erməni daşnakları başladıqları silahlı qarşıdurmada məğlub olduqlarını görüb hiyləyə əl atmağa başladılar. Avqustun 19-da erməni arximandriti və qubernator Baranovski (İrəvan vitse-qubernatoru-H.B.) məscidin həyətinə gəldilər, arximandrit müsəlmanlara yalvarmağa başladı: Amandı müsəlmanlar, Şuşada ermənilər müqəssir

olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz-ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz! – deyib, ağlaya-ağlaya sülh təklif etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə evə qayıdan qubernatoru atəşə tutdular. Daşnaklar realnı məktəbin təmirində işləyən 17 nəfər iranlı fəhləsinin başını kəsmişdilər. Beləliklə, 1905-ci il avqustun 16-da başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə Azərbaycan türkü qətlə yetirilmişdi [187, 57-58].

Şuşa qırğınlarından sonra şəhərə gələn xarici müxbirlərdən birinin söylədiyinə görə, kazakların mühafizəsi altında Ağdamdan Şuşaya doğru hərəkət etdiyi vaxt şəhərin 26 verstliyində yerləşən Əsgəran qalası yaxınlığında sayı mindən çox olan ermənilərlə rastlaşıb. Onların müxbirə söylədiyinə görə, guya bu silahlı ermənilər şəhərdəki müsəlmanların köməyinə gedən ətraf kəndlərin müsəlmanlarına mane olmaq üçün toplaşıblar. Müxbir yolda rastlaşdığı faytonda 4 müsəlman meyidini öz gözləri ilə gördüyünü bildirirdi. Şəhərdə baş vermiş dağıntılar zamanı bütün mehmanxanalar xarabalığa çevrildiyi üçün müxbir çox çətinliklə “Mardi” adlı mehmanxanada yer tapdığını yazırdı [95, 133].

Bu dövrdə erməni quldur dəstələri Cavanşir qəzasında da kütləvi qırğınlar törətmişdilər. 1905-ci il avqustun 26-da Cavanşir qəzasında ermənilər tərəfindən başladılmış qırğın nəticəsində Azərbaycan kəndləri – Sərxanlı, Kəmərli, Qərvənd, Çıraxlı və b. yerlə-yeksan edildi, 100 nəfərə qədər azərbaycanlı öldürüldü. Burada ermənilərə tanınmış daşnak, sonralar-1918-ci ilin mart hadisələrində xüsusilə vəhşi rol oynamış Hamazasp başçılıq edirdi [68, 23].

Cavanşir qəzasında baş verən hadisələrlə bağlı “Həyat” qəzeti yazırdı: “Cavanşir qəzasının Vəng (Vanik) adlı erməni kəndindən Kəngərli və Cinli adlı müsəlman əyaləti yaylaqlardan müraciət etdiyi halda ətraf kəndlərin erməniləri bixəbər tökülüb onların üstünə, onlardan guya İrəvan və Naxçıvan hadisələrində etdikləri qarəti tələb etmək bəhanəsilə bir neçə adamı öldürmüşlər. Bu xəbər Cavanşir və Şuşa uyezdinə yetişən kimi oradan çox atlı həmən Vəng deyilən yerə gedib. Bu xəbər Şuşa qəzasına çatan kimi Ağdam deyilən yerdə olan müsəlmanlar Şuşa-Yevlax yoluyla gedən ermənilərdən yüz əlli nəfəri

tutub ta Vəng füqərasından xəbər gəlincəyə qədər dustaq ediblər. Hələ indiyə kimi dəqiq bir məlumat yoxdur. Zənnimizcə Qarabağ ermənilərinin bu əməlləri Qarabağda münaqışəyə səbəb olacaq. Amma nə qədər fikirləşirsən, düşünürsən ki, yəqin erməni qonşularımız bu fəna işin axırı nə olacağını dərk edə bilmir. Məgər bunların öz canlarına, əhl və əyallarına və mallarına rəhmləri gəlmir? Bu növ açıq-aşkar ölümə getməyə, bu növ tələf olmağa çalışmağa dəlilik-divanəlikdən qeyri bir ad qoymağa özümüzü haqlı bilmirik. Bu işlər sayir yerlərdə olan qovğa şuruşlara, qısası isə bu işlərə Qarabağ ermənilərin vadar edən sayir yerlərin erməniləri isə heyif onların ağlına, heyf onların tədbirinə" [95, 162].

Qeyd edək ki, bu qırğınlar təkcə Qarabağ bölgəsində deyil, fevralın 6-9-da Bakıda, mayın 10-da Naxçıvanda, mayın 23-də İrəvan quberniyasında, noyabrın 18-də Gəncədə, noyabrın 23-də Tiflisdə, Qazaxda və digər yerlərdə də on minlərlə Azərbaycan türkünün vəhşicəsinə, amansızlıqlarla öldürülməsinə səbəb olmuşdur [68, 22-23].

Bu qırğınlar haqda "Kaspi" qəzetinin 1906-cı il 13 yanvar tarixli sayında verilmiş məlumatda qeyd edilirdi ki, "1905-ci il dekabrın 26-da ermənilərlə toqquşma nəticəsində Zəngəzur qəzasının Ağudili kəndindən 70 nəfər qətlə yetirilmiş, 30 ev yandırılmışdır. Ermənilərin 278 nəfər Dərəbas kəndinin "tatarlarını" (Azərbaycan türklərini-B.H.) öldürdüyü xəbəri verilmişdi" [274].

1905-ci il dekabrın 26-da Zəngəzur qəzasının Dərəbas kəndində azərbaycanlılara qarşı edilən erməni vəhşiliklərini, erməni müəllifi A-Do belə etiraf edirdi: "Evlərində gizlənmiş ermənilər köməyə gələnlərin qışqırıqlarını eşidən kimi, vəhşiləşmiş kimi küçəyə atıldılar, türklərin evlərinə hücum edərək, talan edib yandırdılar. Onlar yanğınları və talanları davam etdirərək, yuxarıda adları çəkilən evlərə çatmışdılar, hansı ki, orada türklər böyüklü-kiçikli, arvadlı-uşaqlı sığınacaq tapmışdılar. Ermənilər burada cinayətkarlığın ən dəhşətli formasını həyata keçirdilər. Onlar bu üç evə od vurub, insanları içində sağ-sağ yandırdılar. Cinayət alovlar və dağıntılar içində həyata keçirildi və çoxsaylı insanlar məhv oldu. Biz o yanmış evlərin insan sümükləri ilə qarışmış külünü gördük və sarsıldıq, o qatilləri, daha çox da dəhşətli cəhənnəmi törədənləri lənətlədik... öldürülmüş, yan-

dırılmış, meyitləri səpələnmiş adamların sayı 272 nəfərə çatırdı". A-Do Dərəbasda törədilən bu cinayətin yerli hakimiyyətin ciddi araşdırılmasını münasib görmədiyini, polisin yalnız bir protokol tərtib etməklə işini bitmiş hesab etdiyini qeyd edirdi [170, 247].

1905-1906-cı illərdə erməni-müsəlman toqquşması zamanı Qarabağ bölgəsində müsəlmanlara qarşı törədilmiş vəhşiliklər dövrün tədqiqatçılarından olan Ə.Əroğlunun "Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası" və D.Vəliyevin redaktorluğu ilə buraxılmış "Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada" əsərlərində ardıcıl şəkildə öz əksini tapmışdır. Bu əsərlərdə qeyd edilir:

"1903-1904-cü illər: Tarixi araşdırmalar göstərir ki, daşnak terrorçusu Vazgenin rəhbərlik etdiyi terror qrupu bu illər ərzində Şuşa şəhərində və onun ətraf kəndlərində say hesabı ilə 500 nəfərdən çox Azərbaycan türkünü qətlə yetirmişdir;

11 may 1905-ci il: Daşnak Hamazaspın başçılıq etdiyi terror qrupu Daşaltı çayının sağ döşündəki dəyirmana basqın edir. Şuşa şəhər sakini dəyirmançı Xaspoladı, həyat yoldaşı Gülayəni qətlə yetirir, qıçlarından yapışaraq altıaylıq körpəni – Məhəmmədi iki şaqqaya bölüb valideynlərinin üstünə atırlar;

10 iyun 1905-ci il: Daşnak terror birləşmələri Cəbrayıl qəzasının Veysəlli, Qacar, Çəmən, Arış, Qışlaq kəndlərinə basqın edirlər. Sağ qalan əhali ev-eşiyindən didərgin salınır. Kəndlər qarət olunur, evlər yandırılır;

05 iyul 1905-ci il: Daşnak terror qrupu Cəbrayıl qəzasının Məzrə kəndinə basqın edir. Camaat yaylağa köçdüyündən qışlaqda qalmış doqquz nəfər dinc sakindən altısını qətlə yetirir, bir nəfəri isə girov götürürlər. İki nəfər qaçıb aradan çıxa bilir. Bununla kifayətlənməyən daşnak terrorçuları kəndin yerləşdiyi Qozlu dərədə partlayışlar törədirlər. Dərədəki nəhəng gövdəli qoz ağaclarını dinamitlər vasitəsi ilə partladır, kökündən yox edirlər;

12 iyul 1905-ci il: Daşnak terrorçuları Əsgəran bazarına meyvə satmağa gedən 4 azərbaycanlını yolda qətlə yetirir, Əsgəran yolunu bağlayırlar. Azərbaycanlılar yaşayan məhəllələrə basqınlar edirlər. Bir neçə azərbaycanlını həyətində və bağında qətlə yetirirlər;

17 iyul 1905-ci il: Daşnak terrorçuları Şuşada azərbaycanlılar yaşayan evləri top atəşinə tuturlar. Evləri dağıdıb yandırırlar. Ardınca isə özləri azərbaycanlıların üzərinə hücuma keçirlər. 30-a yaxın Azərbaycan türkünü qətlə yetirirlər;

08 avqust 1905-ci il: Daşnak terrorçuları Cənubi Azərbaycandan gəlib Şuşa şəhərində binagüzarlıq edən, Realnı məktəbin təmirində işləyən əliyalın 17 türk fəhləsini qətlə yetirirlər;

08 avqust 1905-ci il: Daşnak terrorçuları Şuşada Abbas bəyin evinə basqın edirlər. Abbas bəyi, qardaşını və üç qulluqçusunu qətlə yetirirlər;

08 avqust 1905-ci il: Vəng kəndində yuva qurmuş 300 nəfərdən ibarət daşnak terrorçuları Şuşadan Gəncəyə gedən atlı araba karvanına basqın edirlər. Karvanı talayır, çarvadarları öldürür, sayı qeydə alınmayan çoxlu sayda Azərbaycan türkünü qətlə yetirirlər;

16-21 avqust 1905-ci il: Daşnak terrorçuları tərəfindən Şuşa şəhərində 60 nəfər Azərbaycan türkü qətlə yetirilir. Köçərli, Xəlfəli məhəllələrində 18 ev yandırılır. Kişilərin başlarını kəsir, qadınların qarınlarını yarır, qocalara, uşaqlara aman vermirlər;

21-26 avqust 1905-ci il: Daşnak terrorçuları Şuşa qəzasında ikinci dəfə türk qətliamına başlayırlar. Dörd kənd yerlə-yeksan edilir. Dinc, əliyalın əhalidən 100 nəfəri qətlə yetirirlər;

22 avqust 1905-ci il: Hərbi buraxıb vəkilliklə məşğul olan, İrəvan quberniyasında müsəlman əhalisinin hüquqlarını müdafiəyə qalxan Məmmədqulu bəy Kələntərli daşnakları ifşa etmək məqsədi ilə Fransaya getmək qərarına gəlir. O, yola düşərkən Batum şəhərinin dəniz vağzalında daşnak terrorçusu tərəfindən arxadan güllələnərək qətlə yetirilir;

25 avqust 1905-ci il: Cavanşir qəzasının Qaladərəsi kəndində yuva qurmuş daşnak terrorçuları Əbdürrəhman bəy Kərim bəy oğlunun köçünə basqın edirlər. Bəy qətlə yetirilir, qoyun sürüləri, 55 baş qaramalı və digər əmlakı zəbt olunur;

25 avqust 1905-ci il: Qondarma daşnak generalı Hamazasp və əlaltısı A.Mikoyanın rəhbəri olduqları terror qruplaşması Cavanşir qəzasının Çıraqlı, Kəmərli, Hacıqərvənd və Pirxud kəndlərinə basqın edirlər. 100 nəfər Azərbaycan türkü qətlə yetirilir. Kəndlərin əhalisi

yurd-yuvalarından didərgin salınır;

26 avqust 1905-ci il: Cavanşir qəzasında başlanmış qırğın nəticəsində Azərbaycan kəndləri-Sərxanlı, Kəmərli, Qərvənd, Çıraqlı və b. yerlə-yeksan edilir, 100 nəfərə kimi azərbaycanlı öldürülür;

03 oktyabr 1905-ci il: Daşnak terrorbaşı Hamazasp və Mikoyan öz terrorçu dəstəsi ilə Cavanşir qəzasının Sırxavənd və Əliağalı kəndinə basqın edir, əliyalın, dinc əhalini qılıncdan keçirirlər. Kəndlərin çala-çuxur aralıq yerləri qanla dolur. Yırtıcılar südəmər körpələri süngülərə keçirirlər, beşikləri ilə bir yerdə odlayırlar, onları analarının qucaqlarından alıb divarlara çırparaq para-para edirlər. Sayı qeydə alınmayan dəhşətli türk qətliamı törədirlər;

04 oktyabr 1905-ci il: Daşnak terrorçuları Cavanşir qəzasının Sırxavənd kənd sakinləri Abbasqulu və İman Həsən oğlu qardaşlarını meşədə qətlə yetirib cəsədlərini yandırırlar. Kəsilmiş başlarını isə cinayət yerində əmanət qoyurlar;

27 noyabr 1905-ci il: Daşnak terrorçuları Cavanşir qəzasının Dəmirli kəndinə basqın edirlər. 8 nəfər dinc sakin öldürülür. Sağ qalan əhali ev-eşiyini tərk edir. Terrorçular kəndi oda qalayırlar;

19 dekabr 1905-ci il: Movses Qriqoryanın, Karapet Ter-Osipovun, Ambarsum Koçarovun başçılıq etdikləri daşnak terror birləşmələri Xankəndinin azərbaycanlılar yaşayan məhəllələrindən birinə basqın edirlər. Evlər, dükanlar qarət edilir, qiyməti əşyalar oğurlanır. Yusif Xanalı oğlu, Əkbər Sadıq oğlu, Məhəmməd İbrahim oğlu, Hafizə Qara qızı, Sitarə Usub qızı, Sadıq Kərbəlayı Xanalı oğlu, Məşədi Zeynal, oğlanları Teymur, Firudin, Əsəd, Həbib Məşədi İsgəndər oğlu, Dostuxanım Məşədi Məhəmmədbağır qızı, Rəhim Ağaməmməd oğlu, Minə Qara qızı, Aftab Məşədi Zeynalabdin qızı qətlə yetirilir. Sonra da meyitlərə od vurulur;

26 dekabr 1905-ci il: Daşnak Abranı koxanın rəhbərlik etdiyi daşnak terrorçuları Cavanşir qəzasının Umudlu kənd camaatını hiylə işlədərək mühasirəyə alırlar. Umudlu adıyla tarixə düşən qətliam törədirlər. Uşaqlı, qadınlı 300 nəfəri qətlə yetirərək meyitlərini yandırırlar;

26 dekabr 1905-ci il: Daşnak terrorçuları Əsgəran qalasında azərbaycanlılara məxsus 60 furqonluq ərzaq karvanını ələ keçirirlər;

27 dekabr 1905-ci il: Daşnak terror qrupları Şuşa qəzasının Malıbəyli kəndinə basqın edirlər. Nəcəfqulu ağanın evini yandırırlar. Kənddə qətliam törədirlər. Qadın və uşaqları tikə-tikə doğrayırlar [80, 9-17; 68, 22-23].

Xalqımıza qarşı törətdikləri qırğınlara baxmayaraq, azərbaycanlıların bu silahlı toqquşmalarda qalib gəldiyini görən ermənilər sülhə nail olduqdan sonra dərhal növbəti qırğınlar üçün hazırlıqlara başladılar.

Erməni keşişləri 1906-cı ildə Şuşada olan erməni kilsələrini azərbaycanlılara qarşı əsl silah-sursat cəbbəxanalarına çevirərək kilsələrin zirzəmilərində külli miqdarda silah-sursat gizlətmişdilər. Allah evindən öz çirkin niyyətləri üçün istifadə etdiklərinə görə o zamankı şəhər üsul-idarəsi tərəfindən Ter-Arsen Vartapetov, Ter-Karapet Vartapetov, Ter-Ovanesyan, Mirzəbekov, Asatur Vartapetov kimi keşişlər cəzalandırılaraq Şuşadan qovulmuşdular [223, 26].

Bu qırğınlar zamanı müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa qəzasına təyin edilən generalların da böyük rolu olmuşdur. Bunlardan general Qoloşapov daha çox qəddarlığı ilə seçilmişdir.

Bu haqda M.Nəvvab yazır: "...Qoloşapov Şuşaya gələn kimi ermənilər məhəlləsində milliyyətcə erməni olan duma qlavası Kiki Kələntərovun hazırladığı iqamətgaha yerləşdirildi. Hər gecə Kiki Kələntərovun başçılığı ilə, ermənilərin hesabına general Qoloşapovun mənzilində kef məclisləri qurulur. Kələntərovun seçdiyi və generalın qulluğuna təyin etdiyi 2-3 nəfər xoşsurət erməni qızları gecə-gündüz ona xidmət edirdilər. Bir gecə erməni Kələntərov Qoloşapova və onun ətrafında olan kazaklara 10.000 (on min) manat rüşvət verərək, qarşıdakı erməni-müsəlman davasında rusların onlara açıq surətdə kömək etməsini və bu haqda tədbirlər görməsini generaldan xahiş etdilər. Qoloşapovun tədbiri ilə ətraf kəndlərdən, İrəvandan, Gəncədən və başqa yerlərdən 7000 erməni silahlısı, 850 nəfər rus kazakları, 400 nəfər erməni rusları (Rusiya erməniləri-B.H, neçə min Qalada (Şuşada) olan erməni, dörd nəfər məktəbdə oxuyan ünas qızları, eləcə də 11 top və topxana səfərbər edilmişdir. Silahlıların miqdarı cəmi 12 min idi [162, 113,122]. Qoloşapovun müsəlmanlara iblis münasi-

bəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar [187, 61].

Rus siyasi və hərbi dairələrindən lazımı kömək alan ermənilər 1906-cı ildə Qarabağ bölgəsində yenidən qırğınlara təşəbbüs etdilər. M.Ordubadi bu haqda yazırdı: “... 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan qabaq ölmüş erməni meyitini generala nişan verib, “budur, bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər” deməklə, onsuz da bəhanə axtaran general Qoloşapov dərinə getməyib, Köçərli məhəlləsini (Şuşa) topa tutmaq əmrini vermişdir. Bunun ardından kazak dəstələri ilə birlikdə 10000-ə qədər daşnak dəstələri azərbaycanlılara qarşı hücuma keçdilər. Dava başlayanda ermənilərə və ruslara qarşı vuruşan, ancaq Qalada yaşayan müsəlman igidləri və cavanları idi. Onlara yalnız 3 gündən sonra kömək gəlmişdir. Ruslar və ermənilər qarşılarına çıxan insanları güllələyir, onları ölmüş halda ya da diri-diri alova atıb yandırırdılar. Şuşada toplardan açılan atəş nəticəsində minlərlə ev dağıdılmış yüzlərlə insan qətlə yetirilmişdir. Bunlara baxmayaraq, azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin və rusların daha çox itki verməsinə nail oldular. General Qoloşapov azərbaycanlıları belə qalib görüb çox məyus olmuşdur. Müharibənin altıncı günü, ayin 18-də general Qalaşapov hər iki tərəfdən bir neçə vəkil götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəlir. Söhbət zamanı “bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız” – deyib ağlamışdı” [187, 62].

1906-cı ilin avqust ayında Zəngəzur qəzasının digər kəndlərində də kütləvi qırğınlar və dağıntılar törədilmişdi. Erməni quldurları 750 evdən, 3500 nəfərdən ibarət olan Qatar kəndini dağıtdıqdan sonra, Oxçu çayı sahillərində yerləşən türk kəndlərini viran edib, Zəngəzur qəzasının açarı olan Oxçu, Şabadin, Aralıq, Pirdavud və Atqız kəndlərini qarət etmişdilər. M.Ordubadi avqustun 13-də ermənilərin törətdikləri vəhşilik haqqında yazırdı: “Ağlaşma səsi dağların təpəsindən ermənilərin səngərlərinədək əks-səda verirdi. Saqqarsuya sığınmış camaatın başı üstündən sübh çağı bir dəstə “Ya Əli, ya Əli” fəryadlarıyla onlara sarı gəldiyindən avam və çaşmış camaat müsəlmanlar: “Bu gələn qoşun islam qoşunudur”, – deyərək güman edib ağlaya-ağlaya onların qarşısına çıxırlar. Gələn dəstə isə ermənilər

imiş, müsəlmanları qırmağa başlayırlar. Bu vaxtdan dörd islam köylərində də qırğın baş verdiyindən Saqqarsuyun başına qədər fəryad, nalə sədalarının müsibətli şəkildə əks etdiyini qaçıb Ordubada gəlmiş kənd əhli olduğu kimi nəql edirdi. Saqqarsuyun ətrafında bir qan gölməçəsi göründüyündən o tərəfə gedirlər. Qanın üzü buz bağlasa da, daşın bir tərəfindən damcı-damcı sızırdı. Bu halı gördükdə camaatı dəhşət bürüdü. Daşın arasında 62 nəfər qadın və uşaq cənazəsi bir-birinin üstə qalaq-qalaq tökülmüşdü...” [129, 163].

Qarabağ bölgəsində 1906-cı ilin iyul ayının 12-də yenidən qızışan erməni-müsəlman silahlı toqquşması 1906-cı il iyulun 18-də səngisə də, avqustun axırlarına qədər bu qətliamlar davam etmişdir. Bu illərdə ermənilərin törətdikləri qırğınlar Qarabağ bölgəsində yüzlərlə Azərbaycan türkü qəddarcasına qətlə yetirilmişdir. Bu qırğınlar təkcə insanların öldürülməsi ilə bitmir, regionda fəaliyyət göstərən müəssisələrin, kənd təsərrüfatının iflic olmasına gətirib çıxarırdı. Belə bir siyasət tamamilə həm, çar Rusiyasının, həm də ermənilərin mənafelərinə tamamilə uyğun idi. Çünki qırğın və qətliamlardan sonra burada qalan əhalinin yaşamaq üçün üsul vasitə imkanlarının olmaması, nəticədə onların Yuxarı Qarabağ bölgəsini tərk etmələri ilə nəticələnirdi və ermənilər bu ərazilərə çar Rusiyası tərəfindən çox asanlıqla yerləşdirilirdilər [163, 21].

Çar hökumətinin bu siyasəti ilə bağlı M.R.Fəna öz əsərində yazır: “Qisas məqsədi ilə oktyabr ayına kimi baş verən hadisələr yerinə müvafiq zikr olundu. Oktyabrın ikisində Xaçın dərəsində ermənilərin törətdikləri nifaq və amansızlıqlar da vurğulandı. Daha sonra oktyabrın üçüncü günündən Qaladan Ağdama iş ünvanı ilə gələn dörd nəfər müsəlmanı Əsgərandan aşağı Qılıçbağlar bağının altında Şuşa yolundan keçən böyük bir dərədə erməni quldurları pusqulardan çıxıb yaxalayaraq, dərə yuxarı aparıb öldürürlər. Bu insanların itkin düşdükləri aşkarlandıqdan sonra hökumət və kazak dəstəsi həmin dərəyə enib, ölənlərdən qalan başmaq, corab, qan izləri, yandırılmış ətlər, sümüklər və dırnaqlar tapırlar. Lakin hökumət tərəfindən zalıma qarşı heç bir cinayət işi qaldırılıb, məzluma yardım göstərilmir” [163, 21].

1906-cı il hadisələrinin xronoloji ardıcıllığı Ə.Əroğlunun

əsərində belə əks olunmuşdur:

“08 iyun 1906-cı il: 40 nəfərlik daşnak terror qrupu suvarma kanalını təmizləməyə çıxmış Cavanşir qəzasının Xıdırlı, Qiyaslı, Şuxumaxlı kənd camaatını güllәbaran edir, 3 nəfər həlak olur;

12 iyul 1906-cı il: Cəbrayıl qəzasının Xozaberd kəndində məskən salmış daşnak terrorçuları Topağac dağının ətəyində boyaq maddəsi hazırlamaq üçün ağac qabığı və bitki kökü tədarük edən Qazanzəmi kənd sakinləri – Siracəddin və Ziyəddin Abidin oğlu qardaşlarına hücum edirlər. Hər iki boyaqçı qardaşı girov götürürlər. Boyaqçı qardaşlara olmazın işgəncə verir, əzalarını doğrayaraq vəhşicəsinə qətlə yetirirlər;

14 iyul 1906-cı il: Daşnak terror qrupu Zəngəzurun Gələncik kəndinə basqın edirlər. 30 nəfər dinc kənd sakini qətlə yetirilir. Kənd isə yerlə-yeksan edilir;

29 iyul 1906-cı il: Daşnak terror qrupları Zəngəzur qəzasının Xələc, Saldaş, İnçəvar, Daşnov və Lov kəndlərinə həmlə edirlər. Sayı qeydə alınmayan qətliamlar törədirlər. Sağ qalan əhali yurd-yuvasını tərk edərək Qatar kəndinə pənah aparır;

29 iyul 1906-cı il: Daşnak terrorçuları Qafanın Karxana kəndinə basqın edirlər. Kənd canlı aləmdən təcrid edilir. Qətlə yetirilmiş Tahir Ordubadlının arvadı Pakizə və onun qızı Firuzə daxil olmaqla qaçıb kənd ətrafındakı dağda gizlənən 30 qadın və uşağı da ələ keçirilərək tikə-tikə doğrayırlar. Həmçinin Zəngəzurun məşhur bəylərindən Qaraçəmənli Şəfiyar bəy aldadıcı dəvətlə Mədən bazarına çağırılaraq bağlar yaxınlığında, Həmzəli Şamil bəy isə Gorusun qaşında daşnak terrorçuları tərəfindən pusquya salınaraq vəhşicəsinə qətlə yetirilirlər;

01 avqust 1906-cı il: Daşnak terror qrupu Zəngəzurun Qatar kəndinə həmlə edir. 750 evdən və 3500 nəfərdən ibarət əhalisi olan kənd yerlə-yeksan edilir. Sayı qeydə alınmayan qətllər törədirlər. Sağ qalan əhali yurd-yuvasını tərk edərək Kəllədağ kəndinə sığınır;

01 avqust 1906-cı il: Daşnak terror qrupu Cavanşir qəzasının Papravənd kəndinə basqın edir. 15 nəfər dinc sakini qətlə yetirirlər;

13 avqust 1906-cı il: Daşnak terror qrupları Zəngəzurun Oxçu, Şəbədək, Aralıq, Pirdavud, Atqız kəndlərinə basqın edirlər. Saqqarsu

dağına çəkilmiş əliyalın kənd əhalisi mühasirəyə düşmüş, daşnaklar tərəfindən sayı qeydə alınmayan qətliam törədilmişdir. Təkcə iki qaya parçası arasından qadın, bir palaz arasında kəsilmiş 15 uşaq başı tapılmışdır. Bu qadın və uşaqlara imdad istəyən 90 yaşlı, əli Quranlı el ağsaqqalı Həsən Əfəndi isə terrorçular tərəfindən tikə-tikə doğranmışdı;

15 avqust 1906-cı il: Daşnak terror birləşmələri ötən altı gün ərzində zəbt etdikləri Zəngəzurun Güllü, Yeməzli, Mollalar, Batuman, Zurul, Guman, İyilli, Səhalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq kəndlərində 200 nəfərdən çox azərbaycanlını qırmışlar" [80, 9-17].

Oktyabrın 7-də Gülablıya gələn ermənilər, oranın tikinti mallarını aparmağa və bağları qırmağa gəldikləri zaman öz xaraba qalmış yurdlarına və bağlarına baş çəkməyə gedən azərbaycanlıları öldürdüklərinə görə rəis kazak dəstəsi ilə Gülablıya gedib, həmin erməni quldurların orada tutsa da, Ağdama gələn kimi azad etmişdir. Bu zaman qətlə yetirilmiş doqquz nəfərdən birinin cəsədi hadisə yerində tapılmışdır. Oktyabrın 20-də çartazlılar ətraf ermənilərlə birlikdə şəhərə yaxın olan qonşu müsəlman kəndi veysəllilərin üzərinə hücum edirlər. "O kənd əhli iki tərəfdə yerləşdiyindən minlərlə erməni hər iki məhəlləyə hücum edib oranı yandıraraq ələ keçən əmlak və mal-qaranı qarət edirlər. Cəsur Veysəlli əhli mərdliklə savaşsa da, saysız düşmən həmlələrini dəf etmək iqtidarında bulunmur. Yalnız ailələrini və uşaqlarını təhlükədən qurtarmağa müvəffəq olurlar" [163, 22].

1905-1906-cı illər erməni-müsəlman silahlı toqquşmalarında azərbaycanlıların kütləvi surətdə qırılmasının daha geniş vüsət almasının qarşısının alınmasında, azərbaycanlıların və Azərbaycan kəndlərinin qorunmasında 1906-cı ildə Əhməd bəy Ağaoğlunun qurduğu "Difai" təşkilatının çox böyük xidmətləri olmuşdur [225, 61].

"Difai" təşkilatı barədə sonrakı yarımfəsillərdən birində geniş məlumat verəcəyimiz üçün burada ancaq bununla kifayətlənirik.

1905-1906-cı il hadisələri haqqında Rusiya Dövlət Dumasında olan Azərbaycan nümayəndələri tərəfindən məsələ qaldırılmış, əhalinin şəxsi və əmlak təhlükəsizliyi məsələlərinin həll edilməsinə diqqət yönəldilmişdi. 1906-cı il iyunun 26-da Dövlət Dumasının 31 üzvü

imperiya daxili işlər nazirinə ərizə təqdim edərək, elan olunduğuna görə, əsas qanunlar verilənədək (1906, aprel) bir sıra yerlərdə gücləndirilmiş mühafizənin saxlanmasından narahatlığını bildirdilər. Bu sənədi imzalayanlar içərisində əslən Şuşadan olan Ə.Haqverdiyevin də imzası var idi. İrəvan və Yelizavetpol quberniyalarında əhalinin şəxsi və əmlak təhlükəsizliyinin qorunması üçün təcili tədbirlər görülməsi tələb edilmişdi [201, 146].

1905-1907-ci illərdə ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri qanlı olaylara baxmayaraq erməni mətbuatı dünyaya ermənilərin guya ki, azərbaycanlılar tərəfindən qətlə yetirilməsi barədə şişirdilmiş yalan məlumatlar verirdi. Bu dövrdə erməni mətbuatı Azərbaycan türklərini panislamizm və pantürkizm ideyalarını yaymaqda günahlandıraraq, azərbaycanlıları Osmanlı imperiyasının təhriki ilə xristian erməniləri yox etməkdə də ittiham edirdi [226, XVI].

1905-1906-cı illər erməni-müsəlman münaqişəsi ilə bağlı Rusiya çarının Qafqazdakı səlahiyyətli nümayəndəsi tərəfindən xüsusi hesabat hazırlanmışdır. Hesabatda ermənilərin bu hadisələrdən öz məqsədləri üçün yararlandıqları ayrıca qeyd edilmişdir [16, v. 3].

O dövrdə erməni terror dəstələri dünyanın başqa-başqa yerlərində yüzlərlə siyasət adamını sifarişlə öldürmüşdü. Bu terror dəstələri 1904-1906-cı illər ərzində dünyada 209 siyasət adamını qətlə yetirmişdi [258, 112].

Ümumiyyətlə, 1905-1906-cı illər dövründə Qarabağ bölgəsindəki qəzalarda baş vermiş erməni-müsəlman münaqişəsi nəticəsində, erməni müəllifi S.Zavaryanın da etiraf etdiyinə kimi, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 - cəmi 75 müsəlman kəndi dağıdılmışdı [298, 61].

1905-1906-cı illərdə bu qəzalar üzrə ermənilər tərəfindən dağıdılmış Azərbaycan kəndləri aşağıdakılar idi:

Şuşa qəzası üzrə: Quşçular, Xankəndi, Xocalı, Qacar, Qaradağlı, Vərəndəli, Divanallar, Hacuz, Avdal, Veqsanlı (Veysəlli?), Ağbaş, Gülablı: cəmi 12 kənd;

Cavanşir qəzası üzrə: Sırxavənd, Yeddiqışlaqlar, Çıraqlı, Qərvənd, Məmərzələr, Arpatala, Buruc, Dəmirlər, Güney Payalar, Manikli, Süleymanbəyli, Əlağalı, Kəngərli, Manravand (Papravənd?),

Qarapirim, Umudlu, İmarət-Qərvənd; cəmi 17 kənd;

Cəbrayıl (Qaryagin) qəzası üzrə: Qaradağlı, Givzlıq (?) (Cövüzlük-H.B), Qışlaq, Aşıq Məlikli, Məzrə; cəmi 5 kənd;

Zəngəzur qəzası üzrə: Bayandur, Halak (?), Binayeri, Koralar(?), Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cicimli, Hacılar, Bağırbəyli, Kəhrizli, Ovnannar (?), Kivrdtar (?), Ağvani (?), Danzaver, Sisian, Ağudi, Dərəbas, Pul, Ərikli, Şunear (?), Məliklər, Yeməzli, Xaşdap (?), Almalı, Karxana, Qatar, Cıbıllı, Xələc, Keçi Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavudan, Arcazur (?), Əcilli (Acıllı?), Buğacıq, Kollu Qışlaq, Mutnacor (?), Sanalı (Sənəli?); cəmi 43 kənd [214, 69-82].

Ermənilər tərəfindən bu qırğınlar 1905-1906-cı illərdə olduğu kimi 1914-1918-ci illərdə də törədilmişdi. Azərbaycanın bütün ərazilərində törədilmiş bu cinayətlərin ən dəhşətlisi o dövrdə Qarabağ bölgəsinin Zəngəzur və Şuşa qəzalarında baş vermiş hadisələr idi. Elə həmin dövrdə ermənilər törətdikləri soyqırımları ört-bastır edərək bu vəhşilikləri gizlətmək üçün saxta "erməni soyqırımı" hay-küyü ilə dünyada təbliğat aparmış, özlərinin törətdikləri vəhşilikləri türklərin ermənilərə qarşı törətdiyi vəhşilik kimi qələmə verməyə çalışmışdılar.

Əksər böyük dövlətlər isə öz siyasi mənafeyinə xidmət edən bu təbliğatın aparılmasına şərait yaratmışdılar. Lakin həqiqəti bilən bu dövlətlər regionda siyasi-iqtisadi maraqlarını qorumaq üçün özlərinə sadiq ola bilən qul axtarışında idilər. Bu böyük dövlətlər hiyləgər və tamahkar erməni siyasətbazlarına şipşirin "Böyük Ermənistan" vədləri verməklə aldadır, bu saxtakarları öz mənafelərinə xidmət etməyə məcbur edirdilər.

Ermənilər "Daşnaksutyun" başda olmaqla, siyasi partiyalar və terror təşkilatları vasitəsilə regionda Avropa dövlətlərinin siyasi köləsi rolunu oynayırdılar. RSFSR xarici işlər komissarı G.Çiçerinin dediyi kimi: "Şərqdə işğalçılıq siyasəti yürüdən xarici kəşfiyyatın agentləri satqın, yaltaq və xain erməni daşnakları idi" [66, 4].

S.Şaumyan başda olmaqla, digər daşnak qrupları isə Rusiya bolşeviklərinin siyasi-iqtisadi maraqlarına xidmət edirdilər. Ayrı-ayrı dövlətlərin siyasi maraqlarına xidmət etmələrinə baxmayaraq, hər iki

qrupun fəaliyyəti eyni yerdən – erməni kilsələri tərəfindən idarə olunurdu. Hər iki qrupun başlıca məqsədi regionda azərbaycanlı əhalini məhv etməklə ermənilərin say çoxluğuna nail olmaq və burada böyük dövlətlər tərəfindən vəd edilmiş "Böyük Ermənistan" dövləti yaratmaqdan ibarət idi.

Rusiyada 1917-ci il fevral burjua inqilabından sonra imperiyanın Birinci dünya müharibəsi cəbhələrində vəziyyəti daha da ağırlaşdı. Rus ordusu tərkibində vuruşan üç korpusdan ibarət 250 min nəfər erməni könüllüsü osmanlı ordusunun ruslara qarşı əks-həmlələri nəticəsində pərən-pərən düşüb, quldur dəstələrinə çevrilərək rus hərbi birləşmələrinin tərkibinə səpələndilər və bunun nəticəsində türk-müsəlman soyqırımı işi zəiflədi. Çünki vahid komandanlıq həm rus ordusunun sərəncamında idi, həm də erməni qüvvələri parçalanmışdı. Lakin "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün ermənilər yeni plan hazırlayırdılar. Bu plana əsasən başlıca məqsəd ilk növbədə türksüz ölkə yaratmaqdan ibarət olmuşdur.

Bu dövrdə Avropa ölkələrində erməni məsələsinin siyasət aləminə daxil olunması təmin edilmiş, erməni "Daşnaksutyun" partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə Bakıya yığılmış və onlar "Böyük Ermənistan" yaradılması üçün yeni taktikaya geçmişdilər. Rus, eləcə də ingilis, fransız hökumətləri ilə bağlı olan və onlara xidmət edən "Daşnaksutyun" partiyası "Böyük Ermənistan" xəritəsini əllərində gəzdirərək, millətlər arasında, xüsusilə Azərbaycanda gərginlik yaradaraq, azərbaycanlılara qarşı düşmənçiliyi daha da qızışdırırdı [40, 169-175].

Öz məqsədlərinə çatmaq üçün xəyanət yolunu tutmuş ermənilər Birinci dünya müharibəsinə böyük ümidlər bəsləyirdilər. Müharibə dövründə fəallaşan "Daşnaksutyun" partiyası azərbaycanlılara qarşı mübarizəni daha da gücləndirdi. Qərb dövlətlərinə və çar Rusiyasının köməyinə ümid bəsləyən ermənilər əsas mübarizə mərkəzini Azərbaycana keçirdilər. "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Azərbaycan xalqına qarşı çoxtərəfli mübarizəni genişləndirdilər və dəhşətli cinayətlər törətdilər [415, 37].

Ermənilər azərbaycanlıları məhv etmək üçün terror dəstələri ilə kifayətlənməyib, əməlli-başlı nizami ordu yaratmağı qərara aldılar.

Onlar 1917-ci ilin may ayında o zamankı Rusiya müvəqqəti hökumət başçısı Kerenskinin yanına nümayəndə göndərib, ondan xahiş etdilər ki, rus ordusunda olan erməni könüllülərindən yeni ordu təşkil edib türklərə qarşı vuruşmağı gücləndirməyə icazə versin. Onlar bunun üçün müvəqqəti hökumətdən silah da tələb etdilər [129, 171].

1917-ci il 1 dekabrda "Erməni Milli Nümayəndəliyi"nin prezidenti Poqos Nübar Fransa parlamentinin deputatı Alber Tomasa məktubunda yazırdı: "Ermənilərə öz doğma torpaqlarını müdafiə etmək üçün rus ordusunun müxtəlif cəbhələrə səpələnmiş 150000 erməni əsgərini Qafqazda toplamaq lazımdır. Kerenski hökuməti bizim müraciətə cavab olaraq bu toplanma üçün göstəriş verib və hal-hazırda burada 35000 erməni əsgəri toplanıb" [29, 29-30; 129, 173].

1917-ci il avqustun 4-də Petroqradda general-mayor A.Baqratuni və L.Tiqranyan erməni korpusunun yaradılması layihəsini Rusiya hərbi nazirinin köməkçisi B.Savinkova təqdim etdilər. Ermənilər Hərbi Şura yaradaraq, 1917-ci ilin mayında 35000 (otuz beş min) nəfərlik qoşun korpusu təşkil etdilər. Həmin ildə erməni millətçiləri Tiflisdə keçirilən kəndli deputatların qurultayında "köçərilər" haqqında məsələni qaldıraraq Cənubu Qafqazın inzibati cəhətdən yenidən bölüşdürülməsi təklifi ilə çıxış etdilər və Yelizavetpol (Gəncə) quberniyasının iki inzibati vahidə ayrılması ideyasını ortaya atdılar. Bu təkliflərdə ermənilər ilk olaraq Yelizavetpol qəzasının dağlıq hissəsinin və Qarabağ, o cümlədən Zəngəzurun da daxil edildiyi Gərni quberniyasının yaradılmasını təklif etdilər. Beləliklə, erməni daşnakları Cənubi Qafqazın, ilk növbədə Gəncə quberniyasının yeni inzibati bölgüsü barədə səs-küy salmaqla əslində "Böyük Ermənistan"ın xəritəsinin konturlarını cızmağa çalışırdılar [29, 14; 129, 172].

1917-ci ilin oktyabrında Tiflisdə keçirilən "Ümummilli erməni konfransı"ndakı əhval-ruhiyyə və səslənən fikirlər də çox tezliklə erməni-gürcü və erməni-azərbaycanlı münasibətlərini xeyli gərginləşdirdi. Bunun səbəbi həmin konfransda ermənilərin ərazi iddiaları qaldırmaları ilə bağlı olmuşdu. Lakin bolşeviklərin millətlərin hüquq bərabərliyinə dair aldadıcı siyasəti və Leninin erməni planlarının reallaşmasına şərait yaradılmasına yönəldilən addımları, 1917-ci ilin dekabrında S.G.Şaumyanın Qafqazın Fövqəladə Komissarı təyin

olunması ermənilər daha da fəallaşdırdı [129, 173; 130, 106].

1917-ci ilin dekabr ayında ermənilər Zəngəzur qəzasının Kürdlər, İrimis, Pöhrəli və Düyə kəndlərinə hücum edib onları dağıtmış, İrimis kəndindən 8 nəfər, Pöhrəli kəndindən 9 nəfəri qətlə yetirmişdilər. Bu kəndlərə ümumilikdə 520 min rubl zərər vurulmuşdu [68, 24].

1918-ci ildə Cənubi Qafqazı Rusiyanın siyasi təsirindən qurtarmağa çalışan üç müstəqil respublikanın – Gürcüstan, Azərbaycan və Ararat (Ermənistan) elan edilməsi bu regionda gərginliyin artmasına səbəb oldu.

O dövrdə təzəcə yaranmış Ararat (Ermənistan) Respublikası Yuxarı Qarabağ problemini hərbi yolla həll etməyə çalışırdı. Onun üçün Andronikin silahlı quldur dəstələri 1918-ci ildə Qarabağa yeridildi.

1918-ci il iyulun 15-də AXC hökuməti xüsusi iclas keçirdi. İclasda çıxış etmiş Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri M.Hacınskinin məruzəsində deyilirdi: "Artıq dörd aydır ki, Azərbaycanın müxtəlif hissələrində dinc Azərbaycan kəndlərində ermənilər görünməmiş vəhşiliklər törədir, adamların həyatlarını və əmlaklarını məhv edirlər..., təklif edirik ki, ayrıca bir təşkilat yaradılsın və onun qarşısında aşağıdakı vəzifələr qoyulsun: Bütün zorakı hadisələri dəqiq qeydə almaq, bu hadisələrin baş verdiyi şəraiti müəyyənləşdirmək, müqəssirləri tapmaq və dəymiş zərərin həcmini hesablamaq. Təşkilat Fövqəladə İstintaq Komissiyası xarakteri daşımalı və onun məlumatları əsas Avropa dillərində – rus, fransız, alman və təbii ki, türk dilində yazılmalı və geniş yayılmalıdır. Əgər hökumət bu təkliflə razıdırsa, mən xahiş edirəm ki, bu komissiyanın təşkil edilməsi nazirlərdən birinə tapşırılsın və bu komissiyanın xərcləri üçün müvəqqəti olaraq 50 min manat pul ayrılsın". M.Hacınskinin bu təklifi qəbul edildi [20, v. 1; 21, v. 2] və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə 1918-ci il 15 iyulda Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurası Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Fövqəladə İstintaq Komissiyasının sədri Ələkbər bəy Xasməmmədov təyin edildi. Komissiya 1918-ci ilin qanlı mart hadisələrini, Azərbaycanda və onun tərkib hissəsi olan Qarabağ bölgəsində ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayətləri araş-

dırmağa başladı [22, v. 1].

Fövqəladə İstintaq Komissiyası Azərbaycanın bir sıra bölgələri ilə yanaşı Zəngəzurda da müsəlman əhaliyə qarşı törədilmiş vəhşiliklər haqqında araşdırmalar aparmış və qiymətli sənədlər toplamısdı. Yeri gəlmişkən, Fövqəladə İstintaq Komissiyasının topladığı 36 cildlik, 3500 səhifəlik istintaq materiallarının, təqribən 80 səhifəlik 2 cildi Zəngəzur qazasındakı hadisələr haqqındakı məlumatları özündə ehtiva edir. Komissiyanın üzvü N.Mixaylov Gəncə quberniyasının Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur qəzalarında müsəlmanlara qarşı həyata keçirilmiş kütləvi zorakılıq faktları əsasında geniş məruzə hazırlamışdır [112, 17].

Bütün bu tədbirlərə baxmayaraq erməni terror dəstələri Azərbaycan Cümhuriyyətinin ərazisində vəhşiliklər törətməkdə davam edirdilər. 1918-ci ilin sentyabr ayından Andronikin quldur dəstələrinin Zəngəzur qəzasına hücumları sistemli şəkildə həyata keçirilməyə başladı. Nəticədə Zəngəzur qəzasının Urud, Dərəbas, Ağüdü, Vağüdü kəndləri talan edildi. Arxalı, Siyaqut, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, Qarakilsə, İrlik, Pəhlulu, Dərəbas, Kürdlər, Xotanan, Sisiyan və Zabazadur kəndlərinin azərbaycanlılar yaşayan hissələri yandırıldı, bu zaman qaçıb xilas olmağa imkan tapmamış 500 nəfər kişi, qadın və uşaq öldürüldü [68, 85].

1918-ci ilin yayında və payızında Sisiyan mahalının birinci polis məntəqəsinin bütün Azərbaycan kəndləri, 2-ci polis məntəqəsinin böyük hissəsi, 3-cü, 4-cü, 5-ci məntəqələrinin xeyli hissəsi ermənilər tərəfindən məhv edilmişdi. Kəndlərin bir çoxu ermənilər tərəfindən tamamilə yandırılıb xarabalığa çevrilmişdi. 50 minə qədər azərbaycanlı qaçqın qəzanın 4-cü məntəqəsinə və Cəbrayıl qəzasına pənah gətirmişdi. Rəsmi sənədlərə və şahidlərin məlumatlarına görə, qəzada 115 kənd dağıdılaraq məhv edilmişdi [19, v. 6; 45, 205].

Qarabağın Zəngəzur qəzasında Azərbaycan kəndlərinin, demək olar ki, əksəriyyəti yandırılmış, əhalinin əmlakı və mal-qarası zorla aparılmışdı [19, v. 7-8].

Ermənistan hökuməti bilərəkdən Cənubi Qafqazda vəziyyəti gərginləşdirir, dədə-baba yurdlarında yaşayan azərbaycanlıların zorakılıqla kütləvi surətdə didərgin salınması məqsədi ilə xalqımıza qarşı

kütləvi qırğın siyasəti yürüdülürdü.

Rəsmi arxiv sənədlərində verilmiş məlumatlarda yalnız Qarabağ bölgəsində deyil, Azərbaycanın digər bölgələrində də azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar öz əksini tapmışdır. 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyul ayına kimi Andronik Ozanyanın, Nijdenin, Dronun, Kibbonun, Doluxanovun və b. başçılıq etdikləri erməni quldur dəstələri tərəfindən təkcə İrəvan quberniyasında 200-dən artıq və Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında 50-dən artıq türk-müsəlman kəndinə basqınlar edilmiş, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşdülər [26, v. 103-105].

1918-ci il avqustun əvvəllərində Andronikın Naxçıvan, Zəngəzur və Qarabağ torpaqlarında törətdiyi vəhşiliklərlə bağlı Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün 1918-ci il 15 avqust tarixli 461 №-li rəsmi məktubu ilə Ermənistan hökumətinə müraciət edərək bu rüsvayçılıqlara son qoymağa və Andronikin quldur dəstəsini Azərbaycan ərazisindən geri çəkməyi tələb etmişdi. Ermənistan hökuməti həmin məktuba cavabında riyakarlıqla bildirmişdi ki, “...general Andronik, həm də onun dəstəsi artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısından çıxarılmışdır, bundan sonra onlar Ermənistan rəhbərliyinə, onun vəzifəli şəxslərinə tabe olmaqdan imtina etmişlər. Beləliklə, general Andronik və onun dəstəsinin Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxdur və Ermənistan Respublikasının hökuməti onların məsuliyyətsiz hərəkətlərinə cavabdeh deyildir” [98, 53-54].

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi Fövqəladə İstintaq komissiyasının üzvü Mixaylovun məruzəsi əsasında Qarabağın Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında erməni quldur dəstələrinin hücumlarından zərər çəkmiş Azərbaycan kəndlərinin dağıdıldığını dəqiq faktlarla açıb göstərmişdi. Təkcə Şuşa qəzasında yaşayan azərbaycanlı əhaliyə dəymiş zərərin miqyası 100 milyon (mln.) rubl məbləğində olmuşdu [19, v. 1, v. 11-12].

Fövqəladə İstintaq Komissiyası müəyyən etmişdir ki, 1918-ci ildə Zəngəzurda 114, Qarabağ bölgəsindəki digər üç qəzada 117 kənd dağıdılıb, 13056 nəfər öldürülüb, 304 nəfər diri-diri yandırılıb-

dır [80, 29].

1918-ci ilin başlanğıcında ermənilərə dəstək verən Rusiya Milli Şurası Azərbaycanda kütləvi qırğınlar törətmək üçün Qafqazın xristian əhalisini məqsədli şəkildə səfərbər edib silahlandırmışdır. Bu fakt arxiv sənədlərində öz əksini tapmışdır. 1918-ci il martın əvvəllərində Rusiya Milli Şurasının Qafqazda xristian əhalisinə xüsusi müraciəti də nəşr olunmuşdur. Müraciətdə 11 martdan 18 marta qədər olan müddətdə 19-25 yaş arası bütün rus gənclərinin səfərbərliyə alındığı qeyd edilmişdir. Səfərbərlik 31 marta qədər davam etdirilmişdi [23, v. 1].

Düşünün ki, bu, hələ Birinci dünya müharibəsi dövründə Azərbaycanın türk-müsəlman əhalisinə etibar etməyən, onun Osmanlı dövlətinin xeyrinə ayağa qalxa biləcəyindən ehtiyat edən çar hakimiyyəti orqanları tərəfindən Muğana və b. bölgələrə yerləşdirilmiş rus əhalisinə "Berdanka" tipli tüfəng, habelə patron və s. paylanılması kimi tədbirlərin bir növ davamı, bənzəri idi [430, 399].

Müsəlmanların ermənilər tərəfindən kütləvi qırğınlara məruz qalmasının əsas səbəblərindən biri də çarizm dövründə müsəlmanların orduda hərbi xidmət etmələrinə icazə verilməməsi idi. Bununla bağlı M.Ə.Rəsulzadə özünün "Çağdaş Azərbaycan tarixi" adlı əsərində yazırdı: "Çarlığın Azərbaycan türklərinə endirdiyi böyük zərbələrdən biri, onu əsgərlik hikmətindən miəf tutmasıydı. Bu surətdə fitrətin cəngavər bulunan bura türklərinə əsgərlik haqqını unutdurmaq və bu surətlə onları Rusiya imperializmi zərərsiz bir hala qoymaq istəmişdi" [197, 2].

Çarizmin həyata keçirdiyi bu siyasət Qafqazın müsəlman əhalisinin o dövrün hərbi sənətinə olan marağını müəyyən qədər zəiflətmiş, əli silah tuta biləcək əhalini hərbi vərdiş və bacarıqlardan kənarda qoymuş, mərhum etmişdir. Ermənilər isə əksinə olaraq məqsədli şəkildə çar Rusiyasının ordu sıralarına çağırılmış və onlara hərbi sənətin öyrədilməsi təmin edilmişdir. Bu da silahlı erməni dəstələrinin Qafqazda özbaşınalıqlar törətməsinə şərait yaratmışdır.

Ermənilərin törətdiyi cinayətlərlə bağlı hələ Cənubi Qafqaz, Seymi dövründə İrəvanda baş vermiş hadisələr Seymin 1918-ci il 5, 7, 19, 20 fevral tarixli iclaslarında müzakirə olunduqdan sonra, vəziy-

yəti öyrənmək üçün oraya nümayəndə heyəti göndərilmişdi. Təhqiqat zamanı nümayəndə heyəti İrəvan bölgəsində 211 türk kəndi və minlərlə nəfər əhalinin məhv edildiyini müəyyənləşdirmişdi [221, 111].

1918-ci ilin may ayında Qafqazda Azərbaycan, Gürcüstan, Ararat (Ermənistan) respublikaları yaranan kimi İrəvanın təbliği, təhriki və təzyiqi ilə Qarabağdakı erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Cümhuriyyəti hökumətini tanımaqdan imtina etdilər. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda Şuşada keçirilən yığıncağında Dağlıq Qarabağ müstəqil elan edilmişdi. Düzdür bu sənəddə ermənilər hələlik bölgənin Ermənistanın tərkibinə daxil olunması məsələsini açıq hallandırmırdı. Ermənistan hökuməti Dağlıq Qarabağın işğalı planlarını həyata keçirmək üçün oraya silahlı qüvvələr yeritdi. Erməni silahlı birləşmələri tərəfindən Ağdam-Qaryagin yolu bağlanıldı. Qəzanın 2-ci polis məntəqəsi tamamilə, 1-ci, 3-cü və 4-cü polis məntəqələri qismən dağıdıldı [180, 39; 19, v. 9-10].

Ermənilərin məqsədli şəkildə törətdikləri bu cinayətkar əməllər Qarabağ bölgəsində çoxluq təşkil edən Azərbaycan türklərinin haqlı narazılığına səbəb oldu. Hətta bundan belə yararlanmağa çalışan erməni silahlı dəstələri Qarabağın şəhərlərində və kəndlərində Azərbaycan türklərinə qarşı yeni cinayətlər törətməkdə davam edirdilər.

Ermənilərin Qarabağ torpaqlarında törətdikləri qanlı cinayətlər və türk-müsəlman əhalisinə qarşı tətbiq etdikləri işgəncələr barədə verilmiş məlumatlar sənədlərdə belə əks olunmuşdur: "Cavanşir qəzasının Umudlu kəndində ermənilər Süleyman Qazaxaslan oğlunu, Məmməd Məşədi Paşa oğlunu və Kazım Atam oğlunu öldürmüş və tikə-tikə doğramışdılar; həmkəndliləri onları bu vəziyyətdə tapmışdılar, Hacı Qərvənd kənd sakini Zeynəb Şirin qızının meyiti döşləri kəsilmiş halda tapılmışdı. Sırxəvənd Bollu Qaya kənd sakini Soltanəli İman oğlu Qazançı kəndi yaxınlığında saxlanılmış, vəhşicəsinə öldürülmüş və yandırılmışdı; Güney Qaya Sırxavənd kənd sakinləri Şərif İsmayıl oğlu və Rəcəb Novruzəli oğlunun başları kəsilmiş və aparılmışdı. Cəbrayıl qəzasına mənsub Hadrutun Muxan və Noromanik kəndlərinin erməniləri Balyand kənd sakinləri Cəfər Ələkbər oğlunu və Nəsir Məhərrəm oğlunu qarət etmiş, sonra isə öldürmüşdülər: ölənlərin meyitləri çılpaq vəziyyətdə tapılmışdı. Axıllı kəndində

2 kişi, 3 qadın və 1 uşaq öldürülmüş, 1 kişi yaralanmışdı. Evatlı kəndində 1 kişi, Məzrə kəndində 6 kişi öldürülmüşdü" [45, 203; 31, 32].

1918-ci ildə Qarabağda baş vermiş qanlı hadisələrdən bəhs edərkən Şuşa haqqında ayrıca danışmamaq olmaz. Andronikin agentləri Qarabağda erməni əhalisini qiyama təhrik etdikdən sonra, Andronik şəxsən üç dəfə bu qala-şəhəri tutmağa cəhd göstərmiş və hər dəfə də böyük itkilərlə Gorusa geri çəkilməyə məcbur olmuşdu [262, 51].

1918-ci ilin qanlı hadisələri, Azərbaycanın Qarabağ bölgəsində olduğu kimi, onun mərkəzi olan Şuşa şəhərində də mürəkkəb vəziyyət yaratmışdı. O zaman təxmini 40 minlik Şuşa əhalisinin təqribən yarısı azərbaycanlılardan, yarısı isə ermənilərdən ibarət idi. Şəhər hər tərəfdən 12 erməni kəndi ilə əhatə olunmuşdu. Onların arasında yeganə azərbaycanlı kəndi Malıbəyli idi.

Bu dövrdə Gəncə quberniya idarəsinə qəza rəisləri tərəfindən göndərilən sənədlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlər barədə çoxlu məlumatlar vardır.

"Şuşa qəza rəisinin Gəncə qubernatoruna 28 yanvar 1919-cu il tarixli 165 saylı raportu.

1918-ci il dekabrın 31-də Qarakənd kəndinin erməniləri tərəfindən iki müsəlman qətlə yetirilib və Ağdam-Qaryagin teleqraf xətti zədələnib. Verilmiş məlumatlara görə, 2-ci polis məntəqəsində, "1918-ci il dekabrın ortalarında ermənilər Hoğa kəndində 55 azərbaycanlı evini dağıtmış, mülkədar Cavanşirin malikanəsini yandırmış, ailə başçısı Əsəd ağa Cavanşiri, onun oğlu Sultan ağanı, qızı İyanə bəyimi, qardaşı qızı Fatma bəyimi, qulluqçusu İnci Abış qızını və Vəli Kərbəlayı Ələsgər oğlunu öldürmüş, dərilərini soyub xəncərlə doğramışdılar.

Yenə də 1918-ci ilin yayında ermənilər Zarıslı kəndinə hücum edib 300 iribuynuzlu mal-qaranı aparmışlar. Bu vaxtı ermənilər Şuşadan Cəbrayıl qəzasına un almağa gedən 12 azərbaycanlını "Molla Nəsrəddin yolu"nda öldürmüşlər" [45, 203].

Ermənilər bölgənin türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlarla kifayətlənmir, kəndlərdə yaşayan əhalini içməli sudan məhrum edirdilər.

Ermənilər tərəfindən Tərtərçay su hövzəsinin qarşısına 1918-ci

ilin yaz və yayında bənd çəkilməsi, düzənlikdəki azərbaycanlılar yaşayan kəndləri içməli sudan məhrum etmiş, su dəyirmanlarının işi tamamilə dayanmışdı [19, v. 3].

1918-ci il dekabrın 2-də erməni silahlı dəstəsi tərəfindən Aşıq Məlikli kəndi yandırılmış, Məzrə kəndində 5 nəfər, Sirik kəndində 11 kişi, 10 qadın, 14 uşaq öldürülmüş, 2 kişi yaralanmışdı [19, v. 5].

Elə həmin gün Cavanşir qəzasının Mehmana kəndində məskən salmış daşnak terrorçuları kənddə yaşayan azərbaycanlıların evlərini mühasirəyə almış, onları tərksilah etmişdilər. Üç nəfəri isə qətlə yetirmişdilər. Kəndi azərbaycanlılardan bütünlüklə təmizləmişlər.

1918-ci il dekabrın 31-də daşnak terrorçuları Cavanşir qəzasının Qarapirim kəndinə basqın etmişdilər. Cəmşid bəy Vəlibəyovun 1350 baş qoyun sürüsünü və at ilxısını qarət edib aparırlar. Yenə də 31 dekabr 1918-ci ildə Cavanşir qəzasının Dovşanlı kəndində məskən salmış daşnak terrorçuları kənddəki 135 azərbaycanlı evini mühasirəyə alaraq onları tərksilah etmiş, bundan sonra mal-qaralarını və ev əşyalarını qarət etməyə başlamışlar. Ev-eşiyindən didərgin düşən qaçqınlar sonralar Boyəhmədli, Kəngərli, Tərnəküt kəndlərinə sığınıb qalmışdılar [80, 31].

1918-ci il dekabrın 2-də Mülkədərə kəndində məskən salmış daşnak terrorçuları Cəbrayıl qəzasının Məzrə, Məlikli, Tatar kəndlərinə basqın etmişdilər. Məzrə kəndində 6 nəfər qətlə yetirilmiş, Məlikli, Tatar kəndlərində 6 kişi öldürüb, 2 qadın isə ağır güllə yarası almışdı. Hər üç kənd talan edilmişdi. Elə həmin gün daşnak terrorçuları Cəbrayıl qəzasının Cilan erməni kəndinə diləyə gəlmiş Həsən İmamverdi oğlunu, qəzanın Köhnə Tağ kəndində məskən salmış daşnak terror qrupu isə Xanağabulağı kənd sakini Allahqulu Mahmud oğlunu otlağa qoyun çıxardığı yerdə qətlə yetirmişdilər. 3 dekabr 1918-ci ildə Daşnak terrorçuları Cəbrayıl qəzasının Axullu kəndinə basqın edib iki kişi, üç qadın, bir uşağı qətlə yetirmişdilər [68, 31; 80, 28].

1918-ci il dekabrın 11-də daşnak terror qrupu Şuşa yaxınlığından keçən poçt yolunu kəsmiş, Poçtu dağıdaraq soyğunçuluq etmiş, poçtda işləyən azərbaycanlıları qətlə yetirmişlər [68, 33; 80, 31].

1918-ci ilin sentyabrından 1919-cu ilin sentyabr ayınadək daşnak

terror qrupları Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında azərbaycanlılar yaşayan 150 kəndi dağıtmış, 13050 nəfər azərbaycanlını qətlə yetirmişdilər [80, 29].

Zəngəzur qəzasında 1917-ci ilin dekabrından 1918-ci ilin sentyabrınadək Andronik, Dro, Nijde başda olmaqla daşnak terror qrupları tərəfindən Zəngəzurun 115 kəndi yerlə-yeksan olunmuş, 3257 kişi, 2276 qadın, 2196 uşaq, 1068 yaralı kişi, 749 qadın və 485 uşaq daxil olmaqla 10068 nəfər Azərbaycan türkü məhv edilmiş, və ya vəhşi işgəncələrə məruz qoyulmuş, sağ qalan əhali ellikcə yurd-yuvasından didərgin salınmışdır [45, 206; 346, 48; 80, 30].

Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar zamanı, Qarabağın digər qəzası olan Zəngəzurdan bu qəzalara 50000 nəfərədək azərbaycanlı qaçqın gəlmişdir [45, 205; 112, 40].

1918-ci ildə Azərbaycan hökuməti tərəfindən Qarabağ bölgəsində 20 mindən artıq qaçqına yardım edilmiş, 3 ay ərzində Zəngəzur qaçqınlarına 187500 manat kredit ayrılmışdı [154, 46].

Hələ 1918-ci il avqustun 31-də keçirilmiş Beynəlxalq məhkəmədə ermənilər ötən bir il ərzində 400 min Azərbaycan türkünü, 120 min gürcünü, 22 min ləzgini, 15 min kürdü qətlə yetirdiklərini etiraf etmişdilər [80, 26].

Ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri qanlı olaylara baxmayaraq, erməni mətbuatı dünyaya ermənilərin, azərbaycanlılar tərəfindən qətlə yetirilməsi barədə şişirdilmiş yalan məlumatlar verirdi [226].

Erməni diplomatiyası isə yeni-yeni planlar hazırlayırdı. 1918-ci ilin avqustunda Tiflisdəki Ermənistan diplomatik nümayəndəsi Azərbaycanın oradakı diplomatik nümayəndəsindən Şuşaya Ermənistanın "xüsusi nümayəndə heyəti" göndərməsinə razılıq verməyi xahiş etmişdi. Bu rəsmi müraciətə Azərbaycan hökuməti aşağıdakı cavabı vermişdir: "Əgər Azərbaycan hökuməti əmin olsa ki, nümayəndə heyəti Azərbaycanın qanunlarına əməl edəcək və Azərbaycan hökumətinin müşahidəsi altında fəaliyyət göstərəcək, onda Ermənistan xüsusi nümayəndə heyətinin Şuşaya getməsinə icazə veriləcəkdir" [117, 113].

Bu müraciətin arxasında isə yeddi qat erməni hiyləgərliyi gizlədilmişdir. Erməni diplomatlar hesab edirdi ki, məhz belə bir dövrdə Ararat Respublikasının nümayəndə heyətinin Şuşaya gedərək orada sərbəst hərəkət etməsi burada yaşayan ermənilərin özünəinam hissini gücləndirəcək və onlar azərbaycanlıların məhv edilməsində daha güclü fəallıq göstərəcəklər.

Osmanlı dövlətindəki Rusiyanın baş konsulu Mayevski öz xatirələrində yazırdı ki, mən belə bir əqidəyə gəlmişəm ki, vəhşiliyə türklər əsla qadir və qabil deyillər, daha çox Şərqin məhz həmin xristianları (ermənilər nəzərdə tutulur) qadirdirlər. Onlar bu vəhşilikləri uydurmaqla törədir, ustalaşır, kəskinləşdirir və sonradan isə bunları türklərin boynuna atırlar [198, 31].

Ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdikləri soyqırımın qarşısını almaq üçün 1918-ci ildə İsmayıl Həqqi bəyin başçılığı altında şəhərə yaxınlaşan türk və Azərbaycan qoşunları 1918-ci il sentyabrın 25-də Şuşanı ermənilərin mühasirəsindən xilas etdi [30, 32].

Daşnak silahlı dəstələri dinc əhaliyə qarşı vəhşiliklər tətbiq edərək əhalini təşvişə salmağa cəhd edirdilər. Ermənilər Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, Zəngəzurda, Dərələyəzdə qocaları, qadınları, uşaqları qılıncdan keçirir, bu gün olduğu kimi, 1918-ci ildə də azərbaycanlıların yaşayış yerlərini yandıraraq "ölü" zonalar yaratmaq istəyirdilər. Həmin dövrdə daşnak hərbi qüvvələrinin təşkil etdiyi bu soyqırımı başda Stepan Şaumyan olmaqla erməni bolşevikləri vətəndaş müharibəsi kimi qələmə verməyə və bununla da, əsl tarixi həqiqəti ört-basdır etməyə çalışırdılar.

Məhz belə amillərin culğalaşması nəticəsində, erməni-daşnak-bolşevik silahlı dəstələri birləşərək İrəvan, Naxçıvan, Bakı, Şamaxı, Quba, Zəngəzur, Şuşa və Azərbaycanın digər şəhər və kəndlərində azərbaycanlılara qarşı əsl soyqırım həyata keçirmişdilər.

Hələ çar Rusiyasının Qafqaz cəbhəsində hərbi əməliyyatları dayandırmasına qədər hərbi hissələrdən qaçan erməni əsgərləri Tiflis alayından fərarilik edərək, oğurlayıb ələ keçirdikləri çoxlu silah və sursatı öz kəndlərinə gətirmişdilər. Onlar bu silahlarla Zəngəzur qəzasının bir neçə kəndinə hücum edib bu yaşayış məntəqələrini dağıtmışdılar. Hadisə yerinə gələn general-mayor Tokaşvili heç bir ciddi

tədbir görmədən hadisə yerini tərk etmişdi. Ermənilər bu hadisədən sonra cəsarətlənərək Cavanşir qəzasında yerləşən Kolanlı cəmiyyətinin Dəmirlər, İmarət-Qərvənd, Çərəkdar, Umudlu, Qaralar, Şxavənd, Sırxavənd, Buruc, Əlağalı, Xaçın-Dərbənd, Çıraqlı, Hacı Qərvənd kəndlərini tamamilə dağıtmışlar [3, v.10a; 19, v. 1-2].

1918-ci il dekabrın 2-də ermənilərin silahlı dəstəsi Aşıq Məlikli, Xələfli və Şıxlar kəndlərini yandırmış, əhalinin əmlakını ələ keçirmiş, mal-qarasını aparmışdı. Cəbrayıl qəzasının azərbaycanlılar yaşayan kəndlərin əksəriyyətinə çoxlu maddi ziyan vurulmuşdu [19, v. 5].

Qarabağ bölgəsinin Zəngəzur qəzasında yaşayan əhalinin vəziyyəti Azərbaycanın digər qəzalarına nisbətən daha ağır idi. Qəzanın kəndlərinə, erməni kəndlərində silahlanmış daşnak terrorçularından başqa, Andronikin silahlı quldur dəstələri də hücum edirdilər. Andronik qəzaya daxil olan kimi azərbaycanlı əhaliyə ultimatum vermişdi ki, ya Ermənistan Respublikasının tərkibinə daxil olsunlar, ya da qəzanı tərk etsinlər. Ermənilər tərəfindən Sisiyan mahalının birinci polis məntəqəsinin bütün Azərbaycan kəndləri, 2-ci, 3-cü, 4-cü və 5-ci məntəqələrin xeyli hissəsi dağıdılmışdı [19, v. 6]. Bu kəndlər aşağıdakılar idi: Ağüdü, Dərəbas, Dulus, Kürdlər, Şəki, Urud, Vağüdü, İrəmis, Baharlı, Qızılçıq, Dərəkənd, Qarakilsə, Məlikli, Dortin(?), Dovruz, Qaradağ, Oxtar, Çobanlı, Gəyəli, Cullu, Şabadin, Almalı, Çanaxçı, Cibikli, Ağkənd, Turabxanlı, Quluc, Bəydaş, İncəli, Siznək, Qaraçimən, Qətər, Seyidlər, Xalaç, Daşlınov, Bəydağı, Noraşenik(?), Cicimli, Gəyəlı, Gomaran, Dərzili, Qazançı, Şayuplı, Tağamir, Tey, Atqız, Şərifan, Doluotlu, Əlvanlı, Tanzaver, Məc, Xocahan-1, Əmizli, Buğakar, Mülk, Bənövşəpyuş, Vartanozor-1 (Lök-1), Vartanozor-2 (Lök-2), Lehvaz, Əldərə, Mərziyit, Tuğut, Püşənli, Rəzdərə, Məmməd-İsmayıl, Gümandadanlu, Tatarkənd, Kollu-Qışlaq, Zəmilər, Əskərlər, Qaragöl, Çuxur-Yurd, Nəcəflər, Qaragilə, Şayıflı, Qayagöl-1, Qayagöl-2, Burunlu, Bürcəlilər, Güney-Qışlaq, Cambar, Xırdakişilər, Tafşalı, Şərikan, Qazançı, Qaralar, Gomaran, Xotakan(?), Oxtarlı, Xudayarlı, Şəkərli, Qılıçli, Tərnəvit, Nüvədi, Tuğun, Baharlı, Sənəlı, Səfi-Yurd, Kürkülü, Şatariz, Pirveyisli, Məşədi İsmayıllar, Burcalılar-dərzili, Çubuklu, Məzməzək, Ta-

zıkürdalı, Fərcan, Suarası, Bayramuşağı, Köhnə kənd, Qışlaq, Zabux, Bayandur, Bağırbəyli, Kiravis-Abdallar. Bütün bu kəndlər yandırılmış, əhalinin mal-qarası və başqa əmlakı zorla aparılmış, ərazisi ermənilər tərəfindən tutulmuşdu [45, 205-206; 19, v. 7].

Zəngəzur qəzasının Vağüdü kəndində ermənilər 400 nəfərdən çox Azərbaycan türkünü məscidə yığaraq, məscidlə birlikdə diri-diri yandırmışlar. Şəki kəndində çoxlu döşləri kəsilmiş qadın cəsədləri, işgəncə verilərək öldürülmüş kişi meyidləri və doğranılmış çoxlu körpə bədənləri tapılmışdır. Vağüdi kəndində ermənilər müsəlmanlardan tələb etmişdilər ki, xristianlığı qəbul etsinlər, qəbul etmədikdə qadınların döşlərini kəsib uşaqlarının ağzına qoyaraq, boğub öldürmüşdülər [19, v.8; 45, 206].

Ermənilər 1918-ci ilin iyununda Vağudi kəndini dagıtmış, qadınlara təcavüz etmiş, sakinlərin bütün əmlakını qarət etmiş, mal-qarasını ogurlamış, 250 kişi, 100 qadın və 100 uşağı öldürmüş, 20 kişi, 10 qadın və 9 uşağı yaralamış, 90 ev və s. tikilini yandırmış, 60-nı dağıtmışdılar [112, 24].

Bütövlükdə həmin qırğınlar zamanı Zəngəzur qəzasından 100-dən çox Azərbaycan kəndi dağıdılmış, talan olunmuş, on minlərlə iri-buynuzlu mal-qara, yüz minlərlə qoyun aparılmış, əkin sahələri və bağlar məhv edilmişdi. Azərbaycanlı kəndlərində ermənilərin törətdikləri cinayətləri təhlil edərkən belə bir nəticəyə gəlmək olar ki, istər 1905-1906-cı illərdə erməni-müsəlman davasında olduğu kimi, istərsə də 1918-1920-ci illərdə Zəngəzur qəzası və onun əhalisi erməni terroruna daha çox məruz qalmışdır. Təkcə 1918-1920-ci illərdə bu qəzadan erməni təcavüzündən xilas olmağa çalışan 60 minə qədər adam qaçqın kimi Qarabağın başqa bölgələrinə sığınmışdır [45, 208-209].

Zəngəzurun türk-müsəlman əhalisindən tamamilə təmizlənməsi yolu ilə ələ keçirilməsi qəsbkar erməni strategiyasının əsas hədəflərindən biri idi. Bu qəza onların strateji məqsədləri baxımından xüsusi geosiyasi önəm daşıyırdı. Zəngəzuru zəbt etməklə ermənilər bütün türk dünyasının təbii-cografi birliyinə zərbə vurmaq, türk xalqları arasında quru əlaqələrini həmişəlik qırmaq məqsədi güdürdülər. Hələ 1919-cu ilin yanvarında Azərbaycan rəhbərliyinin diqqətini bu

məsələyə cəlb edən Qarabağ general-qubernatoru X.Sultanov yazırdı ki, Qarabagın və Zəngəzurun əldən verilməsi Naxçıvanın və Ordubadın, ümumiyyətlə, bütün Azərbaycanın itirilməsi demək olardı. Naxçıvana və Ordubada yiyələnməklə isə Ermənistan, Bakı ilə Gəncə arasında bir paz kimi pərçim olaraq, Azərbaycana öz şərtlərini diktə etdirər, dövlətimizin siyasi qüdrətini və mövcudluğunu təhlükə altına qoya bilərdi [112, 17].

Qarabağda ermənilərin qırğınlar törətdikləri vaxt, 1918-ci il noyabr ayının 9-da Osmanlı qoşunu Bakını və bütövlükdə Azərbaycanı tərk etdikdən sonra Qarabağ bölgəsində vəziyyət daha da gərginləşdi. Ermənilər bundan istifadə edərək bölgəyə hücumlarını daha da intensivləşdirdilər. Bu ağır vəziyyət haqqında Ordubad milli komitəsinin sədri Mirhidayət Seyidzadə 1918-ci il dekabrın 22-də Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi məlumat vərəqəsində də yazırdı: “Türklərin Qafqazdan gedişindən sonra bizim vəziyyətimiz əvvəlkindən də pis oldu. Tiflis və Gəncəyə gedən yollar bağlandı, şəhərin ərzaqla təmin olması dayandırıldı, məhz buna görə də 500 nəfərdən ibarət dəstəmizi ləğv etdik, yalnız bir rotanı saxladıq. Naxçıvan və Şərurda müsəlmanlar belə vəziyyətə düşdülər, buna görə də biz bir müsəlman hökuməti – Araz hökumətini yaratmağı qərara aldıq. Əslində bu hökumət Naxçıvan və Şərur müsəlmanları tərəfindən yaradılmışdır və bizə də bura daxil olmaq təklif olunmuşdur. Biz də Gəncədən xəbərlərin kəsilməsini, həmçinin Araz hökumətinin də eyni istiqamətdə hərəkət etməsini nəzərə alaraq, öz razılığımızı bildirdik. Araz hökuməti yenicə yaranıb. Onun hansı formaya düşəcəyi məlum deyil. Son vaxtlar ermənilər yenə də bizə, Zəngəzur qəzasına, habelə Şərura və İrəvan qəzası müsəlmanlarına qarşı düşmənçiliyə başlayıblar. Onlar bizim kəndlərimizə basqınlar edir, camaatı kütləvi surətdə qarət edir və qırırlar. Zəngəzur qəzasında 20-yə qədər kəndin əhalisi öz doğma yerlərini tərk edib İrana, Qarabağa və bizə qaçmaqla xilas olublar. Ermənilər çalışırlar ki, Ararat dövləti Türkiyə sərhədlərindən başlayaraq, Şuşaya qədər gəlib çatsın. Həmin yerlərdə isə bir nəfər də olsun müsəlman türkü yaşamasın... Andronik dəstəsi ilə Zəngəzur tərəfdən hücuma hazırlaşır. Belə ağır gündə bizim vəziyyətimiz barədə düşünməyinizi, bizim

üçün hərəkət planı tərtib etməyinizi xahiş edirik. Xahiş edirik ki, kimlə vuruşduğumuz bizə izah edilsin: rəsmi düşmənlə yoxsa quldur dəstəsi ilə” [25, v. 9-11].

Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andronik burada bir növ “əldəqayırma” erməni “qubernatorluğu” təşkil edərək, Gorusu onun “mərkəzi”nə çevirdi, sonra da paytaxtı “Şuşa olacaq” “Kiçik Ermənistan” dövlətini yaratmağa çalışdı [18, v. 20; 24, v. 14].

Beləliklə, Birinci cahan savaşı və dövründə ermənilərin xalqımıza qarşı təcavüzkar əməlləri xüsusilə intensivləşmiş kənd və şəhərlərimizin əhalisi talanlara və qətliamlara məruz qalmışdır. Bütövlükdə götürülərsə 1914-1918-ci illərdə Azərbaycanın Qarabağ bölgəsində Azərbaycan türklərinə qarşı baş verən qətliamları aşağıdakı xronoloji ardıcıllıqda da görmək olar:

24 may 1914-cü il: Daşnak terror qrupu Cavanşir qəzasının Baş Güney kəndinə basqın edərək, “Şirin su” adlanan dərədə 9 nəfər Azərbaycan türkü olan dinc sakini güllələyirlər. Bununla ürəkləri soyumayan qaniçənlər qətlə yetirdikləri türklərin başını kəsirlər;

5 dekabr 1917-ci il: Daşnak terrorçuları Zəngəzur qəzasının Ərəfsə kəndinə soxularaq altı nəfər dinc sakini qətlə yetirmişdilər. Əhali məcburən ev-eşiyini tərk etmişdir;

8 dekabr 1917-ci il: Daşnak terrorçuları Zəngəzurun İrəmis kəndinə basqın edərək 8 nəfər dinc sakini qətlə yetirmişdilər. Qalan əhali ev-eşiyindən didərgin salınmışdır;

11 dekabr 1917-ci il: Daşnak terrorçuları Zəngəzurun Pöhrəli kəndinə basqın edib 9 nəfər dinc sakini qətlə yetirmiş, kəndə od vurub yandırmışlar;

14 dekabr 1917-ci il: Daşnak terror qrupu Zəngəzurun Dulus kəndinə basqın edirək burada sayı qeydə alınmayan qətllər törətmişdilər;

17 dekabr 1917-ci il: Daşnak terror qrupu Zəngəzur qəzasının Bəhrili kəndini dağıtmış, 9 nəfər dinc sakini qətlə yetirmişdilər;

31 dekabr 1917-ci il: Zəngəzurun Xınzirək kəndində məskən salmış daşnak terror qrupu qonşu Əliquluuşağı kəndinin sahəsində təsərrüfat işləriylə məşğul olan kənd sakinlərindən 6 nəfəri qətlə

yetirmiş, Behbud adlı kənd sakinini odun yığdığı yerdə ələ keçirib döymüş, sonra isə kürəyinə qaynar samovar bağlayıb dağdan dərəyə tullamışdılar;

06 yanvar 1918-ci il: Daşnak terrorçuları Zəngəzur qəzasının Qarakilsə kəndində əsl qətliam törədərək 165 dinc sakini amansızlıqla qətlə yetirmişdilər;

10 yanvar 1918-ci il: Daşnak terror qrupları Zəngəzurun Mülk kəndinə soxulmuş, kənd tamamilə yerlə-yeksan edilmiş, 150 nəfər dinc sakini qətlə yetirmişdilər;

11 yanvar 1918-ci il: Daşnak terror qrupları Zəngəzurun Qarakilsə kəndinə təkrar basqın edib 49 nəfər dinc sakini qətlə yetirmiş, kəndi ətraf aləmdən tamamilə təcrid etmişdilər;

13 yanvar 1918-ci il: Daşnak terror qrupu Zəngəzur qəzasının Pulkənd yaşayış məntəqəsinə basqın edib 19 nəfər dinc sakini öldürmüş, əhalinin əmlakını talan etmişdilər;

25 yanvar 1918-ci il: Mülkədərəli Avşar və Cilanlı Markarın başçılıq etdiyi daşnak terror qrupu Cəbrayıl qəzasının Eyvatlı kəndinə basqın edib evləri talamış, mal-qaranı sürüb aparmışdılar. Quldurlar girov götürdükləri kənd sakini Hüseyn Allahverdi oğlunu Xələf dağının gündoğan üzündəki daşarmud ağacına sarıyıb onun bədənindən nişangah kimi istifadə edərək qətlə yetirmişdilər;

1918-ci il mart-iyun aylarında Ağdam-Qəbələ yolunda Ağtala adlanan yerdə erməni terror dəstəsi icma başçısının köməkçisini və yoldaşlarını öldürmüşdü. Ermənilər əhali arasında vahimə yaratmaq üçün insana xas olmayan vəhşiliklər edirdilər. Onlar meyitlərin dərisini soyaraq ağacdan asmışdılar. Bağır dərəsində 5 nəfər, Çomaxlı stansiyası yaxınlığında 21 nəfər, Ərəb kəndində 8 nəfər, Ağtala dərəsində 20 nəfər, Ağdam-Hacılı yolunda 60 nəfər, Dizaxlı kəndində 9 qadın və 10 azyaşlı uşaq, Kürd kəndində 67 nəfər, Arakilsə, Dəstəşrət və Zabazadur kəndlərində 25 nəfər, Şınıx kəndində 95 nəfər azərbaycanlı öldürülmüşdü.

1918-ci ilin avqustunda ermənilər Zəngəzur qəzasının Şəki kəndində 95 nəfəri, Yəqub kəndində 28 nəfəri, Qızılcıq kəndində 28 nəfəri, Sisian kəndində 60 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirmişdilər.

1918-ci ilin noyabr ayında Zəngəzur qəzasının Mehri, Lehvaz, Tey, Mülk, Gül, Bənövşənuş, Taqalif, Vartanuz və ikinci Vartanuz kəndlərində 200 nəfər azərbaycanlı işgəncələrlə öldürmüşdü.

1918-ci il dekabrın 3-də Cəbrayıl qəzasının Qoqa kəndinə hücum edən ermənilər 10 nəfər dinc kənd sakini azərbaycanlını qətlə yetirmişdilər[80, 16-17; 68, 24-32].

Ümumiyyətlə, 1914-1918-cu illərdə Qarabağın dağlıq hissəsində 150-dən artıq, Zəngəzur qəzasında 115 kənd bütövlüklə dağıdılmış, əhalisinin xeyli hissəsi erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüşdü [31, 77-78].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bir tarixçi kimi XX əsrin əvvəllərində ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımlar barəsində dərin biliklərə malik idi. Təsadüfü deyildir ki, o, bu qeyri-insani əməllərə ilk dəfə rəsmi, siyasi qiymət verərək 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamış, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı cinayətlərini lənətləmək, soyqırım qurbanlarını yad etmək məqsədi ilə 31 mart tarixini Azərbaycanlıların soyqırımı günü elan etmişdir.

XX əsrin əvvəllərində çar hökumətinin dəstəklədiyi ermənilər tərəfindən Azərbaycanın türk-müsəlman əhalisinə qarşı məqsədli törədilən talanlar və soyqırım müəyyən baxımdan müstəmləkə rejiminin xalqımızın azadlıq hərəkatını boğmağa yönəldilmiş məkrli siyasətinin üzvü tərkib hissəsi idi. Lakin bütün bunlar xalqımızın Vətən torpağı uğrunda apardığı milli azadlıq mübarizəsini qıra bilmədi. Azərbaycanın mütərəqqi ruhlu, uzaqgörən insanları, vətənpərvər ziyalıları xalqımızı ümumi düşmənə qarşı vahid cəbhədə birləşməyə dəvət etdi və məhz həm də bu mübarizənin nəticəsi olaraq xalqımızı öz əzəli torpaqlarından silməyə yönəlmiş məkrli bolşevik-daşnaq planlarının reallaşdırılmasının qarşısı alındı, 1918-ci ildə vətənimizin bir hissəsi düşmənlərdən azad edilərək müstəqil dövlətimiz olan Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

## §3. Böyük dövlətlərin Cənubi Qafqaz siyasətində Qarabağ

XX əsrin əvvəlləri Azərbaycanın dövlətçilik tarixində yeni bir

yüksəliş mərhələsi olmuş, xalqımızın milli şüurunun inkişafında, azadlıq mübarizəsinin genişlənməsində, iqtisadi və intellektual potensialının artmasında xüsusi yer tutmuşdur.

Çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqaza köçürüb gətirdiyi erməniləri (hayları) işğal etdiyi Şimali Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ və b. bölgələrində yerləşdirməkdə maraqlı idi. İmperiya həyata keçirdiyi bu siyasətlə həm özünə xristian elementlərindən ibarət demoqrafik dayaq yaratmaq, həm də Rusiya imperiyasının Osmanlı dövləti və Qacarlar dövləti ilə olan yeni sərhədləri boyunca xristianlardan ibarət sipər "sanitar kordonu" yaratmaq istəyirdi.

Bununla bağlı 1912-ci ildə Rusiya imperiyası xarici işlər naziri S.D.Sazonov Nazirlər Kabinetindəki məruzəsində "Rusiyanın məqsədi, nəyin bahasına olursa-olsun, türklər və bizim tatarlar (Azərbaycan türkləri-H.B.) arasında olan səddi – Ermənistanı yaratmaqdır"-deyə söyləməklə, Rusiyanın ermənilərlə bağlı plan və məqsədlərini açıqlamışdır [264, 74].

Çar hökumətinin XIX əsrin 30-cu illərindən başlayan erməniləri köçürmə kampaniyası permanent şəkildə ardıcıl xarakter alaraq çar Rusiyasının məqsədyönlü siyasətinə çevrilmişdir. Həmçinin çar hökuməti Cənubi Qafqazda xristian əhalinin köçürülməsinin hüquqi bazasının yaradılmasına və bu sahə üzrə qanunvericilik aktlarının hazırlanmasına başlamışdı [201, 13].

Çar Rusiyası hələ XIX əsrin birinci yarısında ermənilərin Osmanlı dövləti və Qacarlar dövləti ərazilərindən kütləvi surətdə Şimali Azərbaycan ərazilərinə köçürülməsini həyata keçirirdi. Ancaq XIX əsrin sonunda çar Rusiyası məmurları bölgəni xristianlaşdırmaq üçün erməni əhalisinin yetərli olmadığını nəzərə alıb əraziyə rus mənşəli xristian əhalisinin köçürülməsilə bağlı çarın yeni fərman imzalamasının vacib olduğunu onun nəzərinə çatdırırdılar.

Bunu nəzərə alan Rus çarı tərəfindən 1899-cu il aprelin 15-də "Zaqafqaziyada (Cənubi Qafqazda-H.B.) köçürməyə icazə haqqında" xüsusi qanun verildi. 1900-cü il dekabrın 22-də isə elan olunmuş yeni qanunda Qafqazda mülki işlər üzrə baş rəisə icazə verilmişdi ki, "Rus mənşəli və pravoslav dininə mənsub kəndlilərin" vəsatətlərini

yalnız ilkin qaydada müzakirə etməklə, onları xəzinə torpaqlarında yerləşdirsin. Yerli hakimiyyət orqanları bu çar sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başladılar. Köçürmə ilə bağlı 1904-cü ilin iyulunda yeni bir qanun verildi. "Kənd sakinlərinin və əkinçi kəndlilərin könüllü surətdə köçürülməsi haqqında müvəqqəti qaydalar" adlanan bu qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub yerli adamların və ya üç idarənin – Daxili İşlər Nazirliyinin, Hərbi İdarənin və Qafqazda mülki işlər üzrə baş rəisin təşəbbüsü ilə raskolçuluq təriqətçilərinin imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi [201, 13].

Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi köçürmə siyasətinə və aqrar məsələlərə Yelizavetpol quberniyasından I Dövlət Dumasına 1906-cı ildə deputat seçilmiş İ.Ə.Ziyadxanov öz etirazını belə bildirmişdi: "Mərkəzi Rusiya kimi bizim də torpağa ehtiyacımız var, biz də torpağın azlığından, yoxluğundan əziyyət çəkirik. Lakin administrasiya bu məsələni başqa cür həll etdi. Burada heç bir komissiyaya və yardımçı komissiyaya ehtiyac yox idi, onların sistemi onların fikrincə çox əladır: gözəl Gürcüstanı qoşunların tapdağı altına verdilər, ermənilərin və müsəlmanların yaşadıqları əyalətlərə gəldikdə isə, bu millətləri bir-birinin üstünə salışdıraraq qərara aldılar ki, beləliklə, onları asanca yer üzündən silib atmaq olar. Onda cənablar, acizanə xahiş edirik ki, Qafqazın mərd övladlarının sümükləri qalanmış torpaqlarında özünüzə köçürmə sahələri götürün" [201, 145].

Qeyd edək ki, çar Rusiyası tərəfindən Cənubi Qafqaza rus pravoslav əhalinin köçürülməsi prosesinin səbəblərində biri regionun xristianlaşdırılmasında bu ərazilərə köçürülən erməni əhalisinin yetərincə olmaması idi. Baxmayaraq ki, bu dövrdə Rusiyadan Cənubi Qafqazın müsəlmanlar yaşayan ərazilərinə müəyyən sayda rus mənşəli əhali köçürülmüşdü, regionda imperiyanın siyasi və etnik dayağı hələ də erməni əhalisi idi.

Digər tərəfdən isə Rusiyanın Mərkəzi, Avropa quberniyalarının aztorpaqlı və torpaqsız kəndlilərinin 1905-ci ildə başlanmış inqilabi olaylarda fəal iştirakı çar adminstrasiyasını həmin bölgələrdə yaşayan kənd əhalisinin bir hissəsini müstəmləkə ucqarlarına köçürməklə

mərkəzi quberniyalardakı sosial-iqtisadi gərginliyi nisbətən azaltmağa cəhd göstərməyə vadar edirdi.

Rus imperiyası bütün vasitələrlə Cənubi Qafqazda öz nüfuz dairəsini gücləndirmək istəyirdi. Din azadlığını nəzərdə tutan 1905-ci il 17 aprel tarixli çar fərmanı, habelə imperiya əhalisinə "vətəndaş azadlıqlarının sarsılmaz əsaslarının" verilməsini elan etmiş 1905-ci il 17 oktyabr "Manifest"i siyasi partiyaların və təşkilatların, xeyriyyə cəmiyyətlərinin və s. yaranmasında böyük rol oynadı. Bu işdə milli sahibkarların nümayəndələri, habelə milli ideoloq-ziyalılar xüsusi fəallıq göstərirdilər. 1905-ci ilin yazında və yayında Rusiya imperiyasının müsəlman ucqarlarında yaşayan xalqların siyasi qüvvələrinin birləşməsi prosesləri gedirdi [201, 98], milli şüurun təkamülü keyfiyyətcə yeni mərhələyə daxil olurdu.

Elə bu proseslərin gedişində də Rusiyanın ən böyük mürtəce silahı və siyasi aləti yenə də "erməni faktoru" olaraq qalırdı. Məhz XX əsrin əvvəllərində çar hökuməti erməni faktorundan istifadə edərək, etnik münaqişələr zəminində öz çirkin siyasi əməllərini həyata keçirməyə başladı.

XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində istər Rusiya imperiyası, istərsə də Cənubi Qafqaz və Osmanlı imperiyasında siyasi maraqları olan Amerika, Böyük Britaniya, Almaniya, Fransa kimi dövlətlər öz mənafeləri naminə "erməni məsələsini" gündəmə gətirərək, bu çirkin siyasətdən istifadə etməyə başlamışdırlar.

Osmanlı dövlətinin dağıdılmasına hesablanmış və "Şərq məsələsi" adlandırılan məsələnin bir hissəsi olan "erməni məsələsi" bu dövrdə böyük dövlətlərin maraqlarının təmin olunması üçün bir vasitə idi. Qərb dövlətləri Osmanlı dövlətinin ərazilərində öz nüfuz dairələrini genişləndirmək istəyirdilər. Osmanlı dövləti daxilində etnik münaqişələri qızışdırmaq üçün birinci növbədə "erməni məsələsi" deyilən saxta bir məsələ qaldırıldı. Qərb dövlətləri öz məqsədlərinə çatmaq üçün "erməni məsələsi" "çərçivəsində" ciddi siyasi oyunlar quraraq böyük mürtəce və təcəvüzkar planlar hazırlayırdılar.

Bu dövrdə həm Böyük Britaniya, həm Amerika, həm də Fransa özlərini erməniləri dəstəkləyən və yardım edən dövlət kimi göstərərək nəticədən asılı olaraq uyğun şəkildə bu məsələdən faydalanmaq

istəyirdilər. Bu dövlətlər Ön Asiyanın ən gəlirli və önəmli mövqelərində məskunlaşmış Osmanlı ərazisində strateji nöqtə və imkanlara yiyələnmək istəyirdilər.

"1877-1878-ci illər Osmanlı-rus müharibəsindən əvvəl və sonra çar hökuməti ermənilərə vəd edirdi ki, "Qərbi Ermənistan"ı (Şərqi Anadolunu) Türkiyədən qoparıb "Şərqi Ermənistan"la (Şimali Azərbaycanın qərbi-H.B) birləşdirib "Böyük Ermənistan" yaradacaq... Lakin ermənilər məqsədlərinə – Şərqi Anadoluda muxtariyyət almaq niyyətinə çatmadılar. Bunun da siyasi səbəbi vardır. Bu barədə V.Qurko-Kryajin qeyd edir: "Rusiyaya gəlincə, o, həmin dövrdə Qafqazda ruslaşdırma siyasəti yeridirdi və "Asiyada ermənilərin müstəsna üstünlüklərə malik olacağı ərazilər yaradılması" ideyasının əleyhinə açıq-aydın çıxış edirdi. Bundan başqa, Bolqarıstan barəsində niyyəti baş tutmamışdı. Bolqarıstan çar Rusiyasının köməyi sayəsində azad edilsə də, onun vassalı olmaq istəmirdi. Bunu görən çar diplomatiyası knyaz Lobanov-Rostovskinin dili ilə bildirdi ki, o "digər Bolqarıstan" yaradılmasına yol verməyəcək" [129, 113].

"Böyük Ermənistan" ideyası XIX əsrin sonlarında məhz Qərb dövlətlərinin havadarlığı ilə geniş vüsət almağa başlamişdı. Bu ideya Qərb dövlətlərinin məxfi surətdə hazırladığı böyük "Şərq məsələsi" işinin variantlarından olan "perspektivli" "erməni məsələsi"nə daxil edilmişdi. Qərb dövlətləri Osmanlı dövlətini məcbur edirdilər ki, Şərqi Anadolu torpaqlarının bir hissəsində ermənilərə muxtariyyət versin. Bu məqsədlə 1896-cı il dekabrın 23-də İngiltərə, Fransa, Almaniya, Avstriya-Macarıstan, İtaliya, Yaponiya və digər ölkə səfirliklərinin xüsusi İstanbul yığıncağı-konqresi çağırıldı. Konqres ərəfəsində beynəlxalq müşahidəçilərin iştirakı ilə Şərqi Anadoluda əhalinin milli tərkibi yoxlanılmışdı. Məlum olmuşdu ki, ermənilərin muxtariyyət istədiyi 6 vilayətdə erməni əhalisi digər xristianlarla birlikdə mövcud yerli əhalinin cəmi 20 faizini təşkil edir. Ermənilərin iddia etdikləri 6 vilayətdə əhalinin demoqrafik tərkibi barədə 1880-ci il iyulun 5-də Abidin paşa Qərb dövlətlərinin müştərək notasına cavabında yazmışdı: "Sizin nəzərinizə çatdırıram ki, Van, Diyarbəkir, Bitlis, Ərzurum və Sivas əyalətlərində dövlət qeydiyyatının nəticəsi aşağıdakı tərkibdə olmuşdur: 17 % erməni, 4 % digər

millətlər və 79 % müsəlman” [129, 115].

XX əsrin başlanğıcında (1901-1902) yenidən Avropa ölkələrinin paytaxtlarında mətbuatdan, parlamentarilərin tribunalarından “erməni məsələsi” hay-küyü eşidilməkdəydi. Hətta 1902-ci il iyunun 4-7-də Brüsseldə “erməni məsələsi”ni dəstəkləmək üçün beynəlxalq konfrans belə çağırılmışdı. Konfrans “erməni məsələsi”ni müzakirə və müdafiə edəcək xüsusi bir komissiya yaratdı və qətnamə qəbul etdi. Brüsseldə, hətta, həmrəylik mitinqi də keçirildi. Bu mitinqdə məşhur fransalı siyasətçi Jan Jores Fransa tərəfindən Avropanın fikrini erməni məsələsinə yönəldiləcəyinə əmin olduğunu bəyan etdi və dedi: “Rusiyanın mövqeyi də Fransanın mövqeyindən asılıdır” [150, 296].

XX əsrin əvvəllərində çar Rusiyası da “erməni məsələsi”nin gündəmə gəlməsində olduqca maraqlı idi. Ruslar bu dövrdə hər vəchlə erməniləri Osmanlı hakimiyyətinə qarşı mübarizəyə təhrik edirdi. 1903-cü ildə Osmanlıdakı Rusiya konsulları buradakı ermənilərə fanatik millətçi olmazlarsa, heç bir kömək almayacaqlarını deyirdilər [202, 93].

S.Qabrielyan 1905-ci ildə Bostonda çap etdirdiyi “Erməni böhranı və yenidən doğulma” adlı əsərində yazırdı: “Xatırlanmalıdır ki, erməni məsələsinin yaranmasından bəri vilayətlərdə və mərkəzdə keçirilən nümayişlər daim Qafqaz erməniləri tərəfindən keçirilmişdir. İnqilab vədləri və dərsləri üçün Rusiya ermənilərinə borcluyuq [202,78].

XX əsrin əvvəllərində öz məqsədləri üçün Cənubi Qafqazda və Şərqi Anadoluda ermənilərə hərbi-siyasi dəstək verən çar Rusiyası, digər Avropa dövlətlərinin Cənubi Qafqazdakı diplomatik nümayəndəlikləri siyasi ilhamverici havadarı erməni partiyaları idi. Bu erməni partiyalarının “Armenekan”, “Hncaq”, “Daşnaksutyun” siyasi ideoloqları isə erməni kilsələri idi.

Rusiyanın Van və Ərzurumdakı baş konsulu öz xatirələrində yazırdı: “Erməni ruhaniləri haqqında bir neçə söz söyləyəcəyəm. Onların dini fəaliyyəti olduqca cüzidir; lakin bunun əvəzində onlar həmişə millətçilik ideyalarını himayə etmək zəminində əllərindən gələni əsirgəmədən səylə çalışırlar. Şərqin başqa xristian xalqlarında olduğu kimi ermənilərdə millətçilik ideyaları yüzilliklər ərzində bir-

birindən uzaq, lakin saysız-hesabsız monastırların himayəsi altında olmuşdur. Həmin monastırlarda keşişlər "Allah kəlamlarının" təbliğindən daha çox xristianlarla müsəlmanların milli ədavətini müdafiə etmək üçün çalışırdılar. Kilsə məktəbləri və ümumiyyətlə, məktəblər bu sahədə ruhanilərə fəal kömək göstərirdi" [198, 11].

Sirr deyildir ki, "Erməni məsələsi"nin gündəmə gətirilməsində erməni din xadimlərinin müstəsna rolu vardır. "1904-cü ildə katolikos Mkrtıç Xrimyanın tapşırığı ilə arxiyepiskop Hovser Saracyan (Amerika), arxiyepiskop Sahak Ayvazyan (İran və Hindistan) böyük dövlətlərin başçılarına müraciət edərək onları "erməni məsələsi"nin həllinə kömək etməyə çağırdılar. Fransa prezidenti Fransue Lube hər iki arxiyepiskopu iyulun 6-da qəbul etdi. Prezident ermənilərin tələbinə biganə qalmadığını, hətta rəğbətlə yanaşdığını bildirdi" [150, 296].

Belçika nümayəndəsi Jorj Loran London konfransında, 1906-cı il iyulun 15-də "erməni məsələsi" barədə yeni təklif verdi. O, Berlin müqaviləsinin erməni məsələsinə aid olan 61-ci maddəsinin yerinə yetirilməsini Səfirlər Şurasına tapşırmağı təkidlə tələb etdi. Konfrans bu təklifi qəbul etdi. Daim fəaliyyətdə olan Səfirlər Şurası erməni məsələsinin həll edilməsi üçün tədbirlər görməli idi. Katolikos Mkrtıç Xrimyan İngiltərə kralına, baş nazirinə, "çox yanıqlı" məktublar yazaraq, "erməni məsələsi"ni öz öhdələrinə götürməyi onlardan xahiş edirdi. Lakin İngiltərədən də müsbət cavab gəlmədi. Xarici işlər nazirinin cavab məktubu isə daha sərt oldu. Böyük dövlətlərin "erməni məsələsi"ndə mövqeyi belə idi. Bunu dərk edən ermənilər yeni taktikaya əl atdılar. Xristofor Mikaelyanın başçılığı altında terrorçu dəstələr yaradıldı [148, 47].

Erməni millətçiləri Şərqi Anadoluda "erməni dövləti" yaratmaq ideyasını gerçəkləşdirmək üçün böyük dövlətlərdən lazımı siyasi dəstək ala bilmədikləri üçün bu çirkin siyasəti Cənubi Qafqaz regionunda, tarixi Azərbaycan torpaqlarında gerçəkləşdirmək qərarına gəldilər. Bu siyasəti həyata keçirmək üçün erməni təşkilatı olan "Daşnaksutyun" partiyası bütün hərbi və siyasi metodlardan istifadə etməyi qarşısına məqsəd qoymuşdu.

Bu qurum terroru müstəqillik uğrunda yeganə mübarizə metodu

kimi qiymətləndirir, hazırlanmış xüsusi döyüşçüləri müsəlmanlar yaşayan bölgələrə göndərir, onlar orada silahlı münaqişələr törədirdilər. “Daşnaksutyun” partiyasının 1907-ci ildə qəbul olunmuş proqramında deyilirdi: Hər il ən azı 50 silahlı yoldaş hazırlanmalı (maddə 122). Nizamnamənin 147-151-ci maddələri terrorçu döyüş dəstələri hazırlanmasını nəzərdə tuturdu. Hər dəstə on nəfərdən ibarət olmalı idi. Qrupa daxil olan daşnak döyüşçü silahını hazır saxlamalı və təcili verilən tapşırığı yerinə yetirməkdə vaxt itirməməli idi. “Terror” başlığı altında verilmiş 155-157-ci maddələrdə siyasi və təşkilati terrordan bəhs olunurdu [129, 117-118].

Yelizavetpol qubernatoru A.Koçalyov 1907-ci il avqustun 9-da tarixində “Daşnaksutyun” partiyasının fəaliyyəti ilə bağlı Qafqaz canişini İ.Voronsov-Daşkovun əmri ilə hazırladığı geniş hesabatda bu partiyanın ermənilər arasında millətçilik təbliğatı aparması və Yelizavetpol quberniyası da daxil olmaqla bütün Qafqazdakı fəaliyyəti haqqında geniş məlumat vermişdi.

“Daşnaksutyun”un fəaliyyəti ilə bağlı Rusiya çarının Qafqaz canişininin dəftərxanasından Bakı şəhər polis idarəsinə göndərilmiş 15 aprel 1909-cu il tarixli göstərişdə bu aşırı millətçi qurum haqqında belə məlumatlar verilmişdir: “Daşnaksutyun” “Böyük Ermənistan”ı qurmaq məqsədinə çatmaq üçün əsas üsullardan biri olaraq proqramında ümumi silahlı çevriliş etmək və ordu yaratmaq yolunu seçdiyini bildirmişdir. “Daşnaksutyun” zinvorlardan (əsgərlər) təşkil olunan ordunu qurmaq işinin əsasını 16 il bundan əvvəl 1892-ci ildə keçirdiyi birinci konqresində qoymuşdur” [17, v. 3-9].

1905-1906-cı illərdə ermənilərin dayaqlarından biri, terror və təbliğatın təşkilatçısı və onun maddi cəhətdən təminatçısı olan qriqorian kilsəsi və din xadimləri, habelə “Daşnaksutyun”un rəhbərləri Şuşada baş verəcək döyüşün planını əvvəlcədən işləyib hazırlamışdılar. Həmin planda hücumun tarixi və vaxtı müəyyən olunmuşdu: “Planda nəzərdə tutulmuşdur ki, Şuşada yaşayan bütün müsəlmanların hamısını qırmalı, onların nəyi varsa, hamısını qarət etməli, ev-eşiklərini yandırıb xarabalığa çevirməli; on iki saata müsəlmanların “Böyük Məscid”ində nahar etməli, 24 saata isə qalanın ən hündür yerində bayrağımız dalğalanmalıdır; qələbə əldə edənə qədər rusların

gücündən istifadə etməliyik” [154, 127].

1905-ci ildə Şuşada xüsusi təlim görmüş rus əsgərləri saxlanılırdı ki, onların gücündən müsəlman soyqırımında istifadə edilsin. Bu dövrdə rus ordusunda qulluq edən erməni əsgərləri könüllü olaraq rus komandanlığının razılığı ilə silahını da götürüb ermənilərin təşkil etdiyi quldur dəstəsinə qoşulmuş, həmçinin Gürcüstandakı rus hərbi hissələrində xidmət edən 100 nəfər erməni mənşəli əsgər ermənilərin köməyinə gəlmişdir [154, 128].

“Daşnaksutyun”un liderləri “erməni məsələsi”ni həll etmək, “Böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün bütün yerli təşkilatlara göstərişlər yollayaraq tələb edirdilər ki, İrəvan, Gəncə və Qarabağ bölgələrində olan bütün türk kəndlərini viran qoysunlar, bu kəndləri yerli əhalidən, yəni Azərbaycan türklərindən birdəfəlik təmizləsinlər [129, 163].

Millətlərarası münasibətlərin kəskinləşməsi ilə əlaqədar 1906-cı ildə Qafqaz canişini tərəfindən çağırılmış “barışdırıcı” qurultay adlanan yığıncağın işinin gedişində Azərbaycan nümayəndə heyətinin, demək olar ki, bütün üzvləri öz çıxışlarında “aprel petisiyası”nın bu və ya digər müddəasına toxunmuşdular. Qurultay 1906-cı il fevralın 20-də Tiflisdə canişin sarayının böyük zalında işə başlamışdı. Qurultayda Azərbaycan nümayəndələri, həmçinin Qarabağın qəzalarından nümayəndə kimi Zəngəzur qəzasından Cəlil bəy Sultanov, Şuşa qəzasından Cahangir xan Nurubəyov, Qala bəy İsabəyov, İsmayıl Quliyev iştirak edirdilər [275].

Bu qurultayda Ə.Ziyadxanov öz iradlarını bildirərək qeyd edirdi ki, “Əgər “Daşnaksutyun” Qafqazdakı öz silahlı qüvvələrini buraxmasa, müsəlmanlar da tədricən öz dəstələrini yaratmağa məcbur olacaqlar, onda daha qanlı toqquşmalar labüd olacaq və çiçəklənən Qafqaz yenidən qan içində üzəcəkdir” [277].

Ə.Topçubaşov Ə.Ağayevin fikirlərini dəstəklədi: “On min əhali arasında, on nəfər də olsa, savadlı tapılmadığını” vurğulayan Ə.Ağayev hesab edirdi ki, “bircə təhsil vasitəsilə hər şeyə son qoymaq olar”. Ə.Topçubaşov diyarda ümumi, icbari, pulsuz ibtidai təhsilin tətbiqinin çox böyük əhəmiyyətini göstərərək qeyd edirdi: “Yönümündən asılı olmayaraq, Rusiyanın bütün siyasi partiyaları və ictimai

qrupları dövləti-ictimai firavanlığın bu əsaslı məsələsini öz platformalarına daxil edirlər və öz tələblərinin önünə çıxarırlar" [273].

XX əsrin əvvəllərində erməni-azərbaycanlı ziddiyyətlərinin kəskinləşməsi də milli siyasi təşkilatın yaradılmasını zəruri edirdi. Bu hadisələrdən sonra təşkilatlanmış və hərbi cəhətdən mütəşəkkil olan erməni quldur dəstələrinin vəhşiliklərinin qarşısını almaq məqsədi ilə müsəlmanlar bölgələrdə öz siyasi təşkilatlarını yaratmaq qərarına gəldilər.

1906-cı ilin fevral-martında Tiflisdə keçirilmiş "barışdırıcı" qurultayda Azərbaycan nümayəndələrinin çıxışlarında milli qüvvələrin birləşməsi, xalqın mənafelərinin müdafiəsi və onun təhlükəsizliyi üçün təşkilatların, o cümlədən siyasi təşkilatların rolu xüsusi qeyd olunmuşdu. Nəticədə belə qərara gəlinmişdi ki, "Daşnaksutyun"a və onun silahlı qüvvələrinə qarşı siyasi partiyanın və döyüş drujinalarının yaradılması zəruridir. "Son qanlı hadisələrdə" "Daşnaksutyun" partiyasının mövqeyini "özünümüdafiə" kimi adlandırmış K.İ.Xatisova etiraz edən A.Ziyadxanov qeyd edirdi ki, "bu, belə deyildir, çoxlu fakt və sübut var ki, hücum edən tərəf ermənilər olub, hələ onu demirik ki, müsəlmanların heç bir təşkilatı və hazır döyüş qüvvələri yox idi" [276].

Polyak əsilli Amerika tədqiqatçısı T.Svyatoxovski haqlı olaraq dünya mətbuatının 1905-1906-cı illər hadisələrini ermənipərəst mövqedən işıqlandırdığını yazır. O, qeyd edir ki, daşnak dəstələrinin əli ilə endirilən zərbələrin ağrısı Azərbaycanın müsəlman icmasını birləşdirmək yolunda özünəməxsus katalizator rolunu oynadı. T.Svyatoxovski "Difai" partiyasının rus-erməni birliyinin real təhlükəsini dəf etmək məqsədi ilə gizli siyasi struktur kimi meydana çıxdığını qeyd edir [132, 145-158].

Bakı və Yelizavetpol quberniyalarında 1906-cı ilin avqust-sentyabr aylarında "Difai" partiyası "Qafqaz Ümummüsəlman Komitəsi" təşkil olundu. "Difai" təşkilatının əsasını Azərbaycanın görkəmli ictimai xadimi Əhməd bəy Ağayev qoymuşdu. Azərbaycanın bir çox regionlarında təsis yığıncaqları keçirilir, bunların nəticəsində partiyanın "komissiyaları" adlanan bölmələr yaradılırdı. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşirdi. Ona Ə.Ağayev başçılıq edirdi

[8, v. 151-153; 15, v. 16-17]. Mərkəzi Komitəyə Q.Qarabəyov, M.Hacınski, İ.Aşurbəyov, B.Cavanşir, N.Behbudov daxil idi [290, 28].

Qarabağda da bu təşkilatın bölməsi yaradılmışdı. "Difai"nin bölmələri yerli əhali arasında böyük nüfuz qazanmışdı. Çar məmurları qeyd edirdilər ki, bu partiyanın mövcud olduğu vaxt ərzində yerli əhalinin ictimai işlərə marağı xeyli artmışdır, "indi əhali hakimiyyət orqanlarından daha çox partiyanın komitələrinə müraciət edirlər" [290, 1].

Yelizavetpolda (Gəncədə) partiyanın lideri böyük ictimai-siyasi xadim Ələkbər bəy Rəfibəyov idi. Təşkilat komitəsinə zadəganların və ruhanilərin nümayəndələri Ələkbər bəy və Ələsgər bəy Xasməmmədovlar, Həsən bəy Ağayev, şeyxülislam Ə.M.Pişnamazzadə, Həbib bəy Usubbəyov, A.Ziyadxanov və b. daxil idi [8, v.151].

1907-ci ilin martında Gəncə şəhərində Cənubi Qafqaz, Şimali Qafqaz və Krım müsəlmanları nümayəndələrinin qurultayı keçirildi. Qurultayda qərara alındı ki, Qarabağda mövcud olan erməni təşkilatlarına cavab olaraq "Difai"nin fəaliyyəti orada təşkil edilsin [201, 121].

Qurultayın qərarı ilə "Difai" partiyasının Qarabağda "Qarabağ Birlik Məclisi" adlı bölməsi yaradılmışdı. O, Qarabağda – Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Zəngəzur qəzalarında fəaliyyət göstərirdi. Onun üzvləri başlıca olaraq tacirlər, ziyalıların bir qismi, qolçomaqlar və kəndlilər idi. Məclisin baş komitəsi Şuşada yerləşirdi. Onun sədri Kərim bəy Mehmandarov, sədrin müavini Cahangir xan Nurubəyov, katibi Xuduş Quliyev idi. Təşkilatın 400 nəfərdən ibarət döyüş drujinası var idi. Təşkilatın bölmələrinin fəaliyyətini müşahidə edən çar məmuru Kovalyov bu təşkilatın yaxın gələcəkdə "müsəlman kütlələrinin" rəhbəri rolu oynayacağını bildirmişdi. Hətta Yelizavetpol qubernatoru difaiçilərin "ağıllı, ehtiyatlı, vicdanlı və səmimi" şəxsiyyətlər olduğunu yazırdı [261, 173-174; 290, 25].

"Difai" təşkilatının komitələrinə Zəngəzur və Cəbrayıl qəzalarında Məşədi Cəfər, Bərdədə Məşədi Mehdiqulu Şərif oğlu, Ağdamda Bahaş bəy Kazımbəyov, Məşədi Şamil Hacıyev, Yevlaxda Asan

Qaraca oğlu, Əşrəf Tağıyev, Saleh Hüseynov, Qarsda polis praporşiki Qurban Əfəndi və mülkədar Nadir Atabaşzadə başçılıq edirdilər [261, 174- 175; 290, 26].

Qarabağ bölgəsinin mərkəzi Şuşa şəhərində yaradılan "Qarabağ Birlik Məclisinin" 1907-ci ilin oktyabrında qəbul edilmiş proqramı 53 bənddən ibarət idi. Proqramda "müsəlmanlar arasında milli şüurun inkişaf etdirilməsi vəzifəsi" qoyulmuşdu. Bu mühüm sənəddə müsəlmanlar birliyə çağırılır, təşkilatın nizamnamə prinsipləri müəyyənləşdirilirdi. Təşkilatda sədr, köməkçi və katib vəzifələri nəzərdə tutulurdu. Məclisin saxlanılmasına sərf edilən vəsait pul yığımlarından ibarət idi. Pul yığımları xəzinədarlarda olan mədaxil-məxaric kitablarında qeyd olunurdu. Proqramda bir çox məsələlər həm siyasi məqsədlər, həm də əxlaqi normalar göstərilirdi. Burada millətlər arasında münasibətlərdəki dəyərlərdə müəyyən edilir, millətlərarası qırğına qarşı çıxılırdı. Milli məsələlərin qızışdırılmasına görə məsuliyyət, pul qoparmağa, hakimiyyətdən sui-istifadəyə, böhtana, andı pozmağa, intriqalara, qiymətlərin qaldırılmasına görə cərimələr və s. haqqında olan müddəalar deməyə əsas verir ki, məclis şüurluluq, mütəşəkkillik, siyasi mədəniyyət, insanların birgəyaşayışı və qarşılıqlı hörməti, yardımı və köməyi normalarının tərbiyə olunmasına cəhd göstərirdi. "Qarabağ Birlik Məclisi"nin proqramında həmçinin yeni metod üzrə məktəb təhsilini, o cümlədən qadınlar üçün məktəblər şəbəkəsinin yaradılması, istehsalatda və məhsulların satışında qaydaların müəyyən edilməsi barədə də xüsusi bəndlər var idi. Proqramda kasıblara qayğı habelə öz ev-eşiyini ataraq şəhəri tərk edənlərin hamısına xəbərdarlıq edən maddələr də var idi. Sonuncuların əmlakı Məclisin ixtiyarına keçməli idi. Məclis həmin əmlakın gəlirini kasıblara paylamalı idi. Bütövlükdə Məclisə, demək olar ki, bütün mübahisəli məsələlərin həllində müəyyən rol ayrılırdı. Məclis özünün ümumi yığıncağında Dumaya tamhüquqlu üzvlər qlasnılar seçkiləri məsələlərinə baxmalı, onun razılığı olmadan heç kim Dumaya seçilməməli idi [261, 176-177; 290, 38].

Təşkilatın belə geniş proqramla çıxış etməsi və yerli müsəlman əhalisi arasında tez bir zamanda qazandığı nüfuz müstəmləkəçi rus imperiyasını narahat etməyə başladı. Çar hökuməti tərəfindən 1907-

ci ildə partiyanın komitəsi ləğv edildi və 1909-cu ildə isə "Difai"nin fəaliyyəti tamamilə dayandırıldı [16, v. 3; 15, v. 16]. "Difai" partiyasının bütün üzvləri çar hakimiyyət orqanları tərəfindən daim təqib olunurdu [201, 123].

Çar hökuməti tərəfindən partiyanın fəaliyyətinin dayandırılması həm də o dövrdə partiyanın yaradıcısı Ə.Ağayevin İstanbula getməsi ilə bağlı olmuşdu. 1908-ci ilin aprelində Yelizavetpol qubernatoru təşkilatın üzvlərinin fəaliyyətindən və əhali arasında nüfuzundan narahatlıq keçirərək, bütün partiya rəhbərlərini hökumətin əleyhinə təbliğat aparmaqda günahlandırmışdı. Müxtəlif sənədlərdən məlum olur ki, müstəmləkəçi çar hökuməti "Difai" rəhbərlərinin 3 il müddətinə Cənubi Qafqazdan Həştərxan quberniyasına sürgün edilməsi barədə sərəncam da vermişdi.

1911-ci ilin yanvarında isə Qafqaz canişininə xəbər verilmişdi ki, 1908-ci il aprelin 12-də bu şəxslər Cənubi Qafqaz hüdudlarından sürgün edilmişlər. Həmin ilin mart ayında xəbər verilirdi ki, 1910-cu il yanvarın 1-dən iyulun 1-dək "Difai" heç bir fəaliyyət göstərməmişdir. Bununla yanaşı, təşkilatın üzvləri, xüsusən də liderləri izlənir, onların evlərində axtarışlar aparılır, nəticədə, jandarma idarəsinin təbirincə, "senzuradan keçməmiş vərəqələr və kitabçalar" aşkar edilirdi. Belə axtarışlar zamanı Nuxada Cənubi Qafqaz şeyxülislamı Ə.M.Pişnamazzadənin evində 1912-ci il mayın 12-də qəflətən keçirilmiş axtarış zamanı Azərbaycan dilində 11 kitabça və 12 vərəqə aşkar edilmişdi. Yelizavetpol qubernatoru 1912-ci il mayın 12-də quberniyanın bütün polis rəislərinə göndərdiyi məktublarında "Difai"nin vərəqələrinin yayılması faktları olduğunu xəbər verirdi [201, 123].

Zaqafqaziya dəmir yolları Jandarm-polis sahəsinin rəisi 1912-ci il mayın 18-də "Difai" partiyasının Azərbaycan dilində yaydığı "Çağırış"ın bir nüsxəsini Tiflisə ötürmüş və xəbər vermişdi ki, bu çağırış 1912-ci il aprelin 29-da Ərəş qəzası kəndində axşam toplantısında paylanılmışdır. Ayrı-ayrı sübutlardan və xatirələrdən belə təxmin etmək olar ki, difaiçilər Birinci Dünya müharibəsi dövründə də öz fəaliyyətini davam etdirmişlər. Belə ki, bu illərdə əsir düşmüş, sonra isə Gəncəyə gəlmiş Hüsaməddin Quqaç adlı biri yazırdı ki, Azərbaycan

Milli Ordusunun döyüşçüləri arasında “Difai”yə mənsub olan şəxslər də var idi [229, 65].

Türkiyə tarixçisi Abdulhaluk Çay bildirir ki, sonralar “Difai”nin üzvləri “Müsavat” partiyasının sıralarına qoşuldular. Bununla yanaşı, “Difai” 1917-ci ilədək öz fəaliyyətini, məhdud çərçivələrdə də olsa, davam etdirmişdi [229, 65].

1905-1906-cı illər erməni-müsəlman münaqişəsində özlərini haqlı tərəf kimi göstərmək və erməni əhalisinin daha çox qırğınlara məruz qaldığını sübut etmək üçün dünya kütləvi informasiya vasitələrində ermənilərin riyakar fəryadları eşidilməyə başlandı. Qafqaz canişini İ.Voronsov-Daşkov etiraf etməyə məcbur olmuşdu ki, “Qafqazda bütün mətbuat ermənilərin əlindədir. Daşnakların özlərinin dediyinə görə, tam sərbəstlikdən və hətta mətbuata nəzarət edən hökumət orqanlarının himayəsindən istifadə edirlər” [264, 68].

Saray müşaviri V.F.Mayevski isə göstərirdi ki, “həqiqət ona görə yoxdur ki, erməni müəllifləri ondan qaçırlar. Onlarda hər şey faktların şişirdilməsi üzərində qurulub. Onların bütün fəaliyyəti ermənilərə simpatiya, türklərə antipatiya oyadan cəfəngiyatın, eşidilməmiş qəddarlıqların uydurulmasına yönəldilib... Məhz mətbuatın sayəsində erməni məsələsində gerçəklik elə qatı çirkabla örtüldü ki, ondan həqiqət şüaları keçə bilmir. Erməni təbliğatçıları heç yerdə müqavimətlə üzləşmirdilər, nə cəmiyyətdə, nə də mətbuatda” [334, 36].

V.F.Mayevski həm də qeyd edirdi ki, “Ermənilərin xalq qəhrəmanları barəsində bir şey eşidilibmi? Onlar yoxdurlar. Nəyə görə? Ona görə ki, bu mübarizlər öz xalqına azadlıq gətirmir, onun cəlladları rolunu oynayırlar. Erməni bandaları qırğınlar törədir, sonra isə gizlənirlər... Erməni-müsəlman toqquşmaları ilə bağlı şəxsən mənə nə məlumdursa, məni belə nəticəyə gəlməyə vadar edir ki, qanlı işlər hər yerdə ermənilərin özlərinin təşəbbüsü ilə başlayır. Bütün bu qiyamçılar vətənpərvər deyillər. Onların dinc, silahsız, heç bir təhlükə törətməyən müsəlmanları necə soyuqqanlıqla qətlə yetirmələrinin məndə danılmaz sübutları var... Qəddarlıqlara türklər deyil, bu qəddarlıqları uydurub onları türklərin başına yağdıran şərq xristianları qadirdirlər...” [198, 12-13].

Bu dövrdə, Azərbaycan ziyalılarının və vətənpərvərlərinin, icti-

mai-siyasi təşkilatlarının rəhbərliyi altında Azərbaycan xalqı Rusiya hökumətinin Cənubi Qafqaz regionunda həyata keçirdiyi köçürmə siyasətinə, əhalinin xristianlaşdırılmasına və rusların havadarlıq etdiyi ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qırğınlara qarşı qətiyyətli müqavimət göstərdi. Bunun nəticəsi olaraq, ermənilərin azərbaycanlılara qarşı vəhşiliyinin daha da böyük miqyas almasının qarşısına sədd çəkildi.

1906-cı ildə azərbaycanlı deputatların I Dövlət Dumasının iclaslarında Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi bu riyakar siyasətlə bağlı məsələlər qaldırmış və bu siyasətə son qoyulmasını tələb etmişdilər. Duma üzvləri tərəfindən Daxili İşlər Nazirliyinə "İrəvan və Yelizavetpol quberniyalarında əhalinin şəxsi və əmlak təhlükəsizliyinin qorunması üçün tədbirlər görülməsi ilə əlaqədar" verilən deputat sorğusunda xəbərdarlıq edilirdi ki, belə bir vəziyyət bu quberniyalarda bir ildən çoxdur ki, yaranıb və "minlərlə insan tələfatına və diyarın iqtisadi cəhətdən tamamilə var-yoxdan çıxmasına" səbəb olmuşdur. Onlar bu hərc-mərcliyin aradan qaldırılması üçün hansı tədbirlər görüldüyü barədə Qafqaz canişininə sorğu göndərilməsini xahiş etmişdilər. Lakin Duma bu ərizəni təcili məsələ hesab etməmiş, ərizə ümumi yığıncaqda müzakirə olunmuşdu və iyunun 14-də Nazirlər Şurasının sədrinə göndərilmişdi [201, 146].

"1906-cı il iyulun 7-də, yəni I Dövlət Dumasının buraxılması ərəfəsində Nazirlər Şurasının sədri Qoremikin Dumanın sədrinə cavab verir ki, canişinin vəzifəsi və hakimiyyəti ümumi yerləşdirmə nazirliyinə münasibətdə tamamilə müstəqildir və buna görə də Qafqaz Diyarı barədə Dövlət Dumasının sorğularına cavab vermək üçün Nazirlər Şurasının heç bir səlahiyyəti və zəruri məlumatı yoxdur" [201, 146].

Bununla da münaqişənin nizamlanmasından boyun qaçıran çar hökuməti Qafqaz diyarı ilə bağlı olan bu vacib sənədi Dumanın gündəliyindən çıxararaq bir kənara qoymuş, Qafqazda imperiyanın maraqlarına xidmət edən milli münaqişələri imperiyanın siyasətinə uyğun yönləndirməyə başlamışdı.

Bu siyasətdən faydalanmağa çalışan ermənilərin siyasi və terror təşkilatları Birinci dünya müharibəsi dövründə (1914-1918) özlərinin

“Böyük Ermənistan” ideyasını həyata keçirmək üçün geniş fəaliyyətə başladılar. Həm çar Rusiyası, həm də digər Antanta dövlətləri ermənilərdən istifadə etməyi planlaşdırırdılar. Onlar ermənilərə vəd edirdilər ki, ermənilər Türkiyə dövlətinə qarşı vuruşsalar, onlara muxtariyyət veriləcəkdir [415, 37].

Vanda fəaliyyət göstərən xarici təmsilçilərin arasında ingilis konsulluğu, Amerikan missionerləri və Rusiya təbəəli bəzi adamlar diqqəti cəlb edirdilər. Bunlar bəzən amerikalı missionerin evində, bəzən də ingilis konsulluğunda toplanaraq görüləcək tədbirlərin planlarını məsləhətləşirdilər [230, 39].

Bölüşdürülmüş dünyanı yenidən bölüşdürmək uğrunda nəhəng dövlətlər 1914-cü ildə savaşa başladılar. Savaş dörd ildən də çox davam etdi. 33 dövlət və dünya əhalisinin 75 faizi bu müharibəyə cəlb olunmuşdu. Qarşı tərəflərdə iştirak edən hər bir dövlətin bir-birinə münasibətdə ziddiyyətli maraqları var idi. “Erməni məsələsi” də Antantanın marağı daxilində idi. Bu baxımdan Rusiyanın marağı həm ermənilər üçün, həm də Rusiyanın özü üçün daha önəmli idi [227, 35].

Erməni katolikosu Almaniyanın Rusiyaya müharibə elan etməsindən 4 gün sonra 1914-cü il avqustun 5-də Qafqaz canişini Voronsov-Daşkova bir məktub yazaraq “erməni məsələsi”ni unutmamasını və ələ keçən tarixi fürsətdən istifadə edilməsini istəmişdi. Katolikosun məktubunda göstərilirdi ki, Anadoludakı erməni vilayətləri tək bir əyalət halına gətirilməli, idarəsi Rusiyanın təyin edəcəyi bir valiyə tapşırılmalı, geniş idari və siyasi hüquqlar verilməlidir. Voronsov-Daşkov isə cavabında problemin ermənilərin xeyrinə çözüləcəyini, ermənilərin bu vəziyyətdə üsyan etmələrinin bir faydası olmayacağını bildirir və bu üsyanda Türkiyənin təcavüzə məruz qalan tərəf olaraq görüləcəyini bildirirdi [227, 35].

“I Dünya müharibəsi dövründə Cənubi Qafqaza aid məsələlərlə bağlı müəyyən maraqları olan Osmanlı dövləti, Qərb dövlətlərinin və çar Rusiyasının dəstəklədikləri ermənilərin Azərbaycan torpaqlarına təcavüz etməsinə biganə qala bilməzdi. Belə mövqe əsasən aşağıdakı amillərlə şərtlənirdi: a) bəzi dövlətlərin ermənilərin müdafiə adı altında və onların vasitəsi ilə Transqafqazda möhkəmlənmək məqsəd-

ləri bununla həm də Osmanlı imperiyası üçün bilavasitə müəyyən təhlükə yaratmaları; b) ermənilərin Osmanlı imperiyası və Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq niyyətləri; c) Azərbaycanın türk-müsəlman əhalisinin məqsədyönlü soyqırımı siyasətinə məruz qalması, siyasi-hərbi köməyə kəskin ehtiyac duyması və s." [168, 54].

1914-cü il oktyabrın 29-da Qara dəniz sahillərindəki rus limanlarının atəşə tutulması ilə Osmanlı dövləti Almaniya, Avstriya-Macarıstan imperiyası tərəfindən zorən I Dünya müharibəsinə qatıldı. Rusiya ilə Osmanlı dövləti arasındakı müharibə əsasən Cənubi Qafqaz ərazisində gedirdi. Əvvəllər gah bu, gah da digər tərəf uğurlu döyüş əməliyyatları keçirirdi. Sayı 800 min nəfərə çatan Osmanlı quru qoşunları eyni zamanda bir neçə cəbhədə vuruşmağa məcbur olmuşdu. Avropa hərbi əməliyyat meydanında üç osmanlı ordusu (1-ci, 2-ci və 5-ci ordular), Mesopotamiya (6-cı ordu), Suriya və Fələstin (4-cü ordu) və nəhayət, Cənubi Qafqaz (3-cü ordu) cəbhələrinin hər birində bir osmanlı ordusu döyüşürdü. Silahlı qüvvələrə hərbi nazir Ənvər paşa başçılıq edirdi. Osmanlı ordusu yaxşı silahlanmışdı və alman hərbi təlimatçılarının rəhbərliyi altında təlim keçmişdi. Osmanlı ordusunun Baş Qərargah rəisi alman generalı F.Bronzart fon Gellendorf idi. Rusiya ordusunun Qafqazdakı komandanı Voronsov-Daşkov, onun müavini isə general A.Z.Mışlayevski idi. Rusiya ordusunun Qafqaz cəbhəsində 170 min nəfər canlı qüvvəsi, 350-yə qədər də topu vardı. Müharibə elan olunduqdan sonra, 1914-cü il noyabr 6-da rus ordusu Ərzurum istiqamətində hücumu genişləndirməyə cəhd göstərdi, noyabrın 7-də isə rus dəstələri Kepriks yaxınlığında, Ərzurumun 50 kilometrliyində türklərin möhkəmlənmiş mövqelərini ələ keçirdi. Lakin özünü yetirən yeni qüvvələr hesabına türklər üstünlüyü ələ aldılar, rusları əvvəlki mövqelərinə doğru sıxışdırdılar. Sonra Osmanlı qoşunu hücuma keçdi və Qars istiqamətində Cənubi Qafqaza doğru irəliləməyə başladı. 1914-cü ilin sonu-1915-ci ilin əvvəlində Sarıqamış yaxınlığında amansız döyüşlər baş verdi. Döyüşün gedişində osmanlı ordusu ağır məğlubiyyətə uğradı, çoxlu itkilər verərək geri çəkilməyə məcbur oldu [227, 28-36].

Müharibənin gedişi ərəfəsində II Nikolay 1914-cü il sentyabrın

17-də xüsusi bəyannamə ilə erməni xalqına müraciət etdi. Müraciətdə deyilirdi: "Ermənilər! Böyük Rusiyanın şərqindən qərbinə kimi bütün xalqlar ruh yüksəkliyi ilə mənim çağırışıma qoşulmuşlar. Ermənilər, beşəsrlik despot zülmü altında əzab-əziyyətlərdən sonra azadlıq saatı yetişmişdir. Rus xalqı özünün şərəfli erməni övladlarını minnətdarlıqla xatırlayır. Lazarevlər, Məlikovlar və başqaları öz rus qardaşları ilə bərabər Vətənlərinin böyüklüyü naminə vuruşmuşlar. Sizin əsrlik sədaqətiniz mənim üçün sübutdur ki, bu təntənəli günlərdə siz ordumuzun son qələbəsinə və haqq-ədalətə sarsılmaz inamla öz vəzifələrinizi yerinə yetirirsiniz. Ermənilər! Çarın başçılığı altında sizin qan qardaşlarınızla birləşərək, nəhayət, azadlıq və ədalət məhkəməsinin şirinliyinin nə olduğunu dadacaqsınız" [182, 225].

II Nikolayın bu bəyanatı ermənilərin Türkiyə ərazilərində təxribat törətmələrində öz bədnam rolunu oynadı. Bunu "Daşnaksutyun"un o vaxtkı liderlərindən biri D.Kaçaznuni təsvir edərək yazır: "Müharibənin müttəfiqlərin tam qələbəsi ilə başa çatacağına, Türkiyənin məğlubiyyətə uğramalı olacağına, parçalanmaya məruz qalacağına və nəhayət, yerli ermənilərin azad olacağına şübhə etmirdik. Biz sözsüz üzümüzü Rusiyaya çevirmişdik. Heç bir əsas olmadan, qələbəyə aludə olmuşduq. Biz əmin idik ki, çar hökuməti sədaqətimizə, səylərimizə və köməyimizə görə bizə Türkiyənin erməni vilayətlərindən və Cənubi Qafqaz Ermənistanından ibarət Ermənistan muxtariyyətini bəxş edəcəkdir. Öz arzularımızı başqalarına qəbul etdirmək istəyirdik, məsuliyyətsiz şəxslərin məzmunsuz sözlərinə böyük əhəmiyyət verirdik" [182, 226].

"II Nikolay 1914-cü ildə Tiflisə gələn vaxtı katolikos Gevorqu qəbul edəndə demişdir: Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Erməni məsələsi müharibə qurtaranda, danışıqlar zamanı ermənilərin istəklərinə uyğun həll ediləcəkdir" [129, 165].

Erməni daşnakları rus çarının bu himayəsini tarixi bir şans kimi müsbət dəyərləndirdilər. "Daşnaksutyun"un II Nikolaya müraciətində deyilirdi: "Qəlblərimiz alovlu arzularla doludur. Əziz vətənimizin payına düşən sınağı rus silahının şöhrəti və Rusiyanın şərqindəki tarixi vəzifələrinin həll olunması ilə başa çatmasını böyük ümidlərlə

gözləyirdik. Qoy, rus bayrağı Bosfor və Dardanel üzərində sərbəstcəsinə dalğalansın" [182, 226-227].

1915-1916-cı illərdə Rusiya ordusu Osmanlı dövlətinin ərazisinin bir hissəsini tutduqdan sonra, ermənilər Ermənistan muxtariyyəti yaradılması barədə məsələni yenidən konkretləşdirməyə çalısdılar. "Daşnaksutyun'un "xarici işlər naziri" Zavriyev bununla əlaqədar olaraq İngiltərə, Fransa və Rusiya ilə uzun-uzadı danışıqlar apardı. Lakin ermənilərin ümidləri puça çıxdı. Üstəlik 1915-ci il martın 8-də İngiltərə, Fransa və Rusiya "Konstantinopol sazişi"ni imzaladılar (ona görə bu sazişə əsasən Konstantinopolun Rusiyaya verilməsi nəzərdə tutulduğu üçün bu sənəd belə adlandırılmışdı). Erməni əhalisinin yaşadıqları Osmanlı ərazilərinə gəldikdə isə, onlar Fransa və Rusiya arasında bölüşdürülməli idi. Zeytun, Hacin, Diyarbəkir, Meyafarkin, Sivas, Edessa və üzdəniraq Kiçik Ermənistan (Adana, Kayseri, Maraş, Zeytun), yəni erməni əhalisinin çox hissəsinin toplandıgı türk vilayətləri Fransaya, Trabzon, Ərzurum, Bitlis, Van, habelə Türkiyə Kürdüstanı adlandırılan ərazilər Rusiyaya verilməli idi. Bu sövdələşmə ilk əvvəl Fransa və İngiltərə arasında aparılmışdı (üzdəniraq Sayks-Piko sazişi), sonra isə danışıqlara Rusiya da qoşulmuşdu [183, 5].

Baş verənlərin maraqlı cəhəti ondan ibarət idi ki, müttəfiqlərin gizli danışıqları ermənilərsiz aparılırdı, London, Paris və Peterburq arasında danışıqların nəticəsi kimi meydana çıxan məxfi sazişlərdə isə müstəqil erməni dövləti barədə söhbət belə getmirdi. Sazişdə erməni muxtariyyəti barədə də konkret fikir söylənilməmişdir. Razılığa gələn tərəflər erməni xalqının qanuni hüquqlarının təmin olunmasının zəruriliyi barədə dumanlı ifadələrlə kifayətlənmişdilər. Mahiyyət baxımından Sayks-Piko sazişi Osmanlı dövlətinin parçalanmasına dair açıq-aşkar təcəvüzkar imperialist sənədindən başqa bir şey deyildi [183, 6].

I Dünya müharibəsi dövründə Osmanlı dövlətinin erməni əhalisi yaşayan vilayətlərində ermənilərin və onların havadarlarının erməni dövləti yaratmaq barədə arzuları nə siyasi, nə demoqrafik, nə də tarixi planda real bazaya malik deyildi.

1917-ci ildə Rusiyada oktyabr çevrilişindən sonra Rusiya dünya

müharibəsindən çıxdı, rus ordusu Anadoluda işğal etdiyi əraziləri tərk etdi. Müttəfiqlərin, xüsusən İngiltərə və Fransanın başı öz problemlərinə qarışdığından ermənilərə hər hansı bir real kömək göstərə bilmədilər.

Birinci dünya müharibəsinin çar Rusiyası üçün nəticələri ermənilərin iddia etdikləri "Böyük Ermənistan" planlarını puça çıxardı. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər 1918-ci il martın 3-də Brest-Litovsk müqaviləsi ilə Osmanlı dövlətinin 1877-1878-ci illərə qədərki sərhədlərini tanıyaraq, əslində, "Türkiyə Ermənistanı" haqqında 29 dekabr 1917-ci ildə elan olunmuş dekretdən imtina etdiklərini bildirdilər. Bundan sonra erməni millətçiləri öz dövlətlərinin məhz Qafqazda yaradılmasını öz cinayətkar fəaliyyətlərinin əsas məqsədi kimi seçdilər. Təbii ki, həmin dövlətin qonşu ölkələrin torpaqları (Azərbaycan və Gürcüstan əraziləri) hesabına yaradılması nəzərdə tutulurdu [131, 113].

Lakin çarizmin iflasından sonra Cənubi Qafqaz xalqları qarşısında yeni problemlər meydana çıxdı. Onlardan ən vacibi hakimiyyət məsələsi idi. Bütün Qafqazda az qala hər gün yeni siyasi partiyalar, vətəndaş komitələri, cəmiyyətlər, birliklər, ittifaqlar yaranırdı [183, 18].

Əsasən Qafqazda bolşevik-daşnak ittifaqı yaranırdı ki, bu da o dövrdə müsəlmanlar arasında böyük nüfuza malik olan "Müsavat"a qarşı mübarizə metodlarından biri idi.

1917-ci il oktyabr çevrilişindən sonra Cənubi Qafqazda ali hakimiyyəti təcəssüm edən Cənubi Qafqaz Seyminin tam hüquqlu üzvləri kimi ermənilər Osmanlı dövləti ilə sülh danışıqlarında – 1918-ci ilin mart-may aylarında Trabzon və Batumda keçirilən görüşlərdə iştirak etdilər [131, 113].

Sonrakı mərhələdə-Batum danışıqlarını yeni elan edilmiş milli respublikalar davam etdirdikdən sonra yeni yaranmış dövlətin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı və Cənubi Qafqazda yaranmış milli respublikalar içərisində ən çətin vəziyyətə Ararat Respublikası düşmüşdü. Çünki bu dövlətin müstəqilliyi formal xarakter daşıyırdı. Belə ki, Tiflisdə müstəqilliyi elan olunan bu dövlətin nə ərazisi, nə də paytaxtı var idi. Cənubi Qafqazda ermənilərə

dövlət yaradılması olduqca kəskin mübahisələrə və müzakirələrə səbəb olmuşdu. Yuxarıda qeyd olunduğu kimi ermənilər Şərqi Anadolu bölgəsində dövlət qurmaq ideyasından və imkanından məhrum olduqdan sonra Cənubi Qafqazda özlərinə dövlət yaratmağı məqsəd olaraq qarşıya qoymuşdular.

Cənubi Qafqazda erməni dövlətinin yaradılmasına Osmanlı siyasi dairələrinin fikirləri birmənalı deyildi. Birinci dünya müharibəsinin sonunda Türkiyənin siyasətini müəyyən edən baş nazir Tələt paşa və hərbi nazir Ənvər paşa tarixən Azərbaycan türklərinə məxsus olan bu ərazilərin ermənilərə güzəştə gedilməsini uyğun bilmirdilər. 1918-ci il mayın 24-də Tələt paşanın Batumdakı nümayəndə heyətinin rəhbəri Xəlil bəyə göndərdiyi teleqramda deyilirdi: "Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti 5 il sonra 5 mln. əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olacaq və Şərqin Bolqarıstanı halına gələcəkdir. İranda, Amerikada olan ermənilər orada yerləşəcək, ingilis və fransızlar tərəfindən hər surətlə müdafiə olunaraq gələcəkdə xristian gürcülərlə əleyhimizə hərəkət edəcəklər" [222, 661-662].

Batum danışıqlarında Türkiyəni təmsil edən Xəlil bəy və Vehib paşa isə tarixən Azərbaycana məxsus bir sıra ərazilərin ermənilərə verilməsini qaçılmaz hesab edir və bu məqsədlə sülh konfransında olan Azərbaycan nümayəndələrinə tövsiyə edirdilər ki, beynəlxalq aləm qarşısında ermənilərin mövcudluğunu tanımaq və onlara müəyyən güzəştlər edilməsi qaçılmazdır [100, 97]. Bununla da, Cənubi Qafqaza transfer edilən "erməni məsələsi" burada bir erməni dövləti yaradılması ilə sonlandırılmağa çalışılırdı.

Nə qədər ağrılı olsa da etiraf etmək lazımdır ki, çox çətin məqamlarda Azərbaycana qardaşlıq əlini uzadaraq bizə olmazın köməyin göstərmiş Osmanlı dövlətinin bəzi siyasi dairələri ermənilərə məhz Cənubi Qafqazda Azərbaycan və Gürcüstan torpaqları hesabına dövlət yaratmaqla sanki bu bəlanı Anadoludan kənarlaşdıra biləcəklərinə ümid edirdilər.

Hələ müqavilə bağlanılmamışdan əvvəl erməni nümayəndələri İrəvan şəhəri ilə bağlı Azərbaycan hökumətinə müraciət etmişdilər.

Cənubi Qafqazda yaranan milli respublikalar içərisində Ararat respublikasının paytaxtı olmadığı üçün bu respublika çətin vəziyyətə düşmüşdü. Ermənilər may ayının 28-də elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinə müraciət edərək paytaxtları olmadığı üçün İrəvan şəhərinin paytaxt kimi onlara güzəştə gedilməsini xahiş etmişdilər. Bu barədə may ayının 29-da erməni Milli Şurası ilə danışıqlar aparılması ilə bağlı Nazirlər Şurasının sədri F.Xoyski Azərbaycan Milli Şurasının iclasına məlumat verdi. Məlumatda deyilirdi ki, Ararat Respublikasını yaratmaq üçün ermənilərə siyasi mərkəz lazımdır. Belə bir vəziyyətdə ermənilər üçün münasib siyasi mərkəz, ancaq İrəvan şəhəri ola bilər, ona görə bu şəhərin ermənilərə güzəştə gedilməsi qaçılmazdı. Milli Şurasının iclasında çıxış edən X.Xasməmmədov, M.Cəfərov, Ə.Şeyxülislamov, M.Məhərrəmov İrəvan şəhərinin ermənilərə güzəşt edilməsini qaçılmaz bəla kimi qiymətləndirdilər. Milli Şuranın iclası müəyyən səs çoxluğu ilə İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi barədə öz razılığını bildirdi [19, v. 51]. Buna İrəvan Milli Şurasının üzvləri Mirhidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanov etiraz etdilər. Lakin iyun ayının 1-də keçirilən Azərbaycan Milli Şurasının iclası bu etirazı qəbul etmədi [19, v.53].

Onu da qeyd etmək istəyirik ki, həmin 29 may tarixli iclasda Azərbaycan Milli Şurasının 44 üzvündən cəmi 22 nəfər iştirak edirdi ki, bunlardan da 3 nəfər həmin qərarın əleyhinə səs vermişdilər. Beləliklə, dövlətlərarası taleyüklü məsələlərin ərazi güzəşti məsələsinin həmin dövrdə ali qanunvericilik orqanının yarısından da azının razılığı ilə həll edilməsi nə dərəcədə qanuni-hüquqidir?

Hesab edirəm ki, həmin məsələ üzərində düşünməyə dəyər! Özü də həmin qərarın ciddi xarici təsir və təzyiq altında qəbul edilməsi zorunda qalındığı barədə ciddi şübhə və iddialar var.

Bu qərarın qəbulundan sonra iyun ayının əvvəllərində Batumda olan Azərbaycan və erməni nümayəndələri arasında sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır, bu şərtlə ermənilərə güzəştə gedilir ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə (Qarabağa) olan iddiaların-

dan imtina edirlər [100, 96].

Batumda erməni nümayəndələrinin razılaşmasına baxmayaraq, heç bu razılaşmanın üstündən bir aydan bir az çox müddət keçməmiş iyul ayının 19-da İstanbulda olan erməni nümayəndələri Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddialarını yenidən səsləndirməyə başladılar.

Bu zaman İstanbulda olan Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Rəsulzadə iyul ayının 19-da xarici işlər naziri M.Hacınskiyə göndərdıyı məktubda yazırdı kı, ermənilər türkofil təbliğatla öz yerlərini bir az bizim, bir az da türklərin hesabına genişləndirmək fikrində idilər. Onların Ənvər paşaya təqdim etdikləri ərazi tələbləri də bunu sübut edirdi. Erməni layihəsinə görə, Sürməli, Naxçıvan, Ordubad, Ahalkələk, Eçmiədzin, İrəvan, Borçalı, Qazax, Qarabağ, və Zəngəzur qəzaları Ermənistana verilməli idi. Erməni nümayəndələri bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzalann əhalisinin 70 faizi ermənilərdir. Ermənilərin İstanbul konfransının müzakirəsinə təqdim etmək istədikləri belə şişirdilmiş ərazi iddiaları onların real vəziyyətinə qətiyyən uyğun deyildi [100, 116].

Bu dövrdə Cənubi Qafqazda mövcud olan ictimai-siyasi vəziyyət dünya siyasətində mühüm strateji mövqelərə malik olan, xüsusilə Cənubi Qafqazda ciddi maraqlar güdən Böyük Britaniyanın öz mənafeyi baxımından bölgədə baş verən siyasi hadisələri diqqətlə izləməsini şərtləndirirdi. Birinci dünya müharibəsinin başlanması, xüsusilə də 1917-ci il fevral inqilabından sonra Rusiya imperiyasının tədricən dağılması ilə bağlı olaraq Qafqazda rəqabət aparmış böyük dövlətlər arasında münasibətlər xeyli kəskinləşdi. 1917-ci ilin dekabrında süqut etmiş Rusiya imperiyasının ərazisinin nüfuz dairələrinə bölüşdürülməsi haqqında Fransa-İngiltərə gizli sazişi imzalanmışdı. Həmin sazişə görə, cənub-şərqi Rusiya Böyük Britaniya “qəyyumluğu dairəsinə” düşmüşdü. Azərbaycan ərazisinin Böyük Britaniya qəyyumluğu dairəsində olan zonaya daxil edilməsi bütün Qafqaz-Xəzər bölgəsində ingilislərin hərbi-siyasi iştirakını gücləndirmişdi [412, 12].

Böyük Britaniya hökuməti Qafqaza müdaxilə ərəfəsində burada yaşayan xristianlara, xüsusi ilə ermənilərə böyük ümid bəsləyirdi.

İngilislər Osmanlı ordusunun Qafqaza yürüşünün qarşısının alınmasında onlara bel bağlayırdı. Öz növbəsində erməni siyasi xadimləri ingilispərəst siyasi təbliğat aparırdılar.

İngilis hökuməti və İran Birinci dünya müharibəsi başlamamışdan qabaq ermənilərin Türkiyə və Azərbaycan ərazisində terrorçuluq fəaliyyətlərinə yaxından kömək göstərmişdi. İrandakı ingilis hökumətinin agenti ermənilərə silah paylayır, İran hökuməti isə İranda yaşayan ermənilərin Osmanlı dövlətinə qarşı hərəkətlərinə maneə törətmirdi. İran konsulları (xüsusən İrəvandakı konsul) erməniləri İran pasportları ilə təmin edirdilər [325, 49].

İngilislərin bu siyasətinə etiraz olaraq, 1918-ci ilin fevral ayının sonunda Qafqazın müsəlman qəzaları ingilis qoşunlarının bölgə ərazisinə müdaxiləsinə etiraz əlaməti olaraq Zaqafqaziya Seyminə müraciət edərək ingilis nümayəndələri ilə danışıqları dayandırmağı tələb etdilər [85, 14].

Bu məqamda kapitan Noel 22 yanvar 1918-ci il tarixli məlumatında Azərbaycanın şimal hissəsində ingilislərə münasibətin pisləşməsi haqqında bəhs edərək yazırdi: “Mən 6 həftə öncə orada olarkən tatar (azərbaycanlı-B.H.) icmasının rəhbərləri bizə açıq şəkildə dostyana münasibət bəsləyirdilər. Lakin hal-hazırda, Bakıya qayıtdıqdan sonra mənə məlum oldu ki, onların davranışında şübhəliliyə və çətinliklə gizlədilən düşmənçiliyə doğru dəyişiklik baş vermişdir. Bu, aşağıdakılarla izah olunur: 1) bizim erməni mənafeyinə üstünlük verməyimiz haqqında rəy geniş yayılmışdır; 2) ermənilər bu təəssüratı gücləndirir və ondan sərbəst şəkildə öz xeyirləri üçün sui-istifadə edirlər; 3) erməni milli alayının təşkil olunmasına icazə verilməsi. Güman edirəm ki, bu, rus baş qərargahının erməniləri dəstəklədiyimiz və müsəlmanlara güvənmədiyimiz haqqında görüşlərinə uyğundur. Fikrimizcə, bu siyasət yanlışdır və güman etmək olar ki, fəlakətə gətirib çıxaracaq. Müsəlmanların maraqları, onları qulaq ardına vurmaq imkansız olduğu qədər güclüdür. Xüsusilə rus ordusunun tezliklə dirçəlməsinə ümidlərinə son dərəcə cüzi olduğu bir zamanda tatarlar (azərbaycanlılar-B.H.) Rusiyaya baxmayaraq, özlərinin milli hərbi bölmələrini təşkil edəcəklər və daha yaxşı olar ki, bu, bizim himayəmiz altında baş versin” [85, 14-15].

Bu dövrdə ingilis hərbi rəhbərliyi başa düşürdü ki, ermənilərin müdafiə olunması Böyük Britaniyanın Cənubi Qafqaz siyasətinə böyük zərbə vura bilər. Bunu nəzərə alan ingilis hökuməti müəyyən siyasi gedişlər vasitəsilə yaranmış bu fikri dəyişməyə təşəbbüs göstərirdi.

İngilislərin Cənubi Qafqaza hərbi müdaxiləsi 1918-ci il avqust ayının əvvəllərində "Sentrokaspi diktaturası" hökumətinin dəvəti ilə baş vermişdi. İngilis generalı Lionel Denstervil avqustun 17-də 39-cu piyada briqadasının əsas qüvvələri ilə Bakıya daxil olmuşdu. Bu hərbi müdaxilənin məqsədi Xəzərsahili bölgələrin, o cümlədən Bakı şəhərinin Azərbaycan-Osmanlı hərbi qüvvələri tərəfindən azad edilməsinin qarşısını almaq idi. Lakin ingilis hərbi qüvvələri Qafqaz İslam ordusunun hərbi təzyiqləri nəticəsində geri çəkilmiş və sentyabrın ortalarına doğru Bakını tərk edərək Ənzəli limanına qayıtmışdı.

1918-ci ilin oktyabrın 30-da bağlanmış Mudros sazişinin şərtlərinə görə, Osmanlı qoşunları çox tezliklə Cənubi Qafqazı tərk etdi. Lionel Denstervil Bakıya geri çağırılmış, onun missiyası, Mesopotamiyadan gəlmiş yeni hərbi hissələr əsasında "Norperfors" ("Şimali İran Qoşunu") adını almış yeni müdaxiləçi qrup yaradılmışdı. Həmin qrupa general Uilyam Tomson başçılıq edirdi. Osmanlı qoşunları Azərbaycandan çıxarıldıqdan sonra 1918-ci il noyabr ayının 7-də U.Tomsonun başçılığı altında ingilis qoşunları Bakıya daxil oldu. U.Tomson Bakıya daxil olduqdan sonra özünü Bakının general-qubernatoru elan etdi. Həmin dövrdə Bakıda 30 min ingilis əsgər və zabiti cəmləşmişdi. İngilislərin Cənubi Qafqaz siyasəti Böyük Britaniyanın bu bölgədə total nəzarətinin bərqərar olmasına, uzunmüddətli nüfuzunun qorunmasına yönəlmişdi, ingilis hökuməti həmçinin Rusiyada sovet hakimiyyətinin devrilməsi üçün qeyri-rus qüvvələrinə hərtərəfli, o cümlədən hərbi yardım göstərilməsi siyasətini dəstəkləyirdi [85, 17-19].

Böyük güclərin Cənubi Qafqaz uğrunda siyasi mübarizəsinin nəticəsi olaraq 1918-ci ilin may ayının sonlarında Azərbaycanın qərb torpaqlarının bir hissəsində Ararat Respublikasının yaradılması erməni daşnak hökumətinin siyasi iddialarını daha da gücləndirdi.

Belə bir vaxtda (1918-ci ilin yayında) Osmanlı hökuməti Cənubi

Qafqazda baş verən hadisələri diqqətlə izləyirdi. Artıq Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolu istiqamətində hərəkət edən osmanlı qoşunları Kazım Qarabəkirin komandanlığı altında Naxçıvana yetişməkdə idi. Belə bir dövrdə Fransa yenə daşnakların fəaliyyətini müdafiə edirdi. Belə ki, Fransanın İrəvandakı nümayəndəsi Antanta bloku adından bildirirdi ki, Antanta Naxçıvanda, Zəngəzurda və Qarabağda daşnakların hərbi əməliyyatına hər cür yardım göstərəcəkdir [141, 39].

1918-1920-ci illərdə Ermənistanın daşnak hökumətinin siyasətinin başlıca məzmununu Azərbaycan Xalq Cümhuriyyətinin ayrılmaz parçası kimi təsbit olunmuş Naxçıvan, Zəngəzur və Qarabağ regionlarını, Gürcüstan Respublikasının iddia etdiyi Borçalı, Ahalsıq və Ahalkələk ərazilərini ələ keçirmək təşkil edirdi. Daşnak rəhbərliyi ilk növbədə də Böyük Britaniyanın və Amerikanın yardımına arxalanmaqla "Böyük Ermənistan" yaratmaq məsələsində uğur qazanmağa ümid bəsləyirdi. Bu zaman Ermənistan rəhbərliyi İngiltərədən birbaşa hərbi dəstək və siyasi müstəqilliyin tanınmasını, Amerikadan isə maliyyə yardımını və ölkənin idarəçiliyinə dair mandatın öz üzərinə götürülməsini gözləyirdi [85, 21-22].

Bu dövrdə ingilis hökuməti ermənilərə maliyyə yardımı da göstərirdi. Belə ki, 1917-ci il dekabrın 18-də Londondakı Amerika səfiri Peyc dövlət katibi R.Lanzingə məlumat verirdi ki, ingilis hökuməti özünün nümayəndəsinə səlahiyyət vermişdi ki, Cənubi Rusiyada ayrı-ayrı əksinqilabi qüvvələrə, eyni zamanda erməni və gürcülərə maliyyə yardımı təşkil etsin [341, 72].

1918-ci ilin dekabrında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Hətta ilk gündən ingilislər Cənubi Qafqazda Fransanın marağını duyub, onunla qarşılaşmamaq üçün 1917-ci il dekabr sazişinin əksinə olaraq, Ermənistanı Fransaya "güzəştə getmək" qərarına gəldilər. 1918-ci il dekabrın 9-da Kerzon hökumət kabinəsinin iclasında elan etdi ki, "Ermənistan Fransaya verilməlidir, ona görə ki, Fransadan başqa heç kim bu qeyri-adi, ürəyə yatmayan adamlarla hər hansı formada əlaqədə olmaq istəmir" [100, 204-205].

Böyük Britaniya hökuməti tərəfindən 1918-ci ilin dekabr ayında

Qarabağ bölgəsinə Ermənistanın hərbi təcavüzü ilə bağlı olaraq Şuşaya Uorçester alayının başçısı Hibbonun komandanlığı altında kiçik eskortun müşayiəti ilə Böyük Britaniya hərbi missiyasının göndərilməsi zərurəti meydana çıxdı [412, 48].

İngilis komandanlığının rəsmi mövqeyi sanki Azərbaycan tərəfinin dəstəklənməsinə, erməni təcavüzünün pislənməsinə, bölgədə sülhün bərqərar edilməsinə yönəlmişdi. General U.Tomsonun təşəbbüsü ilə Qarabağa qarışıq ingilis-erməni-müsəlman nümayəndə heyəti göndərilmiş, erməni hərbi dəstələrinin başçılarına onları müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətlərdən çəkindirən teleqramlar göndərilmişdi. U.Tomsonun imzası ilə analoji məzmunlu məktub Andronikə də təqdim olunmuşdu. Andronik 19 noyabr 1918-ci il tarixli, 640 saylı əmri ilə öz tabeliyində olanları xəbərdar edirdi: "Müttəfiqlərin təmsilçilərinin mənə çatdırdıqları məktubda deyilir ki, bundan sonra hər cür düşmən əməlləri erməni məsələsinin həll olunmasına mənfi təsir göstərə bilər" [412, 48].

Görünür ki, yalandan, saxta olsa da Andronikin bu cavabı ingilisləri qane edirdi. Çünki Andronik bu teleqramdan sonra da öz çirkin əməllərini davam etdirmişdir.

Andronikin Qarabağda türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımı Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində müzakirə edilmişdir. Parlamentin ilk iclaslarının birində bu məsələ ilə bağlı parlament üzvlərinin təklifləri və çıxışları olmuşdur.

Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrində yaranmış mürəkkəb hərbi-siyasi vəziyyət Azərbaycanın yenicə formalaşmış parlamentinin 10 dekabr 1918-ci il tarixli iclasında geniş müzakirə edildi. Məsələ ilə baglı sorğu əvvəlcə Qarabağdan seçilmiş deputat Q.Əliverdibəyov, sonra isə Sosialistlər fraksiyası tərəfindən irəli sürülmüşdü. Məsələyə dair izahatla çıxış edən baş nazir F.Xoyski Zəngəzurda və Qarabağda yaranmış vəziyyətin geniş təsvirini vermiş, məsələni dinc yolla, qan tökülmədən həll etməyə çalışdıqlarını bildirmişdi. Baş nazir Andronik təhlükəsini aradan qaldırmaq üçün hökumətin atdıgı siyasi-diplomatik addımlar, sülh yaratmaq üçün bölgəyə qarışıq komissiya göndərilməsi haqda məlumat verərək, etiraf etmişdi ki, nümayəndələr göndərilməsi sistemi özünü doğrultmur. Bunu Andro-

nikin bandaları yeni-yeni vəhşilikləri haqqında Qarabağın müxtəlif yerlərindən göndərilən teleqramlar da təsdiq edirdi. Andronik ermənilərin özlərinə də terror edib qorxudaraq, zorla öz dəstəsinə yazdırırdı [112, 38-39].

Xoyskinin qənaətinə görə, Andronikin planı Zəngəzur və Şuşanı müsəlmanlardan təmizləməkdən və bu bölgələri Azərbaycandan ayırmaqdan ibarət idi.

Məsələnin müzakirəsi zamanı çıxış edən Ə.Pepinov Androniki Daşnak partiyasının Gəncə quberniyasının dağlıq ərazilərini süni şəkildə erməniləşdirilməsı siyasətini həyata keçirən cinayətkar adlandırmışdı. Parlament Andronikin vəhşilikləri haqqında Azərbaycan hökumətinin izahatını dinlədikdən sonra Vətənin ərazi bütövlüyünün toxunulmazlığı, Azərbaycan Cümhuriyyətinin şərəf və ləyaqətinin müdafiəsi, onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələlərə dair hökumətin gördüyü bütün diplomatik və hərbi tədbirləri dəstəkləyəcəyini bildirmişdi [112, 38-39].

Andronikin vasitəsilə Ararat (Ermənistan) Respublikasının bu ərazilərdən türk-müsəlman əhalini sıxışdırıb çıxarmağa çalışmasına və bu ərazilərə iddiasına baxmayaraq, o zaman Bakıda olan Britaniya qoşunlarının başçısı Müttəfiq Dövlətləri təmsil edən general U.Tomson Zəngəzur qəzası ilə birlikdə Dağlıq Qarabağın Azərbaycanın Xalq Cümhuriyyətinin idarəsi altında olmasını tanıdı. O, Azərbaycan hökuməti tərəfindən Xosrov Sultanovun Qarabağ general-qubernatorluğuna qubernator təyin edilməsini də təsdiqlədi. 1919-cu il avqust ayının 15-də Dağlıq Qarabağın erməni assambleyası rəsmi olaraq Azərbaycan hakimiyyətini tanıdı [419, 75-76].

Ümumiyyətlə, XX əsrin başlanğıcında və Birinci dünya müharibəsi dövründə böyük dövlətlər – ABŞ, İngiltərə, Fransa və Rusiya öz müstəmləkələrini qoruyub saxlamaq məqsədini güdür, bu işdə ermənilərdən də istifadə edirdilər. Erməni siyasi partiyaları isə xəyal etdikləri “Böyük Ermənistan” dövləti qurmağa çalışırdı. Ermənilərin bu iddiaları qarşısında böyük dövlətlər tərəfindən Azərbaycanın İrəvan şəhəri paytaxt olmaqla, Qərbi Azərbaycan torpaqlarının 9,8 min kv.kmlik hissəsində ilk erməni dövləti yaradıldı.

Bütün bunlara baxmayaraq təcəvüzkar daşnakçı Ararat

Respublikası bütün beynəlxalq hüquq normalarını pozaraq, öz təhəddüdlərinə xilaf çıxaraq bütün qonşularına ilk növbədə də Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ərazi iddialarından əl çəkmir, xüsusən də əzəli Azərbaycan torpağı olan Qarabağ bölgəsini qəsb etmək üçün dəridən-qabıqdan çıxırdı.

# II FƏSİL

# QARABAĞDA SOSİAL-İQTİSADİ DURUM

## §1. Əhali və demoqrafik vəziyyət

Çar Rusiyası Qafqazı, o cümlədən Quzey Azərbaycan ərazilərini işğal etdikdən sonra özünə xristian elementlərindən ibarət etnik dayaq yaratmaq üçün bir çox bölgələrə, həmçinin Azərbaycanın Qarabağ bölgəsinə kütləvi şəkildə xristian mənşəli, xüsusilə də erməni əhalisini köçürməyə başladı. Müstəmləkəçi imperiyanın öz siyasi maraqlarına uyğun apardığı bu siyasət haqlı olaraq ərazidə ən qədim dövrlərdən yaşayan yerli əhalinin narazılığına səbəb olurdu ki, bu da imperiyanın öz siyasi maraqlarını istədiyi şəkildə həyata keçirməyə maneçilik törədirdi. Cənubi Qafqazda, həmçinin Qarabağ bölgəsində öz siyasətini maneəsiz həyata keçirmək istəyən imperiya birinci addım kimi yerli müsəlman əhalisini regiondan sıxışdırıb çıxarmaq və bu regiona xristian dininə mənsub olan əhalini yerləşdirməyə nail olmaq istəyirdi.

Ona görə də 1828-ci il Türkmənçay, 1829-cu il Ədirnə sülh müqavilələrinin mətnlərinə xüsusi olaraq pərçimlədiyi mürtəce maddələrdən yararlanaraq çar Rusiyası işğal etdiyi Şimali Azərbaycan xanlıqlarının ərazisinə ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsi prosesini sürətləndirdi [137, 34].

Çar Rusiyası bu müqavilələri bağlamaqla, Qafqaza xristian mənşəli əhalinin köçürülməsi layihəsinə start vermiş oldu. İşğal etdiyi əraziləri tezliklə xristianlaşdırmağa çalışan müstəmləkəçi imperiya ilk növbədə müqavilələr bağladığı Qacarlar dövləti və Osmanlı dövlətində yaşayan mənşəcə xristian olan hayları (indiki erməniləri) bu ərazilərə köçürməyə başladı. Bu dövrə qədər Qafqaza gələrək yaşayan ermənilər, rus və erməni müəlliflərinin yazdığı kimi, çox az idi.

Tədqiqatçıların verdiyi məlumata görə türk-erməni münasibətlərinə obyektiv yanaşan ABŞ professoru Castin Makkarti “Genosid

olmuşdurmu"? kitabında çar Rusiyasının müstəmləkə siyasətini xarakterizə edərək yazır ki, 1828 və 1854-cü illərdə ruslar iki dəfə Şərqi Anadoluya hücum etmiş və hər iki dəfə yerli ermənilər onların tərəfini saxlamışdılar. Hər iki halda ruslar çıxıb getməli olanda özləri ilə 100 min erməni tərəfdarını Qafqaza gətirmiş, onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişlər. Professor sözünə davam edərək yazır: "...biz dəqiq bilirik ki, 1820-ci ildən 1920-ci ilədək təxminən 600 min erməni rus imperiyasının ərazisinə köçürülmüşdür. 2 mln. müsəlman isə Rusiyadan getmişdir" [129, 166].

Qarabağ bölgəsinə köçürülən ermənilərin çox hissəsi Təbriz erməniləri idi. Onlar Qafan, Gorus, Şuşa istiqamətində Tərtər çayına və Gülüstana qədər Qarabağ bölgəsində yerləşdirilirdilər [195, 25]. Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunan "Təsvir"də öz əksini tapmışdır [299, 382]. Bu "Təsvir"ə görə Qarabağ əyalətində olan 20095 ailədən 15729-u azərbaycanlı (1111-i şəhərdə, 14618-i kənddə), 4366-sı "erməni" idi (421-i şəhərdə, 3945-i kənddə) [359, 17]. Yeri gəlmişkən, bu ermənilərin çox böyük əksəriyyəti xristianlaşmış keçmiş albanlar idi.

Bu faktı Qafqaza gəlmiş rus tədqiqatçısı V.L.Veliçko yazdığı "Qafqaz" əsərində belə qeyd edir: "Qarabağın (Alban, yaxud Aqvan) əhalisini erməni adlandırırlar, bu heç də belə deyil, baxmayaraq ki, onlar erməni-qriqorian məzhəbinə inanırlar, bu əhali, dağlı və türk tayfalarından əmələ gəlmişlər və üç-dörd əsr bundan qabaq erməniləşmişlər" [263, 154-155].

Qafqazda araşdırmalar aparmış rus tədqiqatçısı Zelinski XVIII əsrdə İrəvanda, Qarabağda ermənilərin həm sayca, həm də yaşadıqları ərazi baxımından çox az olduğunu qeyd edirdi. O yazırdı ki, "Zəngəzurda XIX əsrə qədər cəmi üç erməni kəndi olmuşdu" [300, 10].

İndiki Ermənistan Respublikası ərazisində (Qərbi Azərbaycanda) erməni dövlətinin olmadığını erməni alimi B.İşxanyan da etiraf edərək yazırdı ki, "ermənilər Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlər ərzində yayılmışlar... Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigendirlər, qədim albanların nəsilləridir..., bir

hissəsi isə Türkiyədən və İrandan qaçıb gəlmələrdir” [312, 16].

1907-ci ildə Cənubi Qafqaz üzrə rus pravoslav kilsəsinin sinodunun müfəttişi A.Frenkel qeyd edirdi ki, yerli ermənilər (erməniləşmiş albanlar-B.H.) gəlmə ermənilərdən fərqlənirdilər, onlar gəlmələrlə bir-birlərini demək olar ki, başa düşmürlər, hətta onların arasında nikahlar da çox nadir hallarda baş tuturdu [287, 111].

Yuxarıda verilən məlumatı təsdiqləyən sənədlərdən biri də Osmanlı “Dəftərləri”dir ki, burada verilən məlumatlar Azərbaycan türklərinin bölgənin əsas əhalisi olduğunu bir daha təsdiq edir. Hesablamalara görə, 1727-ci ildə Gəncə-Qarabağ əyalətindəki 122 min nəfərədək əhalinin 80,3 min nəfəri (66%) azərbaycanlılar, 37,8 min nəfəri (31%) xristianlaşmış albanlar idi [164, 15].

1804-1813 və 1826-1828-ci illər Rusiya-İran (Qacarlar dövləti-B.H.) müharibələrindən sonra ermənilərin Cənubi Qafqaza o cümlədən Azərbaycanın Qarabağ bölgəsinə kütləvi surətdə köçürülməsi prosesi başlamışdır [123, 477].

K.Şükürov haqlı olaraq qeyd edir ki, Gülüstan və Türkmənçay müqavilələrindən sonra Rusiyanın Qacarlar və Osmanlı dövlətlərinin ərazisindən Şimali Azərbaycana köçürüb gətirdiyi ermənilərin xüsusi dövlət qeydiyyat sistemi tətbiq edilməmişdir [207, 158]. Hələ çar Rusiyası tərəfindən Qafqaza göndərilmiş rus qafqazşünası İ.Şopen keçirdiyi siyahıyaalmada göstərirdi ki, Qacarlar və Osmanlı dövlətlərindən İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə 57266 nəfər erməni köçürülmüşdür [409, 642].

Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, çar Rusiyasının Şimali Azərbaycanı işğalından keçən 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürülmüşdü. Həmin illərdə xüsusən Qarabağa, ən primitiv hesablamalara görə, 130 mindən çox erməni köçürülmüşdür. Qeyri-rəsmi məlumatlara görə, bu köçürülənlərin sayı 200 min nəfərdən çox idi [137, 32; 79, 85-86].

Qacarlar və Osmanlı dövlətlərindən ermənilərin kütləvi axını nəticəsində Qarabağda əhalinin milli tərkibi süni olaraq dəyişdirilməyə başladı. Belə ki, 1832-ci ildə Qarabağın dağlıq hissəsində azərbaycanlılar əhalinin 91 faizini təşkil edirdisə, 1886-cı ildə bu xüsusi

çəki 41,5 faizə enmişdi. Müvafiq olaraq erməni əhalisinin xüsusi çəkisi isə 8,4 faizdən 58,2 faizə qədər yüksəlmişdi” [68, 11]. XIX əsrin 80-ci illərinin sonunda Şuşa qəzasında ermənilərin sayı əhalinin 58 faizini təşkil edirdilər [314, 48-61].

M.Vəliyev (Baharlı) “Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)” əsərində Azərbaycan Respublikası (1920) təqviminə istinad edərək, qeyd edir ki, “Şuşa və Zəngəzur qəzalarının dağlıq hissəsində ermənilər bütün əhalinin təxminən 50 faizini təşkil edirdilər” [217, 15-16]. Müəllifin verdiyi məlumatla Qafqaz təqviminin 1917-ci ilə olan məlumatını müqayisə etdikdə görürük ki, üç il müddətinə Zəngəzur qəzasında azərbaycanlı əhalinin sayında beş faizə qədər azalma olmuşdu. Çünki 1917-ci ilə qədər olan məlumata görə, Zəngəzur qəzasında azərbaycanlılar əhalinin 55 faizini təşkil etmişlər.

1896-cı ildə Cənubi Qafqazın baş Mülki rəisi general-adyutant Şeremetyev özünün qeydlərində Cənubi Qafqazda ermənilərin 900000 nəfərə yaxın olduğunu, 1908-ci ildə isə onların sayının 1300000 nəfərə çatdığını yazırdı [312, 60].

Türk tarixçisi K.Gürun, I Dünya müharibəsi dövründə və ondan sonra, Osmanlıdan, Qacarlar dövlətindən, Suriyadan, Yunanıstandan, Balkan ölkələrindən və başqa yerlərdən Qafqaza 700000 erməninin qaçdığını qeyd edirdi [288, 361].

XIX əsrin əvvəllərində reallaşdırılan Rusiya köçürmə siyasəti nəticəsində regionda ermənilərin sayı xeyli artmış, Şuşa qəzasında hətta onlar müsəlman əhalisini sayca üstələmişdi. 1886-cı ildə burada yaşayan əhalinin sayı 52,2 faizi erməni 41,5 faizi müsəlman; 1897-ci ildə 53 faizi erməni, 45 faizi müsəlman; 1917-ci ildə isə 52,3 faizi erməni, 40,2 faizi müsəlman olmuşdur [184, 107].

XX əsrin əvvəllərində əhalinin qeydiyyatında ənənəvi üsullar-yerli hakimiyyət orqanlarının qeydiyyatı və Ümumrusiya inzibati polis hesablamalarının qalması ilə birgə müəyyən dəyişikliklər baş vermişdi. Bu dövrdə bir günlük şəhər siyahıyaalmaları keçirilməyə başlamışdı. 1897-ci ildə Birinci Ümumrusiya siyahıyaalması keçirilir.

XIX əsrin sonunda 1 yanvar 1899-cu ilin məlumatına görə Yelizavetpol (Gəncə) quberniyasının əhalisi 887.425 nəfər olmuşdur ki,

bunun 488,438 kişilər, 398,987-si isə qadınlar idi [1, 18-19].

Qarabağ bölgəsinin mərkəzi şəhəri olan Şuşa şəhərinin əhalisinin sayı isə XIX əsrin sonu-XX əsrin əvvəllərində aşağıdakı kimi dəyişmişdir.

1897-ci il Birinci Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə Şuşa qəzasının ümumi əhalisinin sayı 138771 nəfər olmuşdur. Burada yaşayan kişilərin sayı 74171, qadınların sayı isə 64600 nəfər idi. Qəzanın mərkəzi Şuşa şəhəri əhalisinin sayı 25881 nəfər, bunlardan 13318-i kişi, 12563 nəfəri isə qadın olmuşdur. Qəzanın qalan ərazisində isə, ümumilikdə 112890 nəfər, 60853 kişi, 52037 qadın olmuşdur [288, 89].

G.Sadıqova qeyd edir ki, Şuşa şəhərinin əhalisi 1886-cı ildə 26806 nəfər olmuşdur ki, bunlardan 15786-sı kişi, 11020-si isə qadınlar idi. 1897-ci ildə bu şəhərin əhalisi 25881 nəfəri idi ki, bunlardan 13318-i kişi, 12563 nəfəri isə qadın olmuşdur. 1904-cü ildə isə Şuşa şəhəri əhalisinin sayı birdən-birə 34847 nəfərə çatmışdır. Kişilərin sayı 13318-dən 20521-ə, qadınların sayı isə 12563-dən 14326-ya yüksəlmişdir. 1913-cü ildə isə Şuşa şəhərində əhalinin sayı 42568 nəfərə çatmışdır [377, 52-53].

1917-ci ilin statistik məlumatına görə, Yelizavetpol quberniyasında Gəncə üzrə 57,7 min və Nuxa üzrə 52,2 min nəfər, Şuşa şəhəri üzrə 43,9 min nəfər əhali olmuşdur [217, 17-18]. Şuşa şəhərinin əhalisini əsrin əvvəli ilə müqayisə etdikdə, 18 min nəfərdən çox artaraq, 1915-ci ilin axırında 44 min nəfər olmuşdu [81, 17].

XIX əsrin sonu-XX əsrin əvvəllərində on beş il müddətinə Şuşa şəhər əhalisi içərisində birdən-birə 17000 min nəfərə yaxın artım olmuşdur. Faktlardan aydın görünür ki, bu artım həm də çar hökumətinin Şimali Azərbaycana və onun tərkib hissəsi olan Qarabağ bölgəsinin mərkəzi şəhəri Şuşaya xaricdən köçürdüyü ermənilərin hesabına baş vermişdi. Lakin bütün bunlara baxmayaraq Qarabağ bölgəsinin digər qəzalarında Azərbaycan türkləri burada yaşayan əhalinin böyük hissəsinin təşkil etmişlər.

1886-cı il ailə siyahılarına görə Zəngəzur qəzasının əhalisinin 53,3%-ni azərbaycanlılar, 46,3%-i isə ermənilər təşkil edirdilər. Qəzanın 326 kəndinin 154-də Azərbaycan türkləri (45,7%), 91-də

kürdlər (27,8%) (birlikdə 73,5%) və yalnız 81-də (24,8%) ermənilər yaşayırdılar. S.Zelinskinin tədqiqatlanna görə, 1886-cı ildə Zəngəzurda xəzinə torpaqlarına aid 161 kəndin 111-i müsəlman (türk və kürd), 49-u erməni kəndi olmuşdur. Bu kəndlərdə 38712 müsəlman, 30850 erməni yaşamışdır [112, 13].

1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə Zəngəzur qəzasının əhalisinin ümumi sayı 137871 nəfər, kişilərin sayı 72592, qadınların sayı 65279 nəfər olmuşdur. Gorusda ümumilikdə 1450 nəfər qeydə alınmışdır ki, bunlardan da kişilərin sayı 827, qadınların sayı 623 nəfər olmuşdur [367, 76].

1897-ci ildə Zəngəzur qəzasında 406 kənd vardı ki, bunlardan 314-də müsəlmanlar, 92 kəndində isə ermənilər yaşayırdılar. Zəngəzur qəzasında 1897-ci ildə yaşayan 137871 nəfərdən 71206-nı Azərbaycan türkləri, 63622-ni ermənilər, 1807-ni kürdlər, 1006 nəfərini isə ruslar təşkil edirdi [366, 75]. Zəngəzur qəzasında 5762 nəfər zadəgan nəsli olmuşdur ki, bunlardan 4863 nəfərini (84,3 faizini) Azərbaycan türkləri, 834 nəfərini (14 faizini) ermənilər, 57 nəfərini (1 faizini) kürdlər, 6 nəfərini isə ruslar təşkil edirdi [367, 75].

Qarabağ bölgəsinin digər qəzası olan Cavanşir qəzasının ərazisi 4818,4 kv.verst olmuşdur. Ümumilikdə burada əhalinin sayı 72719 nəfər idi ki, bunlardan 41039 nəfəri kişilərin, 31680 nəfəri qadınların payına düşürdü. Qəza mərkəzinin əhalisi 752 nəfər, (496 nəfər kişi, 256 nəfəri isə qadınlar) idi. Qəzanın kənd əhalisinin 40543 nəfərini kişilər, 31424 nəfərini qadınlar təşkil edirdilər. Qəzada bütövlükdə 71.967 nəfər sakin olmuşdu [367, 16].

Cəbrayıl qəzasının əhalisi 66360 nəfər (kişilərin sayı 36389, qadınların sayı isə 29971 nəfər) olmuşdur. Qəzanın mərkəzi Cəbrayılda 520 nəfər yaşayırdı ki, bundan 369-u kişi, 151-i qadın idi. Qəzanın qalan ərazisində ümumilikdə 65840 nəfər kişi, 36020 nəfəri qadınlar, cəmi 29820 nəfər əhali yaşamışdı [367, 16].

XIX əsrin sonlarında Azərbaycanın Qarabağ bölgəsində cəmi 415721 nəfər əhali olmuşdur. XX əsrin əvvəllərində, 1904-cü ildə nəşr edilmiş “Qafqaz təqvimi”nin 1903-cü ilə aid məlumatlarında Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda qəza polis məntəqələrinin yerləşdiyi ərazi, bu polis məntəqələrinin sahəsi və polis məntə-

qəsində yaşayan əhalinin sayı haqqında aşağıdakı məlumatlar verilmişdir:

1903-cü ilin məlumatına görə, Şuşa qəzasında bir şəhər - Şuşa və dörd polis məntəqəsi var idi. Şuşa şəhərində 20557 kişi, 13268 nəfər qadın, cəmi 33825 nəfər əhali yaşayırdı. 1897-ci ilin siyahıyaalmasına görə bu göstərici 13282 kişi, 12374 qadın olmaqla, cəmi 25656 nəfər idi. Xankəndi polis məntəqəsində 64 kənd, Qacarda 52 kənd, Ağdamda 77 kənd, Ağcabədidə isə 52 kənd, qəzada (cəmi 245 kənd) var idi. 1903-cü ilin məlumatına görə Xankəndi polis məntəqəsində 5812 ev, 17746 kişi, 18327 qadın, cəmi 36073 nəfər, Qacar polis məntəqəsində 4698 ev, 21637 kişi, 15685 qadın, cəmi 37322 nəfər, Ağdam polis məntəqəsində 3111 ev, 11185 kişi, 8254 qadın, cəmi 19439 nəfər, Ağcabədi polis məntəqəsində 3327 ev, 9450 kişi, 8690 qadın, cəmi 18140 nəfər əhali var idi. 1903-cü ilin məlumatına görə, qəza üzrə 80575 kişi, 64224 qadın olmaqla, cəmi 144799 nəfər əhali qeydə alınmışdı. 1897-ci ilin siyahıyaalmasına görə isə bu qəza üzrə əhalinin sayı cəmi 113179 nəfər 60965 kişi, 52214 qadın, olmuşdu [316, 32-33].

Bu məlumatlardan aydın görünür ki, Şuşa şəhərində əhali 1897-ci illə müqayisədə - 6 il müddətində 8169 nəfər artmışdı. Qəza üzrə isə bu artım 1897-ci illə müqayisədə - 6 il müddətinə 31620 nəfərə bərabər olmuşdu. Qəza üzrə əhalinin sayı 144799 nəfər idi.

Qarabağdakı digər qəzada - Zəngəzurda beş polis məntəqəsi yaradılmışdı. Bu polis məntəqələrində: Qarakilsədə 52 kənd, Xanazıxda 75 kənd, Dondarlıda 201 kənd, Şıxauzda 98 kənd, Kəvərdə (Kavarta) qəzada cəmi 426 kənd olmuşdur. 1903-cü ilin məlumatına görə, Zəngəzur qəzası üzrə hər kv.verstə 20,7 nəfər əhali düşürdü. Qarakilsə polis məntəqəsində 3186 ev olmuş, 20497 kişi, 19953 qadın, cəmi 40450 nəfər əhali yaşamışdır. Xanazıx polis məntəqəsində 6373 ev olmuş, 32468 kişi, 28306 qadın, cəmi 60774 nəfər əhali yaşamışdır. Dondarlı polis məntəqəsində 5606 ev olmuş, 18273 kişi, 16325 qadın, cəmi 34599 nəfər əhali yaşamışdır. Şıxauz polis məntəqəsində 5138 ev olmuş, 12714 kişi, 12479 qadın, cəmi 25193 nəfər əhali yaşamışdır. Kəvərtə (Kavarta) polis məntəqəsində 8925 kişi, 5715 qadın, cəmi 14640 nəfər əhali yaşamışdır. 1903-cü ilin məlu-

matına görə, qəza üzrə 92877 kişi, 82779 qadın olmaqla, cəmi 175656 nəfər əhali yaşamışdır. Qəza üzrə əhalinin sayı 1897-ci ilin siyahıyaalmasına görə 72720 kişi, 65391 qadın cəmi 138111 nəfər olmuşdur [316, 32-33].

Deməli, Zəngəzur qəzasında 6 il müddətinə 1897-1903-cü illərdə əhalinin sayı 37545 nəfər artmışdı.

Qarabağ bölgəsinin Cəbrayıl qəzasında üç polis məntəqəsi yerləşirdi. Bu polis məntəqələrində: Qarabulaqda 43 kənd, Hadrutda 68 kənd, Cəbrayılda isə 57 kənd, qəzada cəmi 168 kənd olmuşdur. 1903-cü ilin məlumatına görə, Qarabulaq polis məntəqəsində 2292 ev olmuş, 11277 kişi, 9528 qadın, cəmi 20805 nəfər əhali yaşamışdır. Hadrut polis məntəqəsində 3328 ev olmuş, 14993 kişi, 12367 qadın, cəmi 27360 nəfər əhali yaşamışdır. Cəbrayıl polis məntəqəsində 2913 ev olmuş, 12344 kişi, 10521 qadın, cəmi 22865 nəfər əhali yaşamışdır. 1903-cü ilin məlumatına görə, qəza üzrə 38614 kişi, 32416 qadın olmaqla, cəmi 71030 nəfər əhali yaşamışdır. Qəza üzrə əhalinin sayı 1897-ci ilin siyahıyaalmasına görə, 36401 kişi, 29986 qadın, cəmi 66387 nəfər olmuşdu [316, 30-31].

Deməli, 1897-ci illə müqayisədə - 6 il müddətinə Cəbrayıl qəzasında əhalinin sayı 4643 nəfər artmışdı.

1903-cü ildə Cavanşir qəzası ərazicə üç polis məntəqəsinə bölünmüşdü. Bərdədə 70 kənd, Şirvanlıda 103 kənd, Boyəhmədlidə isə 49 kənd, qəzada cəmi 222 kənd var idi. 1903-cü ilin məlumatına görə, Bərdə polis məntəqəsində 3241 ev olmuş, 12666 kişi, 9387 qadın, cəmi 22053 nəfər əhali yaşamışdır. Şirvanlı polis məntəqəsində 3899 ev olmuş, 9692 kişi, 8548 qadın, cəmi 18240 nəfər əhali yaşamışdır. Boyəhmədli polis məntəqəsində 3431 ev olmuş, 17326 kişi, 15285 qadın, cəmi 32615 nəfər əhali yaşamışdır. 1903-cü ilin məlumatına görə, qəza üzrə 39684 kişi, 33224 qadın olmaqla, cəmi 72908 nəfər əhali yaşamışdır. 1897-ci ilin siyahıyaalmasına görə qəzada 41065 kişi, 31629 qadın olmaqla cəmi 72694 nəfər yaşamışdır [316, 32-33]. 1897-ci illə müqayisədə, qəzada 6 il müddətinə əhalinin sayı cəmi 214 nəfər artmışdı. Bu hal ancaq, o dövr çar Rusiyası məmurlarının əhalinin tərkibi ilə bağlı verdikləri məlumatlardakı dəqiqsizliklə izah oluna bilər.

Ümumilikdə, Azərbaycanın Qarabağ bölgəsində 1897-ci ilin siyahıyaalmasına görə, 416027 nəfər əhali yaşamışdı. 1903-cü ilə dair məlumatlara görə isə, Qarabağ bölgəsində 498218 nəfər yaşamışdır [316, 31-33], yəni qısa zaman kəsiyində, cəmisi 6 ildə əhali 82 min nəfərdən çox artmışdır.

Yuxarıdakı faktlardan aydın olur ki, Qarabağ bölgəsinin dağlıq hissəsində əhalinin say artımı daha çox olmuşdur. Bu da çar Rusiyasının öz siyasətinə uyğun olaraq Qarabağın dağlıq hissəsinə xristian hayları (indiki ermənilər) xaricdən köçürüb bu ərazilərdə yerləşdirməsi ilə bağlı olmuşdu.

Yelizavetpol quberniyasının yaddaş kitabçalarından birinin məlumatına görə, 1913-cü ilə yanvar 1-də Gəncə quberniyasında əhalinin say tərkibi belə idi: "tatarlar" (yəni Azərbaycan türkləri) 373844 kişi, 336404 qadın, cəmi 710248 nəfər, ermənilər 231573 kişi, 220721 qadın, cəmi 452294 nəfər, ruslar 26144 kişi, 23505 qadın, cəmi 49649 nəfər, polyaklar, almanlar və başqa Avropa xalqları 3764 kişi, 3166 qadın, cəmi 6930 nəfər. Quberniyada çox az sayda yəhudilər, qaraçılar, gürcülər, kürdlər, udinlər və b. da yaşayırdılar [364, 346].

Qafqaz təqviminin 1913-cü il buraxılışının məlumatına görə "Şuşa qəzası üzrə 839 nikah bağlanmış, 2225 oğlan, 1907 qız uşağı, cəmi 4132 uşaq doğulmuş, vəfat edənlər 1306 kişi, 1225 qadın, cəmi 2531 nəfər olmuşdur" [321, 216]. "Şuşa şəhəri üzrə – 176 nikah bağlanmış, 427 oğlan, 283 qız uşağı doğulmuş, cəmi 710 uşaq, vəfat edənlər 207 kişi, 165 qadın, cəmi 372 nəfər olmuşdur" [321, 215]. "Zəngəzur qəzası üzrə – 1166 nikah bağlanmış, 2081 oğlan, 1535 qız, cəmi 3616 uşaq doğulmuş, vəfat edənlər 1168 kişi, 889 qadın, cəmi 2057 nəfər olmuşdur". "Cavanşir qəzası üzrə – 585 nikah bağlanmış, 974 oğlan, 735 qız, cəmi 1709 uşaq doğulmuş, vəfat edənlər 532 kişi, 395 qadın, cəmi 927 nəfər olmuşdur". "Qaryagin qəzası üzrə – 1136 nikah bağlanmış, 1420 oğlan, 1391 qız, cəmi 2811 uşaq doğulmuş, vəfat edənlər 1210 kişi, 1180 qadın, cəmi 2390 nəfər, olmuşdur" [321, 216].

Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda doğulan uşaqlar və vəfat edən insanların sayı haqqında verilmiş məlumatlarda göstə-

rilir ki, bir il müddətində Qarabağ bölgəsində 12978 uşaq doğulmuş, 8277 nəfər vəfat etmişdir. Yəni bir il müddətində Qarabağ bölgəsi üzrə əhalinin sayında 4701 nəfər artım olmuşdur.

O, dövrdə Azərbaycanın Qarabağ bölgəsində çar Rusiyası məmurlarının əhalinin tərkibi ilə bağlı verdikləri məlumatlar həqiqəti əks etdirmirdi. Yəni, 1897-ci il siyahıyaalması ilə 1903-cü, 1913-cü və 1917-ci il "Qafqaz təqvimləri"nin məlumatların müqayisə etdikdə bu saxtalaşdırmanı aşağıdakı faktlarda aydın görmək olur. Ümumilikdə Şimali Azərbaycanın Qarabağ bölgəsində 1897-ci ilin siyahıyaalmasına görə 416.027 nəfər əhali yaşamışdı. 1903-cü ildə isə polis məntəqələrinin verdiyi məlumata görə Qarabağ bölgəsində 498.218 nəfər, 1913-cü il Qafqaz təqvimlərinin məlumatlarına görə, 542.229 nəfər, 1917-ci ildə isə 563.962 nəfər əhali yaşamışdı. Yəni altı il müddətinə 82191 nəfər, on il müddətinə isə 47010 nəfər əhali artımı olmuşdur. Bu müqayisə bizə əsrin əvvəllərində altı il müddətində Şimali Azərbaycanın Qarabağ bölgəsinə 50.000-ə yaxın erməni əhalisinin köçürülməsini, yaxud 1905-1906-cı illərdə o qədər türk-müsəlman əhalisinin məhv edilməsini deməyə əsas verir.

1914-cü il Qafqaz təqviminin məlumatına görə, qəzalar üzrə əhalinin ümumi tərkibi aşağıdakı kimi olmuşdur: Şuşa qəzasında – ruslar 5184 nəfər, gürcülər 237 nəfər, ermənilər 95262 nəfər, dağlılar 56 nəfər, yezidilər 21 nəfər, kürdlər 126 nəfər, müsəlmanlar 77189 nəfər, yəhudilər 11 nəfər - cəmi 178081 nəfər; Şuşa şəhəri üzrə – ruslar 1188 nəfər, polyaklar və almanlar 30 nəfər, gürcülər 37 nəfər, ermənilər 21429 nəfər, müsəlmanlar 18865 nəfər, yəhudilər 7 nəfər - cəmi 42568 nəfər olmuşdur. Cavanşir qəzasında – ruslar 723 nəfər, polyak və almanlar 4 nəfər, gürcülər 201 nəfər, ermənilər 20074 nəfər, dağlılar 289 nəfər, kürdlər 31nəfər, ayrı-ayrı Asiya xristianları 125 nəfər, müsəlmanlar 38757 nəfər, yəhudilər 265 nəfər - cəmi 60176 nəfər; Zəngəzur qəzasında – ruslar 1676 nəfər, polyak və almanlar 4 nəfər, gürcülər 60 nəfər, ermənilər 89906 nəfər, dağlılar 70 nəfər, yezidilər 89 nəfər, müsəlmanlar 118146 nəfər - cəmi 209951 nəfər; Gorus şəhəri üzrə – ruslar 186 nəfər, polyak və almanlar 4 nəfər, gürcülər 24 nəfər, ermənilər 1699 nəfər, dağlılar 49 nəfər, müsəlmanlar 214 nəfər - cəmi 2176 nəfər; Qaryagin qəzasında

– ruslar 1704 nəfər, polyak və almanlar 98 nəfər, ermənilər 24599 nəfər, kürdlər 42 nəfər, müsəlmanlar 65397 nəfər, yəhudilər 2 nəfər - cəmi 91845 nəfər əhali var idi [321, 230-233].

1915-ci ilə olan "Qafqaz təqvimi"ndə göstərilmiş məlumatlara görə, Şuşa qəzasının ərazisi 4423,28 kv.verst olmuşdur.Qəzada aşağıdakı əhalinin yaşadığı haqqında məlumat verilirdi: pravoslav slavyanlar 3089 kişi, 2077 qadın, slavyan təriqətçilər 8 kişi, 10 qadın, avropalılar – polyaklar, almanlar və b. 83 kişi, 48 qadın, gürcü pravoslavlar, 79 kişi, 27 qadın, erməni qriqoryanlar 52758 kişi, 42012 qadın, erməni pravoslavlar 5 kişi, 4 qadın, erməni digər təriqətçilər 256 kişi, 227 qadın, müsəlman Qafqaz dağlıları 49 kişi, 7 qadın, yezidilər 20 kişi, 1 qadın, müsəlman kürdlər 82 kişi, 44 qadın, şiələr 38225 kişi, 34215 qadın, sünnilər 2624 kişi, 2125 qadın, yəhudilər 9 kişi, 2 qadın. Deməli, bütövlükdə qəza üzrə 97282 kişi, 80799 qadın, cəmi 178081 nəfər əhali yaşamışdır [321, 230-233].

Həmin qaynağa görə Şuşa şəhəri üzrə əhalinin tərkibi belə idi:- pravoslav slavyanlar 853 kişi, 335 qadın, avropalılar – polyaklar, almanlar və b. 18 kişi, 12 qadın, gürcü pravoslavlar, 28 kişi, 9 qadın, erməni qriqoryanlar 12973 kişi, 8986 qadın, erməni pravoslavlar 5 kişi, 4 qadın, digər erməni təriqətçilər 236 kişi, 212 qadın, müsəlman qafqaz dağlıları 21 kişi, 4 qadın, şiələr 10324 kişi, 8512 qadın, sünnilər 17 kişi, 12 qadın, yəhudilər 5 kişi, 2 qadın. Şuşa şəhəri üzrə cəmi 24448 kişi, 18088 qadın olmaqla, cəmi 42568 nəfər əhali yaşamışdır [321, 230-233].

1917-ci ilə aid "Qafqaz təqvimi"ndə verilən məlumatlara görə, Cavanşir qəzasında əhalinin orta sıxlığı hər kv.verstə 16,4 (bir kv.km-ə 29,4 adam- B.H.) düşürdü [217,16].

Həmin təqvimdə verilmiş məlumatlara görə, Cavanşir qəzasının ərazisi 4654,06 kv.verst idi. Buradakı əhalinin milli-etnik tərkibi belə idi: pravoslav slavyanlar 373 kişi, 335 qadın, slavyan təriqətçilər 8 kişi, 7 qadın, islam dininə mənsub olanlar gürcülər 120 kişi, 81 qadın, erməni qriqoryanlar 10855 kişi, 9219 qadın, müsəlman Qafqaz dağlıları 289 kişi, şiələr 19073 kişi, 15375 qadın, sünnilər 2755 kişi, 1654 qadın, qaraçılar 15 kişi, 11 qadın, yəhudilər 2 kişi. Qəza üzrə 33494 kişi, 26682 qadın cəmi 60176 nəfər əhali qeydə alınmışdı

[321, 230-233].

Bu qaynağa görə, Zəngəzur qəzasının ərazisi 6742,92 kvadrat verst olub. Qəzanın əhalisi aşağıdakılardan ibarət idi: pravoslav slavyanlar 336 kişi, 258 qadın, slavyan təriqətçilər 518 kişi, 564 qadın, polyak və almanlar 3 kişi, 1 qadın, gürcü pravoslavlar 42 kişi, 18 qadın, erməni qriqoryanlar 47517 kişi, 42389 qadin, Qafqaz dağlıları 42 kişi, 28 qadın, yezidilər 88 kişi, 1 qadın, şiələr 39276 kişi, 37496 qadın, sünnilər 21031 kişi, 20343 qadın. Deməli, bütün qəza üzrə cəmi 108853 kişi, 101098 qadın, yəni ümumilikdə 209951 nəfər əhali yaşamışdı [321, 230-233].

Həmin qaynağın məlumatına görə, Qaryagin qəzası üzrə – ərazisi 3276,31 kv.verst idi. Buradakı əhali içərisində etnik tərkib belə idi: pravoslav slavyanlar 1058 kişi, 228 qadın, slavyan təriqətçilər 219 kişi, 202 qadın, polyak və almanlar 62 kişi, 36 qadın, erməni qriqoryanlar 13809 kişi, 10790 qadin, kürdlər 24 kişi, 18 qadın, şiələr 25007 kişi, 21867 qadın, sünnilər 9506 kişi, 9017 qadın, yəhudilər 2 kişi. Deməli, qəza üzrə 49687 kişi, 42158 qadın, yəni cəmi 91645 nəfər əhali olmuşdur [321, 230-233].

Hələ XIX əsrdə Qarabağın xəritəsini tərtib etmiş M.A.Skibitskinin 1899-cu ilə aid məlumatına görə, əsrin sonunda azərbaycanlılar Qarabağın 338 kəndində yaşayırdılar. 1899-cu ildə burada azərbaycanlılar ümumi əhalinin 70%-ni, ermənilər isə 16,6%-ni təşkil etmişlər [58, 28].

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırım əhalinin say tərkibinə, bölgənin demoqrafik vəziyyətinə də ciddi təsir etmişdir. Belə ki, bu dövrdən başlayaraq azərbaycanlıların xüsusi çəkisi və təbii artım sürəti azalmağa doğru getmiş, 1905-1906-cı illərdəki hadisələrin təsiri bunda özünü kəskin surətdə göstərmişdir. Əhalinin bir hissəsi yaşayış yerlərini tərk etmiş, doğuş azalmış, ölüm halları isə çoxalmışdır. Bu kimi səbəblər üzündən 1905-1916-cı illərdə illik orta artım 0,7 faiz təşkil etmişdir. 1886-cı ildən 1897-ci il arasındakı müddətdə azərbaycanlı əhalinin mütləq artımı təqribən 40 min nəfər təşkil etdiyi halda, 1905-ci illə 1916-cı il arasındakı müddət ərzində mütləq artım cəmi 17 min nəfər olmuşdur. Halbuki 1905-ci ildə azərbaycanlı əhalinin sayı 1886-cı ildəkindən 61 min nəfər

çox idi. Ermənilərin mütləq artımı isə 1905-ci illə 1916-cı il arasında 139 min nəfərə çatmışdır [195, 30].

XX əsrin əvvəllərində Şimali Azərbaycanın ümumi əhalisi 1917-ci il üçün "Qafqaz təqvimi"nin və Azərbaycan Respublikasının təqviminin (1920) məlumatlarına görə, 2.861.862 nəfər olmuşdur. Kənd sakinləri əhalinin 76,8 faizini- 2 mln. 193 min nəfər, şəhər və şəhərətrafı qəsəbə sakinləri isə qalan 23,2 faizi (yaxud 669 min nəfəri) təşkil etmişdilər [217, 14-15].

1917-ci ilin statistik məlumatlarına görə, keçmiş İrəvan quberniyası əhalisinin 38 faizini türk-müsəlman əhali, 60 faizini isə ermənilər təşkil edirdilər. Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66,7 faizi, Sürməlidə 63,6 faizi türk-müsəlman əhali idi. İrəvan şəhərinin əhalisinin 43,4 faizi türk-müsəlmanlardan ibarət idi. Yelizavetpol quberniyası üzrə 1915-ci ildə əhalinin ən çox qarışıq olduğu Şuşada bütün sakinlərin 46 faizi türk-müsəlmanların və 54 faizi ermənilərin (çar Rusiyası tərəfindən erməniləşdirilmiş xristian albanlarla birlikdə-B.H.), Zəngəzurda 55 faizi türk-müsəlmanların və 44,3 faizi ermənilərin, Qazaxda (Göyçə ilə birlikdə) 49 faizi türk-müsəlman və 46 faiz erməni, Cəbrayılda (Qaryagin) 74,5 faiz türk-müsəlman və 24,9 faiz erməni, Cavanşirdə 67,5 faiz türk-müsəlmanların və 31,6 faizi ermənilərin payına düşürdü [184, 107].

1917-ci ilin statistik məlumatlarına görə, Şimali Azərbaycanın Qarabağ bölgəsindəki ayrı-ayrı qəzalar üzrə əhalinin ümumi sayı belə idi: Şuşa qəzasında 74634 nəfər (52,8 faiz) erməni, 64216 nəfər (45,5 faiz) müsəlman və başqa xalqlar 2477 nəfər, (1,7 faiz) olmaqla, ümumilikdə 141727 nəfər; Şuşa şəhərində 22370 nəfər (54,0 faiz) erməni, 18732 nəfər (46,0 faiz) müsəlman olmaqla, ümumilikdə 41102 nəfər; Zəngəzur qəzasında 99257 nəfər (44,3 faiz) erməni, 123095 nəfər (55,0) faiz müsəlmanlar və başqa xalqlar 1492 nəfər (0,7 faiz) olmaqla, ümumilikdə 223844 nəfər; Gorus şəhərində 1625 nəfər (100,0 faiz) erməni olmaqla, ümumilikdə 1625 nəfər; Cavanşir qəzasında 21290 nəfər (31,6 faiz) erməni, 46947 nəfər (67,5 faiz) müsəlmanlar və başqa xalqlar 600 nəfər (0,9 faiz) olmaqla, ümumilikdə 69467 nəfər; Qaryagin qəzasında 21405 nəfər (24,9 faiz) erməni, 64271 nəfər (74,5 faiz) müsəlmanlar və başqa xalqlar 521

nəfər (0,6 faiz) olmaqla, ümumilikdə 86197 nəfər sakin yaşayırdı [410, 58].

Bu rəqəmlərə istinad edərək, həmin dövrdə Qarabağ bölgəsində yaşayan əhalinin ümumi sayının 563962 nəfər olduğunu deyə bilərik. Yelizavetpol quberniyası üzrə isə əhalinin ümumi sayı 1.213.626 nəfər idi.

Ümumiyyətlə, rəsmi məlumatlara istinadla bu qənaətə gəlmək olar ki, Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra ermənilərin Qarabağ bölgəsinə köçürülməsi nəticəsində bölgənin demoqrafik vəziyyəti kökündən dəyişmiş, erməni əhalisinin sayı dəfələrlə artmışdır. Lakin imperiyanın mürtəce xristianlaşdırma siyasətinə baxmayaraq hələ də Qarabağ bölgəsinin Zəngəzur, Cavanşir, Cəbrayıl qəzalarında əhalinin milli-etnik tərkibində Azərbaycan türklərinin xüsusi çəkisi hələ də bütün başqa etnik qrupları, o cümlədən erməniləri üstələyirdi. Yalnız Şuşa qəzasında bu nisbət cüzi şəkildə ermənilərin xeyrinə dəyişmişdir.

## §2. Bölgənin kənd təsərrüfatı və aqrar münasibətləri

Məlumdur ki, XIX əsrin son otuzilliyində Şimali Azərbaycanın sosial-iqtisadi həyatının bir çox sahələrində olduğu kimi kənd təsərrüfatında, o cümlədən bütün aqrar münasibətlər sistemində ciddi, keyfiyyətcə tamamilə yeni təkamül prosesi getmişdi. Qısaca deyilərsə, məhz bu dövrdə sahibkar kəndlərində yaşayan kəndlilərə öz pay torpağını satın alıb özəlləşdirmək hüququ verildi (1870-ci il 14 may “Kəndli əsasnaməsi”), digər tərəfdən iki əsrin kəsişməsində qəbul olunmuş 1899-1903-cü illərin aqrar qanunları ilə Şimali Azərbaycan üzrə bütün kənd əhalisinin az qala 70%-ni, Yelizavetpol quberniyası, o cümlədən Qarabağ bölgəsində isə çox böyük bir hissəsini təşkil edən xəzinə kəndlilərinin vergi yükü, ağırlaşdırıldı, vergi sistemi bir qədər də mürəkkəbləşdirildi. Xəzinə kəndliləri öz pay torpaqlarını özəlləşdirmək hüququnu formal olaraq belə ala bilmədilər. Xəzinə kəndlərində pay torpaqları icmaların daimi istifadəsinə

verildi.

Sahibkar kəndlilərin isə çox cüzi bir hissəsi 1870-ci il qanununda bəyan edilmiş özəlləşdirmə hüququndan istifadə edə bildi. Belə ki, Azərbaycanın sahibkar kəndlilərinə bu əməliyyatları yerinə yetirmək üçün Rusiyadakından fərqli olaraq dövlətin maliyyə dəstəyi nəzərdə tutulmamışdı.

Digər tərəfdən də "1870-ci il islahatı kəndlilərə mülkədarlarla "qarşılıqlı razılıq" əsasında öz pay torpaqlarını ödənclə satınalmaq ixtiyarı verilsə də Şimali Azərbaycanda pay torpağının satın almaq üçün ödəniləcək haqqın Rusiyanın mərkəzi quberniyalarına nisbətən çox baha hesablanması kəndlilərin bu sahədə vəziyyətini daha da ağırlaşdırırdı. Məsələn, Yelizavetpol quberniyasında sahibkar kəndlilərin satınalmalı olduqları torpağın müəyyən edilmiş qiymətləri Həştərxan quberniyası kəndlərinin ödədiyi puldan 60 dəfə, Orenburq, Samara və Mogilyov quberniyalarındakından 40 dəfə, Perm və Minsk quberniyalarındakından 30 dəfə, ümumiyyətlə, bütünlükdə Rusiyanın Avropa quberniyalarında orta hesabla ödənilən torpaq pulundan 17 dəfə çox idi" [210, 6]. Araşdırmalar göstərir ki, XIX əsrin sonları - XX əsrin əvvəllərində Şimali Azərbaycanda imperiyanın apardığı torpaq islahatları əslində heç də əhalinin xeyrinə yönəldilməyib bu sahədə bir növ mövcud qaydaların konservasiyasına xidmət etmişdir. İlk növbədə imperiya xəzinəsinin fiskal mənafelərini qorumaq haqqında düşünürdü.

Əhali isə torpaqların satın almaq üçün maliyyə cəhətdən çox çətinlik çəkirdi. Çünki, Şimali Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda bu dövrdə əhaliyə xidmət göstərmək üçün yalnız Şuşa şəhərində bir bankın şöbəsi, "qarşılıqlı kredit cəmiyyəti" fəaliyyət göstərirdi [81, 17].

1870-ci il 14 may "Kəndli əsasnaməsi"nin qaydalarının tətbiqinə əsasən mülkədarlar torpaqların ən azı 1/3 hissəsini öz əllərində saxlamaq hüququndan istifadə edərək, 5 desyatin və ondan artıq kəndli pay torpaqlarını da "kəsiklər" adı altında öz mülklərinə birləşdirməyə başladılar. Belə vəziyyət kəndlilərin torpaqlarının itirilməsini daha da sürətləndirdi [5, v.4-6].

1902-ci ildə "Kənd təsərrüfatı istehsalının ehtiyaclarını öyrənən

Yelizavetpol quberniya komitəsinin" üzvü K.B.Kleşçinski etiraf edərək göstərmişdi ki, "quberniyada torpaq pulunun son dərəcə baha olması üzündən indiyə kimi sahibkar kəndlilərindən bir nəfəri belə öz pay torpağının satın ala bilməmişdir". "Yelizavetpol quberniyasında torpaqların ən yararlı hissəsi 15837 sahibkarın əlində mərkəzləşmişdir. Onların hər birinin ixtiyarında 25 desyatindən 500 desyatinə qədər və daha çox torpaq sahəsi var idi" [210, 7].

Göründüyü kimi, çar Rusiyasının XIX əsrin ikinci yarısında apardığı torpaq islahatları heç də kəndlilərin vəziyyətinin yaxşılaşdırılmasına deyil, əksinə, mülkədarların mənafelərinin qorunmasına hesablanmışdı. Bunun əsas səbəblərindən biri yerlərdə yüksək vergilərin toplanması idisə, digər səbəbi isə qəzalarda əhalinin idarə edilməsində mülkədarların mövqeyindən yararlanmaq idi.

Yelizavetpol quberniya statistika idarəsinin əməkdaşı İ.L.Seqalın 1894-cü ildə bu quberniyanın Cavanşir qəzasında topladığı materiallar əsasında mülkədarların xüsusi mülkiyyətində olan 63100 desyatindən çox torpağın idarəetmə qaydaları və ya formaları haqqında məlumatlar vermişdir. Onun verdiyi məlumata görə, qəzanın 76 mülkədar təsərrüfatından 69-da mülkədarlar öz təsərrüfatlarının idarəçiliyi ilə məşğul olurdular. 7 təsərrüfatda torpaqlar müxtəlif şərtlərlə kəndlilərə icarəyə verilmişdi. 76 mülkədar malikanəsindən birinin 8000 desyatin, beşinin 500 desyatindən 1000 desyatinə, doqquzunun 1000 desyatindən 2000 desyatinə, iyirmisəkkizinin 10 desyatindən 100 desyatinə, otuzbirinin 100 desyatindən 500 desyatinə qədər xüsusi torpaq mülkiyyəti olmuşdur [384, 40-45].

Çarizmin Cənubu Qafqazda aqrar siyasətini araşdıran tədqiqatçı P.V.Ququşvili öz əsərində 1886-1906-cı illərdə Azərbaycanın Qarabağ bölgəsində yerləşən qəzalardan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzurdan bəhs edərkən kəndlilərin pay torpaqlarının xeyli azalmasını göstərmişdir. O qeyd edir ki, 1886-cı ildə Cəbrayıl və Şuşa qəzalarında kəndlilərin pay torpaqları orta hesabla müvafiq olaraq 1,1 və 1,4 desyatin olmuşdusa, 1906-cı ildə isə bu göstərici 0,66-0,84 desyatinə qədər azalmışdır [283, 31].

Bu dövr üzrə bəzi məlumatlara görə, Şimali Azərbaycanın əkin sahələrinin təxminən 16%-i bəy və mülkədarlara məxsus olmuşdur

[400, 302].

Bu bəy və mülkədarlardan Qarabağ bölgəsində yerləşən qəzalarda-Zəngəzur qəzasında Usmiyevlər, Şuşa qəzasında Vəzirovlar, Qaryagin qəzasında Cavanşirovlar, Cavanşir qəzasında Ağalarovlar xeyli iri torpaq mülkiyyətinə malik idilər. Bu mülkədarların hər birinin on min desyatindən çox torpaq sahəsi var idi. Bəzi məlumatlara görə Usmiyevlərin 40 min, Cavanşirovların 18 min desyatinə qədər torpaq mülkləri var idi [350, 10].

Halbuki Şimali Azərbaycanın bəzi bölgələrində minlərlə kəndlinin bir qarış belə torpağı yox idi. Məsələn, XIX əsrin sonlarında Yelizavetpol quberniyasının demək olar ki, 7 kəndi tamamilə torpaqsız qalmışdı [486, 72-74]. 1895-ci il məlumatına görə, Yelizavetpol quberniyasında 5308 həyət və 25000 sakin tam torpaqsız idi [360, 27].

XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının əksər sahibkar kəndlərində kəndlilərin pay torpaqlarının sahəsi orta hesabla 0,6-1 desyatin arasında idi. Yelizavetpol quberniyasının Cəbrayıl, Zəngəzur, Şuşa və Cavanşir qəzalarında kənd əhalisinin içərisində adambaşına təxminən 0,6 desyatinə qədər torpaq düşürdü [306, 106-107; 210, 12].

1900-cü il 1 may qanununun 14-cü maddəsinə uyğun olaraq, 1903-cü il aprelin 21-də "Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında əsasnamə" verildi. Qanuna görə, Cənubi Qafqaz diyarının xəzinə kəndlərində pay torpaqlarının planı hazırlanarkən istifadə edilən mövcud sərhədlər əsas götürülməli idi. Əsasnamədə isə hazırlanmış planların torpaq quruluşu komissiyalarında təsdiq edilməsi nəzərdə tutulurdu. Ümumiyyətlə, xəzinə kəndlərinin pay torpaqlarının onların daimi istifadəsinə (seyrəltmə bizimdir-B.H.) verilməsinin formal olaraq sənədləşdirilməsi prosesi üçün quberniya rəhbərliyi tərəfindən elə bir çoxpilləli və çox mürəkkəb bürokratik "labirint " nəzərdə tutulmuşdu ki, çox az kənd belə rəsmi sənədi almağa müvəffəq ola bilməmişdi. Məsələnin belə çətinləşdirilməsi icma torpaqları sərhədlərinin müəyyənləşdirilməsini xeyli ləngitdi. Torpaqların müəyyən olunmasından sonra vergilər artırıldı. Bundan başqa kəndlilər pay torpaqlarının planlarını almaqdan ötrü xeyli pul

verməli olurdu. Ona görə də xəzinə kəndlilərinin vəziyyəti yaxşılaşmaq əvəzinə daha da pisləşirdi [106, 31].

"XX əsrin əvvəllərində Yelizavetpol quberniyasında kəndlilər istifadə etdikləri çəmən və otlaq yerləri üçün "çöpbaşı" adlı qarışıq məhsul və pul vergisi verirdilər. Bu vergi hər yüz qoyun, yaxud keçi üçün ildə bir qoyun və ya bir keçi, yaxud da 1 manatdan 3 manata qədər puldan ibarət idi. "Çöpbaşı "adlanan vergi isə (Qarabağ bölgəsinin qəzalarında-B.H.) Qaryagin və Zəngəzur qəzalarında 20.116 desyatin çəmən və otlaq yeri üçün verilirdi. Şuşa və Cavanşir qəzalarında bu vergi qarışıq olub, həm heyvan, həm də pul ilə icra edilirdi" [210, 13-14].

Qarabağ bölgəsinin Cavanşir qəzasının torpaq sahəsi çox olan kəndləri çox vaxt 2, bəzən də 3-4, bir halda 7 nəfər torpaq sahibinin arasında bölünmüşdü. Nisbətən xırda, yaxud orta mülkədar malikanələri üçün belə bölünmələrə çox az rast gəlinir. Əyricə kəndinin 1600 desyatin torpaq sahəsinin bölünməsindən danışarkən mənbələrin birində belə bir məlumat verilmişdi: "Hacı bəy İbrahimbəyova və iştirakçılara mənsubdur" [387, 38].

Yelizavetpol quberniyasında bir kəndi və 1-2 malikanə torpaqlarını öz aralarında bölmüş olan mülkiyyətçilər bir qədər çox idi. Quberniya üzrə 157 malikanə və kəndi əhatə edən 823 bu cür mülkiyyətçi qeydə alınmışdır. Mülkiyyətçi şəxslər ən çox Şuşa qəzasında (307 nəfər), ən az isə Cavanşir qəzasında (43 nəfər) qeydə alınmışdır. Şuşa qəzasının payına digər iştirakçı adlanan mülkiyyətçilərdən 172 nəfər düşmüşdür. 37-72 desyatin arası torpaqları eyni vaxtda bölüşən mülkiyyətçilərin böyük bir hissəsi 245 nəfəri quberniyanın 4 qəzasında – Yelizavetpol, Şuşa, Zəngəzur və Cavanşir qəzalarında yaşayırdılar. Bu 4 qəzada 11 malikanə üzrə 13 mülkiyyətçi 3-4 desyatin, 9 malikanə üzrə 22 mülkiyyətçi 5-8 desyatin, 10 malikanə üzrə 26 mülkiyyətçi 9-19 desyatin, 9 malikanə üzrə 14 mülkiyyətçi 20-36 desyatin, 22 malikanə üzrə 245 mülkiyyətçi 37-42 desyatin arası, 49 malikanə üzrə 254 mülkiyyətçi isə 380 desyatindən yuxarı torpaq sahəsinin birgə mülkiyyətçisi idi. Qarabağ ərazisində yerləşən qəzalarda malikanələrin orta hesabla hər birinə düşən torpaq sahəsinin ölçüsü Şuşa qəzasında 409 desyatin, Zəngəzur qəzasında 396 desya-

tin, Cavanşir qəzasında 945 desyatin, quberniya üzrə bir malikanəyə düşən torpaq sahəsi 674 desyatinə bərabər idi [387, 91-92].

Cavanşir qəzasında həm torpaq fondu, həm əkinə yararlı torpaq sahələri, həm də meşə sahələri Qarabağın digər qəzalarına nisbətən daha çox idi. Cavanşir qəzasının 463496 desyatin ümumi torpaq sahəsinin 13,61 faizi və ya 63106 desyatin torpaq sahəsi mülkədar və bəylərin mülkiyyətində olmuşdur. Bu qəzada meşəlik sahələri 17584 desyatin, bağ sahələri 260 desyatin, xüsusi mülkiyyətdə olan əkin sahələri 17430 desyatin, qeyri-əkin sahələri 45676 desyatinə bərabər idi. Sahibkarlara məxsus əkin sahələrində 3356 desyatinində buğda, 304 desyatinində pambıq, 493 desyatinində çəltik, 42 desyatinində küncüt və s. becərilirdi [387, 33-37].

Qəzada bir kəndin torpaq sahələrinin yalnız bir mülkədarın malikanəsinə məxsus olması faktları da qeydə alınmışdır. Goran kəndinin 1395 desyatin torpaq sahəsi bütünlüklə iri mülkədar Rüstəm bəy Rüstəmbəyova, Həsənqaya kəndinin 1600 desyatin ərazisi İsmayıl bəy Tağı bəy oğluna, Xoruzlu kəndinin 900 desyatin ərazisi Məmiş bəy Hüseyn bəy oğluna, Alpout kəndinin 430 desyatinlik torpaq sahəsi Adıgözəl bəy və Cavad bəy Adıgözəlovlara, Daşarxı kəndinin 535 desyatin ərazisi Cahangir bəy Nurubəyova, Qara Pirili kəndinin 203 desyatin torpağı Gəray bəy Vəlibəyova, Qızıllı-Kəngərli kəndinin 35 desyatin ərazisi Mehdi bəy Xanlar bəy oğluna məxsus idi [387, 40, 42, 44]. Göstərilən kəndlərdən başqa kəndlərdə də torpaq sahələrinin yalnız bir mülkədarın malikanəsinə məxsus olması faktları var idi.

XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanda, o cümlədən Qarabağ bölgəsindəki qəzalarda apardığı aqrar siyasəti milli müstəmləkəçilik xarakteri daşımaqla yanaşı, həm də bu qəzaları çar Rusiyasının sənaye mərkəzlərinin aqrar xammal bazasına çevirmək məqsədi də güdürdü [188, 109].

1908-ci il mayın 15-də Şuşa qəzasındakı Ağcabədi kəndinin 200 sakini torpaq sahiblərini öldürməklə və əmlakını yandırmaqla hədələyərək, onların pay torpaqlarının sərhədi, məsələsində törətdikləri özbaşınalıqlarına son qoymuş və torpaq sahiblərini qanunsuz iddialardan əl çəkməyə məcbur etmişdilər. 1910-cu ildə Cavanşir qəzası

Qarapirim kəndinin əhalisi Məhərrəm bəyin torpağını zəbt etmişdi. Mülkədarın şikayəti nəticəsində hadisə yerinə strajniklər göndərilmişdi. Qarapirimlilər pristavı və onun dəstəsini daşa basmış, strajniklər belə güllə atmışdılar [210, 21].

Çar Rusiyası tərəfindən həyata keçirilən islahatlara baxmayaraq Şimali Azərbaycanın, o cümlədən də Qarabağın sahibkar kəndliləri 1912-ci ilə qədər öz ağalarından asılı vəziyyətdə qalmalı olmuşdular [106, 30].

1870-ci il 14 may "Kəndli əsasnaməsi" Şimali Azərbaycanda xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayan mülkədar kəndliləri tərəfindən torpaqların "vıkup edilməsi" indiki məfhumlarla deyilərsə-özəlləşdirilməsi yolunda o qədər maneələr, bürokratik əngəllər, maliyyə çətinlikləri qoymuşdu ki, artıq yuxarıda da deyildiyi kimi, bu proses uzun onilliklər ərzində acı bağırsaq kimi uzanmış, bəy, xan, mülkədar torpaqlarında yaşayan kənd sakinləri 40 ildən çox müddətdə özəlləşdirməli olduqları pay torpaqlarının heç 5%-ni belə özlərinin xüsusi torpaqlarına çevirə bilməmişdilər. Bu hal Qarabağ regionunda da təxmini belə idi.

Xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayan kəndlilər isə, bəy torpaqlarından istifadə etdiklərinə görə, bəy-mülkədarın mülkiyyət hüququna əsasən, kəndlilər ona məhsul və pulla vergilər ödəməli idilər. Bu vəziyyət ta 1912-ci ilə qədər davam etmişdi. Nəhayət, 1912-ci il 20 dekabr qanunu ilə kəndlilər cəmisi 11 gündən sonra 1913-cü il yanvarın 1-də Şimali Azərbaycandakı bütün sahibkar kəndliləri öz pay torpaqlarının xüsusi mülkiyyətçiləri elan edildilər, bu torpaqların pulunu torpaq sahibləri olan mülkədarlara ödəməyi çar xəzinəsi öz üzərinə götürürdü. Xüsusi mülkiyyətçilərə çevrilmiş keçmiş mülkədar kəndliləri isə bu pulu çox ağır faizi, sələmi ilə uzun müddət ərzində çar xəzinəsinə ödəməli idilər. Bu dövrdən etibarən bəy torpaq sahibliyinin xarakteri müəyyən qədər dəyişdi. Birincisi, bəy torpaqları artıq bəy nəslindən olmayanlara da satıla bilərdi. İkincisi isə bəylərin bir qismi əmtəə-pul münasibətlərinin inkişafının təsiri altında, təsərrüfat yaratmağın torpağı icarəyə verməkdən daha əlverişli və gəlirli olduğunu görərək, muzdlu əməyə əsaslanan təsərrüfatlar yaratdılar. Az sonra onların bir qismi əsl kapitalist

təsərrüfatlarına çevrildi [50, 16].

1912-ci il dekabrın 20-də verilmiş "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında qanun"la birlikdə onun həyata keçirilməsi üçün "Qaydalar" da təsdiq olunmuşdu. "Qaydalara" görə, Azərbaycanın sahibkar kəndliləri, yuxarıda dediyimiz kimi, 1913-cü il yanvarın 1-dən artıq mülkədarların xeyrinə mükəlləfiyyət daşımaqdan azad olunurdular [106, 33].

1912-ci il qanunun tətbiq edilməsindən sonra da Qarabağın qəzalarında torpaq sahibləri ilə kəndlilər arasında müxtəlif mübahisələr davam etmişdir. Məsələn, Şuşa qəzasının Nəsibbəyli kəndində torpaq sahibləri bağ yerinin mübahisəli olmasından istifadə edərək, həmin yeri torpaq nizamnaməsində pay torpağının tərkibinə daxil etməmək haqqında məsələ qaldırmışdılar. Çar məmurları bu iddianı torpaq sahiblərinin xeyrinə müdafiə etmişdilər [4, v.6-7].

Belə mübahisəli məsələrdən biri də Şuşa qəzasının Qaraunc kəndində baş vermişdi. Kəndlilər 394 desyatin 320 kvadrat sajen torpağın 190 desyatin 90 kvadrat sajen hissəsini mülkədarın xeyrinə itirməklə razılaşmaq zorunda qalmışdılar [6, v. 10]).

Qarabağın digər bir qəzası Qaryagin qəzasının Musabəyli kəndində yerli kənd sakinləri hələ 1860-cı ildən istifadə etdikləri 5 desyatin 1900 kvadrat sajen tut bağının 1912-ci il 20 dekabr qanunu əsasında onların ixtiyarına verilməsini tələb etmişdilər. Torpaq sahibi bu bağ yerinin kəndlilərin ixtiyarına verilməsinə qarşı çıxmışdı. Canişinlik yenə də bu məsələni torpaq sahibinin xeyrinə həll edərək, torpağın sahibkar Cavanşirin ixtiyarına keçməsi haqqında göstəriş vermişdi. 1912-ci il qanunundan sonra bu kimi hallara Qarabağın qəzalarının demək olar ki, hamısında rast gəlmək olurdu. Bunun səbəblərindən ən başlıcası çar administrasiyasının yerli torpaq sahiblərini özünün əsas sosial dayaqlarından biri hesab edərək onların mənafelərini hər vasitə ilə qoruması idi.

1870-ci il islahatı üzrə şəxsi asılılığın ləğv edilməsinə baxmayaraq, sahibkar kəndlilər istifadə etdikləri pay torpaqları üçün 1913-cü ilə qədər mülkədarlar qarşısında mükəlləfiyyətlər daşımış və müxtəlif vergilər ödəmişdilər. Kəndlilər malcəhətdən başqa, qışlaqda otardıqları heyvan üçün 6-20 qəpiyə qədər ot pulu, bağ və bostan üçün bağ

pulu da verirdilər [210, 13].

XX yüzilliyin əvvəllərində Qarabağ bölgəsində kəndlilərin narazılığının digər bir səbəbi torpaq paylarının azlığı və onlar üzərinə qoyulan vergilərin ağırlığı ilə bağlı idi.

XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın Qarabağ bölgəsinin kəndlərində tədricən ictimai təbəqələşmə getdikcə dərinləşirdi. Kənd əhalisi iki təbəqəyə – torpağın çoxunu əllərində cəmləşdirən varlı kəndlilər, mülkədarlar, bəylərə və aztorpaqlı və torpaqsız kənd yoxsullarına bölünürdü. Məlumdur ki, kəndlilər özləri də 2 böyük qrupa bölünürdülər: sahibkar və xəzinə kəndlilərinə. Sahibkar və xəzinə kəndliləri dövlətə çoxsaylı vergilər verirdilər. Bu ağır vergilər isə kəndliləri var-yoxdan çıxarırdı. Ona görə də çətin vəziyyətdən cana doymuş kəndlilər onları istismar edənlərə qarşı müxtəlif mübarizə üsullarına, vasitələrinə əl atmalı olurdular.

Onu qeyd etmək istərdik ki, həmin dövrdə bölgədə dəmyə torpaqlar əkin sahələrinin çoxunu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə – 1918-ci ildə Şimali Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında suvarılan torpaqlar bütün əkin sahələrinin Şuşa qəzasında 31,9, Zəngəzur qəzasında 4,5, Cavanşir qəzasında 62,9, Cəbrayıl qəzasında isə 31,0 faizini təşkil edirdi [372, 12].

Ümumilikdə XX əsrin əvvəllərində Şimali Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda da çar Rusiyasının həyata keçirdiyi aqrar islahatlar, ilk növbədə çarizmin öz iqtisadi maraqlarına xidmət göstərirdi. Çar hökuməti, regionda yüksək vergilərin toplanmasını nəzərdə tutur, idarəçilikdə imperiyanın maraqlarını qoruyan varlı mülkədar təbəqəsi yetişdirməyə çalışırdı.

Haqqında danışdığımız dövrdə Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarda kənd təsərrüfatının ayrı-ayrı sahələri müxtəlif durumda idi. Torpaq sahələrinin xeyli hissəsinin mülkədarların əlində cəmləşməsi, bütövlükdə götürdükdə, kənd təsərrüfatının inkişafına mənfi təsir edirdi.

XIX əsrin sonları ilə müqayisədə XX əsrin əvvəllərində torpaqsız kəndlilərin sayı sürətlə artmağa başlamışdır. Bu da kənd təsərrüfatının inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi.

Digər bir tərəfdən isə müstəmləkəçi hökumətin Qacarlar və Os-

manlı dövlətlərindən Şimali Azərbaycanın Qarabağ bölgəsinə köçürdüyü ermənilər burada yaranmış vəziyyətdən istifadə edərək təxribatlar törədirdilər. Onlar Qarabağın kəndlərinə silahlı hücümlar edir, kəndləri viran qoyur, əhalisini məhv edir və var-dövlətini talamaqla məşğul olurdular. Bu da Qarabağın sosial-iqtisadi vəziyyətinin daha da ağırlaşmasına səbəb olurdu. Məsələn, 1907-ci il fevral ayının 20-də ərzaq çətinliyi və bahalığın son həddə olduğuna dair Osmanlı dövlətinin Tiflisdəki baş konsulluğundan Xariciyə Nəzarətinə göndərilən məlumatda deyilirdi: "Keçən il zühur edən iğtişaşat nəticəsi olaraq..., Zəngəzur sancağında fakru səfalət hökm sürür, Şuşa və Qazax sancaqlarında da yemək, çörək yoxdur. Cavanşir sancağında bir pot adi dəqiq iki rubleyə çıxmışdır. Nəqliyyat vəsaitinin çatışmamazlığından əksəriyyəti dağlarda olan qura əhalisinə ədviyyə və ərzaq göndərilə bilmədiyindən əyalətin demək olar ki, hər tərəfində kahdu qala və iskorbüt xəstəliyi hökm sürür" [189, 237].

"Tazə həyat" qəzetinin səhifələrində Zəngəzur və Cavanşir qəzalarının kəndlərinin ağır vəziyyəti haqqındakı məlumatda deyilirdi: "Zəngəzur qəzası kənd əhalisinin nəhayət mərtəbədə ehtiyacları olduğuna görə öz məskənlərini tərk edib başqa şəhərlərə, ələlxüsus Bakıya köçürlər. Bu mühacirlər heç bir maneələrə, hətta borana da baxmayıb öz evlərini qoyub gedirlər ki, heç olmasa aclıqdan xilas olsunlar". Cavanşir qəzasının Dəllər, Surof, Qalandərəz, Şəxavənd, Hacı Qərvənd və Papravənd kəndlərinin sakinləri də acından ölməmək üçün heyvanını və ev əşyalarını heç qiymətinə satıb başqa kəndlərə dağılmışdılar [211].

Bu dövrdə kənd təsərrüfatına həşəratların vurduğu ziyan da böyük idi. 1901-ci ilə dair məlumatlardan birində göstərilirdi ki, Yelizavetpol quberniyasının Cəbrayıl qəzasında 61400 desyatin torpaq sahəsi çəyirtkə sürfəsi ilə örtülmüşdü. 1904-cü ildə Şuşa qəzasında çəyirtkənin məhv etdiyi əkin-biçin torpaqlarının ümumi sahəsi 75 min desyatinə çatırdı[50, 37].

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin qəzalarının kənd təsərrüfatında üstünlüyü əkinçilik və maldarlıq təşkil edirdi. Bu sahələrin inkişafını zəifldən amillərdən biri torpaqların çoxunun dövlətin və mülkədarların əlində olması idi. XX əsrin əvvəllə-

rində kənd təsərrüfatının gəlirli sahə olması əlində kapitalı olan digər peşə sahiblərinin də diqqətini cəlb edirdi. Bunlardan 1900-cu ildə ixtisasca dağ mədənçisi olan F.b.Vəzirovu misal göstərmək olar. Qarabağ xanlarının varislərindən Hindarx və Qaraqoyunlu kəndlərindəki torpaq mülklərindən 15 min və 1250 desyatin satın alaraq burada gəlirli bitkilərin yetişdirilməsilə yanaşı, maldarlıqla da məşğul olurdu [401, 214]. F.B.Vəzirov satın aldığı torpaqlarda pambıqçılıqla məşğul olmaqla yanaşı, taxıl əkdirib və bağ becərtdirirdi.

Dənli bitkilər, xüsusilə taxılçılıq sahəsində Qarabağın Şuşa qəzası digər qəzalardan fərqlənirdi. 1902-ci illə müqayisədə 1913-cü ildə Şuşada taxıl yığımı 33 faiz artmışdı. Belə ki, 1902-ci ildəki 5.892.760 puda qarşı 1913-cü ildə 7.857.013 pud məhsul yığılmışdı. Lakin bəhs etdiyimiz dövrdə Şuşa qəzasında kənd təsərrüfatında yeni texnika çox ləng tətbiq olunurdu. Bunun ən başlıca səbəbi Şimali Azərbaycanda kənd təsərrüfatı alətləri və maşınları istehsal edən zavodların olmaması, əhalinin kasıblığı ilə bağlı idi.

XX yüzilliyin əvvəllərində Qarabağ bölgəsində texniki bitkilərin əkin sahəsi xeyli artmışdı. Lakin Şuşa qəzasında texniki bitkilər kənd təsərrüfatı məhsulunun həlledici hissəsini təşkil etmirdi. Şuşada texniki bitkilər əsasən aran hissədə yerləşən kəndlərdə əkilirdi. Çünki bu ərazilər pambıq becərilməsi üçün başqa yerlərə nisbətən əlverişli idi.

XX yüzilliyin əvvəllərində Şuşada çəltik əkilən sahələr tədricən pambıqçılıqla əvəz edilirdı. 1900-1913-cü illərdə Şuşa qəzasında pambıq əkin sahələri 5,5 dəfə artmışdı. Pambıq əkinində traktorlardan da istifadə edilirdi. XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda cəmi 6 traktor var idi ki, bunun biri Şuşa qəzasının təsərrüfatlarında işləyirdi. Bu zaman Azərbaycan təsərrüfatlarından hər il orta hesabla 5-6 mln. pud pambıq yığılırdı ki, bunun da cəmisi 3200 pudu Şuşanın payına düşürdü. Şuşa tarlalarından toplanılan pambıq adətən yeni pambıqtəmizləmə müəssələrinə satılırdı. Şuşa əhalisi pambıqdan məişətdə də istifadə edirdi. Pambıqçılıq milyon rubllarla gəlir gətirsə də, bu gəlirin çox böyük hissəsi onu becərənlərə yox, binəkdarlara, sələmçilərə və b. işbazlara çatırdı [154, 46-48].

1914-1918-ci illər Birinci dünya müharibəsi Şimali Azərbayca-

nın bir çox bölgələrində olduğu kimi Qarabağ bölgəsində də pambıqçılığın inkişafına böyük mənfi təsir göstərdi. Çünki müharibə dövründə xam pambığın alış-satışı xeyli çətinləşdi. İstehsal olunmuş mahlıcı pambıqtəmizləmə müəssisələrindən dəmir yoluna gətirib çıxarmaq və Rusiyaya göndərmək mümkün deyildi. Dəmir yolları əsasən hərbi ehtiyacların ödənilməsinə xidmət edirdi. Müharibə ilə əlaqədar olaraq taxılın qıtlığı taxıl məhsullarının qiymətinin artmasına səbəb oldu. Bu hal isə pambıq əkən Qarabağ əhalisinin buğda, arpa əkməsi ilə nəticələndi. Digər tərəfdən müharibə dövründə pambıqçılıq üçün zəruri olan muzdlu işçi qüvvəsinin də kəskin qıtlığı meydana çıxmışdı.

XX yüzilliyin əvvəllərində Qarabağ bölgəsinin kənd təsərrüfatında inkişaf etmiş sahələrdən biri də baramaçılıq və ipəkçilik olmuşdur. İpəkəyirmə, ipəkeşmə, ipək toxuma işinin inkişafı baramaçılığın inkişafını (və əksinə) şərtləndirmişdi. Bəhs etdiyimiz dövrdə Şuşa Qarabağ ipəkçilik təsərrüfatının mərkəzi hesab olunurdu. 1900-cü ildən başlayaraq Qarabağda kumdarlıqla məşğul olan kəndlilərin sayı iki dəfə artmışdı. Bəzi məlimatlara görə, bu dövrdə, Şuşa qəzasının 512 hektarlıq torpaq sahəsində tuncar, toxmacarlıq, çəkillik, kərrik salınmışdı. Baramaçılıqda, əsasən, Yaponiya, İtaliya, Xorasan, Buxara, Çin, Fransa növlərindən və Osmanlı dövlətindən alınan "Bağdad" adlanan ipəkqurdu toxumlardan, eləcə də, yerli toxumlardan ("müsəlman") istifadə edilirdi. İpəkçilik sürətlə kapitalist-əmtəə istehsalının inkişaf etdiyi kənd təsərrüfatı sahələrindən birinə çevrilirdi. 1901-ci illə müqayisədə 1914-cü ildə Şuşada barama yığımı 25 faiz artmışdı. Şuşada 120 ton xam ipək (barama) becərmişdilər. Bu dövrdə hazır ipək sap istehsalı isə artaraq ildə 22 tona çatmışdı. 1914-cü ildə Şimali Azərbaycanda barama istehsalı 260 min pudu keçmişdi. Yeri gəlmişkən, Cənubi Qafqazda əldə edilən baramanın 81 faizini Azərbaycan verirdi. Qarabağın qəzalarında becərilən baramanın hamısından fabriklərdə ipək sap əyrilir, bu saplar sarınır, eşilir, parça toxunur və boyanırdı. Fabriklərdə əyrilmiş ipək sapdan müxtəlif çeşidli parçalar və kələğayılar (mov, darayı, qasəbə, qanavuz, çarqat, alyoşa və s.) istehsal olunurdu. Qarabağ ipək emalı müəssisələrindəki texnikada aşağı növ baramanı emal etmək mümkün olmadığından həmin

aşağı növ barama (tompal) İtaliya və Fransanın Milan, Marsel, Lion şəhərlərinə ixrac edilirdi [152, 136-137].

İpəkçiliyin gəlirli sahə olduğunu nəzərə alan çar hökuməti XIX əsrin sonu-XX əsrin əvvəllərində Qarabağın müxtəlif bölgələrində – Ağdamda, Bərdədə, Alpoutda, Hadrutda, Lənbəranda, Tuğda və b. yerlərdəki kənd məktəblərində ipəkçilik dərslərinin keçirilməsinə göstəriş verdi [379, 278].

XIX əsrin sonu-XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının Çaykənd və Qaraçinar məktəblərində də ipəkçilik məşğələləri təşkil olunmuşdu. Qaraçinar məktəbində 15 şagird ipəkçilik biliklərinə yiyələnirdi. Qaraçinar məktəbində ipəkçilik dərsi Mustafayev tərəfindən tədris olunurdu [379, 228-229].

XX yüzilliyin başlanğıcında Qarabağ bölgəsində maldarlıq, xüsusən dəiribuynuzlu mal-qara saxlanılması və qoyunçuluq əkinçiliklə paralel inkişaf etmişdi. Çünki bunlar tarixən bir-birini tamamlayan təsərrüfat sahələri olmuşdur.

Bir qayda olaraq Qafqazda mövcud olan 13 qoyun cinsindən 9-u Azərbaycanda yetişdirilirdi. Gəncə-Qazax bölgəsində əsasən parlaq və yumşaq yunu olan "bozağ", Bakı bölgəsində zərif yunlu "şirvan", Muğan və Mil düzlərində ağ rəngli yumşaq yunu olan "şahsevən", Cənubi Azərbaycanda "balbas", "maku", "muğan" cinsli qoyunlar daha çox bəslənilirdi [164, 9].

Bəhs etdiyimiz dövrdə Qarabağ bölgəsində qoyunçuluğun inkişafı üçün həyata keçirilən tədbirlərdən biri də yeni növ qoyunların yetişdirilməsi olmuşdur. Yeni qoyun növü Qarabağ qoyun cinsinə məxsus olan qaradolaq növü idi. Bu növün yaradıcısı Qaradolaq kəndinin məşhur kəllədarı Hacı Məhəmmədhüseyn hesab olunur. Qaradolaq qoyunu Qarabağ cinsinin uzaq məsafəyə yol getmək, yemləməyə az tələbkar, xəstəliklərə qarşı dözümlü və həm də yüksək ətlilik, yunluluq, südlülük kimi xüsusiyyətlərini özündə birləşdirən növüdür. Ət veriminə görə bütün qoyun növlərindən üstün olan Qaradolaq növü ətlik-südlük və yunluq cins hesab olunurdu. Həmçinin yeni cinsdə ətin kaloriliyi də yüksək idi. Başqa qoyunlarda əkiz bala vermə qabiliyyəti 10-15 faiz idisə, yeni cinsdə bu 20-30 faizə çatırdı. Qarabağ qoyunlarının yununda da başqa qoyunlardan

üstün cəhətlər var idi. Bu qoyunlardan əldə edilən yun xalçaçılıq üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Qarabağda becərilən Qaradolaq qoyunlarının yunu əsasən xarici ölkələrə ixrac olunurdu. Qarabağ qoyunlarının rəngi boz olduğundan, əldə edilmiş yunu müxtəlif rənglərə asanlıqla boyamaq mümkün idi. Bütün bunlarla yanaşı, yeni növ südünün çoxluğu və yağlılığı digər cinslərdən seçilirdi (6 faizə qarşı 10 faiz) [154, 53-54].

Şimali Azərbaycanın Qarabağ bölgəsində yüksək məhsuldarlığı ilə fərqlənən qoyunçuluğun inkişafı xalçaçılığın inkişafına da şərtləndirirdi. Meydana çıxması tarixi e.ə. II minilliyə aid edilən xalça sənətinin Azərbaycan ərazisində geniş yayılmasına və inkişaf etməsinə səbəb bu ərazidə olan əlverişli coğrafi-iqlim şəraiti, əhalinin isə əsasən maldarlıq təsərrüfatı ilə məşğul olması idi [164, 9].

Maldarlığın inkişafı ilə bağlı Qafqaz təqviminin 1913-cü il buraxılışında Yelizavetpol quberniyasında kolbasa, konservbişirən zavodlarının sayı onların illik gəliri və işçiləri haqqında aşağıdakı məlumatlar verilmişdir: quberniyada ümumilikdə 109 kolbasa, 46 konservbişirən zavodu fəaliyyət göstərmişdi. Kolbasa zavodların illik gəlirləri 247.540 rubl, işçilərin sayı 586 nəfər, konservbişirən zavodların illik gəlirləri 307.388 rubl, işçilərin sayı 152 nəfər olmuşdur [320, 180-181].

Qarabağ bölgəsi həm də tarixən bağçılığın, üzümçülüyün çox qədim diyarıdır. Baxmayaraq ki, üzümçülük çoxlu kapital və yaxşı aqrotexniki qulluq tələb edirdi, hansı sahədə su var idisə, həmin yerdə üzüm əkilirdi. Sahibkarlar bu sahəyə daha çox diqqət yetirirdilər. Becərilən üzümün müəyyən hissəsi istehlaka (süfrə üzümü) sərf edilir, çoxu isə şərab zavodlarına satılırdı. Bəzi məlumatlara əsasən 1901-1903-cü illərdə Şimali Azərbaycanda üzüm bağlarının ümumi sahəsi 24000 desyatindən 29000 desyatinə çatmışdı. Şuşada isə bu rəqəm 3117 hektardan 3400 hektara qalxmışdı. Şuşanın əlverişli iqlimi üzümçülüyün yüksək məhsuldarlığını şərtləndirmişdi [152,138].

1901-1913-cü illərdə Qarabağ bölgəsində üzüm yığılması 2 dəfə artmışdı. Şuşa şəhərində 1901-ci ildəki 3112 tona qarşı, 1913-cü ildə 6300 ton üzüm yığılmışdı. I Dünya müharibəsinin başlaması və

iqlimin quraqlıq keçməsi və sair amillər Qarabağ bölgəsində 1916-1917-ci illərdə üzüm əkini sahələrinin 40 faiz azalmasına səbəb olmuşdu. Bəzi məlumatlara görə, 1897-ci illə müqayisədə 1913-cü ildə üzümçülük sahələri demək olar ki, artmamışdı [113, 95].

XX əsrin əvvəllərində Qarabağ bölgəsində kənd təsərrüfatının mühüm sahələrindən biri də tütünçülük idi. Tütünə olan tələbat artdıqca tütün plantasiyaları da genişlənirdi. Bu dövrdə, Şuşada sənaye tütünçülüyü intişar tapmışdı. Tütünçülük gəlirli sahə olduğuna görə Şuşada tütün becərilən sahələr 2,5 dəfə artmışdı. Bu artım həm də tütün yarpağı yığımında özünü göstərirdi. Belə ki, 1900-1914-cü illərdə Şuşada tənbəki istehsalı 41 tondan 99 tona çatmışdı. Yığılan tütün yarpağı yerli fabriklərdə emal edilirdi. Tütünün bir hissəsi isə İrana ixrac edilirdi [154, 50]. Yeyinti sənayesində mühüm yer tutan tütünçülük ən çox Qarabağ bölgəsinin Cavanşir qəzasında intişar tapmışdı [106, 17].

Yuxarıda gətirilmiş məlumatlara, aparılmış araşdırmalara arxalanaraq iddia etmək olar ki, XX əsrin əvvəllərində çar administrasiyası tərəfindən həyata keçirilmiş bu islahatlar çox vaxt yarımçıq olmuş, heç də yerli əhalinin vəziyyətinin yaxşılaşdırılmasına hesablanmamışdı.

Yarımfəsildə göstərilmiş sənəd və materiallara əsasən iddia etmək mümkündür ki, çar hökuməti Şimali Azərbaycan həyatının digər sahələrində olduğu kimi, kənd təsərrüfatında da kəsərli, köklü islahatlar aparmağa tələsmir, öz feodal-mütləqiyyətçi mahiyyətinə sadiq qalaraq xəzinənin geniş torpaq mülkləri üzərində sahibkarlıq hüququnu fermerçi kəndlilərə verməyə tələsmir, sürətlə genişlənən kapitalist-əmtəə münasibətləri ilə ayaqlaşa bilmirdi.

Bütün bunlara baxmayaraq, Şimali Azərbaycanda, o cümlədən onun Qarabağ bölgəsində bazaryönümlü əmtəə-kapitalist münasibətləri güclənərək yeni-yeni sahələrə yiyələnir, ənənəvi təsərrüfat sahələri belə bazaryönümlü ticari əkinçilik, əmtəə təsərrüfatı xarakteri alırdı.

Kənd təsərrüfatında əmtəə-kapitalist münasibətlərinin inkişafı fonunda sosial problemlər də güclənir, təbəqələşmə dərinləşir, aztorpaqlılıq geniş miqyas alır, müflisləşmiş təbəqələrin xüsusi çəkisi gündən-günə artırdı.

## §3. Sənaye müəssisələrinin yaranması

XX yüzilliyin əvvəllərində, iqtisadi inkişafın tələblərinə uyğun olaraq, kənd təsərrüfatı sahələrinin bazaryönümlü inkişafı getdikcə güclənirdi. Müstəmləkəçi çar Rusiyası isə Şimali Azərbaycan, o cümlədən də onun Qarabağ bölgəsinin yeraltı və yerüstü sərvətlərini asanlıqla mənimsəmək məqsədi ilə çoxistiqamətli müstəmləkəçi siyasət yürüdürdü.

Kənd təsərrüfatının inkişafı, bazara çıxarılmaq üçün nəzərdə tutulan xammal istehsalının genişlənməsi eyni zamanda sənaye müəssisələrinin də meydana çıxmasına əlverişli şərait yaradırdı. Hələ XIX əsrin "80-90-cı illərində Şuşa və Cəbrayıl qəzalarının ipək emalı müəssisələrində 2164 sap sarıyan dəzgah və başqa texniki avadanlıq vardı. Ümumi istehsal məbləği 1 mln. manata qədər idi" [49, 184; 306, 51].

Məlum hadisələrlə əlaqədar olaraq, 1906-cı ilin yanvar məlumatına görə, Şuşa ərazisində ipək emalı müəssisələrinin sayı 23-dən 12-yə enmişdi [154, 28, 46].

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində yaşayış məntəqələrinin bəziləri məhz fabrik istehsal sahələrinin inkişafı ilə əlaqədar böyüyürdü. Bu fabriklərin bəziləri müxtəlif maşınlarla, bəziləri isə buxar qazanları ilə təchiz edilmişdi. Qarabağ bölgəsində ipəkçilik müəssisələri əsasən Şuşa və Cəbrayıl qəzalarında yerləşirdi. Qarabağın ipəkçilik sənayesində hətta səhmdar cəmiyyətlər də fəaliyyət göstərirdi. Belə səhmdar cəmiyyətlərdən biri hələ XX əsrin başlanğıcında Şuşa qəzasında yaradılmışdı. Bu səhmdar cəmiyyətin 6 ipəkəyirən, 2 ipəkeşən və 3 baramaboğan fabriki var idi. Bütün fabriklər o dövr üçün müasir olan texnika ilə təchiz olunmuşdu. Səhmdar cəmiyyətin əsas kapitalı 500 min rubla bərabər idi [106, 15].

XX əsrin lap əvvəllərində bütün dünya, o cümlədən Rusiya iqtisadiyyatını bürüyən dərin iqtisadi böhran Azərbaycan ipək sənayesinə ciddi zərər yetirə bilmədi. Doğrudur, 1902-ci ildə 30 xırda müəsisə dayansa da bütövlükdə istehsalda sabitlik pozulmadı.

İpək sənayesi ölkəmizin Şirvan, Şəki, Car-Balakən, Qarabağ və

b. bölgələrində geniş yayılmışdı. Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzi olan Nuxa (Şəki) haqlı olaraq "Qafqaz Lionu" adlandırılırdı. 1900-cu ildə xırda müəssisələr nəzərə alınmazsa, Nuxa-Zaqatala zonasında 46 fabrik vardısa, 1915-ci ildə onların sayı 87-ni keçmişdi. Müvafiq illərdə Qarabağda və Naxçıvanda, xüsusilə Ordubad şəhərində isə 14 və 36 fabrik işləyirdi. Bütün fabriklər əcnəbi ölkələrdən gətirilmiş müasir avadanlıqlarla təchiz edilmişdi [106, 15].

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində isə 27 ipək emalı müəssisəsi vardı. Onlardan 22-si Şuşa qəzasında, o cümlədən 3-ü Şuşa şəhərində idi; qalanları isə qonşu qəzaların kəndlərinə səpələnmişdi. Cəbrayıl və Cavanşir qəzalarında 5 ipək emalı müəssisəsi vardı [218, 66-67].

Qarabağ bölgəsində ipək emalı müəssisələrində qadınlar və qız uşaqları fəhlələrin əksəriyyətini təşkil edirdilər. Ümumiyyətlə, bu sahədə qadınlar işçilərin təxminən beşdə dördünü təşkil edirdilər. Qadın, yeniyetmə və uşaq əməyinin tətbiqinə görə Azərbaycanda Qarabağ bölgəsi xüsusi ilə seçilirdi. 1903-cü ildə Azərbaycanın Qarabağ və Naxçıvan ipək emalı fabriklərində 1036 azyaşlı qız, 76 nəfər 8-15 yaşında olan oğlan, 144 nəfər isə yeniyetmə və yaşlı kişi çalışırdı [218, 15-16].

Şuşa və Qaryagin qəzalarında "1906-1907-ci illərdə ipək emalı sənayesində işçilərin gündəlik əmək haqqı təxminən aşağıdakı kimi olmuşdu:

Şuşa-Qaryagin qəzaları üzrə: kişilər 55 qəpik, yaşlı qadınlar 45 qəpik, yeniyetmə oğlanlar 40 qəpik, yeniyetmə qızlar 30 qəpik, azyaşlı oğlan uşaqları 25 qəpik, azyaşlı qız uşaqları 20 qəpik". Eyni zamanda qeyd edək ki, ipək emalı sənayesində iş böyük məharət tələb edirdi. Bunun müqabilində işçilərin ailə büdcəsi kasad idi. Ehtiyac üzündən işçi ən kiçik uşağını belə fabrikə göndərməyə (ipək emalı sənayesinə) məcbur olurdu. O dövrkü qəzetlərdən birində bu barədə yazırdılar: "6-7 yaşındakı fabrikə göndərilən qız uşaqları ilk vaxtlar gündə 5 qəpikdən 7 qəpiyə qədər alır, sonra isə işə alışdıqca onların əmək haqları artaraq 20-25 qəpiyə çatırdı"... Cüzi əmək haqqı alınması üzündən işçilər və onların ailə üzvləri doyunca yeməyə

həsrət idilər” [218, 41-46].

Lakin hər halda 1900-1903-cü illər iqtisadi böhranı bu sahədən də yan keçməmişdi. Bu sahənin zərər görməsinin başlıca səbəblərindən biri də çar Rusiyasının dəstəyini alan ermənilərin 1905-1906-cı illərdə bilərəkdən Qarabağ bölgəsində ipək emalı müəssisələrinin işinə mane olmaları idi. Ermənilər bu vasitə ilə Qarabağ bölgəsinin yerli əhalisi olan Azərbaycan türklərini işsiz qoymaq, bununla da regionun bu əhalidən təmizlənməsinə nail olmaq istəyirdilər.

Bu ipək emalı müəssələrinin çoxu çar Rusiyasının dəstəyi ilə 1905-ci ilin avqust ayının 16-21-də Şuşada başlamış erməni-müsəlman davası zamanı, ermənilər tərəfindən talan edilmiş, bir hissəsi isə tamamilə dağıdılmışdır. O dövrə aid mənbələrin birində bu barədə belə deyilir: “Ərəkül kəndində erməni-müsəlman nifaqı başlayan kimi ipəksarıma-ipəkburma fabriklərində işlər dayandırıldı və işçilər fabrikləri tərk etməyə məcbur oldular” [218, 66-67].

Bu dövrdə fabrik və zavodlarda çalışan işçilərin ağır vəziyyəti 1905-1907-ci illərdə geniş fəhlə hərəkatının başlanmasına gətirib çıxardı. Çar Rusiyası Qarabağ bölgəsində vəziyyətin nəzarətdən çıxacağını görüb əvvəlcədən bu ərazilərə köçürdüyü və silahlandırdığı ermənilərlə birlikdə azərbaycanlı türk-müsəlman əhaliyə qarşı qırğınlar törətməyə başladı. Çar Rusiyası bununla əhalinin diqqətin hərəkatdan yayındırmaq istəyirdi. Ermənilər isə özləri üçün axtardıqları bu günə qədər harada yerləşdiyini müəyyən edə bilmədikləri vətəni, gah Türkiyədə, gah Rusiyada, gah Cənubi Azərbaycanda, gah Gürcüstan ərazisində, gah hazırda 1918-ci ildə Azərbaycandan qopardıqları qədim torpağımız olan İrəvanda, gah da Qarabağ ərazisində tapmaq istəyirdilər.

Müstəmləkəçi hökumətin təzyiqlərinə baxmayaraq Şuşa və Nuxa şəhərlərində ipək emalı sənayesi işçilərinin tətilləri tez-tez olurdu. Tətilçilər 8 saatlıq iş günü, əmək haqqının 20-25% artırılması, həmkarlar təşkilatlarının azad fəaliyyət göstərməsi və s. haqqında tələblər irəli sürürdülər. 1907-ci il iyun ayının 10-da Şuşa qəzasının ipək emalı sənayesi və digər sahələrin işçiləri işləri dayandırdılar. İyunun 11-ində tətilçilərin sayı artıq 2000 nəfərə çatmışdı. Onların bir hissəsi azərbaycanlı qadınlardan ibarət idi. İyunun 19-da fabrik sahibləri iş-

çilərin irəli sürdükləri tələbləri qəbul etməyə məcbur oldular. İpəkçilərin may-iyun tətillərinin gedişi o dövrkü mətbuatda ətraflı verilmişdir. İyun tətilləri işçilərin qələbəsi ilə başa çatmışdı [218, 73-75].

İyulun 3-də əksəriyyəti qadınlardan ibarət olan Şuşa fabriklərində ipək sahəsində çalışan işçilər yenidən ayağa qalxdılar. Tətilçilərə başqa sənaye sahələrinin işçiləri də qoşuldular. İşçilər fabrikçilərə 31 maddədən ibarət tələbnamə verdilər. Buraya iş gününün qısaldılması, əmək haqqının artırılması, cərimələrin ləğv edilməsi, həmkarlar ittifaqlarının fəhlələrin səlahiyyətli təşkilatı kimi tanınılması və s. tələblər daxil edilmişdi. Tətil hərəkatı Şuşa şəhərində, habelə Daşaltı, Kərkicahan, Ballıca, Seyidbəyli, Tuğ, Ərəgül, Xırmancıq və b. kəndlərdə daha ciddi şəkil almışdı. Ümumiyyətlə, ipək fabriki işçilərinin iyul-avqust tətilləri 30-a yaxın fabrik-zavodu əhatə edirdi. Tətilçilərin sayı 2000-2500 nəfərə çatmışdı. Sahibkarlar avqustun 6-da bütün tələbləri ödəməyə razılaşdılar. Avqustun 7-də tətilçilər işə qayıtdılar [218, 86-87].

Bütün bu problemlərə baxmayaraq ipəkçilik sahəsinin inkişafı davam edirdi. Şimali Azərbaycanda 1915-ci ildə ipəkçilik fabriclərinin sayı, 1900-cu ilə nisbətən iki dəfədən çox artaraq 123-ə çatmışdı. Bu, bütün müəssisələrin 4/5 hissəsindən çoxunu təşkil edirdi. Fabriklər bütün məhsulun 95 faizini verirdi. Fabriklərin 85-i Nuxa qəzasında, 2-si Zaqatalada, 24-ü Şuşada, 12-si Naxçıvan qəzasında idi [81, 17].

Qafqaz təqviminin 1914-cü il buraxılışında Yelizavetpol quberniyasında baramaaçan və ipəktoxuma fabrikləri, onların illik gəlirləri və işçiləri haqqında məlumatlarda göstərilir ki, fabriklərin sayı 111, illik gəlirləri 1.299.702 rubl, işçilərin sayı 6839 nəfər olmuşdur [320, 186-187].

Qarabağ sənayesini, əsasən, kənd təsərrüfatı ilə bağlı olan müəssisələr təşkil edirdi. Bu baxımdan Qarabağda ipəkçilik, pambıqçılıq və şərabçılıq müəssisələri üstünlük təşkil edirdi.

Bu dövrdə ipəkçiliklə yanaşı, Quzey Azərbaycanda pambıqçılığın inkişafı ilə əlaqədar yeni sənaye sahəsi – pambıq emalı sənayesi sürətlə genişlənməkdə idi. Pambıq rayonlarında yaranmış ilk zavodlar məhsuldarlığı aşağı səviyyədə olan kiçik müəssisələr idi. Onlar at

qüvvəsi ilə, yaxud əllə hərəkətə gətirilən və lazım gəldikdə bir yerdən başqa yerə aparılan pambıqtəmizləyən qurğulardan ibarət idi. Bir qədər sonra ağ neftlə hərəkətə gətirilən mühərriklər meydana çıxdı. Bu isə lazımi avadanlıqla təchiz olunmuş bina və ixtisaslı işçilər tələb edirdi. Beləliklə, pambıqtəmizləyən, pambıq emalı zavodları meydana çıxdı və onların sayı ilbəil artdı. 1911-ci ildə Şimali Azərbaycanda artıq 40 pambıq emalı zavodu fəaliyyət gös-tərirdi. Çoxunda mühərriklər ağ neft və buxarla hərəkətə gətirilən bu zavodların 14-də 800-850 işçi çalışırdı və illik istehsal həcmi 2 mln. rubla çatırdı. İrəvanda, Gəncədə, Ağdamda, Cavad və Göyçay qəzalarında cəmləşmiş zavodların çoxu 8-10 fəhləsi olan kiçik müəssisələr idi. Onlarla yanaşı, Petropavlovskda, Hacıqabulda, Salyanda, bəzi başqa yerlərdə fəaliyyət göstərən zavodlar elektrik işığı və müxtəlif avadanlıqla təmin olunmuş iri kapitalist müəssisələri idi. Pambığın bu zavodlarda təmizlənməsindən sonra alınmış mahlıc Rusiyanın toxuculuq fabriklərinə və xarici ölkələrə ixrac olunurdu. Mahlıc məngənələrdə sıxılırdı. Ona görə də zavodların çoxunda əksəriyyəti vintli olan məngənələr var idi. “Voqau və K”-nın zavodu isə hətta hidravlik məngənələrə malik idi [50, 32].

XX əsrin əvvəllərində Şimali Azərbaycanda 100-dən çox pambıqtəmizləmə zavodu vardı. Bu sahədə Yelizavetpol quberniyası birinci yerdə gedirdi. 1908-ci ildə quberniyada 15 zavod olmuşdusa, 1912-ci ildə onların sayı 28-ə çatmışdı [106, 16].

Qafqaz təqviminə görə 1914-cü ildə Yelizavetpol quberniyasında ümumilikdə 17 pambıqtəmizləmə fabrik və zavodları olmuşdu. Bu fabrik və zavodların illik gəlirləri 1.894.500 rubla, işçilərin sayı 417 nəfərə çatmışdı [320, 186-187].

XIX əsrin sonu-XX əsrin əvvəllərində Quzey Azərbaycanda pambıqtəmizləyən zavodlarının meydana çıxmasına qədər pambıq kustar üsulla, əl ilə təmizlənirdi. Azərbaycanın yüngül sənayesində geniş miqyasda fəaliyyət göstərən “Qafqaz pambığı” səhmdar cəmiyyətinin təsis tarixi diqqəti xüsusi ilə cəlb edir. Hələ təsisdən əvvəl torpaq almaq üçün Qarabağdan, Zəngəzur qəzasından olan X.Usmiyevlə müqavilələr bağlanmışdı. 1912-ci il iyunun 14-də Vladiqafqaz şəhərində Xasay xanla bağlanmış müqavilənin şərtlərinə görə, o,

özünün 2 mülkünü İ.F.Skrepinskiyə satır. Birinci mülk “I Gəngərli”, ikinci mülk isə “Pirhəsənli” mülkü idi. Pirhəsənlinin özü də “Pirhəsənlinin gəngərlisi” adlanırdı. “I Gəngərli”nin ümumi sahəsi 6285 desyatin, Pirhəsənlininki isə 1990 desyatin idi. Beləliklə ümumilikdə 8275 desyatin torpaq sahəsi satın alınmışdı. Torpağın hər desyatininə orta hesabla 44 rubl verməklə, birinci mülk 276.540 rubla, ikinci mülk 87.560 rubla, hər ikisi birlikdə cəmi 364.100 rubla satılırdı. Birinci mülk 1907-ci ildə Musa Nağıyevə girov verilmişdi. Ona görə də, İ.F.Skrepinski M.Nağıyevlə danışaraq, onun girov pulunu faizlə birlikdə ödədikdən sonra alqı-satqı işini başa çatdırmışdı. Bu mərhələdən sonra həmin torpaq əsasında yaradılacaq səhmdar cəmiyyətinin nizamnaməsi 1912-ci ilin avqustunda müvafiq nazirlikdə qəbul olunmuşdu. Artıq oktyabrın 15-də cəmiyyət fəaliyyətə başlamışdı. “Qafqaz pambığı” cəmiyyətinin 5300 desyatin əkin sahəsi, geniş biçənək sahələri var idi. Cəmiyyət F.Vəzirovun Cavanşir qəzasındakı torpaqlarından 2000 desyatindən çoxunu icarəyə götürmüşdü. Cəmiyyət 1915-ci ildə öz əsas kapitalını 1,5 mln. rubla çatdırmışdı [394, 57-58].

1900-1913-cü illərdə Quzey Azərbaycanın təkcə Bakı və Yelizavetpol quberniyalarında pambıq əkini sahələri 19 min desyatindən 105 min desyatinə çatmış, yəni 5,5 dəfə artmışdı. 1913-cü ildə Rusiyada əkinçilikdə istifadə edilən 152 traktordan 6-sı Azərbaycanda idi. F.Vəzirovun “Hindarx” mülkündə 1, Həsən bəy Hüseynovun Yevlaxdakı mülkündə 1 və Ağdamda fəaliyyət göstərən “Qafqaz pambığı” səhmdar cəmiyyətinin təsərrüfatında 2 traktor var idi [106, 24]. Bu faktdan görünür ki, ümumilikdə Şimali Azərbaycana gətirilmiş 6 traktorlardan 4-ü Qarabağ bölgəsində yerləşən müəssələrdə işləyirdi.

“Pambıqtəmizləmə zavodları ildə 2 mln. puddan çox mahlıc istehsal edirdilər. Sənaye məhsulunun illik dəyəri 32 mln. manatdan (rubldan-B.H.) yuxarı idi. İri zavodların hər biri ildə 100-150 min pud mahlıc istehsal edirdi. Pambıqtəmizləmə sənayesinə qoyulan kapitalın 80 faizdən çoxu milli kapitala məxsus idi” [106, 16].

Səhmdar cəmiyyətlərin heç də hamısı bu yolla təşkil olunmurdu. Onların əksəriyyəti fərdi ailə müəssisələri əsasında yaradılırdı. 1914-cü ildə göstərilən müəssisələr “B.Arzumanov ticarət-sənaye pay” şir-

kətinin ixtiyarına keçdi. Şirkətin 4 mln. rublluq ilkin əsas kapitalı 1915-ci ildə 5 mln. rubla qaldırıldı. Cəmiyyətin idarə heyətinə Qarabağda yaşayan şuşalı tacirlər də seçilmişdilər. Payların bir hissəsini onlar saxlayırdılar. Nəzarət paketi isə B.Arzumanovun portfelində idi. "B.Arzumanov ticarət-sənaye pay" şirkətinin baş kontoru Moskvada, şöbələri isə müxtəlif quberniyalarda yerləşirdi. Qarabağ bölgəsində şirkətin pambıqtəmizləmə zavodları fəaliyyət göstərirdi. Şirkətin illik dövriyyəsi 20 mln. rubldan çox idi [394, 59; 307, 51].

Pambıqçılığın inkişafında Qarabağın qəzalarında çoxlu pambıq becərilən sahələri icarəyə götürmüş "Moskva ticarət-sənaye" şirkətinin də rolu böyük olmuşdu. Şirkət Azərbaycandakı fəaliyyəti dövründə kapitalını 0,75 mln. rubldan 1,5 mln. rubla çatdırmışdır. 1909-cu ildə F.Vəzirovun Hindarxındakı pambıqtəmizləmə zavodu da şirkətə icarəyə verilmişdir [394, 59].

1916-ci ildə "Yelizavetpol kənd təsərrüfatı və sənaye-ticarət səhmdar cəmiyyəti" təsis olundu. Təsisçilər istefada olan general-leytenant Y.A.Pançulidzev və saray müşaviri L.K.Stefanski idi. Cəmiyyət üçün alınacaq torpaq sahələri 15 min desyatindən çox olmalı idi. Əsas kapitalı hər biri 100 rubldan ibarət 25 min səhmə bölünmüş 2,5 mln. rubla bərabər idi [394, 63].

Yelizavetpol quberniyasında 1912-ci ildən fəaliyyətə başlayan və ilkin kapitalı 600 min rubl olan "Qafqaz pambığı" səhmdar cəmiyyətinin 1916-cı ildə artıq 5 mln. rublluq əsas kapitalı var idi [81, 18].

Qarabağda pambıqtəmizləmə sənayesində fəhlələrin beşdə dördündən çoxu azərbaycanlılardan ibarət idi [218, 20]. Pambıqçılıq, demək olar ki, XX əsrin əvvəllərindən Azərbaycanın Qarabağ bölgəsinin təsərrüfatında görkəmli yer tutmuş və ildən-ilə artmışdı.

Qarabağ bölgəsində inkişaf etmiş istehsal sahələrdən biri də şərabçılıq idi. Şərabçılıq müəssisələri, əsasən, üzümçülüyün daha geniş yayıldığı Şuşa qəzasında cəmləşmişdi [81, 23]. İri araq zavodlarından biri olan Şuşa qəzası Muradbəyli kəndində ilk dəfə tikilmiş belə zavoda 1892-ci ildə Ağdam yaxınlığında yerləşən Şelli və Boyəhmədli kəndlərində inşa edilmiş daha 2 yeni araq zavodu əlavə olundu. 1892-ci ildə "Forer qardaşları" firmasına məxsus zavodda

gündə 100 vedrə (təxminən 1500 litr-B.H.) konyak istehsal olunurdu. 1894-cü ildə belə bir zavod Ağdamda da fəaliyyət göstərirdi [49, 185].

1913-cü ildə Şimali Azərbaycanda 5-7 rektifikasiya (təmizlənmiş) spirt istehsal edən zavod var idi. Bu zavodların 4-ü Yelizavetpol quberniyasında yerləşirdi. Həmin ildə ölkəmizdəki 9 konyak zavodlarından 6-sı bu quberniyada yerləşirdi. Qarabağ bölgəsində istehsal gücünə görə iri müəssisə hesab edilən Ağdam konyak zavodu yüksək keyfiyyətli konyak istehsal edirdi [106, 17].

Şuşa qəzasında şərabçılıq müəssisələri digər qəzalara nisbətən daha çox idi. Şuşa qəzasının ən iri spirt istehsalçıları Şuşa və Ağdamda spirt zavodları olan Xublarov və Soqomonov qardaşlarının firmaları idi. XX əsrin əvvəllərində Qarabağda 5 konyak zavodu var idi. Həmin zavodlar Ağdam rayonunun Xoruzlu və Əliməryanlı kəndlərində yerləşirdi [113, 102].

1913-cü ildə Bakı və Yelizavetpol quberniyalarında istehsal edilmiş 1345 min vedrə şərabın 269 min vedrəsi, 20 mln. dərəcə spirt və arağın 4 mln. dərəcəsi Şuşa qəzasının payına düşürdü. 1902-ci ildə Şuşa qəzasının 4493 desyatin üzüm sahəsindən 600 min pud məhsul götürülmüşdü. Həmin il üzümçülük sahəsi Zəngəzur qəzasında 463,43 desyatinlik üzüm bağlarından 135,113 pud məhsul yığılmışdı. Digər Qarabağ qəzalarında isə vəziyyət belə olmuşdur: Cavanşir qəzasında 819,10 desyatin üzüm bağından 48,305 pud məhsul yığılmışdı Cəbrayıl qəzasında 484,00 desyatin bağdan 37,075 pud üzüm yığılmışdı [113, 94; 154,30].

1913-cü ildə təkcə Şuşada şərab istehsalı 8000 vedrəyə çatmışdı. Şimali Azərbaycan üzrə bu göstərici 4 mln. vedrə idi. Eyni zamanda, 1913-cü ildə burada spirt, araq, konyak istehsalı 29 mln. dərəcəyə qalxmışdır ki, bunun 6 mln. dərəcəsini Şuşa zavodları istehsal edirdi. Bu dövrdə Azərbaycanda istehsal edilən şərabın 20 faizini Şuşa qəzası verirdi. Cənubi Qafqazda istehsal olunan şərabın üçdə birindən çoxu Şimali Azərbaycanın payına düşürdü.

Bu dövrdə Şuşanın şərab istehsalı ilə məşğul olan şirkət və səhmdar cəmiyyətlərinin sayı artmağa başlamışdı. Həmin şirkət və səhmdar cəmiyyətlər Şuşa ərazisində hazırlanan şərab, araq, spirt və

konyakın çox hissəsini verirdilər. Bəzi məlumatlara görə, 1914-cü ildə Şimali Azərbaycanda dəyəri 21 mln. rubldan xeyli çox olan şərab, araq, spirt və konyak istehsal edilmişdi ki, bunun da 4,2 mln. rublu Şuşanın payına düşürdü [154, 30].

1913-cü ildə Yelizavetpol quberniyasında bir pivə zavodu da var idi. Cəmisi 18 nəfər çalışdığı bu zavodun illik gəliri 23.456 rubl olmuşdur [320, 182-183].

Şuşa şəhərində bu dövrdə mövcud olan bir kredit bankının şöbəsi artıq əhalinin tələbatını ödəyə bilmirdi. Ona görə də əhalinin müraciəti nəticəsində yeni maliyyə-kredit müəssisələrinin sayı artırıldı. Bu dövrdə Qarabağ bölgəsinin sənaye sahibkarları Dövlət bankından borc pul götürə bilmirdilər. Onların yalnız Azov-Don bankının Yelizavetpol (Gəncə) şöbəsindən 11-12 faizli borc pul götürmək hüququ var idi. Faizlə dövlətdən borc pul götürmək sahibkarlar üçün əlverişli deyildi. Hətta 1903-cü ildə Qarabağ sahibkarları Rusiya Dövlət Əmlak Nazirliyinə məktub yazaraq, əldə etdikləri qazancın çox hissəsini banklardan götürdükləri kreditə görə sələm kimi ödədiklərindən şikayət etmişdilər. Çar Rusiyası belə bir vəziyyətin sənayenin inkişafına mənfi təsir etdiyini nəzərə alaraq, sahibkarların aşağı faizlə borc pul götürmələri üçün maliyyə-kredit idarələrinin sayını artırdı. 1904-cü ildə Şuşa şəhərində "Qarşılıqlı kredit cəmiyyəti" yaradıldı. İqtisadi inkişafı daha da sürətləndirmək məqsədi ilə çar hökuməti 1910-cü ildə Şuşada yeni bir kommersiya bankı – Volqa-Kama kommersiya bankının kontorunu açdı. Sonrakı dövrlərdə Şuşada yeni maliyyə-kredit idarələri, qarşılıqlı kredit şirkətləri yaradıldı. Bu səhmdar ticarət banklarının yaradılması, əvvəlki dövrlərlə müqayisədə borc faizlərinin aşağı endirilməsi Qarabağda sahibkarlığın inkişafına təkan verdi [152, 125-126].

Rəsmi adminstrasiya XX əsrin əvvəllərində Qarabağ bölgəsində tarixən geniş yayılmış maldarlığın inkişafı üçün bir sıra tədbirlər görürdü. Maldarlıq təcrübə stansiyaları açılmış və xəstəliklərə qarşı mübarizə aparmaq üçün bəzi işlər həyata keçirmişdi. 1914-cü ildə "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" mal-qara sərgisi təşkil etmişdi. Sərgilərdə keyfiyyətli məhsul istehsalçıları aşkarlanır və mükafatlandırılırdı. Şuşada açılan baytar-bakterioloji laboratoriyası yoluxucu

xəstəlikləri (xüsusilə dabaq) aşkar edir və onun qarşısının alınması yollarını göstərirdi. 1907-ci ildə Yuryev Derpt İvanqorod Baytarlıq İnstitutunu bitirmiş Mehdi bəy Cuvarlı Qarabağda heyvandarlığın inkişafı istiqamətində geniş təcrübələr aparırdı [154, 67-68].

Qarabağda maldarlıqla bağlı olan sənaye sahələri əsasən kustar xarakter daşıyırdı. Bu sənaye sahələrinə misal olaraq dəri və dəri məmulatları, mahud, yağ, pendir və b. müəssisələri göstərmək olar. Bundan başqa, Şuşada 24 işçinin çalışdığı 7 sabun bişirən müəssisə də var idi ki, bu müəssisələrin ümumi dəyəri 68000 rublaa yaxın idi. 1900-cü ildə Şimali Azərbaycanda 160-a qədər gön-dəri istehsal müəssisəsi – dabbaqxana vardı. Gön-dəri istehsalının əsas mərkəzləri Nuxa, Şamaxı, Yelizavetpol, Bakı, Naxçıvan, Şuşa şəhərləri idi. Bəzi iri kəndlərdə də dabbaqxanalar fəaliyyət göstərirdi [81, 20].

1913-cü ildə Şimali Azərbaycanda gön-dəri istehsalı müəssisələrinin sayı o qədər də dəyişməmişdi. Bütövlükdə ölkəmizin gön-dəri müəssisələri I Dünya müharibəsi ərəfəsində 2 mln. rubulluq 100 min pudadək məhsul vermişdilər [106, 17].

Qarabağ bölgəsində çox yayılmış sənətkarlıq sahələrindən biri də papaqçılıq sənəti idi. Qarabağ papaqçılıq sənətinin mərkəzi Şuşa şəhəri idi. Papaqçılıq Şuşa ustalarının qədim sənəti olmaqla, XX yüzillik boyu da davam etmişdir. “Girvənkə”, “Qarabağı”, “Dairəvi”, “Buxara”, “Şirazi” papaqları həm Azərbaycanın müxtəlif bazaarlarında, həm də Şərq ölkələrində satılırdı. XX yüzilliyin əvvəllərində Şuşa şəhərində 30 papaqçı emalatxanası var idi ki, həmin emalatxanalarda 84 papaqçı işləyirdi. Təsadüfi deyildir ki, Şuşada “Papaqçılar” məhəlləsi öz adını son dövrlərə qədər saxlamışdı [154, 33].

Bu dövrdə inkişaf edən təsərrüfat sahələrindən biri də tütünçülük idi. 1913-cü ildə Yelizavetpol quberniyasında ümumilikdə 4 tütün fabriki olmuşdu. Bu fabriklərin illik gəliri 109.125 rubl, işçilərin sayı 90 nəfər olmuşdur [20, 186-187].

Qarabağ bölgəsində sabunbişirmə istehsal sahəsinin də mərkəzlərindən biri Şuşa qəzası idi. 1900-cü ildə burada 7 sabunbişirmə müəssisəsi vardı. Bu istehsal müəssisələrində 24 işçi çalışırdı. Bu istehsal müəssisələrinin illik gəliri 67.950 rubl təşkil edirdi. Bu dövrdə təkcə Bakı və Yelizavetpol quberniyalarında ümumilikdə 10-18

sabunbişirmə müəssisəsi var idi [307, 54].

Qarabağ bölgəsində bu dövrdə kərpic zavodları da fəaliyyət göstərirdi. 1913-cü ildə Yelizavetpol quberniyasında 16 kərpic zavodu var idi. Bu zavodların həmin ilki gəlirləri 6880 rubl, işçilərin sayı 34 nəfər olmuşdur [320, 186-187].

XX yüzilliyin əvvəllərində Qarabağ bölgəsində ticarət müəssisələrinin də sayı xeyli artmışdı. Ticarət müəssisələrinin əksəriyyəti Şuşa şəhərində yerləşirdi. Şuşada 1860-cı ildə 935, 1914-cü ildə 800 ticarət müəssisəsi var idisə, 1917-ci ildə onların sayı (kəndlər də daxil olmaqla) 1464-ə çatmışdı. 1917-ci ildə Şuşada illik ticarət mal dövriyyəsi 5,7 mln. rubla çatmışdı. Şuşa şəhəri və qəzasının kənd bazarlarında məişət malları, xüsusilə, duz, çay, tütün məmulatları, arşın mal, ətriyyat, neft və s. satılırdı. Şuşa tacirləri Ağdam, Gəncə, Bakı, Nuxa, Quba, Şamaxı, Lənkəran, Astara, Culfa, Naxçıvan və b. bazarlarda da ticarət edirdilər [154, 43].

Yuxarıda tədqiqata cəlb edilmiş materiallar göstərir ki, XX əsrin əvvəllərində Şimali Azərbaycanın Qarabağ bölgəsi əsasən kənd təsərrüfatı bölgəsi olaraq qalsa da burada tədricən çoxsahəli sənaye mərkəzi təşəkkül tapmaqda idi. Qarabağ bölgəsi, xüsusən də onun mərkəzi olan Şuşada həm bir sıra ənənəvi təsərrüfat sahələri (ipəkçilik, xalçaçılıq və digər keçmiş sənətkarlıq sahələri) həm də yeni meydana çıxan istehsalat sahələri (pambıqtəmizləmə, tənbəki istehsalı) sürətlə əmtəə-kapitalist münasibətlərinə köklənən bazarın tələbatına uyğun olaraq intişar tapırdı. Azərbaycanın Qarabağ bölgəsi ölkənin və diyarın həyatında getdikcə daha ciddi rol oynayan bir sosial-iqtisadi bölgəyə çevrilirdi.

# III FƏSİL

# QARABAĞIN MƏDƏNİ HƏYATI

## §1. Təhsil

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində təhsil sisteminin vəziyyəti qənaətbəxş deyildi. Məlumdur ki, XIX əsrin əvvəllərində Azərbaycan çar Rusiyası və Qacarlar dövləti tərəfindən iki yerə parçalandıqdan sonra Rusiya Azərbaycanın şimal torpaqlarında çar hökumətinin idarəçilik sisteminin qurulması işində bir çox ciddi çətinliklərlə qarşılaşmışdı. Bu çətinliklərdən ən başlıcası yerlərdə idarəçiliyə cəlb etmək üçün rusdilli kadrların çatışmazlığı idisə, digər səbəb isə yerli əhalinin böyük bir qisminin rus dilini bilməməsi və xristian işğalçılara nifrət bəsləməsi idi. Qacarlar dövləti və Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərə ümid bəsləyən, onları bölgədə özü üçün daha etibarlı xristian etnik dayaq sayan çar hökuməti bu sahədə də böyük çətinliklərlə qarşılaşmışdı. Çünki Cənubi Qafqaz ərazisinə köçürüb gətirdiyi erməni əhalisi də rus dilini bilmirdi.

Bununla bağlı Rusiya Xalq Təhsil Nazirliyinin jurnalında verilmiş bir məlumat çox maraqlıdır. Çar Rusiyasının, Cənubi Qafqazdakı tanınmış iqtisadçı mütəxəssisi, fabrik-zavod müfəttişi Qülüşambarov ermənilərlə bağlı yuxarı dairələrə belə yazırdı: “Buraya İran və Türkiyədən köçürülən qara fəhlə kimi zavodlarda çalışan ermənilər rus dilini bilmirlər. Bunları başa salmaq üçün hər dəfə ancaq tərcüməçi dalınca qaçmalısan. Bu ermənilər zavod işlərini bacarmamaqla yanaşı, həm də çox pis işləyirlər. Həmişə onlara nəzarət etmək və istiqamətləndirmək lazımdır” [348, 32].

Çar Rusiyası Cənubi Qafqazda idarəçilik sistemində rus imperiyasının siyasi maraqlarına xidmət edən kadr məsələsini həll etmək, habelə rusqafalı yerlilər nəsli yetişdirmək üçün yerlərdə rusdilli məktəblərin yaradılmasının vacibliyini yaxşı başa düşürdü. Bu dövrdə Şimali Azərbaycanın Qarabağ bölgəsində təhsil ibtidai məktəb kimi

mollaxanalarda, orta məktəb kimi mədrəsələrdə aparılırdı. İbtidai təhsil müsəlman ruhanilərinin sərəncamında olan mollaxanalarda aparılır, burada əsas oğlan uşaqlarına Quranın oxunması əsasında ilkin savad verilir, yazıb-oxumaq, sadə hesab əməliyyatı öyrədilirdi.

Eyni zamanda bu ibtidai təhsil müəssələrində şagirdlərə ərəb, fars dilləri, bədii ədəbiyyat haqqında ilkin biliklər verilirdi.

XIX əsrin əvvəllərində ənənəvi təhsillə yanaşı, dünyəvi təhsil sistemi də tədricən inkişaf edirdi. Məlumdur ki, hələ XIX əsrin 30-cu illərinin əvvəllərindən Qarabağ bölgəsində qəza məktəbinin yaradılmasına başlanılmışdır. Maarifçiliyin qarşısına qoyduğu məqsəd və vəzifələri şərh edən Qarabağ maarifçilərindən S.Vəlibəyov hələ o vaxt yazırdı: "Hər bir dövlətin və xalqın maddi vəziyyəti başlıca olaraq xalq həyatı yüksəlişinin nəinki təkcə dini, həm də iqtisadi münasibətlərinin bağlı olduğu maarifdən asılıdır. Maarif xalqın məişətini və rifahını yaxşılaşdırır, onun istehsalçılıq qabiliyyətini genişləndirir, xalqda zəhməti səmərəli etməyə tələbat yaradır, mövhumatdan azad edir, yerin təbii zənginliklərindən ağıllı surətdə istifadə etməyi öyrədir" [146, 36].

XIX yüzilliyin birinci yarısında Qarabağda Avropa üsulu elm və maarifçilik sahəsi tədricən təşəkkül tapmaqda idi. Şuşada 1830-cu ildə ilk qəza məktəbi açılmışdı [101, 47]. 1876-cı ildə şəhər və ibtidai məktəb, 1880-ci ildə altısinifli qəza məktəbi və 1886-cı ildə isə rus-tatar məktəbləri yaranmışdı. Belə məktəblərin açılması və təminatı işində Peterburq dağ-mədən institutunu bitirmiş mühəndis F.Vəzirovun da böyük xidmətləri var idi [347, 133].

Qafqaz Təhsil Dairəsi İdarəsinin 1890-cı ilə olan hesabatında göstərilirdi ki, Xalq Təhsili Nazirliyi XIX əsrdə Qarabağ bölgəsinin qəzalarında da kənd məktəbləri açmağa başlamışdı. Qafqazda ilk normal kənd məktəbləri 1876-cı il sentyabrın 1-də Qazax qəzasının Dağkəsəmən, Zəngəzur qəzasının Gorus, Cəbrayıl qəzasının Cəbrayıl kəndlərində açılmışdı. Orta məktəblərin azlığı üzündən kəndli uşaqlarının orada təhsil ala bilməməsi və Zaqafqaziya Müəllimlər Seminariyasının məzunlarının artması ilə əlaqədar 1883-cü ildən başlayaraq, bölgədə kənd məktəblərinin sayı artmağa başladı [74, 201].

Lakin kənd məktəblərində vəziyyət heç də qənaətbəxş deyildi.

1904-1905-ci illərdə Cəbrayıl qəzasındakı Hadrut kənd məktəbində (bu məktəb hələ 1885-ci ildə açılmışdır) müəllim kimi fəaliyyət göstərmiş Üzeyir bəy Hacıbəyov "Kaspi" qəzetində kənd məktəblərindəki vəziyyətdən bəhs etdiyi məqaləsində yazırdı ki, kənd ictimai məktəblərində işləmiş müəllimlər illərlə yarıac yaşayır, "ağır zəhmətə görə dilənçi maaşı", həm də beş ay gecikməklə alır [361, 35; 404, 715; 14, v. 1, 2].

XIX əsrin sonlarına yaxın rus-tatar məktəbləri ilə yanaşı, Qarabağın ziyalıları ana dilində məktəblər açmağa cəhdlər göstərməyə başlamışdılar.

1883-cü ildə Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsində ibtidai məktəb müəllimi işləmiş pedaqoq Səfərəli bəy Vəlibəyov Şuşada ana dilində üçaylıq məktəb açdı. İkinci belə məktəb isə XIX əsrin 90-cı illərində M.Nəvvab tərəfindən açılmışdı ki, burada da Azərbaycan dili, ədəbiyyat, fars dili, dünyəvi fənlər tədris edilirdi. M.Nəvvabın çoxsaylı xidmətlərindən biri də məktəblər üçün dərslik tərtib edib, məktəbdə onları tədris etmək olmuşdu. Onun müxtəlif sahələrdən bəhs edən "Kəşf-ül-həqiqət", "Kifayət-ül-ətfal", "Vüzuh-ül-ərqam" və "Nəsihətnamə" adlı dörd dərsliyi məlumdur [72, 498; 63, 43].

Regionun kənd məktəblərində təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün kənd icmaları müxtəlif rəsmi dairələrə müraciət edirdilər. Minkənd kənd icması 1890-cı ildə əsası qoyulmuş Minkənd kənd məktəbinin 1912-ci ildə birsinifli məktəbdən ikisinifli məktəbə çevrilməsini xahiş etmişdir. 31 oktyabr 1915-ci ildə məktəbin müdiri kənd icmasının 21 fevral 1913-cü il qərarının surəti ilə birlikdə Minkənd əhalisi adından ərizə ilə "Yelizavetpol qubernatoruna müraciət edərək Romanovlar ailəsinin 300 illiyi şərəfinə məktəbin adını dəyişdirilib "Nikolay məktəbi" qoyulmasını xahiş etmişdir". Minkənd kənd icması məktəbin saxlanması xərcini öz üzərinə götürürdü. Belə ki, Zəngəzur qəzası üzrə kənd icmalarından daxil olan pul ödənişlərinə dair 1916-cı il üçün cədvəldən də görünür ki, məktəbin saxlanması üçün Minkənd kənd icmasında mövcud olan 67 ev 16 rubl 75 qəpik məbləğində illik vəsait toplamışdı. 1914-cü il martın 20-dən etibarən məktəbdə süd təsərrüfatı şöbəsi də fəaliyyətə başlamışdı. Bu

şöbə qatıq, xama və pendir hazırlanması ilə məşğul olurdu. Şöbədə məşğələlər hər gün 3 saat ərzində aparılırdı (2 saat təcrübə məşğələsi, 1 saat nəzəriyyə). Bu qrupda 12 şagird var idi. Məşğələləri məktəbin müdiri gürcü N.Geladze aparırdı. Belə təhsil ocaqlarından 15 dekabr 1891-ci ildə Cavanşir qəzasının Vəng kəndində, 1897-ci ildə Şuşa qəzasının Xankəndi kəndində, 1897-ci il həmin qəzanın Tağ kəndində, 1897-ci ildə Cəbrayıl qəzasının Qarabulaq kəndində də açılmışdı. 1893-cü ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu Camal bəy Fətəlibəyov tərəfindən Şuşada üçüncü dərəcəli xüsusi oğlan rus-Azərbaycan məktəbi açılmışdı. Bu məktəbin 1893-cü ildə 25, 1895-ci ildə 60, 1896-cı ildə 80 şagirdi olmuşdu. İldə hər şagirddən 6-12 rubl təhsil haqqı alınırdı. Kasıblar bu təhsil haqqından azad edilirdilər. Beləki, bu şagirdlərdən 12-si pulsuz oxuyurdu. Məktəbin müdiri Camal bəy Fətəlibəyov 1896-cı ildə Ağcabədi kənd məktəbinə müdir göndərildiyinə görə onun yerinə müəllim Səməd bəy Ağayev təyin edilmişdi. Belə cür məktəblər rus-Azərbaycan tipli məktəblər idi.

1893-cü ildə isə Muxtar Məmmədova Şuşada daha bir rus-Azərbaycan məktəbi açmağa icazə verilmişdi. M.Məmmədov bu məktəbdə uşaqlara rus dilindən dərs deyirdi. Şuşada daha belə bir məktəb 1895-ci il sentyabrın 19-da İrəvan Müəllimlər Seminariyasının məzunu Hüseynəli bəy Rüstəmbəyov tərəfindən açılmışdı. Təssüf ki, bu tədris ocağı cəmi bir il fəaliyyət göstərmişdi. 1915-ci ildə müəllim Xudadat bəy Əzizbəyovun təşəbbüsü ilə Şuşada “Rəşad” adlı gizli yeniyetmələr cəmiyyətinin nəzdində məktəb açıldı. Məktəb 40 şagirdlə fəaliyyətə başlamışdı. Burada kimsəsiz və yoxsul uşaqlara pulsuz olaraq dərs vəsaiti, ayaqqabı, paltar alınır, hər gün onlara pulsuz yemək verilirdi. Məktəbdə Qarabağın ən nüfuzlu müəllimləri, o cümlədən, Mirzə Cəlal Yusifzadə, Bəşir Səfərov və b. dərs deyirdilər. Onların səyi ilə tədrisin vəziyyəti xeyli yaxşılaşmış, şagirdlərin sayı artırılmışdı. “Rəşadiyyə” məktəbi 1918-ci ilə qədər fəaliyyətini davam etdirmişdi [361, 35; 14, v. 1; 404, 715]. Hələ 1878-ci ildə Zəngəzur qəzasının mərkəzi Gorus kəndində açılmış məktəbdə azərbaycanlılardan Bəhiş bəy Köçərlinski və Fərhad Ağazadə dərs demişdilər. XX əsrin əvvəllərində bu məktəbin direktoru vəzifəsini mil-

liyyətcə erməni olan Safrazbəyyan tutmuşdur. 1908-ci ildən 1912-ci ilədək bu məktəbin şagirdi olmuş Nəzər Heydərov yazırdı: “Məktəbin direktoru Safrazbəyyan tez-tez şikayətlənirdi ki, məktəbində müsəlman uşaqları oxuduğu üçün ermənilər onu danlayırlar. O, ermənilərin qarasına deyirdi: Bilmirəm, bu it uşağı məndən nə istəyirlər?” [96, 14-15].

Bir çox qaynaqlar göstərir ki, yuxarıda haqqında bəhs edilən məktəblərin çoxu XX əsrin əvvəllərində öz fəaliyyətlərini davam etdirmişdi. Bununla yanaşı, rəsmi hakimiyyət orqanları da ötən əsrin əvvəllərində öz maraqlarına xidmət edən yeni tipli məktəblər açıb istifadəyə verirdi. Rusiya imperiyası islam dininə itaət edən xalqları əsarət altında saxlamaq məqsədi ilə Şimali Azərbaycanın Qarabağ bölgəsində də çarizmin siyasətinə xidmət göstərməli olan məktəblərin açılmasına ciddi diqqət yetirirdi. Məhz belə siyasətin ifadəsi olaraq 1908-ci il aprelin 3-də Hərbi idarənin təqdim etdiyi dövlət müdafiəsi planının layihəsi barədə xalq maarifi naziri A.A.Şvarts hökumətin mövqeyini əks etdirən rəy ilə çıxışında məktəblərdə “rus milli hissini inkişaf etdirməyi və möhkəmləndirməyi”, buna görə də “özgə xalqların məktəbi milliləşdirmək meylinin” qarşısını almağı təklif etmişdir [201, 103].

Belə məktəblərin açılması ilə bağlı hələ XIX əsrdə admiral Mordvinov yazırdı: “Yerli əhalinin adətlərinə müvəffəqiyyətlə təsir göstərmək və bizim adət və qaydaları onlara aşılamaq üçün gənc knyazları və xalq ağsaqqallarının uşaqlarını tərbiyə etmək məqsədi ilə bizim məktəbləri şəhərlərə gətirmək faydalı olardı. Həm də bu məktəbləri elə təşkil etmək lazımdır ki, orada yerli əhali özünün adət-ənənələrini, qayda-qanunlarını görsün” [253, 952].

Hələ XIX əsrin ortalarında Cənubi Qafqaz diyarında tədris hissəsinin qənaətbəxş şəkildə olmamasını ədalətsizlik kimi qeyd edən canişin M.S.Voronsov tədris müəssisələrinə nəzarət edən ayrıca qurumun yaradılmasını özünün mərkəzə ünvanladığı müraciətlərindən birində xüsusi olaraq vurğulayırdı. Canişinin təklif etdiyi əsasnaməyə görə, dərs vəsaitlərin əvvəlcədən müəyyənləşdirilməsi üçün xüsusi komitə təsis edilməli idi. Bu Komitənin vəzifəsi xalq maarif nazirliyi tərəfindən təsdiq edilmiş dərslikləri “şagirdlərin tələblərinə və bu

diyar üçün vacib bilinən dərsliklərin təyinatına" uyğunlaşdırmaq idi. Lakin bu komitə lazımi vəsaitin, ilk növbədə rus dili dərsliklərinin düzgün təyinatının öhdəsindən gələ bilmədiyinə görə tezliklə bağlanmışdı [254, 126; 293, 32-33]. Bu faktdan aydın görünür ki, Mordvinov və M.S.Voronsov kimi yüksəkrütbəli çar məmurları da imperiyanın siyasətinə uyğun məktəblərin yaradılmasına ciddi cəhdlər göstərirdilər. Belə imperiya məmurları həmin məktəblərdə dərslərin məhz rus dilində keçirilməsini təklif edirdilər. M.S.Voronsov yerli müəllimlərin milli ruhu zəmində tərtib etdikləri dərs vəsaitlərindən ciddi narahat olmuş və imperiyanın maraqlarına xidmət edən dərsliklərin tərtib olunması ilə bağlı imperiya hökumətinə müraciət etmişdi.

Onu da qeyd etmək lazımdır ki, rus dilinin tədrisi ilə məşğul olan belə məktəblər xüsusi şəxslər tərəfindən də açılırdı. Bütün bunlara baxmayaraq XX əsrin əvvəllərində Şimali Azərbaycanda ibtidai məktəblər şəbəkəsi nəzərəçarpacaq dərəcədə ləng inkişaf edirdi və məktəbyaşlı uşaqların xeyli hissəsi belə məktəblərdən kənarda qalırdı.

Maraqlıdır ki, XX əsrin ilk onilliklərində Şuşada fəaliyyət göstərən müəllimlərin əksəriyyəti Şuşa şəhər məktəbinin yetirmələri idi. Şuşada təşkil olunmuş "Gövhəriyyə", "Nəşr-maarif", "Rus-tatar", "Ünas" məktəblərində Xosrov Axundovla birlikdə o dövrün tanınmış müəllimləri-Hüseyn Axundov, Mirzə Camal Yusifzadə, Mircabbar Vəzirov və b. dərs deyirdilər. Bu müəllimlər pedaqoji fəaliyyətlə yanaşı, geniş ictimai-siyasi iş aparırdılar. 1906-cı ildən sonra Bakıda yaşamış Fərhad Ağazadə "İrşad" qəzeti səhifələrində siyasi partiyaların səciyyəsini təhlil edir, çarizmin zülmünü, istismarçılıq siyasətinin mahiyyətini ustalıqla açıb göstərirdi.

Ümumiyyətlə, bu dövrdə Cənubi Qafqaz məktəblərində əsasən rus dilli fənlər kimi əlifbadan sonra P.P.Maksimoviçin "Uşaqların dostu" adlı oxu dərsliyi geniş tədris olunurdu. Sonralar bu dərs vəsaiti qeyri-rus şagirdləri üçün vurğu işarələrini öyrədən dərslik kimi nəşr olunmağa başladı [11, v. 6, 17]. Dövrünün sanballı dərslikləri sırasında Qalaxov familyalı müəllifin ikicildlik müntəxabatının köməyi ilə qəza məktəblərinin şagirdləri rus klassikləri ilə tanış ola bildilər. Slavyanşünas filoloq A.X.Vostokovun "Qısa rus qrammatikası"

da sabit dərslik kimi tanınırdı [13, v. 6].

Coğrafiya fənnindən əsas dərsliklər A.Q.Obodovskinin "Ümumi coğrafiya üzrə ümumi dərslik" və "Riyazi-coğrafiya dərsliyi", habelə S.Baranovskinin "Müasir dünyanın bütöv coğrafi atlası" və digər vəsait və dərsliklər hesab olunurdu [9, v. 2-3,5]. Hesab və həndəsə fənləri isə əsasən Brussenin dərsliyi əsasında tədris olunurdu [10, v. 88].

Hələ 1859-cu ildə Mirzə Əbülhəsən Vəzirov tərəfindən xüsusi "tatar" – Azərbaycan dili dərsliyi tərtib olunmuşdu. 1861-ci ildə çap olunmuş "Vətən dili" ("Ana dili") dərsliyi məktəblərdə azərbaycan dilinin tədrisində böyük, əhəmiyyətli rol oynamışdı. Bu dərslikdə felin zamanları (növləri) haqqında Mirzə Kazımbəyin müddəaları inkişaf etdirilirdi. Müəllifin özünün yazdığı kimi, onun yaratdığı kitabın məqsədi "tərcüməçiləri Azərbaycan dili ilə tanış etmək idi" [47, 337].

XX yüzilliyin əvvəllərində Azərbaycanda maarifin inkişafına mane olan amillər əsasən təhsilin rus dilində aparılması, dərslik və dərs vəsaitlərinin çatışmaması ilə bağlı olmuşdur. Çarizmin maarif sahəsində gördüyü tədbirlər başlıca olaraq müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Məktəblər məhz çarizmə sədaqətlə qulluq edəcək məmurlar hazırlamalı idi. Təhsilin inkişafı üçün dövlət tərəfindən buraxılan vəsaitin miqdarı da adətən çox az olurdu. Bütün bu çətinliklərə baxmayaraq, Şimali Azərbaycanın Qarabağ bölgəsində maarifin inkişafında Ü.Hacıbəyovun, M.Nəvvabın, Q.Zakirin, N.Vəzirovun, Ə.Haqverdiyevin, S.Axundovun, Y.Çəmənzəminlinin və b. xidmətləri böyük olmuşdur. Onlar Şimali Azərbaycanda imperiyanın təhsil sahəsindəki müstəmləkəçilik siyasətini tənqid edir, mütərəqqi prinsiplərə əsaslanan yeni məktəblərin yaradılmasını, təhsilin icbari və pulsuz olmasını tələb edirdilər [252, 149-150].

Belə bir durumda Şimali Azərbaycanda xalq maarifinin inkişafı çarizmin bilərəkdən yaratdığı bir sıra maneələri aşmalı olurdu. Onların ən mühümü hökumətin maarifə buraxdığı vəsaitin xeyli məhdudluğu idi. Belə ki, bu vəsaitdən hər adama düşən pay 1902-ci ildə Bakı quberniyasında 79,3, Yelizavetpol quberniyasında 97 qəpik olmuşdu. Cənubi Qafqazda polisi saxlamaq üçün isə ildə orta hesabla

4,4 mln. rubl xərcləyən hökumət xalq maarifinin ehtiyacları üçün ən çoxu 1,7 mln. rubl ayırırdı [50, 208]. Məlumdur ki, 1906-cı ilin avqustunda Bakıda Azərbaycan müəllimlərinin I qurultayı keçirilmişdi. Həmin qurultayda aşağıdakı mühüm məsələlərə baxılmış və qərarlar qəbul edilmişdi: Türk xalqları yaşayan bütün bölgələrdə yeni tipli məktəblər yaratmaq, ibtidai icbari təhsilə keçmək, təhsilin ana dilində aparılması, rus dilində təhsil alan gənclərə ana dili və şəriət dərslərinin keçirilməsi, azərbaycanlıların milli və dini ənənələrini yaşadan tədbirlərin həyata keçirilməsi və s. [154, 61].

Bütün bunları nəzərə alan Azərbaycan ziyalıları 1907-1916-cı illərdə "Nicatın" təşəbbüsü ilə Azərbaycan müəllimlərinin qurultayını keçirdilər. 1907-ci ildə Ə.X.Axundov, N.Vəzirov və b. təşəbbüsü ilə Müsəlman Ruhani Cəmiyyəti "Səadət" yaradılıdı. Cəmiyyətin qarşısında xalqı maarifləndirmə vəzifəsi də dururdu. Bu cəmiyyət dini məktəbləri təkmilləşdirməyi lazım hesab edir, onların yayılmasına, ictimai kitabxanalar və qiraət zalları açılmasına çalışırdı. "Səadət" cəmiyyətinin 1908-ci ildə açılmış və orta təhsil verən məktəbində F.Ağayev (o, eyni zamanda müfəttiş idi), C.Hacıbəyov, Ü.Hacıbəyov, Ə.D.İsmayılov, H.Terequlov müəllimlik edirdilər. Məktəbin müdiri Azərbaycan (türk) dili və ədəbiyyatı müəllimi Əli bəy Hüseynzadə idi. 1910-1911-ci tədris ilində "Səadət" məktəbində 302 şagird təhsil alırdı [260, 46].

Əhalinin sayı artdıqca təhsilə olan tələbat artır, məktəblərin sayı çoxalırdı. Azərbaycan əhalisi, xüsusən kəndlərdə yaşayanlar, öz uşaqlarını ənənəyə uyğun olaraq mollaxanalara verir, onların doğma dildə savadlanmasına və dini tərbiyəsinə xüsusi ümidlər bəsləyirdi. Əvvəllər olduğu kimi, rus məktəblərinə daxil olana qədər mollaxanalarda təhsil almaq təcrübəsi kifayət qədər geniş yayılmışdı [50, 208].

XX yüzilliyin əvvəllərində Şuşa şəhərində məktəblərin sayı bir qədər artmışdı. Ruhani təhsili sahəsində də irəliləmələr olmuşdu. 1901-ci ildə Şuşada yeni mədrəsə fəaliyyətə başladı. Bu vaxt Azərbaycanda 120 ruhani məktəbi var idi ki, bunların da 9-u Şuşanın payına düşürdü. Belə ruhani məktəblərində təhsil alanların sayı Azərbaycan üzrə cəmi 3200 nəfər idi ki, bundan 130 nəfəri Şuşa ruhani məktəbində oxuyurdu. Bu dövrdə Şuşada xalq məktəbi adı altında

orta və natamam orta məktəblər çox az idi. Şuşada ilk orta təhsil məktəbi 1872-ci ildə yaradılmışdı. 1881-ci ildə isə 6 sinifli Şuşa real məktəbin əsası qoyuldu. İldən-ilə Şuşa orta məktəblərində təhsil alanların sayı artırdı. 1883-cü ildə Şuşa real məktəbində təhsil alanların sayı 232 nəfər, 1901-ci ildə 452 nəfər idisə, 1913-cü ildə bu göstərici 483 nəfərə çatmışdı [152, 150].

XX əsrin əvvəllərində Şuşa məktəblərinin bir neçəsində dərnəklər yaradılmışdı. 1902-1904-cü illərdə Şuşada sosial-demokrat dərnəyi yaradıldı. Bu dərnək Şuşa realnı məktəbinin yanında idi. Dərnəyə L.L.Stabrovski rəhbərlik edirdi. Mir Həsən Vəzirov, V.Kasparov və b. dərnəyin işində fəallıq göstərirdilər. Dərnəyin üzvləri insanlar arasında "İskra" qəzetini yayırdılar [205, 79].

Qeyd edək ki, 1902-ci ildə Bakı və Yelizavetpol quberniyalarında müxtəlif tipli 230 ibtidai məktəb var idi. Bu məktəblərdə 14958 nəfər təhsil alırdı ki, onların da cəmi 3643-ü (24,3%) azərbaycanlı idi. 1908-ci ildə isə bu məktəblərin sayı çox cüzi artaraq 236-ya çatmışdı. Burada təhsil alan 20618 nəfərdən isə yalnız 5456 (26,4%) nəfəri azərbaycanlı idi [102, 37-64].

Bu dövrün ziyalıları məktəblərdə dərs vəsaitlərinin çatışmazlığını nəzərə alır və müxtəlif dərs vəsaitləri çap etdirirdilər. Müxtəlif fənlər üzrə dərsliklər tərtib olunurdu. Ü.Hacıbəyov 1908-ci ildə hesab dərsliyini, Q.Mirzəzadə isə 1914-cü ildə "Qafqaz coğrafiyası" adlı dərsliyini nəşr etdirmişdilər. "Rus-türk" və "Türk-rus" lüğətləri, o cümlədən, 1907-ci ildə Ü.Hacıbəyov tərəfindən çap etdirilmişdi. Lüğət dərsliklər və dərs vəsaitlərinin çatışmamazlığı şəraitində uğurlu addımlar idi. Azərbaycan dilində təhsil alanlar üçün hazırlanmış aylıq pedaqoji jurnal "Rəhbər"in nəşri müəllimlər üçün qiymətli hədiyyə olmuşdu. Jurnal 1906-1907-ci illərdə M.Mahmudbəyovun redaktəsi ilə çıxırdı. 1906-1908-ci illərdə şagirdlər üçün A.İ.Cəfərzadənin və M.H.Əfəndiyevin redaktəsi ilə şəkilli "Dəbistan", şagird və müəllimlər üçün Q.Mirzəzadə və A.Əfəndiyevin redaktəsi altında 1906-1907-ci illərdə "Məktəb" jurnalları nəşr olmuşdu. Azərbaycan uşaq bədii ədəbiyyatının inkişafında M.Ə.Sabir, A.Səhhət, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq və b. böyük rol oynamışdılar. Əsasını müəllimlər təşkil edən qabaqcıl ziyalıların nümayəndələri xalq təhsilinin inkişafı

üçün zəruri olan biliklərin yayılmasına yönəlmiş ictimai fəaliyyətlə məşğul olurdular. Kitabxanalar, qiraət ocaqları, dram dərnəkləri, hətta qrupları yaradılırdı. Bu işdə müəllimlər, savad kursları, başqa mədəniyyət ocaqları fəal iştirak edirdi. Müəllimlər çalışdıqları yerlərdə öz işlərinə uyğun olaraq folklor, tarix, arxeologiya, etnoqrafiya, toponimika, ölkənin təbiəti və iqtisadiyyatı üzrə material toplayırdılar [50, 216-217].

1910-1914-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində xalq maarifinin inkişafında müəyyən canlanma müşahidə edilmişdir. İbtidai məktəblərdə M.Mahmudbəyovun "Ana dili" kitabı üzrə tədris aparılırdı. Məktəblərin bir qismi rus-Azərbaycan məktəbləri idi. Həmin dövrdə, Şuşanın 8 ibtidai məktəbində 131 şagird təhsil alırdı. 1912-ci il "Əsasnamə"sinə görə şəhər məktəbləri ali-ibtidai məktəblərə çevrildi. Ali-ibtidai məktəblərə əsasən ibtidai məktəbləri bitirənlər daxil olurdular. Belə məktəblər Şuşada 2 hissədə fəaliyyət göstərirdi. Birinci hissəyə qızlar məktəbi daxil idi ki, bunun bünövrəsi 1894-cü ildən qoyulmuşdu. Şuşada "Mariinskoe uçilişe" adı altında fəaliyyət göstərən bu təhsil ocağı Şuşanın ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. İkinci hissə isə oğlanlar məktəbi idi. Bu məktəblərdə şəriət, rus dili, latın dili, alman dili, riyaziyyat, coğrafiya, tarix, təbiətşünaslıq, rəsmxət və başqa fənlər tədris olunurdu. 1913-cü ildə Şuşa orta məktəbində təhsil alan şagirdlərin sayı 483-ə, müəllimlərin sayı 42-yə çatmışdı. 1915-ci ildə Şuşada orta təhsil verən real məktəbində 470 nəfər şagird oxuyurdu [154, 62-63].

Rus-tatar məktəbləri vaxt ötdükcə birsiniflidən ikisinifli məktəblərə çevrilirdi. 1914-cü ildə Bakıda 12 rus-tatar məktəbi (üçü qadınlar üçün) var idi. Onlarda təhsil alan 2482 şagirddən 299 nəfəri qız idi. Eyni məktəblər başqa şəhərlərdə də, məsələn, Şuşa və Şamaxıda (1906-cı ildən), Nuxa və Dərbənddə (1907-ci ildən), Lənkəranda (1911-ci ildən), Salyanda (1912-ci ildən), həmçinin Cavanşir, Şuşa və digər qəzaların bir çox kəndlərində fəaliyyət göstərirdi. Azərbaycanlı müəllimlərin dərs dediyi kənd ibtidai məktəblərinin çoxu əslində mahiyyətcə "rus-tatar" məktəbləri idi [50, 212].

XX yüzilliyin əvvəllərində xalq maarifi sahəsində diqqəti cəlb

edən əlamətdar hadisələrdən biri yalnız azərbaycanlı qızları üçün nəzərdə tutulan qız məktəblərinin yaradılması olmuşdu. 1907-ci ildə Şuşada da belə bir məktəb açılmışdı. Bu dövrdə xalqına, millətinə, torpağına bağlı olan istedadlı Qarabağ ziyalıları və insanları əhalinin savadlanması üçün öz hesablarına məktəblər açırdılar. Xarrat Qulunun açdığı musiqi məktəbi, M.Nəvvabın qiraətxanası bu qəbildən olan məktəblər idi. Bundan əlavə, Şuşada Hacı Hüsünün və M.Nəvvabın rəhbərliyi altında musiqişünaslar məclisi, Kərbəlayı Səfixanın xəttatlar, Hacı Hüsünün xanəndələr, Məşədi Əkbər Muxtarovun nüsxəbəndlər, Kərbəlayı Səfixanın və Nəvvabın nəqqaşlar və memarlar məclisləri fəaliyyət göstərirdi. Həmin ədəbi məclislər öz ətrafında 120 şair və sənətkarı toplamış, Şuşanın mədəni inkişafında böyük işlər görmüşdü. 1000-dən çox şagirdi, 75 müəllimi öz ətrafında birləşdirən Şuşanın təhsil ocaqları Azərbaycanı bütün dünyada tanıdan musiqiçilər, xəttatlar, şairlər yetişdirmişdi [152, 151].

Köhnə məktəblər, sayca nisbətən çox olmalarına baxmayaraq, tədricən öz mövqelərini itirir, ümumtəhsil ibtidai məktəbləri və yeni üsulla işləyən məktəblər tərəfindən sıxışdırılırdı. 1915-ci il yanvarın 1-də Bakı və Yelizavetpol quberniyalarında Xalq Təhsili Nazirliyinin sərəncamında 103 şəhər və 609 kənd ibtidai məktəbi var idi. Bu məktəblərdə 46530 şagird təhsil alırdı ki, onlardan 1427 nəfəri qız (28,3 faiz) və 15776-sı (34 faizi) azərbaycanlı idi [50, 209].

Nəticədə 1916-cı ilin sonunda Qarabağın mərkəzi Şuşada məktəblərin sayı 50-yə, şagirdlərin sayı 3000-ə, müəllimlərin sayı 79-a çatmışdı. 1917-ci ilin sonlarında isə Şuşada müəllimlərin sayı artıq 121 nəfəri keçmişdi [154, 64].

Çar hökuməti Şimali Azərbaycanın Qarabağ bölgəsində təhsil sistemində həyata keçirdiyi tədbirlərlə regionda imperiyaya xidmət edən kadrların hazırlanmasına nail olmağa çalışırdı. Hökumət, ümumiyyətlə Qafqaz türkləri arasında savadlılığın artmasında maraqlı deyildi. Bunun səbəblərindən biri yenə də Veliçkonun "Qafqaz" əsərində aydın şəkildə belə izah olunurdu. Veliçko yazırdı: "Gənc təhsilli müsəlman kişiləri özlərinə uyğun münasib arvad seçməkdə çətinlik çəkirlər. Yerli qadınlar arasında təhsilli qadınlar azlıq təşkil edir, rus qızlarına tatarların (Azərbaycan türklərinin-B.H.) evlənməsi

isə olmaz. Təhsilli müsəlmanlar məmnuniyyətlə pravoslav dininə məxsus qadınlarla evlənərdilər və bu kəbindən olan pravoslav dininə məxsus uşaqları vicdanla, namusla tərbiyə edib böyüdərdilər. Ancaq onlar bunu etmirdilər. Çünki belə hal burada insanların inanc və heysiyyətlərinin alçaldılması demək idi. Konstantinopolda (İstanbulda-B.H.) müsəlmanlar pravoslav dininə mənsub olanlarla evlənə bilərdilər, ancaq Tiflis və Gəncədə, bu, olmaz. Mən Zaqafqaziyada bir neçə nümunə bilirəm ki, müsəlman kişilər xristian qadınlarla ailə həyatı qurub, bunu onların qohumları da xeyirxahlıqla qarşılayıblar. Əsasən bu nikahlar hüquqi cəhətdən yox uzaq keçmişə dayanan ata-baba qaydaları ilə həyata keçirilir" [263, 176-177].

Sanki Veliçko müstəmləkəçi imperiya məmurlarını başa salmaq istəyirdi ki, bu vəziyyətdən istifadə edib xristian qadınlarını burada yaşayan gənclərlə evləndirməklə Qafqazın sonrakı taleyin Rusiyanın xeyrinə həll etmək olar.

Araşdırmalar göstərir ki, bu dövrdə Şimali Azərbaycanın Qarabağ bölgəsində mədəniyyətin ən zəif inkişaf etmiş sahələrindən biri mədəni-maarif müəssisələri idi. Mədəni-maarif müəssisələri içində kitabxanalar xüsusi yer tutur. Lakin 1900-cü ildə onların sayı çox az idi. Məktəblərin nəzdində kiçik kitabxanalar fəaliyyət göstərirdi. Kitabxana və qiraətxanalar şuşalıların müstəqil "öz-özünə" təhsil almasını sürətləndirirdi. Kitabxana və qiraətxanaların inkişafına mane olan amillər aşağıdakılar idi: birinci, Azərbaycan dilində ədəbiyyat lazımı səviyyədə və miqdarda deyildi; ikinci çətinlik-kitabxanalarda işləyəcək ixtisaslı kadrlar çatışmaması; üçüncüsü, isə çar Rusiyasının Qarabağda kitabxanalarının inkişafı üçün demək olar ki, heç bir vəsait buraxmaması idi. Lakin bütün bu çətinliklərə baxmayaraq, Qarabağ bölgəsində olan bəzi xeyirxah, sahibkarlar və elm adamları öz şəxsi vəsaitləri hesabına kitabxana və qiraətxanaların inkişafına, oradakı kitabların sayının artırılmasına xüsusi fikir verirdilər. Belə şəxslərdən biri də M.Nəvvab olmuşdur [154, 64].

Məlumdur ki, ibtidai məktəblərin kitabxanaları əsasən oraya bağışlanılmış kitablar sayəsində formalaşırdı [397, 56-77].

1917-ci ildə Bakı və Yelizavetpol quberniyalarında cəmi 25 kütləvi kitabxana var idi ki, bunlardan biri Qarabağ bölgəsinin mərkəzi

Şuşada idi. Bundan əlavə, Şuşada 3 qiraətxana da fəaliyyət göstərirdi. Yeri gəlmişkən, Şuşada Əhməd bəy Ağayev tərəfindən hələ 1896-cı ildə (öz hesabına) əsası qoyulan kitabxana XX yüzilliyin əvvəllərində də səmərəli şəkildə fəaliyyət göstərirdi [154, 64].

XX əsrin əvvəllərində bütün Şimali Azərbaycanda, həmçinin Qarabağ bölgəsində xalq maarifinin inkişafında ziyalılarımızın olduqca böyük xidmətləri olmuşdur [50, 212].

XX əsrin əvvəllərində Qafqaz məktəbləri haqqında qəbul edilmiş məktəb nizamnamələrinin heç biri təcrübədə özünü doğrultmadı. Belə ki, islahatlar məktəblərin və şagirdlərin sayının əvvəlki illərə nisbətdə artmasına təkan versə də, məktəb işini bilməyən, məktəblərin onsuz da ağır vəzifələr ilə yüklənmiş şəxslərə həvalə edilməsi müsbət nəticə vermədi [365, 40].

Məlumdur ki, 1918-ci ildə elan edilmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti artıq avqustun 28-də xalq maarifinin milliləşdirilməsi məsələsi ilə bağlı qanun qəbul etmişdi. Qarabağ bölgəsinin qəzalarında yüksək vəzifədə işləyən rus və erməni məmurları tədricən milli müəllim kadrları ilə əvəz edildi. Məktəblərdə Azərbaycan dilinə məcburi fənn kimi həftədə 3-4 saat ayrıldı. Bu məktəblərə müəllim hazırlamaq üçün qısamüddətli kurslar təşkil edildi. Belə tədbirlərin həyata keçirilməsi ilə təhsil sistemində yeni bir dövr başladı. Bunu o dövrün rus müəllifləri də etiraf etmək zorunda qalmışdılar. Bu rus müəllifləri bir çox hallarda türkləri "dağda yaşayan, savadsız, mədəni səviyyə cəhətdən aşağı olan xalq kimi" qələmə verməyə çalışmış, onların sözü ilə desək, guya sovetlər birliyinin gəlməsi ilə bu xalqların mədəni səviyyəsi yüksəlməyə başlamışdır. Çox maraqlıdır ki, Lyayster və Çursin birgə yazdıqları "Qafqazın təbiəti, coğrafiyası və əhalisi" əsərində belə bir məlumat verərək, bəlkə də bilmədən özlərinin yalan məlumatlar verdiklərini etiraf etmişlər. Bu müəlliflər yazırdılar ki, Azərbaycan türklərinin mədəni səviyyəsi ümumilikdə aşağıdır. Kənd əhalisinin böyük hissəsi savadsızdır. Maraqlıdır ki, onlar əhalinin mədəni səviyyəsinin və savadsızlığın azalmasını və artmasını aşağıdakı kimi qələmə almışlar. Rus imperiyasının 1897-ci il siyahıyaalmasına görə, Bakı quberniyasının kənd əhalisi arasında savadlı kişilərin xüsusi çəkisi 1,9 faiz, qadınların 0,06 faiz, Yelizavetpol qu-

berniyasında kənd kişiləri arasında 2,5 faiz, qadınlar arasında 0,1 faiz savadlı olmuşdu. 1917-ci ilin məlumatlarına görə buradakı vəziyyət çox az miqdarda dəyişmişdi. Belə ki, Bakı quberniyasında kişilər arasında savadlıların xüsusi çəkisi 2 faiz, qadınlar arasında isə 0,1 faiz olmuşdur [333, 333]. Yəni buradan aydın olur ki, bir əsrə qədər rus imperiyasının əsarətində qalmış Şimali Azərbaycan türklərinin mədəni və təhsil səviyyəsində demək olar ki, ciddi bir dəyişiklik olmamış və yaxud da imperiya özü də bu işdə buna xüsusi maraq göstərməmişdi.

Çünki, həmin müəlliflərin məlumatına görə, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra türk əhalisi arasında bu vəziyyət yaxşılığa doğru dəyişməyə başladı. 1921-ci ilin məlumatlarına görə, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şimali Azərbaycanda artıq kişilərin 7,2 faizi, qadınların 1,6 faizi, ümumi əhalinin isə 4,5 faizi savadlı insanlar olmuşdu. Şəhərlərdə kişilərin 23,7 faizi, qadınların 5 faizi, ümumi şəhər əhalisinin isə 14,4 faizi artıq təhsilli idi [333, 333].

Buradan aydın olur ki, rus imperiyası Qafqazda yaşayan Azərbaycan türklərinin təhsil almasında elə də maraqlı olmamışdır. Əgər bunun səbəbi Azərbaycan türkləri idisə, necə ola bilər ki, elə onların özlərinin verdikləri məlumatlara görə, türk əhalisi arasında savadlılığın artması, sovet imperiyasının gəlişi ilə yox, məhz Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi sosial-iqtisadi və mədəni tədbirlərin nəticəsi olaraq baş vermişdi. Əhalinin savadlılığındakı bu artımı məhz 23 ay müddətində milli hökumətin – Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti nəticəsində baş vermişdi. Məhz 1918-1920-ci illərdə əhali arasında savadlılıq səviyyəsi yüzillik rus əsarəti dövründəkindən 3-4 dəfə daha çox artırılmışdı. Bir faktı da yadda saxlamaq lazımdır ki, 1920-ci il aprelin 28-də bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra Azərbaycan ziyalılarının böyük bir hissəsi bolşeviklər və ermənilərin əli ilə məhv edilmişdi. Nəzərə alsaq ki, bu artıq 1921-ci ilin məlumatıdır, deməli, 1920-ci ildə məhv olunmuş ziyalılarımız bu məlumata daxil edilməmişdir. Yəni Azərbaycan Xalq Cümhuriyyətinin dövründə təhsilli insanların sayı daha çox olmuşdur.

Beləliklə müxtəlif qaynaqlardan götürülmüş məlumatların araşdırılması göstərir ki, XX əsrin əvvəllərində bütöv Quzey Azərbaycanda olduğu kimi onun üzvü tərkib hissəsi olan Qarabağ bölgəsində də təhsil sahəsində elə bir ciddi keyfiyyət dəyişiklikləri baş verməmişdir. Doğrudur, ayrı-ayrı şəxslərin vəsaiti, bəzi ziyalıların zəhməti, müxtəlif ictimai təşkilatların təşəbbüsü ilə Qarabağ bölgəsi, o cümlədən onun mərkəzi olan Şuşa şəhərində bir çox ibtidai, natamam orta, orta təhsil müəssisələrinin həm sayı, həm də şagird kontingenti xeyli genişlənmişdi. Ancaq bunlara baxmayaraq, həm də çarizmin yürütdüyü müstəmləkəçi siyasətin nəticəsi olaraq, əsasən missiya mahiyətli bu dünyəvi təhsil müəssisələrində bölgənin əsl aborigen əhalisi olan Azərbaycan türkləri balalarının xüsusi çəkisi xeyli az idi. İctimai həyatın bu mühüm sahəsində köklü müsbət dəyişikliklərin bünövrəsi ancaq qısa ömürlü Azərbaycan Xalq Cümhuriyyəti iqtidarı dövründə qoyulmuşdur ki, bu da aprel işğalı nəticəsində mahiyyətcə yeni bir mərhələyə transformasiya edilmişdir.

## §2. Ədəbi mühit

Məlumdur ki, XIX əsrin xüsusən də onun II yarısı Azərbaycan ədəbiyyatının inkişafında öz novatorluğu və inkişafı ilə fərqlənən bir dövr olmuşdu. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın Qarabağ bölgəsinin ədəbi mühiti XX əsrin əvvəllərində də onun ədəbiyyatının inkişafına güclü təsir göstərməkdə davam etmişdir.

Həmin tarixi mərhələdə də Qarabağ bölgəsində təhsil sisteminin zəif inkişaf etməsinə baxmayaraq, ədəbiyyatın inkişafında qərbyönümlü meyllər getdikcə daha çox güclənməyə başladı. Bunun təsiri altında ədəbiyyatımızda milli və realist-dünyəvi mövqelərə daha əsaslı şəkildə yiyələnməyə başladı.

Bütövlükdə götürüldükdə, XX əsrin əvvəllərində də Azərbaycan ədəbiyyatı olduqca çoxcəhətli idi. Bu dövrün ədəbiyyatında milli şüurun güclü oyanışı ilə əlaqədar olaraq tənqidi realizm aparıcı istiqamətlərdən birinə çevrilməkdə idi. Realist Azərbaycan ədəbiyyatında xalq mövzusu mərkəzi yer tuturdu, maarifin təbliğinə böyük

diqqət yetirilirdi.

Hələ XX əsrin lap başlanğıcında belə ədəbi yaradıcılıqla məşğul olan müəlliflər Şimali Azərbaycanda kapitalist cəmiyyətinin, burjua ideologiyasının və sosial bərabərsizliyin tənqidinə geniş yer verir, öz əsərlərində burjuaziya sinfi nümayəndələrinin tipini yaradaraq, onun həm müsbət, həm də mənfi-xalqa zidd olan cəhətlərini açıb göstərməyə çalışırdılar.

Realist ədəbiyyatın nümayəndələri ana dilinə, onun saflığına xüsusi əhəmiyyət verirdilər. Milli müstəmləkə əsarəti şəraitində doğma ana dilinin inkişafına ciddi maneələrin yaradılmasına baxmayaraq, milli şüurun oyanışı ilə bərabər təşəkkül tapmaqda olan milli ədəbi dil güclü kök salmaqda idi. Haqlı olaraq qeyd edildiyi kimi "XX əsrin əvvəlində realizm Azərbaycanın klassik ədəbiyyatının qabaqcıl ənənələrinə və şifahi xalq yaradıcılığına əsaslanırdı" [50, 244].

Bu dövrdə Azərbaycanın Qarabağ bölgəsindəki qəzalarının sosial-iqtisadi və siyasi həyatındakı dəyişikliklər mədəni inkişafa da öz təsirini göstərdi. Xalqın milli şüurunun oyanması və tədricən milli ideologiyanın formalaşmasında Qarabağ şairlərinin, alimlərinin, musiqiçilərinin və xaricdə təhsil almış istedadlı gənclərin də rolu xeyli böyük idi.

Qarabağ ədəbi məktəbinin nümayəndələrindən biri dövrünün bir çox sosial və ictimai-siyasi problemlərinə toxunan "Molla Nəsrəddin" jurnalında satirik şeir və felyetonlarla çıxış etmiş şair, realist-maarifçi və məşhur yazıçı, Şuşada anadan olmuş görkəmli ədib Süleyman Sani Rzaqulu bəy oğlu Axundov (1875-1939) olmuşdur. 1875-ci il oktyabr ayının 21-də Şuşa şəhərində bəy ailəsində anadan olmuş S.S.Axundovun təlim-tərbiyəsində bilavasitə onun dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyov (1861-1902) başlıca rol oynamışdı. S.S.Axundov Qori Müəllimlər Seminariyasına daxil olmuş və burada milli, klassik rus və dünya ədəbiyyatı ilə dərindən tanışlığı onun dünyagörüşünə faydalı təsir göstərmişdir. 1906-cı ildə Bakıda çağırılmış Azərbaycan müəllimlər qurultayında fəal iştirak edən Süleyman Sani ərəb əlifbasını islah etmək yönümündə faydalı təşəbbüs göstərmiş, həmin qurultayda ana dilində proqram tərtib etmək üçün ayrılan komissiyaya üzv seçilmiş, 1908-ci ildə A.Şaiq,

M.Mahmudbəyov və b. qabaqcıl maarif xadimləri ilə birlikdə Azərbaycan pedaqoji fikri tarixində mütərəqqi bir hadisə olan məşhur "İkinci il" dərsliyinin tərtibində çox yaxından iştirak etmişdi [203, 4].

S.S.Axundov həm də çox orijinal nasir idi. Azərbaycan ədəbiyyatında məzmun, forma, üslub etibarı ilə yeni olan "Qonaqlıq" (1905), "Kövkəbi-hürriyyət" (1905), "Yuxu" (1905), "Dibdat bəy" adlı klassik əsərlərini ədib 1905-1907-ci illərin inqilabi proseslərinin təsiri altında yazmış, burada xalq hakimiyyəti ideyasını, Peterburq tələbələrinin çarizmə qarşı inqilabi çıxışlarını təbliğ etmiş, Rusiya Dövlət Dumasının fəaliyyətini tənqid atəşinə tutmuşdur. Süleyman Saninin "Qorxulu nağıllar" (1912-1914) başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" əsərləri XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında və inkişafında ciddi rol oynamış, milli uşaq ədəbiyyatımıza forma, məzmun, üslub yenilikləri gətirmişdir [203,10; 50, 258].

Bu dövrdə Qarabağda dünyaya göz açmış XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Nəcəf bəy Vəzirovun (1854-1926) "Vay şələküm məəlləküm" (1909), "Nə əkərsən, onu biçərsən" (1911), "Keçmişdə qaçaqlar" (1912) pyesləri də maarifçi estetikanı təbliğ edən əsərlərdəndir. N.Vəzirov dramaturgiyasının əvvəlki dövrünü tamamlayan pyesləri, xüsusən "Keçmişdə qaçaqlar" pyesi mənəviyyatda, ictimai və əxlaqi gerçəklikdə gerilik əleyhinə etirazın çox bariz ifadəsidir. Bu etiraz mövzusu burada həm də çar üsuli-idarəsinə qarşı açıq mübarizə motivi şəklində daha dəqiq sosial konkretlik kəsb edir [176, 12; 50, 258; 127, 273].

N.Vəzirovun şah əsəri, təbii ki, "Müsibəti Fəxrəddin" faciəsidir. Əsər Azərbaycan mülkədarlarının həyatından götürülmüş, artıq 1901-ci ildən tamaşaya hazırlanmış, 1904-cü ildə Tiflisdə, sonra isə Bakıda, Salyanda, Şamaxıda, Lənkəranda, Qazaxda, Naxçıvanda, İrəvanda, Dərbənddə səhnədə nümayiş etdirilmiş və böyük rəğbətlə qarşılanmışdır. "Müsibəti-Fəxrəddin" faciəsi Azərbaycandan kənarda da – Qafqazın digər bölgələrində, Orta Asiyada, Ural və Volqaboyunda, daha dəqiq desək Başqırdıstanda və Tatarıstanda, İranda da tamaşaya qoyulmuş və bu ölkələrdə yaşayan xalqların mədəni-ədəbi həyatında yaxşı iz buraxmışdır [152, 161].

XIX əsrin sonu-XX əsrin əvvəllərində ədəbi epoxanın görkəmli nümayəndələrindən biri olan N.Vəzirov öz yaradıcılığında, səhnədə birbaşa təlim-monoloq söyləyən surətlərin bütöv bir silsiləsini yaratmışdı.

Azərbaycan ədəbiyyatı tarixi elminin əsasını qoymuş görkəmli pedaqoq və tənqidçilərdən biri olan Firudin bəy Köçərli (1863-1920) də Şuşada doğulmuş, ibtidai və orta təhsilini burada almışdı. Qori Müəllimlər Seminariyasını bitirən F.Köçərli 1895-ci ildən həmin seminariyada işləmiş, eyni zamanda Azərbaycan ədəbiyyatını tədqiq etmişdir. 1903-cü ildə Tiflisdə bu barədə ilk kitabını rus dilində nəşr etdirən ədəbiyyatşünas 1908-ci ildə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı üçcildlik əsəri üzərində işi başa çatdırmışdı. O, doğma ədəbiyyatın təbliğinə böyük əhəmiyyət vermiş, bir çox xalqların ədəbiyyatı ilə tanış olmuş, onların həyatı, inkişaf səviyyəsi, yetkinlik dərəcəsi, mənəvi qüdrəti və zənginliyi barədə fikir yürütməyin mümkünlüyünü əminliklə qeyd etmişdir [50, 253].

F.Köçərli 1911-ci ildə "M.F.Axundzadə" və 1912-ci ildə "Balalara hədiyyə" əsərlərini yazmışdır. O, 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürmüş və xalqımızın savadlanması üçün bütün gücünü sərf etmişdir. Aprel işğalı zamanı Azərbaycanın dövlət müstəqilliyinə son qoymuş sovet-bolşevik-Rusiya diktaturası, habelə o zamanki erməni daşnaklarının əli ilə o, 1920-ci ildə vəhşicəsinə qətlə yetirmişlər [154, 74].

Qarabağ ədəbi mühitinin görkəmli nümayəndələrindən biri də Şuşa şəhərində anadan olmuş Yusif Vəzir Çəmənzəminli idi (1887-1943). O, 10 yaşında imtahan verib Şuşadakı real məktəbə daxil olmuşdu. 1906-cı ildə Bakıda təhsilini davam etdirən Y.V.Çəmənzəminli 1910-cu ildə Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Bu müəllif yazdığı hekayələrdə zəhmətkeşlərin ağır vəziyyətini, qadınların acı taleyini, tələbə həyatının mənzərəsini ustalıqla vermiş və çar məmurlarının rüşvətxorluğunu ifşa etmişdi. O, 1918-ci ildə Azərbaycanın Osmanlı imperiyasındakı səfiri vəzifəsinə təyin olunmuşdu. Ədib 1920-ci il sovet işğalından sonra ömrünün qalan hissəsini sürgündə keçirmişdir [50, 259]. O, əsrin əvvəllərində yazdığı "Bir cavanın dəftəri" (1905), "Şahqulunun xeyir işi" (1906),

“Ağsaqqal” (1910), “Divanə” (1910), “Həyat səhifələri” (1910), “Cənnətin qəbzi” (1913), “Qumarbazın arvadı”, “Günah” (1914), “Studentlər”, “Qızlar bulağı”, “Qan içində”, “Azərbaycan ədəbiyyatına bir nəzər” və b. əsərlərində cəhaləti, mövhumatı, tüfeylilləri acı satira atəşinə tutaraq qamçılamış, qadın hüquqsuzluğunu, satqınlığı, yalançılığı kəskin tənqid etmişdir. Onun əsrin əvvəllərində yaratdığı hekayələr Azərbaycan ədəbi nəsrinin parlaq nümunələri idi [50, 259].

İstedadlı nasir milli ədəbiyyatımızda tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri olmuş, mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla əks etdirmiş və mədəniyyət tariximizdə həmişə yaşayacaq qiymətli bir irs qoyub getmişdir. O, realist Azərbaycan nəsrinin, ümumiyyətlə, XX əsr ədəbi-bədii fikrimizin yeni səviyyəyə qalxmasında və yeni bir mərhələyə daxil olmasında böyük xidmətləri olan sənətkarlarımızdandır. Y.V.Çəmənzəminli, tarixi roman və hekayə ustası, dramaturq, publisist, ədəbiyyatşünas, folklorşünas, tarixçi-etnoqraf və tərcüməçi kimi çoxcəhətli yaradıcılıq yolu keçmişdir [62, 5].

Ədəbiyyatımızda tarixi dram janrının banisi kimi tanınan görkəmli realist sənətkarlardan biri də 1870-ci ildə Şuşada anadan olmuş Əbdürrəhim bəy Haqverdiyev idi. Bəy ailəsində anadan olmuş Haqverdiyev Şuşada real məktəbin altıncı sinfini bitirmişdir. Tiflis şəhərində orta təhsilini tamamlayan Ə.Haqverdiyev 1891-ci ildə Peterburqa Yol Mühəndisləri İnstitutuna daxil olmuşdur. Burada təhsil aldığı müddətdə azad dinləyici kimi Peterburq Universitetində dil və ədəbiyyata dair mühazirələrdə iştirak etmiş, türk-müsəlman tarix və mədəniyyəti ilə maraqlanmışdır. Onun “Dağılan tifaq”, “Bəxtsiz cavan” (1900) komediyaları, “Ağa Məhəmməd şah Qacar” (1907) faciəsi Azərbaycan ədəbiyyatını daha da zənginləşdirmişdir [52, 153-161]. Haqverdiyev XIX əsrin sonu-XX əsrin əvvəllərində “Yeyərsən qaz ətini, görərsən ləzzətini” (1892) dramının və “Dağılan tifaq” (1896), “Bəxtsiz cavan” (1900) və “Pəri-cadu” (1901) faciələrinin, “Marallarım”, “Xortdanın cəhənnəm məktubları”, “Şeyx Şaban”, (1905) və b. çox yüksək ədəbi-bədii keyfiyyətə malik olan əsərlərin müəllifidir [127, 275; 154, 71].

Gənc yazıçı Haqverdiyevin Bakıya gəlməsi onun inkişafı üçün

daha geniş imkanlar yaratmışdı. O, burada H.Zərdabi, N.Vəzirov, N.Nərimanov, C.Zeynalov, H.Ərəblinski kimi dövrün qabaqcıl ziyalıları ilə tanış olmuşdur. Bu dövrdə Haqverdiyev rejissor olduğu, tamaşalarına ümumi rəhbərlik etdiyi "Hacı Qara", "Vəziri-xani-Lənkəran", "Müfəttiş", "Otello", "Qaçaqlar", "Yağışdan çıxdıq, yağmura düşdük", "Adı var, özü yox". "Dağılan tifaq", "Bəxtsiz cavan" və başqa pyeslərdə, hər şeydən əvvəl, ideyanın təhrif olunmamasına, aktyor oyunundakı təbiiliyə çox fikir verirdi.

1908-ci ildə Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasının səhnədə hazırlanmasına rəhbərlik edən Haqverdiyev həm də tamaşada ilk Azərbaycan opera dirijoru kimi çıxış etmişdir [70, 7].

Yaradıcılığının birinci dövrünə dramaturq, ikinci dövrünə (1905-1920) daha çox hekayəçi kimi daxil olan Ə.Haqverdiyev "Millət dostları" (1905), "Ağa Məhəmməd şah Qacar" (1907), "Ac həriflər" (1911), "Xəyalat" (1911) kimi bir sıra səhnə əsərlərini də yazmışdır [70, 15].

O, 1907-ci ilin yanvar ayından başlayaraq, "Molla Nəsrəddin" jurnalında Azərbaycan nəsrinin klassik nümunələrindən olan "Cəhənnəm məktubları"nı (1907) çap etdirir. Haqverdiyev "Ata və oğul" və "Ayın şahidliyi", "Bomba" (1908), "Mozalan bəyin səyahətnaməsi" (1908) və "Marallarım" adlı hekayələr yazmış, ədalətsizliyi, əxlaq pozğunluğunu, hüquq bərabərsizliyini kəskin surətdə pisləmişdir [70, 18].

Şuşada doğulmuş və ilk təhsilini burada almış ziyalılarımızdan biri də 16 yaşında Tiflis gimnaziyasını və Parisdə Sorbonna Universitetinin hüquq fakültəsində təhsil almış, mühəndis, hüquqşünas, tədqiqatçı, redaktor Əhməd bəy Ağayev (1868-1939) olmuşdur. O, XX yüzilliyin əvvəllərində "Kaspi" qəzetinin redaksiyasında, sonra isə "İrşad" və "Tərəqqi" qəzetlərində redaktor vəzifəsində işləmişdir. Sosializm ideyasının reallaşmayacağını düşünən müəllif "Sərbəst insanlar ölkəsində", "Dövlət və fərd", "Türk hüquq tarixi" və b. əsərlərində azadlıq, bərabərlik, demokratiya haqqında maraqlı və samballı fikirlər irəli sürmüşdü [154, 76-77].

Qarabağın görkəmli elm adamlarından biri də Mirmöhsün Nəvvab Ağamirzadə Qarabağidir (1833-1918) bu orijinal yaradıcı

şəxsiyyətin fəaliyyəti olduqca çoxşaxəlidir [93, 6]. O, kimyanı, riyaziyyatı, coğrafiyanı, fəlsəfəni, tarixi, astronomiyanı gözəl bilirdi. Nəvvabın çoxlu əlyazması, nəfis rəsmləri dövrümüzə qədər gəlib çatmışdır. M.Nəvvabın ən böyük xidmətlərindən biri də XX əsrin əvvəllərində 1905-1906-cı illərdə erməni millətçilərinin çar Rusiyasının köməyi ilə xalqımızın başına gətirdiyi faciələrdən, törətdikləri cinayətlərdən bəhs edən "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərini yazması olmuşdur [161, 4].

M.Nəvvabın XIX əsrdə fəaliyyət göstərmiş yüzdən artıq Qarabağ və digər bölgələrin şairlərinin tərcümeyi-halı və onların ən yaxşı əsərlərindən bəhs edən təzkirəsi böyük maraq doğurur və ciddi elmi-bədii əhəmiyyətə malikdir [50, 253].

Ensiklopedik biliyə malik M.Nəvvab 1883-cü ildə fars dilində musiqinin insan sağlamlığına təsirindən geniş bəhs edən "Vüzüh-ül Ərqam" əsərini yazmışdır. Bu əsər 1913-cü ildə Bakıda Orucovlar mətbəəsində çap edilmişdir. Nəvvab 1912-ci ildə 500 nəsihətdən ibarət "Nəsihətnamə" kitabını da yazmışdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev 1982-ci ildə Şuşada olarkən M.Nəvvabın Cıdır düzündəki qəbrini ziyarət etmiş, bir dəqiqəlik sükutla böyük sənətkarı yad etmiş, quran oxutmuş və görkəmli ədibə öz dərin məhəbbətini bildirmişdir [126, 215-216; 50, 78-79].

Qarabağ ədəbi mühitinin daha bir tanınmış nümayəndəsi Mirzə Rəhim Fəna 1905-ci ildə Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir, Bakı, Tiflis, Gəncə, Ağdam, Qazax və b. ərazilərdə baş vermiş qanlı hadisələrdən bəhs edən üç cilddən ibarət əsər qələmə almış, 1912-ci ildə Qarabağın və Şuşanın tarixinə dair Azərbaycan tarixşünaslığını zənginləşdirən, Qarabağın XVIII-XIX əsrlər siyasi tarixini əks etdirən "Tarixi-cədidi-Qarabağ" ("Qarabağın yeni tarixi") əsərini yazmışdır [50, 252; 126, 155-156].

Əksər vaxt M.R.Fənanın yanında olan İsgəndər bəy Rüstəmbəyov, Xudadad bəy, Natəvanın böyük oğlu gənc Mehdiqulu xan Vəfa, o zaman Şuşanın ariflərindən hesab edilən Əbdülkərəm bəy Haqverdiyev, Mehdi bəy Sarıcallı, Talıb bəy Vəzirov, Mirzə Kərim bəy Nəsirbəyov, Abbas bəy Pəri oğlu, Mirzə Həsən bəy Hacıyev və qeyriləri Natəvanın yaratdığı "Məclisi-üns" məclisinə gələr, öz şeirlərini oxu-

yar, gənclərlə söhbət edərdilər [126, 150]. O dövrdə məclislərdə bir araya gələn şairlər belə mübahisələrlə Şimali Azərbaycanın Qarabağ bölgəsində ədəbiyyatın çoxşaxəli inkişafına təsir göstərirdi.

Qarabağın görkəmli ədiblərindən biri olmuş Ceyhun Hacıbəyov 1909-1911-ci illərdə "Kaspi" qəzetində çap etdirdiyi "Hacı Kərimin səhəri" povestində ədəbiyyatımızın realist ənənələrini davam etdirmişdir. 1911-ci ildə bu povest Bakıda kitabça şəklində, bir qədər sonra isə V.Ağaməlibəyovun tərcüməsində fransız dilində nəşr olunmuşdu. Dahi bəstəkar Ü.Hacıbəyov "O olmasın, bu olsun"- "Məşədi İbad" librettosunu yazmaq üçün bu povestdən istifadə etmişdir [50, 246]. 1920-ci ildə C.Hacıbəyov "Arşın mal alan"ı fransız dilinə tərcümə edərək Parisdə tamaşaya qoymuşdu [50, 220].

Öz ana dili ilə yanaşı, rus, ərəb, fars dillərini də yaxşı bilən Qarabağlı şairlərdən biri olan Həsənəli Qaradaği (1848-1928) XX əsrin əvvəllərində Şuşada yazılmış bir çox şeirlərin, habelə tərcümə və kitabların müəllifidir. Böyük həcmli "Vətən dili" kitabının müəllifi olan Qaradaği M.Nəvvabla yaxından dostluq edərək Şuşadakı "Məclisi fərmüşan"ın fəal iştirakçısı olmuşdur. Şuşada müəllimlik edən Qaradaği, Qarabağın tarixinə maraq göstərmiş və "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və əvzaları, Pənah xan, İbrahim xan, Mehdiqulu xan əyyamı hökumətlərinin əksər-vaqeyi hekayətləri" adlı əsərini də yazmışdır [154, 70].

XIX əsrdə Qarabağ mühitində yetişmiş istedadlı şairlərdən biri də 1824-cü ildə Şuşa şəhərində doğulmuş, mükəmməl mollaxana təhsili almış, ərəb və fars dillərini öyrənmiş Mirzə Həsən Əli oğlu Yüzbaşov olmuşdur. O, Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai və Füzuli kimi böyük şairlərin yaradıcılığına dərindən bələd olmuşdur. Mirzə Həsən "Məclisi-üns"də öz şeirləri ilə çıxış etmiş, ədəbiyyata, sənətə dair fikir mübadiləsində fəal iştirak etmişdir. Şairin ədəbi irsi nəinki tədqiq edilməmiş, indiyədək onun (M.Nəvvab və M.Müctəhidzadənin təzkirələri nəzərə alınmazsa) ancaq "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə" əsəri (1926) nəşr olunmuşdur. Mirzə Həsən 1904-cü il fevral ayının əvvəllərində, təxminən 80 yaşında Şuşada vəfat etmişdir. AMEA Əlyazmalar İnstitutunda M-91 şifrəsi altında M.H.Qarabağinin bir "Divan"ı saxlanılır [126, 174-175].

Bu dövrdə görkəmli yazıçı və jurnalist kimi Qarabağda məşhur olan Haşım bəy Vəzirov (1868-1916) "Məktəb tərbiyəsi", "Evlənmək su içmək deyil", "Döymə qapını, döyərlər qapını" və s. əsərlərin müəllifidir. H.Vəzirov XIX əsrin 90-cı illərində İrəvan Seminariyasını bitirdikdən sonra doğulduğu Şuşa şəhərinə qayıtmış və yerli "rus-tatar" məktəbində ana dilindən dərs demişdir. XX yüzilliyin əvvəllərindən jurnalistika fəaliyyətinə başlayan Haşım bəy "Kaspi", "Novoye obezreniye" qəzetlərində öz məqalələrini çap etdirmişdir. H.Vəzirovun tarixi xidmətlərindən biri də "Otello" faciəsini ilk dəfə Azərbaycan dilinə tərcümə etməsi olmuşdur. O, 30 il ədəbi jurnalistika sahəsində fəaliyyət göstərmiş, çoxsaylı felyetonlarında feodal-patriarxal münasibətlərə, şahidi olduğu müstəmləkə üsuli-idarəsinə qarşı tənqidi münasibətini ustalıqla ifadə etmişdir [50, 302; 154, 75].

Qeyd etmək lazımdır ki, Azərbaycanda ədəbi dil problemləri də Qarabağ ədiblərinin diqqət mərkəzində idi. Bu istiqamətin inkişafında mütərəqqi ədəbiyyat, incəsənət və mətbuat xadimlərinin, o cümlədən Ə.Haqverdiyev, S.S.Axundov, N.Vəzirov, Ü.Hacıbəyov, F.Köçərli və başqalarının böyük xidmətləri olmuşdur. Bu ziyalılar Azərbaycan ədəbi mühitinə təkcə Şərqin klassik irsini deyil, həmçinin rus və Qərbi Avropa ədəbiyyatının mütərəqqi ənənələrini gətirir, milli ədəbi-bədii fikrin canlanmasına kömək edirdilər [50, 215-216, 250].

XX yüzilliyin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində şifahi xalq ədəbiyyatı da geniş yayılmışdı. Şifahi xalq ədəbiyyatı aşıqlar tərəfindən məclislərdə söylənən dastanlar, nağıllar, şeirlər və yaşlı insanların yaddaşında qalan nəğmələr, nağıllar, rəvayətlər, bayatılar formasında xalqa çatdırılırdı.

İstər şifahi xalq-ağız ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatda əsasən üç ədəbi növ vardır: lirik, epik, dramatik. Folklorun lirik növünün janrları – nəğmələr, mahnılar, bayatılar, ağılar, vəsfi-hallar, laylalar, oxşamalar, yanıltmaclar və s., epik növünün janrları – nağıllar, əfsanələr, lətifələr, dastanlar, dramatik növünün janrları – xalq oyun-tamaşaları, kukla teatrı tamaşaları idi. Şifahi xalq-ağız ədəbiyyatında qürbət sıxıntısı, ayrılıq, Vətən məhəbbəti ilə bağlı olan qəm, kədər və həzinlik ifadə edən bayatılar, lirik növün ən qədim janrlarından biri olan nəğmələr (əmək, mərasim, mövsüm və

qəhrəmanlıq nəğmələri), nəğmələrdən fərqli olaraq musiqi ilə ifa olunan mahnılar, bayatı şəklində yas mərasimində ifa olunan ağılar, beşik başında oxunan laylalar, oxşamalar, şifahi xalq ədəbiyyatının epik növünün ən qədim və daha çox yayılmış janrı olan nağıllar, yumoristik, satirik məzmun daşıyan lətifələr və qaravəllilər, Azərbaycan folklorunun başqa türk xalqlarının folkloru ilə ortaq cəhətlərini təşkil edən, şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrı olan dastanlar Qarabağ bölgəsində də geniş yayılmışdı [424]. Qarabağ əhalisi toy və yas mərasimlərində, bayramlarda, evdə, iş vaxtı şifahi xalq ədəbiyyatının müxtəlif janrlarından geniş istifadə etmişdi.

XX əsrin əvvəllərində Qarabağ bölgəsinin ədəbiyyatı ilə yanaşı mətbuatında da dəyişikliklər baş verirdi. Bu dövrdə Azərbaycanın Qarabağ bölgəsində mətbuat və nəşriyyat işləri pis vəziyyətdə idi. Buraxılan qəzet, jurnal və kitablar çox zəif şəkildə çap edilirdi. Az-çox çap olunan mətbuat orqanları isə müxtəlif zümrələrin mübarizə meydanına çevrilmişdi.

1901-1917-ci illərdə mətbuat demokratik, milli burjuaziya və bolşevik qollara bölünürdü [154, 70]. Bu dövrdə ilk dəfə Şuşa şəhərində rus dilində iki qəzet "Şuşuniskiy listok" və "Şuşinskaya jizn" (Şuşa həyatı) qəzetləri nəşr edilməyə başladı [319, 334]. Bununla yanaşı, Rusiyada dərc edilmiş "İskra", "Kaspi", "Proletari", "İstorik marksist", "Russkoe boqatstvo" və b. qəzet və jurnallar Qarabağ bölgəsinin əhalisi içərisində əsas təbliğat vasitəsi hesab olunurdu. Bəhs etdiyimiz dövrdə Şuşada 3 mətbəə fəaliyyət göstərirdi [154, 70].

Azərbaycan mətbuatı tarixində XX əsr mühüm mərhələni təşkil edir. Əsrin başlanğıcında Qafqazda gürcü və erməni dillərində 13 mətbuat orqanı çıxırdısa, milli ziyalıların bu istiqamətdə çalışmalarına baxmayaraq, Azərbaycan dilində heç bir mətbuat orqanı yox idi. Qarabağ ziyalılarından F.Köçərli və Ü.Hacıbəyov 1903-cü ilin mart ayından Tiflisdə Qafqazda Azərbaycan dilində yeganə qəzet olan "Şərqi-Rus"un ən fəal əməkdaşlarından olmuşlar. Əsasən dil, əlifba, ədəbiyyat məsələlərinə geniş yer verilmiş, maarifin təbliği, yoxsul kəndlilərin ağır vəziyyəti, ictimai bərabərsizlik, cəhalətin tənqidi və s. məsələlərdən ətraflı söhbət açılan bu qəzetin ilk redaktoru Məhəmməd ağa Şahtaxtılı, 1904-cü ildə isə Cəlil Məmmədquluzadə

olmuşdur [145, 7; 50, 247].

1905-1907-ci illərin çox coşqun və ciddi inqilabi prosesləri mətbuatın inkişafı sahəsində çarizmi müəyyən güzəştlərə getməyə məcbur etdi. Həmin illərdə Cənubi Qafqazda Azərbaycan dilində "Molla Nəsrəddin" dərgisi ilə birlikdə 12 müxtəlif mətbuat orqanı meydana çıxdı. 1917-ci ilin fevralına qədər davam etmiş təqiblərə baxmayaraq, Şimali Azərbaycanda 227 müxtəlif dövri mətbuat orqanı nəşr edilmişdi. Onlardan 29 faizi (66 adda) milli mətbuat orqanları, 52 faizi (119 adda) rusdilli qəzet və jurnallar idi. Onların əksəriyyəti Bakıda, beşi Gəncədə, ikisi isə Şuşada və s. nəşr edilirdi. 1917-ci ilin fevralına qədər çıxan qəzet və jurnalların 60 faizi 1905-1907-ci illərin payına düşürdü [50, 247; 145, 7].

Beləliklə, yuxarıda göstərilmiş materiallarda əyani şəkildə göstərilir ki, XX yüzilliyin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin mərkəzi olan Şuşa şəhəri Azərbaycanın inkişaf etmiş ədəbi-mədəni mərkəzlərindən bir olmuşdu. Çar Rusiyasının yürütdüyü müstəmləkəçilik və xristianlaşdırma siyasətinə baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsində təhsilimizin inkişafında tərəqqipərvər ziyalıların bütöv bir nəsli yetişmişdir. Onlar təhsilin inkişafında yorulmadan çalışaraq misilsiz xidmətlər göstərmiş, yüzlərlə gənc mütəxəssisin yetişməsi üçün əllərindən gələni əsirgəməmişlər.

Eyni zamanda bu elmi-mədəni mərkəzdə dünyaya göz açmış çoxsaylı yazarlar bütövlükdə XX əsr Azərbaycan bədii söz sənətinin, Azərbaycan ədəbiyyatının inkişafına əvəzsiz, qiymətli töhfələr vermişdilər.

## §3. İncəsənət

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində incəsənət sahələri də coşqun inkişaf mərhələsini yaşayırdı. Bu dövrdə Qarabağda çoxlu məşhur xanəndələr yetişmişdir. Qarabağ bölgəsində xanəndəlik sənətinin inkişafında mühüm rol oynamış amillərdən biri də XIX əsrin ikinci yarısında burada təşkil olunmuş ədəbi musiqi məclisləri idi.

Bu ədəbi mühitdə yetişmiş musiqiçilərdən biri olan məşhur musi-

qişünas Xarrat Qulunun ölümündən sonra Kor Xəlifə adlı bir şəxs Şuşada musiqi məktəbi açmışdı. O, tələbələrə muğam oxumağı, tar və kamança çalmağı öyrədirdi. Kor Xəlifənin məktəbi bir çox musiqiçi yetişdirmişdir. Kor Xəlifənin ölümündən sonra məktəb bağlanmışdır. Lakin bu dövrdə Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri və dərnəklər fəaliyyət göstərirdi ki, burada musiqi sənətinə dair maraqlı söhbətlər olurdu. Şuşada "Nəvvabın məclisi" əsl musiqi məktəbinə çevrilmişdi. Burada Şərq musiqisinin incəliklərinə dərindən bələd olan görkəmli musiqişünaslar xanəndələrin düzgün oxumasına və ustalığına xüsusi qayğı göstərirdilər. Musiqi məclislərində "Şur", "Rast", "Mahur", "Çahargah", "Bayatı-İsfahan" muğamlarının oxunması iki, bəzən də üç saat çəkərdi [205, 18].

Şuşa musiqi məclisinin rəhbəri olan M.M.Nəvvab (1833-1918) XIX əsrin ən mahir musiqişünaslarından biri olmuşdur. O, Şuşanın musiqi mərkəzinə çevrilməsinə xüsusi qayğı göstərirdi. Nəvvab böyük xanəndə Hacı Hüsünün yaxından iştirakı ilə "Xanəndələr məclisi" təşkil etmişdi. Onun musiqi məclisi Xarrat Qulunun musiqi məclisindən və Xurşidbanu Natəvanın "Məclisi üns"ündən ("Dostluq məclisi"ndən) sonra şəhərin mədəni həyatında müstəsna rol oynamışdır.

Nəvvabın musiqi məclisindən sonra Şuşada Molla İbrahimin musiqi məktəbi yaranmışdı. Bu məktəbdə bir çox musiqiçilər dərs almışlar. Sevimli müğənnimiz Murtuza Bülbül də ilk təhsilini məhz bu məktəbdə almışdır [205, 19].

Görkəmli yazıçı Ə.Haqverdiyevin qeyd etdiyi kimi, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Qafqazın harasına getsəydin, orada çalıb oxuyan musiqiçini Qarabağdan olduğunu görərdin. Bakı, Şəki, Şamaxı, Aşqabad, Tehran, hətta İstanbul şəhərlərinin toy məclislərinə sazəndə dəstəsini çox vaxt məhz Qarabağın Şuşa şəhərindən dəvət edərdilər. Qarabağ xanəndələri öz gözəl səsləri, mahir sənətləri ilə İran, Osmanlı türk müğənnilərini həmişə kölgədə qoymuşdular [205, 18-19].

Xalq musiqiçilərinin xarici ölkə səfərləri ölkələrarası mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayırdı. Qarabağ sazəndələrinə təkcə Qafqazın müxtəlif yerlərində deyil, Mərkəzi Asiya, İran

və Osmanlı Türkiyəsində də rast gəlmək olurdu. Onların sənətkarlığı dəfələrlə bu yerlərdə yüksək mükafatlara layiq görülmüşdü. H.Sarabski İranda qastrol səfərlərində olmuş, bu ölkənin ictimaiyyətini Ü.Hacıbəyovun operaları ilə tanış etmişdi [50, 219].

Görkəmli musiqişünas V.Vinoqradov yazırdı ki, Qarabağın mərkəzi Şuşa şəhərinin musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqdə təmsil etmişlər. Qarabağın mərkəzi şəhəri olan Şuşa Cənubi Qafqazın konservatoriyası hesab edilmişdi [427]. Azərbaycan xalq musiqisini yaxşı bilən, ona yaxından bələd olan V.D.Korqanov özünün 1908-ci ildə qələmə aldığı "Qafqaz musiqisi" adlı kitabında yazırdı ki, "Cənubi Qafqaza musiqi xadimlərini çalğıçı və xanəndələri, şeir, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verdi". [429].

XX əsrin əvvəllərində Şuşa şəhəri Azərbaycanın ən mühüm musiqi mərkəzlərindən biri idi. Burada dünyaya göz açmış, onun təbii gözəlliklərindən ilham alaraq incəsənətimizin, mədəniyyətimizin inkişafında mühüm rol oynamış, təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrəti yayılmış məşhur bəstəkarlar da burada yaşayıb yaratmışlar. Həmin bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zakir Bağırovun, Fikrət Əmirovun, Süleyman Ələsgərovun, Zülfüqar Hacıbəyovun, Əşrəf Abbasovun, Niyazinin, Soltan Hacıbəyovun, Əfrasiyab Bədəlbəylinin və b. adlarını böyük fəxrlə çəkmək olar.

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində dünyaya göz açan dahi bəstəkar Ü.Hacıbəyov (1885-1948) "Qarabağın dünya şöhrətli yetirmələrindən birincisidir" desək səhv etmərik. O, Azərbaycan (eləcə də Şərqin-B.H.) opera musiqisinin banisi kimi tanınmaqla yanaşı, tarixdə istedadlı jurnalist, görkəmli dramaturq, qayğıkeş pedaqoq, bənzərsiz musiqişünas kimi də ad qoyub getmişdir.

O dövrün mətbuatında, konkret olaraq "Vaxt" qəzetinin 10 yanvar tarixli sayında dərc olunmuş "1916-cı ildə milli səhnə və səhnə ədəbiyyatı" məqaləsində deyilirdi: "...Hesabat ilində Üzeyir bəyin "Arşın mal alan" adlı operettası rus, erməni və gürcü dillərinə tərcümə edilib oynanılmışdır. "Əsli və Kərəm" operası ermənicəyə tərcümə edilmişdir. "Arşın mal alan" bir gecədə bir neçə teatr səhnəsində iki dildə oynanılmışdır. Bu gün Qafqaz səhnəsində ayrıca zikr

edilməyə layiq bir şəxsiyyət varsa, o da Üzeyirbəy Hacıbəyov cənablarıdır. Petroqrad ali musiqi məktəbini tamam etmiş bu şəxs Qafqaz müsəlmanlarının birinci kompozitorudur" [144, 216].

O, 1908-ci ildə "Leyli və Məcnun" operası ilə Azərbaycan musiqi tarixində ilk milli operanın əsasını qoydu. Bəstəkarın yaratdığı opera muğamat əsasında səslənmiş, Yaxın və Orta Şərqdə böyük şöhrət qazanmışdır. Azərbaycan Respublikasının Dövlət Himninin musiqisini də Ü.Hacıbəyov, hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə, yazmışdır [154, 82].

Bu dövrdə Qarabağın görkəmli xanəndələri Hacı Hüsünün, Rəşid Behbudovun, Əbdül Bağı Zülalovun, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Keçəçi oğlu Məmmədin, Segah İslamın, Bülbülün, Məmməd Fərzəliyevin, Həmid Qurbanovun, Zabul Qasımın, Məcid Behbudovun musiqi sahəsindəki xidmətləri həmişə rəğbətlə qarşılanmış və heç zaman unudulmamışdır [154, 82-85].

Artıq yuxarıda da qeyd olunduğu kimi, görkəmli opera müğənnisi və xalq mahnılarının mahir ifaçısı Bülbül (1897-1961) də Şuşa musiqi məktəbinin yetirməsidir. O, 1916-cı ildə ilk dəfə opera müğənnisi kimi çıxış etmişdir [135, 101].

Qarabağ bölgəsi yalnız xanəndələr məskəni olması ilə seçilmirdi, bu bölgə həm də gözəl tar, kamança, qarmon, tütək ifaçıları yetişdirmişdi. Şuşada tarzənlərdən Qurban Pirimovun, Məşədi Cəmil Əmirovun, Zeynal Qarabağlının, ustad Sadıqcanın və b. adlarını çəkmək olar. Qarmon ifaçısı Abutalıb Yusifov, Lətif Əliyev və b. da məhz Şuşada dünyaya göz açmışdılar. Bu musiqiçilərdən muğamatımıza yeni ruh, yeni forma, məzmun gətirən, bütün həyatını klassik Şərq musiqisinin inkişafına həsr edən, "Rast", "Cahargah" və "Segah"ımıza yeni variant və xallar əlavə edən 1861-ci ildə Şuşada dünyaya göz açan Cabbar Qaryağdıoğlu (1861-1944) Azərbaycan musiqisinin Varşava, Moskva, Kiyev, Tiflis və s. şəhərlərdə tanıdılmasında böyük işlər görmüşdür. O, Azərbaycan Dövlət Konservatoriyasının yaradıcılarından olmuş və orada muğamatdan dərs demişdi. C.Qar-yağdıoğlu təkcə xanəndə deyildi, o həm də xalq aşığı, bəstəkar idi. 1934-cü ildə Tiflisdə Cənubi Qafqaz musiqi olimpiadası keçirilərkən

C.Qaryağdıoğlu birinci yerə çıxmış və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli fəxri fərmanına layiq görülmüşdü [152, 171].

Qarabağın tanınmış musiqiçilərindən biri də "Bülbülcan" təxəllüsü almış Əbdülbağı Zülalov idi. O, geniş diapazonlu, məlahətli və təsirli səsə, güclü zəngulələrə malik sənətkar idi. Görkəmli xanəndələrimiz C.Qaryağdıoğlu, Ə.Abdullayev, Xan Şuşinski və b. Ə.Zülalovdan dərs almışlar. Görkəmli sənətkar 1920-ci ildən başlayaraq "Şərq Konservatoriyası"nda və Azərbaycan Dövlət Türk Musiqi məktəbində muğamatdan dərs demişdi. Ə.Zülalov Azərbaycan vokal sənətinin görkəmli nümayəndələrindən biri idi və xalqımızın milli-mənəvi dəyərlərinin inkişafında böyük işlər görmüşdür [152, 172].

Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənən, geniş diapazonlu, güclü və gözəl səsə malik Qarabağ xanəndələrindən biri də Keçəçi oğlu Məhəmməd (1964-1940) olmuşdur. O, "Bayatı-Qacar" muğamını orijinal və xüsusi ustalıqla oxumuşdur. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912-ci ildə "Sport-Rekord" (Varşava), 1914-cü ildə isə "Ekstrafon" (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. 1920-ci ildən başlayaraq Məhəmməd öz sənətinin incəliklərini gənc nəslə öyrətməyə başlamış, xanəndəliklə yanaşı müəllimlik də etmişdir [152, 172].

"Məclisi fəramuşan"ın fəal üzvlərindən biri olan qarabağlı Qasım Abdullayev Azərbaycan xanəndəsi adını almışdı. Qasım "Zabul" segahını bütün Şərqdə tanıtmışdır. Hətta təsadüfi deyildir ki, xalq arasında Q.Abdullayev "Zabul Qasım" kimi də tanınırdı. Muğam ustasının həm də aktyorluq qabiliyyəti var idi. O, 1913-cü ildə "Leyli və Məcnun" operasında Məcnunun atası rolunu oynamışdır. Q.Abdullayev 1927-ci ildə Şuşada vəfat etmişdir [205, 29].

İngiltərənin "Qrammafon" səhmdar cəmiyyəti 1902-ci ildə Rusiyada ilk dəfə qrammofon valları fabriki açmışdır. Həmin cəmiyyətin Varşava, Riqa, Peterburq, Moskva, Kiyev və Tiflis şəhərlərində baş idarələri yaradılmışdır. Nəhayət, 1906-cı ildə "Qrammofon" cəmiyyətinin Riqa şəhərindəki şöbəsi məşhur Qafqaz müğənnilərinin səslərini vallara köçürmək üçün onları Riqaya dəvət etmişdir. Şərq tari-

xində ilk dəfə səsini qrammofon valına yazdıran C.Qaryağdıoğlu olmuşdur. C.Qaryağdıoğlundan sonra Şəkili Ələsgər, Seyid Mirbabayev, tarzən Mərdi Canıbəyov səslərin və çalğıların qrammofon valına yazdırmışlar.

1907-ci ildə Fransanın "Pate" qardaşları şirkəti də Rusiyada qrammofon vallarını buraxmaq üçün fabrik açmışdı. "Pate" firması Qafqaz müğənnilərindən ilk dəfə C.Qaryağdıoğlunu və məşhur İran müğənnisi Qəmər-Mülük xanımı, sonra Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Davud Səfiyarovu dəvət etmiş və həmin şirkətin firmalarında onların ifalarını vala yazdırmışdılar. O zaman xırda valın qiyməti qızıl pul ilə 1 rubl 30 qəpik, iri valın qiyməti isə 3 rubl 50 qəpik olmuşdur [205, 30].

1910-cu ildə İngiltərənin "Qrammofon" cəmiyyəti yenidən bir qrup Qafqaz musiqiçisini Riqa şəhərinə dəvət edib onların səslərini vala köçürmüşdür. Artıq bu dövrdə qrammofon valları ikiüzlü buraxılırdı. O zaman Azərbaycan musiqiçilərindən Malıbəyli Həmid və Əsgər qardaşları, Məcid Behbudov, Seyid Mirbabayev, Kərbəlayı Lətif Əliyev və b. tanınmış musiqiçilər idilər.

1912-ci ildə isə Almaniyanın "Sport-Rekord" səhmdar şirkəti C.Qaryağdıoğlunu, Keçəçi oğlu Məhəmmədi, Məşədi Məmməd Fərzəliyevi, Davud Səfiyarovu, Qurban Pirimovu və Saşa Oqanezaşvilini Varşava şəhərinə dəvət etmişdi. "Sport-Rekord" şirkəti qrammafon vallarına yazılmağa dəvət olunan musiqiçilərin vallarının kataloqunu ayrıca kitabça şəklində minlərcə tirajla çap etdirib bütün Rusiya ərazisində və Şərq ölkələrində yaymışdı. Kitabçada musiqiçilərin şəkli, adı, soyadı, doğulduğu yer, repertuarı və valların nömrələri göstərilmişdir. Şirkətin buraxdığı bütün kataloq-kitabçalarda ən əvvəl C.Qaryağdıoğlunun fotoşəkli verilmiş və şəklin altında yazılmışdı: "Cabbar Qaryağdıoğlu (məşhur tenor Şuşalı)". Kitabçanın üstünə isə şirkətin emblemi vurulmuşdu. Maraqlıdır ki, Pate familiyalı fransız qardaşların valları oxutmaq üçün kəşf etdikləri aparata onların şərəfinə "patefon" adı verilmişdi [205, 30].

Bu musiqiçilərdən Ü.Hacıbəyov Məşədi Zeynalı istedadlı bir tarzən kimi opera tamaşalarında ifaçılığa dəvət edirdi. 1911-ci ildə "Leyli və Məcnun" operasının afişalarından birində deyilirdi: "1911-

ci il noyabrın 4-də Nikitin qardaşlarının teatr binasında Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası göstəriləcək, operada xüsusi skripkaçı və məşhur tarzən Zeynal Haqverdiyev çalacaqdır". 1911-1918-ci illər arasında Bakı, Tiflis və Şuşa şəhərlərində verilən opera, dram tamaşalarında və xeyriyyə gecələrində Məşədi Zeynal tar çalmış, həm də teatr tamaşalarının fasilələrində xanəndələrdən İslamı, Seyid Şuşinskini, Məcid Behbudovu müşayiət etmişdi. 1915-ci il martın 13-də Bakıda "Nicat" cəmiyyəti tərəfindən keçirilən "Şərq gecəsi"ndə Məşədi Zeynal tarda "Rahab", Mirzə Abdulla isə neydə "Rast" muğamlarını ifa etmişdilər [205, 93].

Tanınmış musiqiçilərlə yanaşı gənc xanəndələr də Qarabağda musiqi məclislərinə dəvət edilirdi. Malıbəyli Cümşüd bir neçə il tarzən Ballıcalı Baxşı ilə Xan bağı karvansarayında çalıb-çağırdıqdan sonra, artıq 20-21 yaşlarında Qarabağ məclislərinə bir xanəndə kimi dəvət olunmuşdu. Məşhur müğənni bir neçə dəfə görkəmli tarzən Cavad bəy Əlibəy oğlu ilə Təbriz, Rəşt, Ənzəli və Qəzvin şəhərlərinə toy məclislərinə dəvət almışdı. O, hər yerdə Azərbaycan musiqisinin incəliklərini, təravətini, Qarabağ xanəndəlik məktəbinin şöhrətini bir daha nümayiş etdirmişdi. Malıbəyli Cümşüd də Şuşada verilən opera tamaşalarında və "Şərq konsertləri"ndə yaxından iştirak edirdi. Onun yaxından iştirakı ilə 1909-cu il noyabrın 7-də və 1910-cu il mayın 23-də Malıbəyli kənd məktəbinin şagird və müəllimləri iki dəfə ədəbi-vokal gecəsi təşkil etmişdilər. Birinci gecədə 50 rubl pul yığılaraq, o zaman Novoçerkassk universitetində oxuyan tələbə Mir Həsən Vəzirova göndərilmişdi. İkinci gecədə isə 41 rubl 38 qəpik pul yığılıb tələbələrin ehtiyaclarına xərclənmişdi [271].

1913-cü ildə Azərbaycanda məşhur bir xanəndə kimi tanınan Malıbəyli Cümşüd Kiyevə "Ekstrafon" səhmdar şirkəti tərəfindən səsini vala yazdırmaq üçün dəvət edilmişdir. Cümşüd Kiyevə gedərək "Segah", "Mahur", "Rast", "Şikəsteyi-fars" muğamlarını və bir neçə təsnifi məharətlə oxuyub qrammofon valına yazdırmışdı. Malıbəyli Cümşüd 1915-ci ildə, təxminən 70 yaşlarında, Şuşa şəhərində vəfat etmişdir [205, 101-102].

Bu dövrdə Azərbaycanın mədəni həyatında Rusiya Musiqi Cəmiyyəti Bakı bölməsinin musiqi siniflərinin açılması əhəmiyyətli

hadisə idi. 1914-1915-ci tədris ilində burada 428 nəfər təhsil alırdı. Onlardan 328 nəfəri fortepiano, digərləri simli, nəfəsli alətlərdə çalmağı və vokal öyrənirdilər. Təhsil haqqının yüksək olması ildə 80-100 rubl və musiqi alətlərinin bahalığı musiqi siniflərində yalnız varlı uşaqlarının təhsil almasına imkan verirdi. Musiqidə təhsil alanlardan 11 nəfəri azərbaycanlı neft sənayeçilərinin və gəmi sahiblərinin uşaqları idi. Bakıda daha dörd xüsusi məktəb, o cümlədən tanınmış dirijor Şefferlinqə məxsus musiqi məktəbləri var idi [50, 176].

Azərbaycanda klassik Şərq üslubunda oxumaq və milli musiqi alətlərində çalmaq sənətini öyrənmək geniş yayılmışdı, lakin bu sahə üzrə tədris fərdi xarakter daşıyırdı. Şuşa öz musiqiçiləri və xalq musiqisinin köklü qədim ənənələri ilə məşhur idi. Üzeyir və Ceyhun Hacıbəyov qardaşları, Q.Pirimov, C.Qaryağdıoğlu və b. öz ilk musiqi təhsillərini burada almışdılar [50, 176].

XX əsrin əvvəllərində Azərbaycan xalq musiqisini yaradıcı şəkildə inkişaf və təbliğ etməkdə xanəndələrin böyük rolu olmuşdur. Xanəndələrin içərisində Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Əbdülbaqi Zülalov, Mirzə Muxtar, Keçəçi Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Malıbəyli Həmid, Malıbəyli Cümşüd, Zabul Qasım, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski, bakılı Seyid Mirbabayev, şəkili Ələsgər Abdullayev, şamaxılı Mirzə Məmməd Həsən və b. çox məşhur idilər. Xalq musiqisi xəzinəsinə H.Q.Sarabski də öz əvəzsiz töhfəsini vermişdi [50, 208].

İranda və Qafqazda məşhur olan xanəndələrdən biri də Cənubi Azərbaycan torpağının yetirməsi Əbul Həsən xan Azər idi. Məşədi Zeynal (Şuşa), Qurban Pirimov (Ağdam), Mirzə Fərrac və Mirzə Mənsur (Bakı), Şirin Axundov (Salyan) və b. tar ustaları kimi tanınmışdılar. Onlar tarın milli musiqi aləti kimi imkanlarını açmaq istiqamətində böyük xidmət göstərmişdilər. C.Qaryağdıoğlu-Q.Pirimov-S.Ohanezaşvili musiqi üçlüyü, triosu təkcə Qafqazda deyil, onun sərhədlərindən xeyli uzaqlarda da böyük şöhrət tapmışdı [50, 208].

Bəhs edilən dövrdə Qarabağda aşıq sənəti də inkişaf edirdi. Maraqlıdır ki, aşıq və xanəndəlik sənətləri tarix boyu bir-birilə çox yaxın əlaqədə inkişaf etmişdir. Hələ qədim dövrlərdən aşıqlar xalqın

tükənməz ədəbi yaradıcılığını dərindən öyrənmiş, ondan bəhrələnmişdilər. Xanəndələr də öz növbəsində aşıq havalarındakı oynaqlığı öz oxumalarına uyğunlaşdırmış və muğamatı zənginləşdirmişdilər. Eyni zamanda vaxtilə Gəncə, Qarabağ və Şirvan aşıqları məşhur xanəndələrin zəngulələrini aşıq sənətinə gətirmişdilər. Bülbülün qeyd etdiyi kimi, bu iki sənət həmişə canlı, həmişə təzə, həmişə maraqlı, xoşagələn yaradıcı qüvvəmizdir. Aşıqlar, xanəndələr tarix boyu məclislərimizin yaraşığı və bəzəyi olmuşdular. Xalq onları həmişə əziz tutmuş və məclislərinin başında əyləşdirmişdir. Təsadüfi deyildir ki, el arasında deyərlər: "Aşıq el anasıdır", "Bu aşıq haqq aşığıdır" və yaxud "Xanəndə məclisin bəzəyidir", "Yaxşı xanəndəyə can qurban". Azərbaycan aşıq sənəti tarixində Tufarqanlı Abbas, Qurbani, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Valeh, Aşıq Pəri, Aşıq Nəcəfqulu, Aşıq Abbasqulu və b.kimi ustad sənətkarların adları indi də çox böyük hörmətlə çəkilir [205, 74].

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində mədəniyyətimizin bu sahəsinin inkişafı mənfur qonşumuz olan ermənilərin də diqqətindən qaçmamışdı. Azərbaycan musiqisinə yüksək qiymət verən milliyyətcə erməni olan A.İsahakyan dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi münasibətilə belə yazmışdır: "Hacıbəyov öz gözəl operalarını yazarkən Azərbaycanın zəngin və misilsiz xalq musiqisindən istifadə etmişdir".

Bu fikri söyləyən İsahakyandan fərqli olaraq milliyyətcə erməni olan A.Tiqranyan plagiatorluqla məşğul olaraq Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu" operalarından faydalanaraq eyni adlı operalar yazmağa başlamışdı. Erməni bəstəkarı A.Tiqranyan 1915-ci ildə H.Voskanyanın pyesi əsasında beşpərdəli "Leyli və Məcnun" adlı musiqili dram yazmış, 1936-cı ildə "Koroğlu" operası yazmağa başlamış, lakin əsər tamamlanmamış, onun ancaq birinci pərdəsi yazılmışdır [129, 314]. Göründüyü kimi, mənfur ermənilər bu gün olduğu kimi, XX əsrin əvvəllərində də Azərbaycan musiqisinin inkişafına "biganə qalmır", musiqimizi oğurlayaraq özlərininki kimi dünyaya təqdim etməyə çalışırdılar: eynilə bu gün də Azərbaycan xalq mahnısı olan "Sarı gəlin"i erməniləşdirməyə çalışdıqları kimi.

Q.Ağayan "Harutyun və Manvel" romanında aşıq havalarından

“Əvvəl-axır”, “Diltərpənməz” və “Dodaqdəyməz” havalarını izah edib deyir ki, “Diltərpənməz”də mahnı oxunarkən dil tərpənmir, “Dodaqdəyməz”də dodaqlar bir-birinə dəymədən mahnı ifa olunur. Bunun üçün alt və üst dodaqlar arasında iynə qoyulur. O, sübut üçün Azərbaycan aşıq havalarından nümunə gətirir [129, 312].

Erməni tarixçisi Leo belə bir nəticəyə gəlmişdir ki, erməni dilinin yoxsulluğu üzündən aşıqlar öz mahnılarını Azərbaycan dilində qoşmuşdular. O yazır: “Aşıqlar üçün nağıllarda təsvir olunan həyatı ifadə etmək üçün türk dili erməni xalq ləhcələrindən daha səlis, daha ifadəli və daha zəngindir. Ona görə də aşıqlar mahnılarını türk dilində oxuyur” [129, 305]. Söhbət erməni aşıqlarından gedir və erməni Leo dilimizin üstünlüyü barədə danılmaz həqiqəti dilə gətirməli olur! Bu da göstərir ki, bu dövrdə ermənilər hələ də formalaşmış bir ədəbi dilə malik olmamışdılar.

Məlumdur ki, Azərbaycanda musiqi mərkəzlərindən biri olan Şuşa şəhərində yetişən musiqiçilər milli musiqimizin yüksəlişində böyük rol oynamışdılar. Öz məlahətli səsləri və böyük sənətləri ilə bütün Yaxın Şərqdə məşhur olan xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Əbdülbaği Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov və bir çox başqaları Şuşanın yetirdiyi məşhur sənətkarlar ancaq bir hissəsini təşkil edirdilər.

“Şərq konserti” adı ilə yeni konsert növü meydana çıxdı. Belə konsertlər ilk dəfə Şuşada (1901), daha sonra isə Bakıda (1902) təşkil olundu. Ə.Haqverdiyevin hazırladığı hər iki konsertdə C.Qaryağdıoğlu başda olmaqla, görkəmli muğam üçlüyü muğam, xalq mahnıları, rəqsləri, aşıq melodiyaları ifa etmiş, səhnələşdirilmiş musiqi əsərləri də göstərmişdi. “Şərq konserti”nin inkişafına maarif və xeyriyyə cəmiyyətləri kömək edirdi. Məsələn, 1907-ci il yanvarın 20-də Müsəlman Xeyriyyə Cəmiyyəti Azərbaycan musiqisindən ibarət böyük konsert təşkil etmişdi. “Nəşri-maarif” (1908-1914, 1915), “Nicat” (1914-1915), “Səfa” (1914) və s. cəmiyyətlər tərəfindən “Şərq konsert”ləri təşkil olunurdu. “Şərq konsert”ləri (xüsusən Şuşada ilk səhnələşdirilmiş musiqi tamaşası) milli operanın yaranmasında böyük

rol oynadı. Bu dövrdə Qarabağda incəsənətin bir qolu olan teatr da inkişaf edirdi. Xalq musiqiçilərini ilk dəfə səhnəyə çıxaran mədəniyyət xadimi məşhur yazıçı Ə.Haqverdiyev 1897-ci ildə Şuşada yerli həvəskarların iştirakı ilə Füzulinin "Leyli və Məcnun", 1902-ci ildə isə Nizaminin "Xosrov və Şirin" poemalarını səhnələşdirmişdi. Hər iki tamaşada baş rolda C.Qaryağdıoğlu çıxış etmişdi [50, 208-209].

Ə.Haqverdiyev hələ uşaq yaşlarında Şuşada yerli həvəskarlar tərəfindən təşkil olunan teatr tamaşalarında iştirak etmişdir. Onun yazdığı "Hacı Daşdəmir" adlı komediya Şuşada XX yüzilliyin əvvəllərində tamaşaya qoyulmuşdur. Ə.Haqverdiyev mədəniyyət tarixində istedadlı dramaturq, gözəl rejissor kimi də şöhrət tapmışdır. Ədibin xidmətlərindən biri də ondan ibarətdir ki, o, Şuşanın məşhur musiqiçi və xanəndələrinin iştirakı ilə musiqi tariximizdə ilk dəfə olaraq Şərq konsertləri təşkil etmişdir.

O dövrdə Rusiya çarının xüsusi əmri ilə konsert və teatr tamaşaları qəti qadağan edilsə də, Qarabağ ziyalıları şəxsi fədakarlıq göstərərək yeni tamaşaların göstərilməsinə bütün güclərini sərf edirdilər. M.F.Axundovun, N.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, M.Qənizadənin əsərləri daha böyük həvəslə oynanılırdı. 1903-cü ildə Şuşa müəllimləri "Hacı Qara" komediyasını, 1904-cü ildə "Müsyo Jordan və Dərviş Məstəli şah" pyesini tamaşaya qoymuşdular [154, 79-80].

XX əsrin əvvəllərində Qarabağın ziyalıları təkcə regionda deyil, Qarabağdan kənar şəhərlərdə də teatr tamaşaları ilə çıxış etmişlər. Qarabağ ziyalılarının təşkilatçılığı ilə Dərbənd şəhərində də teatr həvəskarları tərəfindən F.Köçərlinin rəhbərliyi və rejissorluğu ilə M.F.Axundovun "Lənkəran xanının vəziri", təkrar quruluşda "Müsyö Jordan və dərviş Məstəli şah", "Hacı Qara", Rzayevin "Könülsüz nikah", V.Mədətovun "Tamahkarlıq düşmən qazanır", "Qırt-qırt", S.Qənizadənin "Dursunəli və ballıbadı" pyesləri tamaşaya hazırlandı və səhnəyə qoyuldu və geniş tamaşaçı kütləsinin rəğbətini qazandı [329, 230].

Dərbənd tamaşaçıları qarşısında çıxış etmiş aktyorlara misal olaraq Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasındakı Məcnun rolunun ilk ifaçısı Hüseynqulu Sarabski, sonralar SSRİ xalq artisti

fəxri adını almış Mirzağa Əliyev, habelə Hüseyn Ərəblinski (Xələfov), Əhməd Anadollu, H.Hacıbababəyov, M.Bağırov və b. peşəkar Bakı aktyorları idi. Öz növbəsində Dərbənd türk dram teatrı da Bakı və Quba şəhərlərində öz tamaşalarını nümayiş etdirirdi [398, 182].

Azərbaycanın mədəniyyət xadimləri teatra xalqın maariflәndirilməsində qüdrətli vasitə kimi baxırdılar. Azərbaycanın digər şəhərlərində-İrəvan, Şuşa, Gəncə, Şəki, Şamaxı, Quba, Naxçıvan və Salyanda fəaliyyət göstərən teatr kollektivlərinin fəaliyyəti böyük əhəmiyyət kəsb edirdi. "XX əsrin əvvəllərində bu şəhərlərdə teatr həyatı xeyli canlanmış, yaradıcı kollektivlərin səhnəyə qoyduqları pyeslərin sayı da artmışdı. 1904-cü ildə Şuşa səhnəsində ilk dəfə Şekspirin "Otello"su tamaşaya qoyuldu" [50, 206].

1913-cü ildə Şuşada yerli həvəskarlar "Ağa Məhəmməd şah Qacar" dramını göstərmişdilər. Həmin ildə Bakıdan gələn aktyorlar Şuşada "Əsli və Kərəm", "Evliykən subay", "50 yaşında cavan", "O olmasın, bu olsun", "Hacı Qara", "Lənkəran xanının vəziri", "Yağışdan çıxdıq, yağmura düşdük", "Müsibəti-Fəxrəddin" tamaşalarını göstərmiş və bu tamaşalar yerli sakinlər tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Onu da qeyd etmək lazımdır ki, bu tamaşalarda eyni zamanda yerli həvəskarlar da çıxış etmişdilər. 1914-cü ildə "Leyli və Məcnun", "Bəxtsiz cavan", "Günahsız qurban", "Kimdir müqəssir", "Arşın mal alan" tamaşaları Şuşa teatr truppası tərəfindən həm Şuşada, həm də Qarabağın müxtəlif bölgələrində çox böyük müvəffəqiyyətlə oynanılmışdır. 1915-1916-cı illərdə Şuşa həvəskarları köhnə tamaşalarını bir neçə dəfə təkrar göstərmişdilər. 1916-cı ilin avqustunda Şuşada ilk dəfə olaraq C.Məmmədquluzadənin "Ölülər" komediyası göstərilmişdi. Elə həmin il Ü.Hacıbəyovun rəhbərliyi və iştirakı ilə Şuşa teatr truppası "O olmasın, bu olsun" operettasını tamaşaya hazırlamış və tamaşa böyük müvəffəqiyyət qazanmışdı. 1917-ci ildə yerli "Şuşa dərnəyi"nin yardımı ilə Şuşada bir klub açılmışdır. Klubun açılışında M.Hacınskinin "Sultan Əbdülhəmid Xəli" əsəri oynanılmış və 3000 manat gəlir gətirmişdi [152, 168-168].

Beləliklə, 1900-1917-ci illərdə Qarabağın teatr həvəskarları səmərəli fəaliyyət göstərərək xalqın maariflənməsində xeyli işlər görmüşlər. Beləliklə XX əsrin əvvəllərində Qarabağ bölgəmiz, onun

ecazkar mərkəzi Şuşa şəhəri nəinki Azərbaycan musiqisinin şəriksiz lider-mərkəzi olmuş, eləcə də bütün Qafqazın və Ön Asiyanın ən bənzərsiz mərkəzlərindən biri kimi dünyaya səs salmış, Rusiyanın, habelə Avropanın Almaniya, Fransa, Polşa kimi ölkələrin məşhur musiqi cəmiyyətləri Şuşa, Qarabağ sənətkarları ilə əməkdaşlıq etməyi özləri üçün şərəf saymışdılar. Şuşalı istedadlı sənətkarlar təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqazın, müsəlman-türk dünyasının musiqi həyatında neçə-neçə yeni təşəbbüslərin banisi olmuşdular.

Hələ XIX əsrin 40-cı illərində bütün Qafqazın teatr həyatında bənzərsizliyi ilə seçilib müxtəlif millətlərdən olan teatrsevərlərin diqqətini cəlb etmiş Şuşa, XX əsrin əvvəllərində də şuşalı teatr xadimləri Qarabağda Azərbaycan teatr sənətinin mühüm mərkəzlərinin birinin təşəkkül və inkişafında mühüm rol oynamışdılar.

Bu dövrdə Qarabağda incəsənətin bir qolu olan təsviri incəsənət də inkişaf etməkdə idi. Teatr sənətinin inkişafı təsviri incəsənətin tərəqqisinə də müsbət təsir göstərirdi. XX əsrin əvvəllərində təsviri incəsənətin inkişafında Qarabağ bölgəsində M.Nəvvabın xidməti çox olmuşdu. Rəssam bu sahədə portret janrına meyl etmiş, məsələn, 1902-ci ildə o, “Teymurun portreti” adlı məşhur əsərini çəkmişdir [38, 212].

“M.Nəvvabın Azərbaycan kitab sənətinin inkişafında xidməti daha geniş, əhəmiyyətli olmuşdu. O, həm rəssam və xəttat, həm də dekorativ sənət ustası kimi kitab tərtibatı sahəsində hərtərəfli fəaliyyət göstərmişdi. M.Nəvvab əsərlərini öz dəst-xətti ilə yazmış, özünün kiçik karxanasında daş basma üsulu ilə onları çap edərək, bədii tərtibatını vermiş və cildləyib kitab şəklinə salmışdır [38, 212-213].

Qarabağın XX əsr görkəmli sənətkarlarından biri də Azərbaycanın dekorativ sənət ustası Usta Səfər olmuşdur. Onun hazırladığı müxtəlif milli ornamentli və naxışlı şəkillər əsasında toxunan xalçalar bir çox dünya muzeylərinin bəzəyinə və qiymətli eksponatına çevrilmişdi. Qarabağ xalçaları istehsalı və satışının mərkəzi olan Şuşada ilməli xalçalar, “Malıbəyli”, “Ləmpə”, “Bağçada güllər”, “Bulud”, “Saxsıda güllər”, “Nəlbəkigül”, “Güllüyaylıq”, “Muncuq”, “Zərməxmər” və s. xalçalar, gəbələr toxunurdu. Sənətin bu sahəsi özünü daha çox xalçaçılıqda göstərməkdə idi. Şuşa torpağı, Azərbay-

can dekorativ sənət ustası, ornamentçi rəssam, xalçaşünas və sənətşünas, xalq rəssamı Lətif Kərimov kimi şəxsiyyət yetişdirmişdir. Onun yaratdığı “Qonaqkənd”, “Şuşa”, “Göy-göl”, “Qarabağ”, “Vurğun”, “Vaqif”, “Fizuli”, “Nəsimi” və başqa portret xalçalar ornamental bəzəyi, rəsmlərinin zərifliyi və ifadəliyi, zəngin koloritliyinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. Bacarıqlı rəssam zərgərlik, keramika, ağac, metal və daş üzərində oyma sənəti sahəsində də gözəl nümunələr yaratmışdır. Onun yaratdığı əsərlər Avropada, ABŞ-da, Şərq ölkələrində, keçmiş SSRİ məkanında nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır. 1945-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasına çalışmış L.Kərimov öz sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi sahəsində də çox böyük işlər görmüşdü [154, 90].

Rus xalça ekspertləri o dövrdə Azərbaycanın Qarabağ bölgəsinin xalçaçılıq məntəqələrindən Şuşa, Bərdə, Lənbəran, Çələbi və b. adlarını tez-tez çəkmişlər [38, 235].

Quzey Azərbaycanın cənub-qərbində yerləşən Qarabağ xalça məktəbi dağlıq, həm də aran zonalarında inkişaf etmişdir. Məlumdur ki, Azərbaycan xalçasının xeyli hissəsi tarixən ixrac məhsulu olmuşdur. Bu xalçalar lap uzaq-uzaq əsrlərdən başlayaraq Avropaya ayaq açmışdır. Onun ölkədən uzaqlarda tanınmasına sübut intibah dövrünün İtaliya, Hollandiya, Flamand ustalarının əsərlərində, habelə Hans Holbeynin “Elçilər" (XVI) və b. tablolarında Qarabağ, Gəncə, Qazax xalçalarının tərənnüm edilməsidir [164, 10].

Azərbaycanın digər bölgələrində olduğu kimi, “Qarabağ bölgəsində də xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünürdü. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax və ladı adlı xalçalar daxildir. Xovsuz xalçalar qrupuna daxil olan xalça və xalça məmulatlarının toxunuşu əlqacların əriş iplərinə “sadə keçirtmə”, mürəkkəb keçirtmə və “sadə dolama” üsulu ilə istehsal olunmuşdu. İkinci qrup isə xovlu xalçalardır. Bu qrupa xalı, gəbə və xalçalar daxildir. Xovlu xalçaların toxunuşu “düyünləmə” üsulu, yəni “dolama ilmə” və yaxud “qullabı ilmə” ilə əmələ gəlir” [164, 26].

Xalça sənətinin tədqiqatı ilə məşğul olan sənətşünaslar Qarabağ

xalçalarını üç qrupa bölürlər: 1. Aran qrupu. Bu qrupa Bərdə və Ağcabədi rayonlarının xalçaları daxildir. Bərdə rayonunun keçmişdə məşhur olan “Bərdə”, “Xan-Qərvənd”, “Açma-yumma”, “Aran”, “Qoca”, “Buynuz”, “Dəryanur”, “Balıq“, “Şabalıd buta” adlı xovlu xalçaları və şəddə, vərni və zili kimi xovsuz xalçaları olmuşdur. Bu qrupa daxil olan xalçaları xalça ustaları “Aran” xalçası da adlandırırlar. Naxçıvan xalçası da texniki xüsusiyyətlərinə görə Qarabağ xalçalarına uyğun olduğu üçün bu qrupa daxil edilir. Ağcabədinin xovlu xalçalarından “Ləmbəran”, “Qarabağ”, “Xantirmə" və xovsuz xalçalarından cecim və zililər də çox yayılmışdır. Ağcabədi bölgəsində “Qaraqoyunlu” xalçası da toxunmuşdur; 2. Şuşa qrupu. Bu qrupa “Malıbəyli”, “Ləmpə”, “Bağçada güllər”, “Saxsıda güllər”, “Nəlbəkigül”, “Bulud” adlı məşhur xalçalar daxildir. Burada “Atlı-itli”, “Rüstəm və Söhrab”, “Dəryanur” adlı xalçalar da toxunurdu. Şuşa qrupuna daxil olan “Ləmpə” xalçası Qarabağın bütün xalçaçılıq mərkəzlərində toxunmuşdur; 3. Cəbrayıl qrupu. Bu qrupa “Xanlıq”, “Qaraqoyunlu”, “Qubadlı”, “Kürd”, “Qasımuşağı”, “Bəhmənli”, “Muğan”, “Talış”, xovsuz xalçalardan isə palaz və kilimlər daxildir [164, 28-29].

Hal-hazırda eyni kompozisiya ilə toxunan XIX əsr “Çələbi” xalçası Londonun Viktoriya və Albert muzeyində nümayiş etdirilir [164, 74].

XX əsrin əvvəllərində Qarabağda toxunmuş xalçalardan Xocalıda “Çələbi”, “Balıq”, Xocavənddə “Açma-yuma”, “Ləmpə”, Cəbrayılda “Saxsıda güllər”, Füzulidə “Butulkalı xanlıq”, Zəngilanda “Atlı-itli”, Bərdədə “Vərni”, Kəlbəcərdə, “Şəddə”, Ağdam və Tərtərdə “Kilim”, Ağcabədidə və Beyləqanda “Xurcun” və Laçında “Məfrəş” toxunurdu [164, 88-235].

Hələ ərəb yazılı mənbələrində X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan, iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağ bölgəsinin xalça istehsalında Şuşa şəhəri, Dovşanlı, Daşbulaq, Tuğ, Girov, Tuğlar, Hadrut, Qasımuşağı, Muradxanlı, Çanaxçı, Qubadlı, Qozağ, Bağırbəyli, Mirseyid, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdı. Dağlıq zonaya nisbətən xammalla, şübhəsiz ki, daha yaxşı təmin olunmuş aran rayonlarında Ağdam, Qaryagin,

Cəbrayıl və Bərdə şəhərləri də xalça istehsalında əsas yer tuturdu.

Bu dövrdə Şuşada parça da istehsal olunurdu. Bu dövr cecim istehsalı ilə isə Qarabağ bölgəsində Şuşanın Lənbəran və Ağcabədinin Xalfərdi (Xalfərəddinli-B.H.) məntəqələrində məşğul olurdular [38, 240].

XX yüzilliyin əvvəllərində Qarabağda sənətkarlığın mühüm sahələrindən biri olan zərgərlik də öz inkişafında yüksək zirvəyə qalxmışdı. Qarabağ bölgəsinin Şuşa şəhəri Azərbaycanda zərgərlik sənətinin mərkəzlərindən biri idi [38, 244].

Şuşada zəngin sənət biliklərinə malik olan ustalar-Usta Rüstəm, Zərgər Muxtar, toplamaçı Əliş, Zərgər İsmayıl, Zərgər Seyidəli və b. işləyirdilər. Şuşa zərgərləri qarasavad, oymakarlıq, toplamaçılıq (şəbəkəçilik) kimi texniki istehsal üsullarını bilirdilər [154, 90]. Azərbaycanın Qarabağ bölgəsində zərgərlik sənətinin tarixi çox qədimlərə gedib çıxır. Bunu Azərbaycanın Qarabağ ərazisində yerləşən Xocalı şəhərində tapılmış bel kəmərinin bir hissəsi də sübut edir. “3000 (üç min) illik tarixi olan bu kəmərin üzərindəki rəsm və naxışlar insanı valeh edir. Kəmərin qiymətli cəhəti ondan ibarətdir ki, burada zərgərliyin bir neçə üsulundan (qələm işi, döymə və şəbəkə) böyük məharətlə istifadə edilmişdir” [212, 27].

Qarabağ sənətkarlarının şəbəkəçilik üsulu ilə hazırladıqları “quş dimdiyi”, “vov”, “hörük-buruq”, “çharqat”, “zəncirə”, “qıvrım ilan tac”, “ətəklik”, “guşə”, “əncalə”, “divarə”, “bəndam” və b. yüksək alıcılıq qabiliyyətinə malik idi. Şuşa zərgərlik sənəti ümumazərbaycan zərgərlik sənətinin tərkib hissəsi olsa da, onun özünəməxsus inkişaf xüsusiyyətləri olmuşdur. “1902-ci ildə Tiflisdə çağırılmış sənaye işçilərinin 1-ci qurultayına aid bir sənəddə göstərilir ki, bu ustaların əksəriyyəti savadsız və kasıb olsa da, sənətkarlıq sahəsində öz avropalı həmkarlarını arxada qoymuşlar. Onların hazırladıqları məmulat öz bədiiliyi və yaraşığı ilə adamı heyran edir” [38, 244].

Beləliklə, bu yarımfəsildə gətirilmiş məlumatlar bir daha göstərir ki, tədqiq olunan dövrdə də Qarabağımız, onun əsrarəngiz mərkəzi olan Şuşa şəhəri Azərbaycanın təsviri və tətbiqi sənətinin özünəməxsus xüsusiyyətlərə malik olan bənzərsiz mərkəzlərdən biri olmuş, Qarabağ xalçaçıları, zərgərləri və b. ustalarının istehsal etdikləri

məhsulları həm daxili, həm xarisi bazarlarda geniş tələbata malik olmuş, bəzi sənət əsərləri indi də məşhur muzeylərin bəzəyi olaraq qalmaqdadır.

## §4. Memarlıq

Özünün bənzərsiz, özünəməxsus xüsusiyyətləri ilə seçilən, Şimali Azərbaycanın Qarabağ bölgəsi memarlıq abidələri ilə zəngin olan bir bölgədir.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Qarabağımızın ayrı-ayrı ərazisində yerləşən memarlıq abidələrini müdafiə məqsədləri üçün tikilmiş qalalara, xristian alban abidələrə, müsəlman dini abidələrə, ticarət məqsədi ilə tikilmiş abidələrə və o dövr zəif inkişaf edən Avropa tipli tikililərə bölmək olar. Bu abidələrdən müdafiə məqsədi ilə tikilmiş qalalara, alban xristian abidələrinə və məscid və müsəlman qəbirüstü memarlıq abidələrinə, türbələrə və s. Qarabağ bölgəsinin, demək olar ki, bütün ərazisində rast gəlmək olur.

Qarabağ bölgəsində olan qala tipli istehkamlardan biri Zəngəzur qəzasının Urud kəndindəki Urud qalasıdır. Yerli camaat bu qalanı "Babək qalası" adlandırırdı. Qalanın yuxarıdan görünüşü şimal-qərbə və cənub-şərqə doğru uzanan yəhər formasındadır. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Yalnız cənub-qərb tərəfdən qoşa hasar divarlarının qalıqları görünür. Hasar təşkil edən iri, yonulmamış bazalt daşlar gəc məhlulla hörülmüşdür. Urud qalasının Bazar çayına baxan divarında çaya doğru gedən yeraltı yolun qalıqları 1988-ci il qədər, yəni yerli Azərbaycan türklərinin qədim yurdlarından zorla çıxarılmasına qədər mövcud idi [165, 51].

XX əsrin əvvəllərində Qarabağ bölgəsində olan bu qalalardan biri də Mehri qalasıdır. Mehri qalası haqqında ilk dəfə hələ 1083-cü ildə məlumat verilmişdir. XVIII əsrdə qala tamamilə yenidən bərpa olunmuşdur. Qalanın 6 bürcü (dördü dairəvi, ikisi düzbucaqlı) Mehri şəhərinin "Böyük məhlə" deyilən hissəsinin şimalında dağın zirvələri üzərində nal formasında düzülərək, qəsəbəni dövrələmişdir. Qalanın divarları yonulmamış və hamarlanmamış qranit daşlardan gil palçıqla hörülmüşdür.

Belə qalalardan biri də Zəngəzurdakı analoqu olmayan müdafiə-istehkam xarakterli Oxçu qalasıdır. Bu qala Qafan rayonunda, Oxçu və Gığı çaylarının qovuşduğu yerin yaxınlığında, Novruzyurd adlı hündür bir təpəliyin üstündədir. Bu qala Zəngəzurun iki zirvəsini-Xustub və Gəzbel dağ zirvələrini bir-birindən ayıran, hərbi-strateji baxımdan çox əhəmiyyətli bir mövqedə yerləşmişdir. Qalanın inşa olunma tarixi VI-VII əsrlərə aid edilir. Oxçu qalası Zəngəzurdakı beş Babək qalasından biridir. Son vaxtlara kimi Oxçu qalasının 17 bürcü qalmaqda idi. Bəzi məlumatlara görə, Oxçu qalası uzun illər Sünikin mərkəzi kimi fəaliyyət göstərmişdir [97, 17].

Belə qala divarlarından Beyləqan şəhərində iki qala divarı olmuşdur. “Bunlardan biri şərti olaraq böyük şəhər, digəri isə kiçik şəhər adlanan əraziləri əhatə edirmiş. Bəzi qaynaqlara görə, “kiçik şəhərin müdafiə divarlarını” 1403-cü ildə Beyləqan ətrafında, Mil düzündə qışlayan zaman Əmir Teymur tikdirmişdir. Böyük şəhərin divarlarının uzunluğu 2410 m, kiçik şəhərin divarlarının uzunluğu isə 1525 m-dir... Divarların qalınlığı oturacaqda 6 m-ə, hündürlüyü bayır tərəfdən 5 m-ə çatmışdır” [53, 61-62].

Bu tipli tikilmiş şəhər qala divarlarından biri də Bərdə şəhərində “Torpaq qala”, xalq arasında “Nüşabə qalası” kimi tanınan qala divarlarıdır. Bu qala çay daşları və çiy kərpicdən tikilmişdir. Qalanın divarları 4-5 m hündürlükdə olubmuş [89, 163].

Yuxarıda təsvir etməyə çalışdığımış belə qalalardan Qarabağ ərazisində Xocavənddə, Qubadlıda, Füzulidə, Qafanda, Xocalıda (Əsgəran qalası, XVIII əsr) [120, 81], Kəlbəcərdə XIII-XIV əsrlər (Qanlıkənd kəndi, Lök qalası yaxınlığındakı meşədə), Qala 1284-cü il (Vəngli kəndi), Comərd qalası (Pirilər kəndi), Qalaboyun qalası (Qalaboyun kəndi), Uluxan qalası XVII əsr (Qaraxançallı kəndi), Xanabert qalası (Vəngli kəndi), Qala (Şaplar kəndi) və b. Qarabağ istehkam memarlığının abidələrindəndir [120, 103-104].

Digər qrupa daxil olan alban xristian abidələrindən biri Sisyan rayonunun mərkəzində hündür bir təpəlikdə tikilmişdir. VI-VII əsrlərdə inşa edilmiş bu monumental məbəd xristianlığın diofizit məzhəbinə biət edən albanların yaratdığı ən gözəl dini abidələrdən sayılır, bu məbəd qara yonulmuş bazalt daşdan tikildiyinə görə

Qarakilsə adlandırılmışdır. Maraqlıdır ki, son vaxtlara qədər Sisyan ermənilәri də bu məbədə Azərbaycan türklərinin dili ilə "Qarakilsə" deyirdilər. Tarixi mənbələrə görə, Qarakilsə məbədi xristianlıqdan əvvəl bu bölgədə mövcud olmuş bütpərəst məbədinin yerində tikilmişdir. Kilsənin o vaxtkı Sünik knyazı Kaozatın sifarişi və vəsaiti ilə tikildiyi söylənilir. Binanın içərisində divarda Kaozatın daş üzərində şəkli həkk olunmuşdur. Kaozatın dar, badamabənzər qıpçaq gözü adamın diqqətini cəlb edir. Maraqlıdır ki, Müqəddəs Teodorosun və onun yanında o vaxtkı Sünik yepiskopu Hovsepin şəkillərindəki sifət və göz quruluşu da qıpçaq tiplidir. Bu, ya Ağudi qəbirüstü abidəsinin doğrudan da, alban-türk mənşəli olduğunu, ya da memarın türk soylu olduğunu göstərən güclü bir detaldır. Məlumdur ki, o dövrdə Sünik kilsələri diofizit alban kilsələri qrupuna daxil idi və iyerarxiya baxımından Albaniya katolikosluğuna tabe idi. Qarakilsənin səkkiz guşə şəklində tikilməsi və dam örtüyünün qübbə şəkilli olması isə, ola bilsin ki, qədim türklərin tanrıçılıq kultu ilə bağlıdır [165, 51-52].

Alban xristian məbədlərindən Ağoğlan monastırı VIII-IX əsrə aid erkən xristian memarlıq abidələri içərisində bazilika məbəd tikinti üslubunda inşa edilmiş, qədim alban mədəniyyətinə aid qiymətli tarixi abidədir. Ağoğlan monastırı Laçın rayonunun Ağoğlan çayı yaxınlığındakı eyniadlı kənddə üçnefli bina quruluşunda tikilmiş, sütunlarla 3 hissəyə bölünmüş düzbucaqlı bazilika formasında məbəd kompleksidir. Məbədin iki sıralanan kvadrat şəkilli 8 dayaq sütunu binanın içərisini üç hissəyə bölür. Mərkəzi hissə kənar hissələrdən iki dəfə böyükdür. Binanın damı silindrik tağbəndlə örtülmüşdür. Geniş otaqlar isə iki yarusda düzəldilən ensiz pəncərələr ilə işıqlanır. Məbədin cənub divarında giriş qapısı, şimal divarında isə çıxış qapısı düzəldilmişdir. Məbədin divarları gəc ilə suvanmış, suvağın üzərində isə dini məzmunlu süjetlərin izləri qalmışdır. Bu möhtəşəm bina yerli bazalt daşından tikilmiş və ətraf təbiətə uyğunlaşdırılmışdır. Məbədin həyətində müxtəlif təyinatlı təsərrüfat və yaşayış tikililəri olmuşdur. Monastır kompleksi hasara alınmışdır [78, 8-9].

Şimali Azərbaycanın Qarabağ bölgəsinin Zəngəzur qəzasının Sisyan bölgəsində ən qədim azərbaycanlı kəndlərindən biri olan Ağudi kəndinin çıxacağında, Ağudi-Sisyan yolunun sol kənarında

nəhəng qəbirüstü abidə indiyədək qalmaqdadır. Bu qəbirüstü abidə ellin mədəniyyətinin ilkin xristianlıq dövrünə transformasiyasının ən unikal nümunələrindən biridir. Abidənin üzərində tarix yazılmasa da, onun VII əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Ağudi abidəsi üç pilləli, daha doğrusu, üç mərtəbəli quruluşa malikdir. Abidənin birinci mərtəbəsi geniş meydançanı xatırladır. Bu meydançanın altında iki giriş qapısı olan tağvari kiçik mağara diqqəti cəlb edir. Meydançanın ətrafında kiçik hasara alınmış, uçulub dağılmış qəbir yerlərinin nişanələri son vaxtlara kimi saxlanılmışdı. İkinci mərtəbə yanlarda dördbucaqlı şəkilli iki sütundan və ortada səkkizbucaqlı şəkilli bir sütundan ibarətdir. Hər iki kənar sütun tağvari hörgü vasitəsilə orta sütunla birləşmişdir. Abidənin üçüncü mərtəbəsi gözəl memarlıq quruluşuna malik üç sütundan ibarətdir [255, 52].

Alban xristian abidələrindən biri də Kəlbəcər rayonunun Vəng kəndində, Tərtər çayın sol sahilində yerləşən bazilika üslubunda inşa edilmiş və son dövrlərə qədər əsasən salamat qalmış Xudavəng kompleksidir. Bu kompleks orta əsrlər Azərbaycan Albaniyası memarlığının ən gözəl nümunələrindən biri olmaqla, X əsrdən XV əsrə qədər alban Xaçın knyazlığının xristian dini mərkəzi kimi fəaliyyət göstərmişdir. Məbədin ətrafında aparılan qazıntılar zamanı tapılmış keramika məmulatı abidənin VI-VII əsrlərdə inşa edildiyini söyləməyə imkan verir. Məbəd X-XIII əsrlərdə daha da genişləndirilmiş, kompleks halına salınmış və bir neçə dəfə təmir olunmuşdur. Alban knyazı Həsən Cəlalın oğlu Vaxtanqın hökmranlığı dövründə monastırın əsas kilsəsi tikilmişdi. Bu kilsənin inşası Vaxtanqın arvadı Arzu xatun tərəfindən 1214-cü ildə başa çatdırılmışdır. Kilsənin 2 barelyefi vardır. 1-ci barelyefdə Arzu xatunun əri knyaz Vaxtanqın, 2-ci barelyefdə isə onların oğullarının təsviri verilmişdir. Bu kompleks 500 ilə yaxın bir müddətdə Alban katalikosunun iqamətgahı və Albaniyanın mədəni-maarif mərkəzi kimi fəaliyyət göstərmişdir [78, 9-10].

İqrar Əliyev və Kamil Məmmədzadənin əsərində verilmiş bu məlumatla yanaşı tədqiqatçıların çoxu hesab edirlər ki, bu möhtəşəm kilsə Vaxtanqın oğlu Həsən Cəlalın dövründə tikilmişdi.

Belə alban xristian abidələrindən bir neçəsi Qarabağın mərkəzi Şuşada (Qazançı kilsəsi XIX əsr, Kilsə qalıqları – ?, Qız monastırı

XVIII əsr) yerləşir [120, 48-51].

Şimali Azərbaycanın Qarabağ bölgəsində islam dininə aid olan memarlıq abidələrinə əsasən məscidlər başda olmaqla müxtəlif qəbirüstü abidələr və çoxsaylı ziyarətgahlar daxildir. Bu memarlıq abidələrinin çoxu XIII-XIV əsrlərdə yaşamış məşhur memar, Qarabağ memarlığının banisi Əli Məcidəddin Qarabağinin əsərləridir. Görkəmli tədqiqatçı epiqraf, AMEA-nın müxbir üzvü mərhumə Məşədixanım Nemət XIII-XIV əsrlərdə yaşayıb, fəaliyyət göstərmiş, Avropanın qapısı olan Anadolunu Çin ilə birləşdirən, Araz boyu Azərbaycandan keçən qədim karvan-ticarət-ipək yolu üzərindəki Füzuli, Zəngilan, Cəbrayıl, Zəngəzur (Səlim keçidi) və Dərələyəzdə yerləşən memarlıq abidələrinin memarı Ə.Məcidəddinin adını onun müəllifi olduğu abidələrin üzərində oxumuş və birdəfəlik tarixə yazmışdır.

Bu abidələrdən biri də Zəngilanın Məmmədbəyli kəndindəki Yəhya İbn Məhəmməd (vəf. 1305-ci il) türbəsidir. Türbənin qapısı üzərində qoyulmuş kitabə ölçüsünə, formasına, həkk olunma texnikasına görə yuxarıda qeyd olunmuş karvansara kitabəsi ilə eynidir. M.Nemət müəyyənləşdirmişdir ki, Zəngilanın Məmmədbəyli kəndindəki türbədə böyük alim Yəhya bəy Hacı Məhəmməd dəfn olunmuşdur. Yazıda türbənin tikilmə tarixi (h.704/1305-ci il) və Qarabağ memarlıq məktəbinin banisi Ə.Məcidəddinin adı var [354, 32].

Orta əsrlər oğuz abidələrinə aid bir məqbərə də Mehri rayonunun Nüvədi kəndi yaxınlığındadır. Babahaci məqbərəsi Kamasi adlanan yaylaq yerində palıd meşəliyinin geniş talasında yerləşir [97, 75]. Məqbərənin hündürlüyü 3,5 metr, çevrəsinin diametri 6 metrdir. Məqbərənin içərisində yan-yana üç qəbir vardır. Ortadakı qəbirin üzərində qəbirüstü qoç heykəli abidəsi vardır. Məqbərə divarlarının və qəbirlərin heç birinin üzərində yazı və tarix yoxdur. Məqbərənin ətrafındakı köhnə qəbiristanlıqdakı ərəb əlifbası ilə yazılmış baş və sinə qəbir daşları buranın XV-XVI əsrlərə aid müsəlman qəbiristanlığı olduğunu göstərir. M.Nemət bu qəbirlərin 1525-1586-cı illərə aid olduğunu qəbirüstü yazıların ərəb əlifbasının süls xətti ilə yazıldığını, daşların üzərində Qurani-Kərimdən surələrin epitafiya kimi verildiyini qeyd edirdi [353, 74].

XIX əsrin sonu XX yüzilliyin əvvəllərində məscidlərə, demək

olar ki, bütün qəza mərkəzlərində və bir çox qəsəbə və kəndlərdə rast gəlinirdi: Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidi (1874), Cüma məscidi (1883), Saatlı (Səədli) məscidi (1883). Cəbrayıl qəzasında, Dədəli və Horadiz kəndlərində hələ XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmiş məscidlər. 1868-ci ildə yenə də həmin memar tərəfində tikilmiş Ağdam məscidini qeyd edə bilərik [402, 453, 455, 466].

Bu dini memarlıq abidələrində biri də Bərdə şəhərində 1322-ci ildə Əhməd ibn-Əyyub əl-Naxçıvani tərəfindən tikilmiş "Bərdə türbəsidir"... Abidə yeraltı sərdabədən, bayır diametri 10 m, hündürlüyü 13,5 m, dairəvi, silindrşəkilli gövdədən ibarət, üst hissəsində konusvari günbəzi olan məqbərədir [89, 162-163].

Bu türbə "aşağıdan silindr şəklində başlayan bina 2 m hündürlükdə 8,7 m-dək, yəni stalastik cərgəyə qədər onbucaqlıya çevrilir... Türbə yaşılımtıl mavi şirli bişmiş kərpicin kombinasiyasından hourlərək, bu kərpiclərlə 200 dəfədən çox "Allah" sözü yazılmışdır" [53, 63].

Belə abidələrdən biri də Ağdamın Papravənd kəndində tikilmiş türbədir. Türbənin planı XVI əsr Abşeron türbələrinin quruluşuna uyğun olub, günbəzli tikintilər qrupuna aiddir. Bu tipli türbəyə Beyləqanda Örənqala şəhər yerində rast gəlinmişdir [53, 63-66].

Ümumiyyətlə, Qarabağ ərazisində sayı 2000-dən artıq müxtəlif növ mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyətini epiqrafik abidələr təşkil edir. Qarabağ bölgəsinin Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisində vaxtilə xeyli miqdarda tikinti, qəbir və s. epiqrafik abidələr qeydə alınmış və tədqiq edilmişdir. Füzuli bölgəsində Şeyx Yaqubun (XII əsr) türbəsi, Qoçəhmədli Cümə məscidi, Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mirəli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Şeyx İbrahim türbəsi (XVII əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (h. 1307-ci il), Horadiz kəndindəki Cümə məscidi, Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Cəbrayıl rayonunda "Qız qalası", Cəbrayılın Şıxlar kəndində türbə (1308-ci il) və b. türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında oniki künclü türbə, Ağdam Cümə məscidi (1870), Ağdamın Abdal-

gülablı kəndindəki hamam binası (XX əsrin əvvəlləri), Şahbulaq məscidi, Bərdə şəhərindəki, Tərtər çayı üzərində oniki tağlı körpü (XIV əsr), "Bərdə", "Axsadan baba" türbələri (XIV əsr), Kərbəlayı Səfixan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşaminarəli "İmamzadə" məscid kompleksi (1868-ci il), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkizbucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarası, Culfalar məscidi, Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı Aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Soltan sarayı (1761-ci il) da tariximiz üçün qiymətli maddi mədəniyyət abidələridir. XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları ucaldılmış və həmin qalalarda bazarlar, karvansaralar, məscidlər, hamamlar və s. inşa edilmişdir. Ağdam yaxınlığında – İmarətlər-Qərvənddə Pənah xanın və onun nəslinin müxtəlif nümayəndələrinin qəbirləri üzərində müxtəlif formalı gümbəzlər tikilmişdir [120, 5-6].

Hələ XI-XII əsrlərdə memarlığın əsas istiqamətlərini əks etdirən Şirvan-Abşeron, Naxçıvan-Marağa məktəblərinin geniş inkişaf edib yayıldığı bir dövrdə Arran (Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafında mühüm rol oynamışdı.

Qarabağ ərazisində bu abidələrdən başqa ticarət məqsədləri üçün tikilmiş abidələr də mövcud idi və indi də mövcuddur. Belə abidələrdən biri Zəngəzur qəzasında tikilmiş "Səlim karvansarayı"dır. Anadoludan tutmuş Çinə qədər Arazboyu karvan-ticarət yolu-İpək yolu üzərində Qarabağ bölgəsinin Zəngəzur qəzasında Elxani Əbu Səid dövründə İpək yolu üzərində ticarət məqsədi üçün Səlim keçidi adlanan yerdə tikilən karvansaranı oğru erməni alimləri "erməni milli memarlıq abidəsi" kimi təqdim ediblər [354, 31-32].

Abidənin içərisində divara erməni dilində bir yazı qoyulub. Bu yazıda olan mətnlə qapının üzərinə hörülən yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci

ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazarev Universitetin müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki, "tatarlar" (yəni azərbaycan türkləri-B.H.) sonradan bu karvansaraya "Səlim" adı verib və ərəbcə yazını qapının üzərinə qoyublar. Halbuki ərəbcə yazı bina tikildiyi zaman qapının üzərinə hörülüb. Maraqlısı odur ki, ermənilərin çap etdikləri bukletdə də karvansara "Səlim karvansarası" adı ilə təqdim olunub [427].

Elxani hökmdarı Əbu Səidin dövründə Zəngəzur silsiləsinin Göyçə yaylasına keçdiyi yerində, Böyük İpək yolu üzərində tikilən karvansara o dövr Azərbaycan memarlıq sənətinin şah əsərlərindən biridir. M.Nemət "Səlim keçidi" deyilən dağ aşırımında tikilmiş bu karvansaranı 1961-ci ildə ətraflı tədqiq etmiş, karvansaranın girişindəki və içərisindəki kitabələri oxuyaraq onların elmi-tarixi izahını vermişdir. Səlim karvansarası Zəngəzurda Avropa qapısı olan Anadolunu Çin ilə birləşdirən, Araz boyu keçən İpək yolunun üzərində, dəniz səthindən 2410 m hündürlükdə tikilmişdir. Elxani Əbu Səid vaxtında (1316-1335) bu yol xeyli abadlaşdırılmışdır. Səlim keçidindəki "Səlim" adlanan karvansara da Əbu Səid Elxani vaxtında bina olunmuşdur. Karvansaranın giriş qapısı (1,80x1,13m) üzərindəki daşa (l,87x0,86m) fars dilində oyularaq həkk olunmuş kitabədə deyilir: "Bu abidənin üzərindəki kitabədə "Əbu Səid xan Bahadur – dünyanın sultanı, insanların padşahı, ərəblərin və ərəb olmayanların hökmdarı, bütün xalqların şahı, Allah onun hökmranlığını və sultanlığını əbədi etsin, vaxtında bina olundu. Xeyrat sahibi Çuşkyab ibn (oğlu) Ləvənd ibn ġah Nur ibn 729-cu il tarixdə" [353, 58-59].

Zəngəzurda orta əsrlər islam-türk maddi mədəniyyətinin ən əhəmiyyətli nümunələrindən biri hazırkı Gorus və Sisyan rayonlarının sərhədində, Gorus rayonunun Yaycı (1968-ci ildən Qarjis) kəndinin yaxınlığında yerləşən, 1319-cu ildə tikilmiş Sınıq karvansaradır. Bu karvansara (eləcə də Səlim karvansarası) Əbu Səidin vaxtında tikildiyindən bəzən "Əbu Səid karvansarası" da adlanır. Bu abidəyə "Sınıq karvansara" adı verilməsi isə çox güman ki, binanın "Г" şəkilli planda tikilməsi və onun eyvanının əzəmətli tağlarla qurulması, dəhlizin tunel formasında olması ilə bağlıdır [165, 54].

Bu dövrdə Azərbaycanın Qarabağ bölgəsindən keçən İpək yolu

üzərində bir sıra karvansara, körpü, xanəgahlar və s. tikilmişdir.

Qarabağ ərazisində tikilmiş körpülərin ən möhtəşəmi Cəbrayıl qəzasının Xudafərin və Qumlaq kəndləri arasında Araz çayı üzərində tikilmiş "Xudafərin" körpüləridir. Bu körpülərin biri on bir, digəri isə on beş aşırımlı körpülərdir. Araları 800 m olan belə iki möhtəşəm körpünün tikilməsi o dövrdə Qarabağ bölgəsinin mədəni və ticarət əlaqələrinin yüksək səviyyədə olmasının göstəricisidir. Dövrümüzə qədər gəlib çatmış on beş aşırımlı körpü XI əsrin (bəzi mənbələrdə VII əsrə aid edilir), on bir aşırımlı körpü isə XIII əsrin abidəsidir. Körpülərdən birincisinin uzunluğu 200 m, eni 4,5 m-dir. Bu körpü çay səviyyəsindən 12 m hündürlükdədir. İkinci körpünün uzunluğu 130 m, eni 6 m, çaydan hündürlüyü isə 12 m-dir [53, 75-76].

Belə körpülərdən biri Əmir Çoban Salduz Noyon tərəfindən tikdirilmiş, Arpa çayının Araza töküldüyü yerdə bir aşırımlı Sal körpüsüdür. Körpülər bu gün belə Sal (Salduz) və Çoban adını daşıyır. Elxanilər vaxtı həmin İpək yolu üzərində xeyli karvansara və xanəgah binaları tikilmişdir. Həmin xanəgahlardan Füzuli rayonunun Babı kəndindəki şeyx Babi Yəqub (vəf. h. 672-1273-74 il) xanəgahı, Zəngilan rayonunun Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd (vəf. h. 704-1305 il) türbəsi, Cəbrayıl rayonunun Şıxlar kəndində Şıx Baba (vəf. XIII-XIV) xanəgahı uzun əsrlər boyu geniş tanınılmışdır. [174, 13-16].

XX yüzilliyin ilk onilliklərində Şuşa şəhərində 4 karvansara fəaliyyət göstərmişdir. XIX əsrdə tikilmiş bu karvansaralar Məşədi Şükür Mirsahib oğlunun 1890-cı ildə Hacı Yusif məhəlləsində tikdiyi karvansara, Xanlıq Muxtar karvansarası, Ağa Qəhrəman Mirsahib-oğlu karvansarası və Səfərov karvansarası olmuşdur [402, 466].

Ticarət məqsədi ilə tikilmiş hamamları da dövrün memarlıq abidəsi kimi vurğulamaq olar. Cəbrayıl qəzasının Şıxlar kəndində VIII əsrdə tikilmiş Sultan Məcid hamamı, Cəbrayılda XIX əsrdə tikilmiş Sultan Allahverdi hamamı və b. bu qəbildəndir [402, 455]. Belə hamamlardan biri də XIX əsrdə Qarabulaq kəndində tikilmişdir [120, 152].

XX əsrin əvvəllərində Şuşa şəhərinin ərazisi müxtəlif abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədimi bina (daha doğrusu

orta əsrlər binaları-B.H.) ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən bəzədilmişdir.

Qarabağın özünəməxsus memarlığı XX yüzilliyin əvvəllərində də öz inkişafını davam etdirmişdir. Qarabağın mərkəzi Şuşada nadir memarlıq üslubunda tikilmiş əzəmətli abidələr, yaraşıqlı yaşayış binaları şəhərə xüsusi gözəllik bəxş edirdi. Şuşada şəhərsalma sahəsində əvəzsiz xidmətləri olmuş Memar Kərbəlayı Səfixan Qarabağinin (1788-1910) xidmətləri böyük idi. Bütövlükdə Qarabağ bölgəsi görkəmli memarların, xəttatların, nəqqaşların və istedadlı rəssamların vətəni kimi də məşhur olmuşdur. [154, 89, 91].

Müxtəlif qaynaqların məlumatlarına görə, məşhur memar Usta Qənbər Qarabaği və onun şagirdləri-qardaşı Səfər və oğlu Şükür abidələrin üzərində, müxtəlif sarayların salonlarında yüksək peşəkarlıqla divar rəsmləri çəkirdilər. Qənbər Qarabağinin və şagirdlərinin çəkdikləri rəsmləri Şuşa şəhərində XX əsrin əvvəllərində Avropa üsulu ilə tikilmiş Kərim bəy Mehmandarovun, Hacı Məmmədovun, İsgəndər Rüstəmovun və Səfibəyovun yaşayış evlərində-imarətlərində görmək olar [212, 113-116].

XIX əsrdə tikilmiş belə evlərdən Şuşa şəhərində Hacı Qulunun (1856-1859), Uğurlu bəyin (XIX), Zöhrabbəyovun (XIX), Camqarovun (1890) və b. yaşayış evlərini göstərmək olar [402, 466].

Memar Kərbəlayı Səfixan XIX əsrin 90-cı illərində Şuşada fəaliyyətə başlayan xəttatlar və memarlar məclisinə rəhbərlik etmiş, Şuşadakı əksər tikinti işlərinin layihələrini vermişdir. Kərbəlayı Səfixan 1788-ci ildə Təbrizdə, Əhər yaxınlığında anadan olmuşdur. 1850-ci ildə Şuşaya gəlmiş və ömrünün sonunadək burada yaşamışdır. Şuşada ailə həyatı quran Səfixanın bir qızı, 2 oğlu olmuşdur. Oğlanları Səfixanın işini davam etdirmişdilər. Qarabağ bölgəsində məscidlərin əksəriyyətinin tikilməsi Kərbəlayı Səfixanın adı ilə bağlıdır. Kərbəlayı Səfixan 1910-cu ildə 122 yaşında ikən Şuşanın Saatlı məscidini təmir edən zaman hündürlükdən yıxılaraq vəfat

etmişdir. Onun tikdiyi məscidlərdən biri Şuşanın mərkəzində yerləşən Yuxarı Gövhər ağa məscididir. Bu məscid həm Ağdam məscidinin, həm də Aşağı Gövhər ağa məscidinin konstruksiyasına uyğun şəkildə tikilmişdir. Bu dövrdə Şuşa şəhərində 17 məhəllə var idi. Kərbəlayı Səfixanın "daş qələminin izləri" təkcə məscidlərdə deyil, həm də ictimai binalarda və fərdi yaşayış evlərində də görünürdü. Xurşud banu Natəvanın, Gövhər ağanın, Bəhmən Mirzənin, Uğurlu bəyin, Mehmandarovun, Hacı Dadaşın, Hacı Bəşirin, Mirzəli bəyin və başqalarının saray tipli yaşayış binalarının inşası da Kərbəlayı Səfixanın adı ilə bağlıdır [154, 91-93]. Kərbəlayı Səfixan təkcə Şuşada deyil, Qarabağ bölgəsinin digər yerlərində-Bərdədə, Ağdamda, Qarabulaqda məscidlər, yaşayış binaları inşa etmişdir.

Hələ XIX əsrin ortalarında Şuşada olmuş rus səyyahlarından biri yazırdı ki, burada evlər hündür və gözəl olub çoxsaylı pəncərələrlə işıqlandırılır. Şəhər üzərində yerləşdiyi sıldırım qayalardan götürülmüş daşlardan tikilmişdir. Küçələr Avropa üslubuna uyğun olaraq hər yerdə yastı daşlarla döşənmişdi [135, 111].

Bir çox mütəxəssislərin və eləcə də buraya səyahətə gələnlərin fikrincə, Azərbaycanın Qarabağ bölgəsinin bir çox memarlıq abidələri Şərq memarlığının incilərindən sayıla bilən abidələrdir. Bu abidələr məhz bu ərazidə ən qədim zamanlardan yaşayan və bu mədəniyyəti formalaşdıran yerli, aborigen xalqın nümayəndələrinin təxəyyülü və fitri ustalığının, istedadının məhsuludur.

XX əsrin əvvəllərində Qarabağ bölgəmizdə memarlıqla yanaşı bənnalıq, heykəltəraşlıq, şəbəkəçilik, oymakarlıq, həkkaklıq kimi zərif usta əməyi tələb edən sənət sahələri də mövcud olmuşdur və bölgənin ustaları tərəfindən inkişaf etdirilmişdir. Qarabağ bölgəsində zəngin daş yataqlarının və karxanalarının olması daşişləmə sənətinin inkişafı üçün böyük, əlverişli zəmin rolu oynamışdı. Bu dövrdə Şuşada daşişləmə sənəti ilə məşğul olanların sayı 104 nəfərə çatmışdı. Aparılan tədqiqatlara əsasən, 1917-ci ildə təkcə Şuşa şəhərində 2983 ev var idi ki, bundan 2742-si daşdan tikilmişdi. Həmin məlumatlara görə, bu evlərdən 1185-i son 100 il ərzində tikilmişdir [152, 178].

Bəzi qaynaqların məlumatlarına görə, bəhs etdiyimiz dövrdə Qa-

rabağ bölgəsinin Şuşa şəhərində 18 memar, 16 nəqqaş, 100 nüsxəbənd, 19 xəttat qeydə alınmışdı [Bax:154, 93].

XX əsrin əvvəllərində Şuşa şəhərində mövcud olan və sonrakı tarixi mərhələdə dövlət tərəfindən qorunan 72 mühüm tarixi abidə olmuşdur ki, bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilmişdir. Bu dövrdə abidələrin üzərində Usta Qənbər Qarabaği, onun şagirdləri qardaşı Səfər, oğlu Şükür yüksək peşəkarlıqla divar rəsmləri çəkmişdilər. Bu rəsmlər Ermənistan Respublikasının Azərbaycanın Qarabağ ərazisini işğal etdiyi dövrədək, Şuşada Avropa üsulu ilə tikilmiş K.Mehmandarovun, H.Məmmədovun, İ.Rüstəmovun və Səfibəyovun yaşayış evlərinin salonlarında qalmaqda idi.

Milli memarlıq abidələri ilə zəngin olan və sabit memarlıq ənənələrinə malik Qarabağ bölgəsində Avropa memarlığı dərin kök sala bilməmiş, yerli üslublar arasında itib-batmışdı.

Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan dövlətinin hərbi birləşmələri tərəfindən işğal edilmiş Azərbaycanın Qarabağ ərazisindəki abidələr otuz ilə yaxın erməni işğalı dövründə erməni vandalları tərəfindən tamamilə dağıdılmışdır. Qarabağ bölgəsində qədim memarlıq üslubunda tikilmiş bu qiymətli abidələr Ermənistan dövlətinin vandalizm siyasətinin nəticəsində dağıdılmış, yandırılmış və yerlə yeksan edilmiş, Ağdam kimi unikal şəhər Qarabağın incisi dövrümüzün Xirosimasına çevrilmişdir.

Ancaq 2020-ci ilin 44 günlük zəfər müharibəsində erməni faşist-vandallarını darmadağın edib torpaqlarımızdan qovub çıxardıqdan sonra xalqımız, dövlətimiz Vətənimizin bu nadir incisini-Qarabağı bərpa edib dirçəltmək, onu əvvəlkindən də gözəl bir Gülüstana çevirmək üçün lazım olan hər şeyi edir və edəcəkdir. Qarabağ, onun bənzərsiz incisi olan Şuşa bu gün dünya mediyasının diqqət mərkəzində olan bir Azərbaycan şəhəri və bölgəsidir.

# NƏTİCƏ

Beləliklə, müxtəlif qaynaqlara və mövcud tarixşünaslıq materiallarına arxalanaraq aparılmış araşdırmalar bir daha bariz şəkildə göstərir ki, XX əsrin əvvəllərində Azərbaycanın üzvü tərkib hissəsi olan Qarabağ bölgəmiz çox mürəkkəb, çoxcəhətli, müxtəlif proseslərlə zəngin olan bir sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni bir həyat yaşamışdır. Romanovlar imperiyasının burada qurduğu ağır müstəmləkə rejimi şəraitində bütün Şimali Azərbaycan kimi onun əzəli tərkib hissəsi olan Qarabağ həm müstəmləkə əsarətinə qarşı, həm də çar adminstrasiyasının həvəslə dəstəklədiyi erməni fitnəkarlığına, aborigen türk-müsəlman əhalisinə qarşı vəhşi, naşükür ermənilərin törətdikləri soyqırıma məruz qalmışdı.

Buna baxmayaraq Qarabağın aborigen əhalisi olan Azərbaycan türkləri, bütün müsəlman əhalisi vətənin və xalqın yaşadığı bütün proseslərdə yaxından iştirak etmiş, milli ideyaların qorunub saxlanılması və zənginləşdirilməsində yaxından iştirak etmiş, Azərbaycan siyasətinə Ağaoğullar, Hacıbəyovlar, Çəmənzəminlilər kimi siyasət-mədəniyyət xadimlərini vermiş, milli mədəniyyətimizin, elmimizin inkişafında əvəzsiz rol oynamış, alimlər, ədiblər, çoxsaylı və bənzərsiz sənətkarlar yetişdirmişdir.

XIX əsrin əvvəllərindən etibarən Cənubi Qafqazın strateji cəhətdən əhəmiyyətini nəzərə alan böyük dövlətlər bu ərazilərin ələ keçirilməsi uğrunda mübarizənin yeni bir, daha fəal-təcavüzkar mərhələsinə qədəm qoymuşdular. Azərbaycanın quzey torpaqları, o cümlədən vətənimizin ən qədim bölgələrindən olan İrəvan, Naxçıvan və Qarabağ əraziləri XIX əsrin əvvəllərindən etibarən çar Rusiyası imperiyasının apardığı mənfur siyasətin qurbanına çevrilmişdir. Bu ərazilər Kiçik Qafqaz dağ silsiləsinin yüksəkliyində yerləşməklə bərabər çar Rusiyasının bu bölgə uğrunda rəqabət apardığı çox ehtiyat etdiyi Osmanlı və Qacarlar dövlətləri ilə sərhəddə yerləşirdi. Bu da “isti dənizlərə çıxmaq” siyasətinin reallaşdırmasını davam etdirmək xülyasından əl çəkməyən romanovlar rejiminin yeni işğalları

nəticəsində imperiyanın yeni əmələ gətirdiyi, Cənubi Qafqaz sərhədləri boyunca yerləşən Quzey Azərbaycana, onu İrəvan, Naxçıvan, Qarabağ və s. sərhəd bölgələrinə xüsusi diqqət yetirməyə vadar edirdi. Bu durum Azərbaycan torpaqlarının, xüsusilə İrəvan, Naxçıvan və Qarabağ bölgələrinin Rusiya imperiyası üçün strateji cəhətdən əhəmiyyətini daha da artırırdı. Bu baxımdan, XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyası İrəvan, Naxçıvan və Qarabağ ərazilərində yaşayan yerli türk-müsəlman əhalisinə ciddi şübhə ilə yanaşır, onlara etibar etmir, burada özünə ciddi xristian etnik dayaq yaratmaq yolları axtarır, bu ərazilərdən sıxışdırıb çıxarmaq istəyirdi. Çünki buradakı yerli əhali dini və etnik baxımdan, həm Qacarlar, həm də Osmanlı dövlətlərində sərhədboyu yaşayan əhali ilə mənşəcə, dilcə, dincə eyni əhali idi.

Bir çox uğursuz cəhdlərdən sonra çar Rusiyası bu problemi Osmanlı və Qacarlar dövlətlərinin ərazisindən erməniləri buraya köçürməklə həll etmək qərarına gəldi. Cənubi Qafqazda türk-müsəlman əhaliyə qarşı erməni təcavüzünün başlıca səbəblərindən biri də Rusiyanın Azərbaycan torpaqlarında xristian ermənilərdən ibarət özünə dayaq yaratmaqla Osmanlı və Qacarlar dövlətləri ilə özünün işğal edərək yaratdığı yeni cənub sərhədlərini möhkəmləndirmək planı ilə bağlı olmuşdur. Məhz bu səbəbdən XIX əsrin əvvəllərindəki rus-Qacarlar və rus-Osmanlı müharibələrindən sonra habelə bütün XIX əsr boyu müxtəlif məqamlarda çarizmin bu ölkələrdən xüsusilə də Osmanlıdan ermənilərin Azərbaycan torpaqlarına kütləvi köçürülməsinə həmişə böyük önəm vermişdi.

Müstəmləkəçi rejimi dövründə çarizm bütün Şimali Azərbaycanda olduğu kimi Qarabağda da dəfələrlə inzibati-ərazi idarəetməsində müxtəlif islahatlar aparmışdır. Məhz XIX əsr ərzində çarizmin həyata keçirdiyi inzibati-ərazi islahatlarından sonra, XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının tərkibindəki Qarabağ bölgəsinin inzibati-ərazi bölgüsü təxminən belə idi: Şuşa qəzası-(sahəsi 4911 kv.km), Zəngəzur qəzası-(3212,5 kv.km), Cavanşir qəzası-(5497 kv.km), Qaryagin (Cəbrayıl) qəzası- 3332 kv.km). Bütövlükdə Qarabağın ərazisi 16952,5 kv.km olmuşdur.

XIX əsr boyu davam edən kütləvi köçürmələrdən sonra, 1897-ci

ilin siyahıyaalmasına görə, Şimali Azərbaycanın Qarabağ bölgəsi əhalisinin sayı 416027 nəfərə bərabər idi. 1903-cü ildə Azərbaycanın Qarabağ bölgəsində 498218 nəfər, 1913-cü ildə-542229 nəfər, 1917-ci ildə isə 563962 nəfər yaşayırdı. Bütün XIX əsr ərzində kütləvi, planlı köçürmələr, 1877-1878-ci illər Krım müharibələri və XIX yüzilliyin 90-cı illərində Anadoludakı erməni qiyamlarından sonra baş vermiş çoxminli erməni köçləri nəticəsində Azərbaycanın bir çox digər bölgələrində olduğu kimi Qarabağda da ciddi demoqrafik dəyişikliklər baş vermiş, gəlmə erməni əhalisi mexaniki surətdə xeyli artmış, əksinə aborigen türk-müsəlman əhalisinin xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə məhdudlaşdırılmışdı. XX əsrin ilk illərində də ermənilərin köçürülməsi, Azərbaycan türklərinin sıxışdırılması və qırğınlara məruz qoyulması nəticəsində Qarabağda erməni əhalisinin sayı xeyli artmışdı. O dövrdə Qarabağ bölgəsinə minlərlə erməni yerləşdirilmişdi.

XIX-XX əsrin əvvəllərində Qarabağda demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişməsinin bir səbəbi onların regiona kütləvi şəkildə köçürülməsi olmuşdusa da, digər səbəbi isə böyük dövlətlərin, o cümlədən Rusiya hakim dairələrinin himayə etdiyi erməni terror dəstələrinin bu regionda Azərbaycan türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi kütləvi qırğınlar və soyqırımlar olmuşdur. XX əsrin əvvəllərində çarizmin müstəmləkəçilik siyasəti milli və siyasi oyanış dövrü yaşayan Qafqaz xalqlarında ciddi etirazlarla müşayiət olunurdu. Həmin dövrdə bu oyanışın qarşını almaq üçün rus imperializmi etnik münaqişə ocağı yaratmaqla öz ömrünü uzatmaq və bölgəni xristianlaşdırmaq siyasətini başa çatdırmaq istəyirdi.

Bu siyasətin nəticəsi olaraq, 1905-1906-cı illərdə Qarabağda erməni vəhşiliyi nəticəsində Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmi 75) müsəlman kəndi tamamilə dağıdıldı, on minlərlə dinc azərbaycanlı qəddarlıqla qətlə yetirildi.

Bu dövrdə Azərbaycanlı ziyalılar erməni zülmünə qarşı özünümüdafiə təşkilatları olan "Difai" və "Müdafiə" kimi təşkilatlar yaratdılar. Qarabağda ermənilərin törətdiyi vandalizmə qarşı 1906-cı ildə yaradılmış "Difai"nin, Qarabağ bölgəsində yaradılmış "Qarabağ

Birlik Məclisi" adlı yerli bölməsi ermənilərin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdikləri qanlı cinayətlərin qarşısının alınmasında türk-müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsində və ictimai-siyasi sabitliyin bərpa olunmasında mühüm rol oynadı.

Birinci dünya müharibəsində ABŞ, İngiltərə, Fransa ilə yanaşı, Rusiya da öz müstəmləkələrini qoruyub saxlamaq və yeni əraziləri ələ keçirmək məqsədini güdürdü. Bu işdə XIX əsrin ikinci yarısında Şərq məsələsinin tərkib hissəsi kimi ortaya atılan "erməni məsələsi" çarizmin öz işğalçı niyyətlərinə çatmaq üçün mühüm vasitələrdən biri idi. Hələ müharibədən əvvəl, 1912-ci ildə çar hökuməti guya ki, erməni dövləti yaratmaq barədə öz qəti mövqeyini ortaya qoymuşdu. Elə Antantanın digər üzvləri də yeri gəldikcə erməni kartından istifadə etmək imkanlarını əldən vermək fikrində deyildilər. Məsələn, təsadüfü deyil ki, 1918-ci ilin yayında Osmanlı qoşunları Kazım Qarabəkir paşanın komandanlığı altında Naxçıvana doğru irəliləməyə başladıqda Fransanın İrəvandakı nümayəndəsi Antanta bloku adından bildirmişdi ki, Antanta Naxçıvanda, Zəngəzurda və Qarabağda daşnakların hərbi əməliyyatına hər cür yardım göstərəcəkdir.

1905-1906-cı illərdə milli-etnik münasibətlər zəminində çarizmin həyata keçirdiyi mənfur imperialist siyasət 1918-ci ildə bolşeviklər tərəfindən davam etdirildi. 1918-ci ilin əvvəllərində bolşeviklər tərəfindən Azərbaycanda kütləvi qırğınlar törətmək üçün erməniləri kütləvi şəkildə silahlandırıldı, martın 11-dən 31-dək Bakıda 19-25 yaş arası bütün rus gəncləri səfərbərliyə alındı. Bu hərbi fəallıq Azərbaycan türklərinə qarşı 1918-ci il mart-may soyqırımları ilə nəticələndi.

Zəngəzur qəzasında 1917-ci ilin dekabrından 1918-ci ilin sentyabrınadək Andronik Ozanyan başda olmaqla ermənilər tərəfindən 115 müsəlman kəndi dağıdıldı, 10068 nəfər azərbaycanlı öldürüldü, sağ qalan əhali yurd-yuvalarından didərgin salındı. 1918-ci ilin mart-sentyabr aylarında Qarabağ bölgəsində ermənilər bütövlükdə 23118 nəfər dinc azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. 1918-ci ilin sentyabrından başlayaraq daşnaklar Qarabağın Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında 150 kəndi dağıdaraq, 13050 nəfəri qətlə yetirmişdilər.

Ümumiyyətlə, Cənubi Qafqazda ermənilərin törətdikləri soyqırımın miqyası görünməmiş dərəcədə dəhşətli idi: 1918-ci il avqustun 31-də keçirilmiş Beynəlxalq məhkəmədə ermənilər ötən bir il ərzində 400 min Azərbaycan türkünü, 120 min gürcünü, 22 min ləzgini, 15 min kürdü qətlə yetirdiklərini etiraf etmişdilər. Ayrı-ayrı erməni terrorçularının verdiyi ifadələrdən aydın olmuşdur ki, təkcə 1918-ci ildə Cənubi Qafqazda yarım milyondan çox – 557000 günahsız insan onlar tərəfindən məhv edilmişdir.

Ümumiyyətlə, 1914-1919-cu illərdə Qarabağın dağlıq hissəsində 150-dən artıq, Zəngəzur qəzasında 115 kənd bütövlüklə dağıdılmış, müsəlman əhalisinin xeyli hissəsi erməni terror dəstələri tərəfindən vəhşicəsinə qətlə yetirilmişdi. Bu qanlı hadisələr zamanı Zəngəzurdan təkcə Şuşa, Cəbrayıl və Cavanşir qəzalarına 50000 nəfər azərbaycanlı qaçqın sığınmışdı. 1918-ci ildə Azərbaycan hökuməti tərəfindən Qarabağ bölgəsinə gəlmiş 20 mindən artıq Zəngəzur qaçqınına 187500 manat vəsait ayrılmış, ermənilərin törətdiyi qırğınların qarşısını almaq üçün 1919-cu il yanvarın 15-də Xosrov bəy Sultanovun başçılığı ilə Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən ayrıca Qarabağ general-qubernatorluğu yaradılmışdı.

XX əsrin əvvəllərində bölgənin türk-müsəlman əhalisinə qarşı ermənilərin qanlı cinayətləri Qarabağ bölgəsinin iqtisadiyyatını çökdürmüş, burada fəaliyyət göstərən müəssisələrin işini, demək olar ki, tam iflic etmişdi. Bu dövrdə fabrik və zavodlarda çalışan işçilərin ağır vəziyyəti 1905-1907-ci illərdə işçi hərəkatının genişlənməsinin başlıca səbəblərindən biri olmuşdur. Bu hərəkat Qarabağdakı 30-dan çox zavod və fabriki əhatə etmişdi. 1905-ci il hadisələri zamanı Cavanşir və Cəbrayıl qəzalarında yerləşən 5 ipək emalı müəssisəsi öz işini tamamilə dayandırmış, işçilər öz işlərini buraxmağa məcbur olmuşdu.

Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində Qarabağ bölgəsində əkin sahələrinin əvvəlki illərdən fərqli olaraq müasir texniki avadanlıqlarla (dəmir kotan, traktor, taxıldöyən maşın və s.) daha intensiv becərilməsi, əmtəə-kapitalist münasibətlərin inkişaf müşahidə olunmuşdu. Qarabağ iqtisadiyyatında mühüm yer tutan taxılçılıq, ipəkçilik, pambıqçılıq, şərabçılıq sahələrində artıq XX əsrin əvvəllə-

rində təsərrüfatçılığın, istehsalatın təşkilinin səhmdar cəmiyyətlər kimi forması geniş yayılmağa başlamışdı. Lakin müəssisələrin böyük bir qisminin əsasən çarizmin qəzalardakı yüksək rütbəli məmurlarının əlində cəmləşməsi azərbaycanlı əhalinin həyat tərzini çətinləşdirirdi. Əhali bu dözülməz vəziyyətdən yaxa qurtarmaq üçün öz doğma ata-baba yurdunu tərk etməyə başlayırdı ki, bu da regionda həm demoqrafik vəziyyətə öz təsirini göstərir, həm də kənd təsərrüfatının tənəzzülünə səbəb olurdu.

XX əsrin əvvəllərində çar hökuməti tərəfindən inzibati ərazi bölgüsü, təhsil və kənd təsərrüfatı sahəsində həyata keçirilmiş islahatlar heç də yerli əhalinin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməmişdi. Əksinə, bu islahatlar çarizmin öz müstəmləkəçi siyasi-iqtisadi maraqlarına uyğun idi. İslahatlar Qarabağın zəngin təbii sərvətlərini talamaqla Rusiya bazarlarının ucuz məhsullarla təmin edilməsinə və rahat gəlir əldə olunmasına, çar xəzinəsinin doldurulmasına xidmət edirdi.

Haqqında danışdığımız tarixi mərhələdə Qarabağ bölgəsinin sosial-iqtisadi və siyasi həyatı ilə yanaşı mədəni həyatda da müəyyən dəyişikliklər, təkamül nəzərə çarpırdı. Xalqın milli şüurunun oyanması və milli ideologiyasının formalaşmasında Qarabağ şairlərinin, alimlərinin, musiqiçilərinin və xaricdə təhsil almış istedadlı gənclərin rolu böyük idi.

Qarabağ XX əsrin əvvəllərində dünya ədəbiyyatına N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, Y.Çəmənzəminli, F.Köçərli kimi görkəmli ədiblər, musiqi tarixinə isə Ü.Hacıbəyov kimi dahi bəstəkar, milli memarlıq irsinə Ə.M.Qarabaği və Kərbəlayi Səfixan kimi memarlar bəxş etmişdir.

Qarabağın həmin dövr memarlıq abidələri Şərq memarlığının inciləri sırasında yer almış abidələrdir. Regionda bənnalıq, heykəltəraşlıq, şəbəkəçilik, oymakarlıq, həkkaklıq kimi zərif usta əməyi tələb edən sənət sahələri də inkişafda idi. Şuşa və onun ətrafında zəngin daş yataqlarının və karxanalarının olması daşişləmə sənətinin inkişafına böyük təkan vermişdi. 1917-ci ildə Şuşada olan 2983 evdən, 1185-i son bir əsrdə olmaqla, 2742-si daşdan tikilmişdi.

Qeyd etmək lazımdır ki, Ermənistan dövlətinin hərbi birləşmələri

